**MİRZƏ FƏTƏLİ AXUNDZADƏ**

# ƏSƏRLƏRİ

**ÜÇ CİLDDƏ**

**I CİLD**

"ŞƏRQ-QƏRB"
BAKI–2005

*Bu kitab “**Mirzə Fətəli Axundov.** Əsərləri. Üç cilddə. I cild”*
*(Bakı, Elm, 1987) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni, ön sözün
və izahların müəllifi: **Nadir Məmmədov**

**894.3613 - dc 21**
**AZE**
**Axundzadə Mirzə Fətəli. Əsərləri.** Üç cilddə. I cild. Bakı, “Şərq-Qərb”, 2005, 296 səh.

Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, bütövlükdə mənəvi mədəniyyətimizin bütün sahələrində “yeni dövr”ün banisi olan böyük ədib, alim və filosof Mirzə Fətəli Axundzadənin zəngin və çoxcəhətli yaradıcılığı ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir.

Milli ədəbiyyatın taleyinə və tarixinə təsir baxımından məhz bir maarifçi olaraq onun gördüyü işin hüdudları XII əsrdə Nizami, XVI əsrdə Füzuli dühasının miqyasları ilə müqayisə oluna bilər. Lakin tarixi inkişafın yeni mərhələsinə uyğun olaraq Axundzadə doğma ədəbiyyatın qarşısında duran vəzifələrə böyük bəşəri vüsətlə yanaşı daha fərdi və milli bir konkretlik də gətiribdir.

Əsərlərinin I cildinə mütəfəkkir sənətkarın bədii irsi – 1850-1855-ci illər arasında yazdığı altı komediya, həmçinin 1856-cı ildə qələmə aldığı “Aldanmış kəvakib” povesti və eləcə də şeirləri daxil edilmişdir.

**ISBN 9952-418-73-3**

© “ŞƏRQ-QƏRB”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# M.F.AXUNDZADƏNİN HƏYATI VƏ BƏDİİ YARADICILIĞI

Mirzə Fətəli Axundzadə (1812-1878) mütərəqqi Azərbaycan mədəniyyətinin, ictimai-siyasi, fəlsəfi, etik və ədəbi-tənqidi, fikrinin ən görkəmli nümayəndələrindən biridir. Nadir istedada, dərin tənqidi ağıla, iti müşahidə qabiliyyətinə, geniş erudisiyaya, böyük əzmə malik olan Mirzə Fətəli qırx ilin ərzində çox qızğın, müntəzəm və olduqca mənalı fəaliyyət göstərmiş, zəngin və rəngarəng irs yaratmışdır. O, istedadlı şair, Azərbaycan dramaturgiyasının banisi, görkəmli nasir, realist ədəbiyyatın qüdrətli nümayəndəsidir. Fəlsəfi, ictimai-siyasi və estetik fikrimizin inkişafında da M.F.Axundzadənin böyük xidməti və rolu olmuşdur. O, yalnız Azərbaycanda deyil, eyni zamanda Yaxın Şərq ölkələrində də maarifçilik hərəkatının görkəmli ideoloqu və nümayəndəsi, ateist-materialist filosof, böyük ictimai xadim kimi tanınmış, şöhrət tapmışdır.

Öz çoxcəhətli yaradıcılığının ictimai məzmunu, ideya istiqaməti və pafosu baxımından dünya maarifçi yazıçı və mütəfəkkirləri sırasına mənsub olan M.F.Axundzadə əsərlərində feodal-patriarxal üsuli-idarəsi və qayda-qanunlarına, zülm və özbaşınalığa, ədalətsizlik və qanunsuzluğa, nadanlıq, dini fanatizm və ətalətə qarşı çıxmış, doğma xalqının və ümumən Şərq xalqlarının milli intibahı, iqtisadi-mədəni tərəqqisi, zəhmətkeş kütlələrin azad və xoşbəxt həyatı uğrunda fəal mübarizə aparmışdır.

**Həyatı.** M.F.Axundzadə 1812-ci ildə (ay və gün məlum deyildir) Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. Onun atası Təbriz vilayətinin Xamnə qəsəbəsindən, anası isə Şəkidəndir. Ata tərəfdən Fətəli əyalət hakimləri nəslinə mənsub idi. Babası Hacı Əhməd, onun vəfatından sonra isə atası Mirzə Məmmədtağı uzun illər Xamnə qəsəbəsinin və onun yaxınlığında olan bir sıra kəndlərin hakimi – kəndxudası olubdur. XIX əsrin ilk onilliyində Mirzə Məmmədtağı ilə Cənubi Azərbaycanın ali hakim dairələri arasında ciddi ixtilaf baş vermişdi. Bunun nəticəsində o, vəzifəsindən azad edilmiş və 12 min tümən məbləğində var-dövləti müsadirə olunmuşdu. Ağır iqtisadi və mənəvi məhrumiyyətlərə düçar olan Məmmədtağı təxminən həmin onilliyin sonlarında ailəsini Xamnədə qoyub Şəkiyə gəlir və burada ticarətlə məşğul olur. O, təxminən 1810-1811-ci illərdə Nuxanın tanınmış ruhanilərindən olan və Şəki xanlarının himayəsi altında yaşayan Axund Hacı Ələsgərin qardaşı qızı Nanə xanımla evlənir.* Bir ildən sonra Fətəli anadan

* Nanə xanımın valideynləri və onun qardaş-bacısı olub-olmaması haqqında əlimizdə heç bir məlumat yoxdur. Çox güman ki, Nanə xanım kiçik yaşlarında ata-anasını itirmiş və ailədə yeganə övlad olmuşdur. Ata-anasını itirdikdən sonra, əmisi Hacı Ələsgərin himayəsi altında yaşamışdır.

olur. 1814-cü ildə Mirzə Məmmədtağı yeni ailəsi ilə birlikdə Xamnəyə qayıdır. Lakin burada Nanə xanımla Mirzə Məmmədtağının ilk arvadı arasında daim didişmə, dedi-qodu baş verdiyi üçün gənc qadının vəziyyəti çox ağır keçirdi. Mirzə Fətəli "Tərcümeyihal"ında yazır ki, anası Xamnədə dörd il məşəqqətli həyat sürdükdən sonra ərindən ayrılıb öz kiçik oğlu ilə birlikdə Cənubi Azərbaycanın Qaradağ vilayətinin Horand kəndində yaşayan əmisi Hacı Ələsgərin yanına köçür. Bu vaxtdan etibarən Fətəli Hacı Ələsgərin himayəsi altına keçir və o, el arasında "Hacı Ələsgərin oğlu" kimi tanınır.

Mirzə Fətəli ilk təhsilə hələ Xamnədə – mollaxanada başlamışdır. Lakin o, köhnə tədris üsulunun sərt, dözülməz qayda-qanunlarına tab gətirməyib, məktəbdən qaçmışdı. Hacı Ələsgər kiçik Fətəlinin istedadlı bir uşaq olduğunu görüb, onun təhsil və tərbiyəsi ilə şəxsən özü məşğul olmağa başlayır. Hacı Ələsgər öz dövrünün savadlı, gözüaçıq, alicənab və böyük hörmət, nüfuz sahibi olan ruhanilərdən biri idi. Mirzə Fətəli "Tərcümeyi-hal"ında onu "istər farsca və istərsə də ərəbcə bütün islami elmlər" sahəsində mükəmməl məlumatı olan "nadir bir alim" (M.F.Axundzadə. Əsərləri, III cild, Bakı, 1962, s. 418) kimi təqdim edirdi. Axund Hacı Ələsgər kiçik Fətəliyə dini təhsil verir, fars və ərəb dillərini öyrədir, Şərq ədəbiyyatı klassiklərinin əsərləri ilə tanış etməyə başlayır.

M.F.Axundzadə on üç yaşınadək Cənubi Azərbaycanın Qaradağ vilayətində əvvəl Horand kəndində, sonra isə Unküt elinin Vəlibəyli obasında yaşayır. 1825-ci ildə Hacı Ələsgər ailəsi ilə birlikdə Gəncə şəhərinə köçür. Bir il sonra Rusiya ilə İran arasında baş verən müharibə vaxtı (1826-1828) Gəncə dağıdılır, onun əhalisinin var-dövləti tar-mar edilir. Axund Hacı Ələsgər də bu müharibədə böyük ziyan çəkir, tam müflis bir hala düşür. Mirzə Fətəli "Tərcumeyi-hal"ında atalığına üz vermiş bu bəlanı belə təsvir edirdi: "Bu müharibədə Axund Hacı Ələsgərə və onun ailəsinə üz verən müsibətlər, düçar olduqları bəlalar, Gəncə qalasında qarət edilərək, bütün mal və əşyalaraından məhrum və müflis olmaları kitab və dəftərə sığmazdır" (III cild, s.418).

Həmin ildə Axund Hacı Ələsgər Şəkiyə qayıdır, Fətəlinin təhsilinə böyük diqqət və qayğı göstərmiş, onun fars, ərəb dilləri və müxtəlif elmlər sahəsində biliklərini olduqca təkmilləşdirmişdi.

1832-ci ilin əvvəllərində Axund Hacı Ələsgər Məkkə ziyarətinə gedərkən Fətəlini Gəncəyə gətirib, Şah Abbas məscidi yanındakı mədrəsəyə qoyur. M.F.Axundzadə burada Molla Hüseyn Pişnəmazzadədən məntiq və fiqh dərsi alır, məşhur Azərbaycan şairi M.Ş.Vazehdən isə xəttatlıq öyrənir. Tezliklə Mirzə Şəfi ilə şagirdi arasında yaxın dostluq əlaqəsi yaranır. Öz tələbəsinin nadir istedada və ağıla mənsub bir gənc olduğunu görüb, M.Ş.Vazeh onunla açıq söhbət aparır, Fətəliyə dini-sxolastik təhsilin "puçluğunu" və gərəksizliyini açıb göstərir, ruhanilərin "riyakar və şarlatan" adam-

lardan ibarət olduğunu söyləyir. Mirzə Fətəli "Tərcümeyi-hal"ında yazır ki, M. Şəfi ilə aparılan söhbətlərin təsiri altında onun "gözlərindən qəflət pərdəsi götürülür" və o, ruhani olmaq fikrindən birdəfəlik əl çəkib, ömrünü dünyəvi elmləri öyrənməyə həsr etmək qərarına gəlir.

M.F.Axundzadə 1833-cü ildə Şəkidə ibtidai rus məktəbinə daxil olub, rus dilini öyrənməyə başlayır. Lakin yaşının çoxluğuna görə bir ildən sonra buranı tərk etmək məcburiyyətində qalır.

1834-cü ildə Axund Hacı Ələsgər öz oğulluğunu Tiflisə gətirib Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi vəzifəsinə düzəldir.* Rus dilini bir qədər öyrəndikdən sonra Mirzə Fətəli mütərcim vəzifəsinə keçirilir. Həmin ildən ta ömrünün sonuna qədər baş dəftərxanada əvvəl mülki, sonralar həm də hərbi işlər üzrə mütərcim vəzifəsində çalışan M.F.Axundzadə Rusiya ilə İran, Rusiya ilə Türkuiyə dövlətləri arasında aparılan bir sıra mühüm diplomatik danışıqlarda fəal iştirak etmiş, Zaqafqaziya daxilində hökümətin bəzi vacib dövlət tədbirlərinə cəlb olunmuşdur.

O, dövlət xidmətində sürətlə irəli getmişdir; ona 1842-ci ildə praporşik, 1846-cı ildə podporuçik, 1850-ci ildə poruçik, 1852-ci ildə ştabs-kapitan, 1854-cü ildə podpolkovnik, 1873-cü ildə isə polkovnik rütbəsi verilmiş, Rusiya, İran və Türkiyə dövlətləri tərəfindən bir sıra orden və medallarla təltif olunmuşdur.

Mirzə Fətəli Tiflisdə mənalı və gözəl bir ədəbi-mədəni mühitə düşür; 30-40-cı illərdə görkəmli Azərbaycan yazıçıları A.Bakıxanov, İ.Qutqaşınlı, M.Ş.Vazeh və Q.Zakirlə, gürcü dramaturgiyasının banisi Georgi Eristavi, Qafqazda sürgündə olan dekabrist yazıçı A.A.Bestujev-Marlinski, polyak inqilabçısı Tedeuş Lado-Zablotski, 50-60-cı illərdə isə məşhur rus şairi Polonski, görkəmli rus şərqşünasları Xanıkov, A.Berje və başqa ziyalılarla yaxından tanış olur, qarşılıqlı dostluq əlaqəsi yaradır. Bu tanışlıq və əlaqələr

---

* Fətəli dövlət xidmətinə daxil olduqda şəxsi işində ad və familiyasını "Мирза Феть-Али Ахундов" kimi göstərmişdir. Məlumdur ki, 1920-ci illərə qədər Azərbaycanda müəyyən savadı olan və yazı-pozu, kargüzarlıq işi ilə məşğul olan hər bir adamı Mirzə adlandırar və bu sözü onun adının əvvəlinə əlavə edərdilər. Fətəlinin öz adının qabağına Mirzə sözünü əlavə etməsi də bununla bağlıdır. Çox güman ki, anasının əmisi Axund Hacı Ələsgərə dərin hörmət əlaməti olaraq o, axund sözündən də özünə Axundzadə familiyası götürmüşdür. Bu vaxtdan etibarən bir qayda olaraq, rusca olan bütün rəsmi sənədlərdə onun adı və familiyası "Мирза Феть-Али Ахундов" kimi verilmişdir. O, rus dilində dərc etdirdiyi ayrı-ayrı əsərlərində və 1853-cü ildə Tiflisdə nəşr olunan "Komediyalar" məcmuəsində də bu ad və familiyanı tam göstərmişdir. Azərbaycan və fars dilində bütün mənbələrdə isə o öz ad və familiyasını Mirzə Fətəli Axundov və Mirzə Fətəli Axundzadə kimi yazmışdır.

də M.F.Axundzadənin dünya görüşünün, maraq və bilik dairəsinin, ədəbi-elmi fəaliyyətinin inkişafına qüvvətli təsir göstərir.

M.F.Axundzadə Tiflisdə öz bilik dairəsini genişləndirməyə xüsusi diqqət yetirmiş, böyük həvəs, qızğın ehtirasla və ardıcıl sürətdə dünya mədəniyyətinin nailiyyətlərinə yiyələnmişdi. O, klassik Azərbaycan və Şərq ədəbiyyatı, fəlsəfi fikri sahəsində biliklərini təkmilləşdirmiş, hind çarvakları, Firdovsi, Nizami, Rumi, Hafiz, Cami, Sədi, Əla-Zikrihiəssəlam, İbn Sina, Şeyx Mahmud Şəbüstəri, Vaqif, Vazeh, Zakir və A.Bakıxanovun yaradıcılığına dərindən bələd olmuşdur. Mirzə Fətəli eyni zamanda rus ədəbi və ictimai fikrinin görkəmli nümayəndələrinin – Lomonosov, Derjavin, Karamzin, Qriboyedov, Puşkin, Lermontov, Qoqol, Belinski, Çernışevski, Dobrolyubov və başqa rus yazıçıları, tənqidçiləri və mütəfəkkirlərinin əsərləri ilə tanış olmuş, rus mədəniyyətinin mütərəqqi ideyalarına yiyələnmişdi. O, rus dili vasitəsilə Qərbi Avropa ədəbi, ictimai-siyasi, fəlsəfi və elmi fikri sahəsində geniş, hərtərəfli və mükəmməl məlumat əldə etmişdir. M.F.Axundzadə əsərlərində Homer, Heraklit, Sokrat, Platon, Aristotel və Ksenofonun adlarını çəkmiş, Petrarka, Rotterdamlı Erazm, Spinoza, Volter, Monteskyö, Russo, Holbax, Renan kimi görkəmli yazıçı və mütəfəkkirlər haqqında mülahizələr söyləmişdir. Onun şəxsi kitabxanasında məşhur Avropa tarixçiləri, sosioloqları və təbiətşünaslarından Boklun "İngiltərədə sivilizasiyanın tarixi", Bartunun "Hindistan İngiltərənin hakimiyyəti altında", Minyenin "Fransız inqilabının tarixi", Qizonun "Fransada sivilizasiyanın tarixi", Dreperin "Avropanın əqli inkişafı tarixi", D.C.Lebekin "Sivilizasiyanın mənşəi və ibtidai insanın səciyyəsi", C.S.Millin "Siyasi iqtisadın əsasları", K.F.Neymanın "Amerika birləşmiş Ştatlarının tarixi", A.Tyerin "Fransada konsulluq və imperiyanın tarixi", C.L.Lyusin ikicildlik "Yunan dövründən müasir dövrə qədər fəlsəfə tarixi", Ç.Darvinin, T.Q.Hekslinin, M.Faradeyin, Şleydenin, Simmermanın əsərləri saxlanılır.

Şəksiz, M.F.Axundzadənin həm Şərq, həm rus, həm də Qərbi Avropa ədəbi, fəlsəfi və elmi fikri sahəsində məlumat və biliyi adlarını çəkdiyimiz yazıçı, mütəfəkkir və alimlərlə məhdudlaşmır. Ümumən, o, dünya ədəbi, fəlsəfi və ictimai fikir tarixinə dərindən bələd olan, onun mütərəqqi ideyalarına mükəmməl yiyələnən bir ziyalı olmuşdur. Lakin yeri gəlmişkən bir məsələni də xüsusi qeyd etməyi lazım bilirik ki, Mirzə Fətəli dünya mədəniyyətinin mütərəqqi ənənələrindən tənqidi, yaradıcı sürətdə istifadə etmiş və sözün həqiqi mənasında orijinal, müstəqil, böyük bir realist yazıçı və ateist-materialist mütəfəkkir olmuşdur.

M.F.Axundzadə dövlət qulluğunda çalışmaqla bərabər, 1836-1840-cı illər arasında Tiflis rus qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləmişdir.

M.F.Axundzadə 1844-cü ildə M.Ş.Vazehlə birlikdə nəşriyyat yaratmaq təşəbbüsündə olmuş, bu barədə Qafqazın baş hakimi Qolovinə müraciətlər təqdim etmişdir. Lakin onların bu işi uğurla nəticələnməmişdir.

1845-ci ildə Tiflisdə rus teatrı təşkil olunur və burada Qərbi Avropa və rus dramaturqlarının əsərləri, o cümlədən Şekspirin, Molyerin, Qoqolun, Ostrovskinin pyesləri tamaşaya qoyulur. Tiflis rus teatrında tamaşaya qoyulan pyeslərlə, eləcə də şəxsi mütaliə yolu ilə dünya və rus dramaturgiyasının görkəmli nümayəndələrinin əsərləri ilə tanışlıq sayəsində M.F.Axundzadədə dramaturgiyaya və teatra qızğın məhəbbət hissi oyanır. Doğma xalqını orta əsr feodal dünyasının bəlalarından, nadanlıq və cəhalət bataqlığından xilas etmək, ictimai-siyasi şüurunu oyatmaq, mədəni xalqlar səviyyəsinə çatdırmaq üçün teatr və dramaturgiyanı çox münasib və təsirli bir vasitə hesab edən Mirzə Fətəli 1850-1855-ci illər arasında bir-birinin ardınca altı orijinal, yüksək ideya-bədii xüsusiyyətlərlə səciyyələnən komediya yazır və beləliklə, yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə dramaturgiyanın əsasını qoyur, 1857-ci ildə isə o, məşhur "Aldanmış kəvakib" povestini qələmə almışdır.

M.F.Axundzadə "Кавказ" qəzetində fəal əməkdaşlıq etmiş, burada öz komediyalarını, Krım müharibəsində olarkən yazdığı "Zakirə məktub" şerini, "Bağdad yaxınlığında Türkiyə ordusunun vəziyyəti" adlı tarixi məqaləsini, "Aldanmış kəvakib" povestini və bir neçə tərcüməsini dərc etdirmişdir.

1851-ci ilin martında Mirzə Fətəli Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü seçilmiş, görkəmli şərqşünas Adolf Berjenin rəhbərliyi altında hazırlanan "Qafqaz arxeoqrafiya komitəsinin aktları" məcmuələrinin əsas tərtibçi və tərcüməçilərindən biri olmuşdur. 1853-cü ildə isə komediyalarını rus dilində, 1859-cu ildə isə komediyalarını və "Aldanmış kəvakib" povestini "Fehristi-kitab" adlı müqəddimə ilə birlikdə "Təmsilat" başlığı altında Qafqaz canişinliyinin nəşriyyatında bir kitab halında nəşr etdirmişdir.

1857-ci ildə M.F.Axundzadə ərəb əlifbası əsasında yeni əlifba tərtib edib, həmin əlifba layihəsini dövrünün məşhur dilşünas alimlərinə, şərqşünaslarına, həmçinin İran və Türkiyənin dövlət başçılarına göndərir, əlifba islahatı uğrunda fəal mübarizə aparmağa başlayır. Bu məqsədlə o, 1863-cü ildə İstambula gedib, layihəni Türkiyənin baş naziri Fuad paşaya təqdim etmişdi. Layihə baş nazirin göstərişi ilə "Cəmiyyəti-Elmiyeyi-Osmaniyyə"də müzakirə olunmuşdur. Cəmiyyətin üzvləri M.F.Axundzadənin təşəbbüsünü təqdir etsələr də, konkret heç bir tədbir görməmişdilər. Bu işdə ona hamıdan çox İranın Türkiyədəki baş səfiri Mirzə Hüseyn xan ciddi mane olmuşdu. O, türk ictimaiyyəti arasında Mirzə Fətəlini müsəlman xalqlarının bədxahı, islam dininin düşməni kimi qələmə verərək hörmətdən salmışdı. Türkiyədən Axundzadə çox peşman, onun öz sözləri ilə demiş olsaq, "min kədər və təəssüflə" qayıtmışdı. Lakin bu uğursuzluq onu ruhdan salmamış, əzmindən dön-

dərməmişdi. Əksinə, M.F.Axundzadə bu sahədəki fəaliyyətini daha böyük səy və ehtirasla davam etdirərək, ərəb əlifbası əsasında ikinci bir layihə hazırlamış, ən nəhayət isə, ərəb əlifbasından tam əl çəkib, latın əlifbası qrafikası əsasında yeni bir layihə tərtib etmişdi. Ömrünün sonuna qədər o, ərəb əlifbasının islahı uğrunda ardıcıl və fəal mübarizə aparsa da, onun bu gözəl təşəbbüsü İran və Türkiyənin hakim dairələrinin biganəliyi və məhdudluğu üzündən həyata keçirilməmişdi.

Müsəlman xalqlarının iqtisadi-mədəni intibahı və yeni əlifba uğrunda aparılan mübarizənin heç bir müsbət nəticə verməməsi M.F.Axundzadədə Şərqin despot hakimlərinə və mürtəce ruhanilərinə qarşı kəskin nifrət hissi doğurur. İstambuldan qayıtdıqdan sonra o, Şərq feodal üsuli-idarəsinin, islam dininin əsasını sarsıtmaq, müsəlman Şərqində "fanatizmi aradan qaldırmaq", "Asiya xalqlarını nadanlıq və qəflət yuxusundan oyatmaq" və iqtisadi-mədəni tərəqqi yoluna salmaq məqsədilə 1863-1865-ci illərdə məşhur "Kəmalüddövlə məktubları" fəlsəfi traktatını yazır. Bir qədər sonra o, "Kəmalüddövlə məktubları"nı yaxın dostu, İranın qabaqcıl ziyalısı Mirzə Yusif xanla birlikdə fars dilinə, 1874-cü ildə isə, uzun illər dostluq və əməkdaşlıq etdiyi rus şərqşünası Adolf Berje ilə birlikdə rus dilinə tərcümə edir. M.F.Axundzadə öz fəlsəfi traktatını Peterburqda, Parisdə nəşr etdirmək uğrunda fəal və müntəzəm mübarizə aparmışdır. Lakin onun bu səyi və gərgin əməyi də uğurla nəticələnməmişdi.

Keçən əsrin 60-70-ci illərində Mirzə Fətəli Azərbaycanın, İran və Türkiyənin mütərəqqi ziyalıları – Mirzə Melkum xan, Cəlaləddin Mirzə, Mirzə Yusif xan, Əli xan, Mirzə Məmməd Cəfər, Həsən bəy Zərdabi, Hind yazıçısı və alimi Manekçi-Limci Sahib ilə yaxın dostluq əlaqəsi yaratmış, onları öz mütərəqqi görüşləri ilə tanış etmiş və Yaxın Şərqdə görkəmli yazıçı, maarifçi-demokrat ideoloq və ictimai xadim kimi dərin hörmət və geniş şöhrət qazanmışdır.

Mirzə Fətəli 1842-ci ildə Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmişdi. O, gözəl bir ailə qursa da, ailə həyatı çox da uğurlu olmamışdır. Onun on üç övladından yalnız ikisi – oğlu Rəşid və qızı Nisə uzun müddət ömür sürmüş, qalanları isə uşaq və gənc yaşlarında ikən vəfat etmişdir. M.F.Axundzadə hər iki övladının təlim-tərbiyəsinə xüsusi diqqət yetirmişdi. Oğlu Rəşid Tiflisdə klassik gimnaziyanı bitirdikdən sonra Belçika Universitetində oxumuş, yol mühəndisi ixtisasına yiyələnmişdi. Qızının təhsili ilə isə o, şəxsən özü məşğul olmuş, ona fars və rus dillərini öyrətmiş, tam muasir ruhda təlim-tərbiyə vermişdi.

Uzun illər fasiləsiz məsul və ağır dövlət qulluğunda çalışmaqla bərabər, qızğın bədii, ictimai-siyasi və elmi fəaliyyət göstərib, Azərbaycan ədəbi-ictimai fikrinin klassik nümunələri olan altı komediya, "Aldanmış kəvakib"

povesti, əlifba layihələri, “Kəmalüddövlə məktubları” fəlsəfi traktatı və başqa ictimai-siyasi, fəlsəfi, ədəbi-tənqidi əsərlər, çoxlu məktublar yazması, əlifba islahatı, “Kəmalüddövlə məktubları”nın nəşri uğrunda gərgin mübarizə aparması, öz ali, müqəddəs ideyalarını həyata keçirə bilməməsi, uşaqlarının vəfatı M.F.Axundzadəyə çox ağır təsir bağışlamış, vaxtından əvvəl qocaltmış və fiziki cəhətdən hədsiz zəiflətmişdi. Bütün bunların nəticəsində o, 1877-ci ilin sonunda ağır ürək xəstəliyinə məruz qalmış, vəziyyəti getdikcə pisləşmiş və nəhayət, 1878-ci ildə fevralın 27-də (yeni təqvimlə martın 10-da) vəfat etmişdir. Öz vəsiyyətinə görə o, Tiflisdə müsəlman qəbiristanlığında, sabiq müəllimi və dostu M.Ş.Vazehin qəbri yaxınlığında dəfn olunmuşdur.

**Poeziyası.** M.F.Axundzadənin zəngin və çoxcəhətli irsində şeirləri müəyyən yer tutur. O, gənclik illərində bir şair kimi bədii fəaliyyətə başlamış və demək olar ki, ömrünün sonuna qədər bu sahədə yaradıcılığını davam etdirərək, həm klassik şeir, həm də xalq şeri üslubunda bir silsilə əsərlər – lirik qoşmalar və gəraylılar, mənzum məktublar, satirik və əxlaqi-didaktik şeirlər, qəsidə və mədhiyyələr yazmışdır. Mirzə Fətəlinin bir şair kimi təbii istedadı, incə zövqü, həqiqi şerin mahiyyəti, tələb və vəzifələri, ictimai-tərbiyəvi rolu, emosional təsir qüvvəsi barədə düzgün, mükəmməl təsəvvürü var idi. O, hələ gənclik illərində klassik Azərbaycan və Şərq poeziyasının görkəmli nümayəndələrinin irsinə də dərindən bələd olmuşdu. Lakin bütün bunlara baxmayaraq o, poeziya ilə müntəzəm məşğul olmamış və bu sahədə çox kiçik bir irs yaratmışdır.

M.F.Axundzadənin bədii yaradıcılığa nə vaxtdan başladığı dürüst məlum deyildir. Səbuhi təxəllüsü ilə yazılmış “Zəmanədən şikayət” adlı şeir, onun bizə gəlib çatmış ilk bədii əsəri hesab edilir. Şerin hansı ildə qələmə alınması barədə heç bir qeyd mövcud deyildir. Lakin “Zəmanədən şikayət”in məzmunu ilə ümumi tanışlıq aydın göstərir ki, Mirzə Fətəli onu dövlət xidmətinə girmək ərəfəsində, təxminən 1832-1833-cü illərdə yazmışdır.

“Zəmanədən şikayət” fars dilində, klassik Şərq şeri ənənələri əsasında, məsnəvi formasında qələmə alınmışdır. Öz ideya-bədii strukturuna görə o, bizə klassik Azərbaycan və Şərq şerində geniş yayılmış “Vəsfi-hal”ları, “Şikayətnamə”ləri xatırladır.

Avtobioqrafik səciyyə daşıyan “Zəmanədən şikayət” şerini şərti olaraq iki hissəyə bölmək olar. Birinci hissə tam bədbin bir məzmuna və ruha malikdir. Mirzə Fətəli burada öz həyatından, acı taleyindən, onu əhatə edən mühitdən, dost-aşnadan acı-acı şikayətlənir.

Əsərin ikinci hissəsi isə nikbin bir ruhda yazılmışdır. Bu hissədə Mirzə Fətəli Tiflis şəhərini və mühitini tərənnüm edir. Şair söyləyir ki, buraya gələn hər bir şəxs tezliklə həyatda özünə müəyyən bir mövqe tutur, hörmət, ehtiram qazanır. Müəllif şerinin ikinci hissəsində Tiflisdə yaşayan bir azərbay-

canlı ziyalını xüsusi tərif edirdi. Şair göstərirdi ki, o, həm dərin bilikli, geniş erudisiyalı bir alim, həm istedadlı bir şair, həm də yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olan bir insandır. Bu müdrik şəxs ona pənah aparan hər bir azərbaycanlıya hamilik edir, dərdinə qalır, yaxından kömək göstərir. Gənc şair də Tiflisə gedib, onun köməyi ilə həyatında, taleyində bir dönüş yaratmaq arzusundadır. Əsər gələcəyə belə bir inam hissi ilə bitir. Ədəbiyyatşünaslarımız yekdil olaraq belə güman edirlər ki, gənc Mirzə Fətəlinin təsvir və təqdir etdiyi bu ziyalı həmin illərdə Tiflisdə dövlət idarəsində xidmət edən və böyük hörmət qazanan görkəmli Azərbaycan alimi və şairi Abbasqulu ağa Bakıxanovdur.

"Zəmanədən şikayət" əsərində Xaqani, Rumi, İbn Sina, Söhban, Bezavi kimi görkəmli Şərq şairləri, alimləri və mütəfəkkirlərinin adları çəkilmişdir. Bu aydın göstərir ki, həmin illərdə Mirzə Fətəli klassik Şərq bədii, fəlsəfi və elmi irsinə mükəmməl bələd imiş.

M.F.Axundzadənin bizə gəlib çatmış ikinci poetik əsəri 1837-ci ildə yazdığı "Puşqinin ölümünə Şərq poeması"dır.

Tiflisdə dövlət qulluğunda işlədiyi üç ilin ərzində rus dilini mükəmməl öyrənən Mirzə Fətəli rus ədəbiyyatını, xüsusən, rus ədəbi-ictimai fikrinin inkişafı tarixində misilsiz xidmətlər göstərən həm öz şəxsi həyatı, həm də bədii yaradıcılığı ilə Qafqazla bilavasitə bağlı olan və Qafqaz xalqlarının bir sıra qabaqcıl nümayəndələri ilə yaxından dostluq edən A.S.Puşkinin əsərlərini böyük səy və diqqətlə oxumuşdu. O, dahi rus şairinin poetik qüdrətinə heyran olmuş, ona dərin və hədsiz məhəbbət bəsləmişdi. 1837-ci il yanvarın sonunda Puşkinin dueldə öldürülməsi M.F.Axundzadəni çox dərindən kədərləndirmiş və o, acı təəssürat altında xüsusi bir əsər yazmaqla, böyük rus şairinə hədsiz məhəbbətini ifadə etmişdi.

"Puşkinin ölümünə Şərq poeması"da fars dilində, klassik Şərq şeri üslubunda yazılmışdır. İdeya-bədii strukturu baxımından o, ənənəvi "Müsibətnamələr"ə yaxın olan bir əsərdir. Lakin bədii materialına, mövzusuna görə poema Azərbaycan ədəbiyyatında tam yeni və orijinal bir hadisə idi. Məhz bu poema ilə Milli ədəbiyyatımıza yeni bir ədəbiyyatın, yeni bir mədəniyyətin nəfəsi, ruhu, ənənəsi daxil olmağa başlayır və milli-ədəbi və ictimai fikrimizin inkişafında mühüm rol oynayan Azərbaycan-rus ədəbi əlaqələrinin ilk əsasları qoyulur.

Poema baharın ilk çağlarının romantik bir üslubda tərənnümü ilə başlayır. Bu, əsərin yazılma tarixi ilə bağlı olan bir məsələ idi. Puşkin 1837-ci ilin yanvarın 29-da öldürülmüş, bu barədə xəbər isə Tiflisə təxminən fevralın sonu və yaxud martın əvvəllərində gəlib çatmışdı. Məlumdur ki, bu dövrdə Tiflisdə bahar başlanır.

Şair əsərinin əvvəlində Şərq romantik şerinə məxsus bir tərzdə, təmtəraqlı, əlvan bir üslub və dildə yazın ilk oyanışını, təravətini, gözəlliyini təs-

vir edir. Lakin baharın gəlişi onda nikbin bir ruh, yaşamaq həvəsi, həyata bağlılıq hissi doğurmur. Şair belə bir əqidədədir ki, yaz yelinin arxasınca payız yeli gəlir, vəfasız dünyaya heç bir etibar yoxdur, fələk daim tərsinə dövran edir. Buna ən yaxşı dəlil Puşkinin vaxtsız ölümüdür.

Mirzə Fətəli əsərində Puşkini yüksək poetik istedada malik olan, "sözdən qərib naxışlar" izhar eyləyən, Rusiyada böyük şan-şöhrət qazanan bir şair, "söz ordusunun başçısı" adlandırır. Diqqətəlayiq cəhət bir də ondadır ki, müəllif Puşkinin öz sələfləri ilə Lomonosov, Derjavin və Karamzinlə üzvi bağlılığını və onun rus poeziyasının inkişafı tarixində oynadığı böyük rolu çox düzgün müəyyənləşdirirdi.

Nəzm evini süsləyən Lomonosovdu,
Orda Puşkin xəyalı oldu bərqərar.
Derjavin tutmuşdusa sözün mülkünü,
Yerində Puşkin oldu nəzmilə muxtar.
Camə bilik meyini tökdü Karamzin,
Puşkinə qismət oldu o cami-gülnar.

Mirzə Fətəli bu qüdrətli şairin ölümünə dərindən kədərlənir, onun qatillərinə lənət yağdırır və rus xalqının böyük dərdinə şərik çıxır. Poema belə bir əlamətdar misralarla bitir:

Torpağına saçmağa iki gül ətri,
Qopar Baxçasaraydan bir incə ruzgar.
Tutulub bu xəbərdən ağ saçlı Qafqaz,
Səbuhinin şerilə yasını saxlar.

M.F.Axundzadənin bizə gəlib çatmış başqa poetik əsərləri keçən əsrin 40-70-ci illəri arasında qələmə alınmışdır. Onlardan bir qismi xalq şeri, ikinci qismi isə klassik şeir üslubunda yazılmışdır.

Mirzə Fətəlinin aşıq şeri üslubunda olan şeirləri iki qoşma, bir müxəmməs və qoşma janrında dost və tanışlarına yazdığı bir neçə mənzum məktubdan ibarətdir. Bu əsərlərdə o, öz yaxın sələfləri M.P.Vaqif və Q.Zakirin poetik ənənələrini davam etdirmişdir. Onun qoşma və müxəmməslərində real gözəl, real məhəbbət, real insani hiss-həyəcanlar təsvir və tərənnüm olunur, canlı xalq dilində yazılmış bu əsərlər təbiiliyi, səmimiliyi və xəlqiliyi ilə diqqətə layiqdir.

M.F.Axundzadə yaxın dostu Q.Zakirə zarafat tərzində, xəfif bir yumorla yazdığı mənzum məktubunda şairlə Xurşidbanu Natəvan arasında yaranmış dostluq əlaqələrindən söz açır. Zakirə xitabən yazılmış başqa bir mənzum

məktub isə 1853-1855-ci illərdə Rusiya ilə Türkiyə və onun müttəfiqləri (Fransa və İngiltərə) arasında gedən müharibəyə həsr olunmuşdur. Bir mütərcim kimi Krımda hərb meydanında iştirak edən şair şerində bu müharibədə Rusiyanın öz düşmənləri üzərində qələbə çalacağını söyləyir və rus dövlətinin qüdrət və şöhrətini tərənnüm edirdi.

M.F.Axundzadə Zakirə müraciətlə yazdığı bu şerini rusca sətri tərcüməsi ilə birlikdə “Кавказ” qəzetində dərc etdirir. Zakir də öz növbəsində Mirzə Fətəliyə cavab olaraq bir şeir yazıb, “Кавказ” qəzetinə yollamışdı. Həmin şeir də rusca sətri tərcüməsi ilə birlikdə qəzetdə çap olunmuşdur.

Cəfərqulu xana yolladığı bir mənzum məktubunda şair yeni əlifbaya qarşı çıxan Qarabağ mollalarından şikayətlənir, onları nadan, cahil, başıboş adamlar kimi qamçılayır. Başqa bir şerində isə Cəfərqulu xanın ona soyuq münasibət bəsləməsindən, məktubunu cavabsız qoymasından gileylənir, xanla əlaqədar olaraq Tiflisdə gördüyü işlər haqqında məlumat verir.

M.F.Axundzadənin müxtəlif illərdə klassik şeir üslubunda yazılmış bir neçə tənqidi-satirik ruhlu şeirləri də vardır. Bunların içərisində farsca olan “Yeni əlifba haqqında” şeri xüsusi yer tutur. Təxminən 1867-ci ildə İran hökmdarı Nəsirəddin şaha müraciətlə yazılmış şerində o, islam əlifbasının islahı uğrunda apardığı, böyük və ağır mübarizəsindən müfəssəl bəhs edir, onun bu işinə laqeyd münasibət bəsləyən İranın və Türkiyənin ali hakimlərini tənqid atəşinə tutur və Nəsirəddin şahı İranda ciddi islahatlar keçirməyə çağırır.

M.F.Axundzadə 1876-cı ildə klassik Şərq ədəbiyyatının görkəmli nümayəndəsi Cəlaləddin Ruminin məşhur “Məsnəvi”sinə həsr olunmuş “Mollayi Rumi və onun təsnifi babində” adlı ədəbi-tənqidi məqalə, eyni zamanda ona təqlidən “Hekayəti-bədiəxani-Ərdəbili və Məşədi Buttan Səlyani”, “Hekayəti-pota Kərim və Səfər dəllək” və “Hekayəti-Seyyid-Ələm Səlyani” adlı mənzum hekayələr yazmışdır. Tənqidi-didaktik səciyyə daşıyan bu əsərlərdə tüfeylilik, tamahkarlıq, acgözlük kimi mənfi sifətlər pislənilir.

Türkiyəyə səfəri zamanı Batumidə olarkən Səid adlı bir gəncə xitabən yazılmış nəsihətnaməsində şair ona türk, ərəb, fars, fransız dillərini öyrənməyi, yazıda xəttin gözəlliyini deyil, mənanı əsas götürməyi, cümlələri aydın, səlis bir dildə ifadə etməyi, artıq, lüzumsuz sözlərdən, təkrardan qaçmağı məsləhət görürdü. Farsca yazılmış bir şerində o, mərsiyəxanların acgözlüyünü və tamahkarlığını tənqid edir, ikinci bir şerində isə təqlidçilik əleyhinə çıxıb, İranın bütün bədbəxtliyini məhz kor-koranə təqlidçiliyin nəticəsi olduğunu söyləyir, ağıllı adamları bu pis adətlərdən bir dəfəlik əl çəkməyə çağırırdı. Fars dilində olan başqa bir şerində isə o, oxuculara boş, cəfəng şeylər, eyş-işrət deyil, mərifət dalınca getməyi məsləhət görürdü.

Bir şair kimi M.F.Axundzadənin fəaliyyətinin ümumi qiymətini və ədəbiyyat tariximizdə tutduğu mövqeyini müəyyənləşdirərkən açıq demək

lazımdır ki, onun poetik əsərləri zəngin və çoxsahəli irsinin az bir qismini təşkil edir və bir neçə şerini – "Zəmanədən şikayət"i, "Puşkinin ölümünə Şərq poeması"nı, "Yeni əlifba" mənzuməsini və qoşmalarını istisna etmək şərti ilə onlar yüksək ideya-bədii məziyyətə malik deyildir. Ümumən Mirzə Fətəli poetik istedada malik olub, ədəbi-tənqidi məqalələrində həqiqi şeir, klassik Azərbaycan və Şərq ədəbiyyatının görkəmli nümayəndələri haqqında qiymətli mülahizələr söyləsə də, bu sahəyə çox az diqqət yetirmiş və bütün bədii istedad və qüvvəsini bədii ədəbiyyatın tam yeni forma və janrlarına həsr etmişdir.

**Dramaturgiyası.** M.F.Axundzadə Azərbaycan ədəbiyyatı tarixində ilk növbədə Milli dramaturgiyamızın banisi kimi geniş şöhrət qazanmışdır. Keçən əsrin 50-ci illərində bir-birinin ardınca yazdığı "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Hekayəti-Müsyo Jordan həkimi nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" (1850), "Hekayəti-xırsı-quldurbasan" (1851), "Sərgüzəşti-vəziri-xani Lənkəran" (1851), "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") (1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855) adlı komediyalarla o, Azərbaycan ədəbiyyatında böyük, əsaslı bir dönüş yaratdı və onu tam yeni bir inkişaf yoluna saldı. M.F.Axundzadə öz pyesləri ilə milli ədəbiyyatımızın real gerçəkliklə əlaqəsini olduqca qüvvətləndirdi, ona dövrün aktual ictimai-siyasi məsələləri və problemləri, xalqın zəruri tələbləri ilə bağlı olan yeni məndəricə, yeni ideyalar gətirdi və ədəbiyyatımızda yeni bir ədəbi formanın mükəmməl təməl daşlarını qoydu. O, həm də yalnız Azərbaycanda deyil, ümumən Yaxın Şərq ölkələrində dramaturgiyanın banisi kimi fəxri ad qazandı.

M.F.Axundzadənin dramaturgiyaya müraciət etməsi onun maarifçi görüşləri, öz həyatını, istedadını, tükənməz enerjisini şüurlu olaraq Azərbaycanda maarifçilik ideyalarının təbliğinə həsr etməsi ilə bilavasitə bağlı idi.

Qərbi Avropa və rus maarifçiləri kimi, M.F.Axundzadə də xalq kütlələri arasında maarifçilik ideyalarını yaymaq üçün dramaturgiyanın ən münasib, ən əlverişli bir vasitə, kəsərli ideoloji mübarizə silahı olduğunu düzgün və vaxtında görmüş, bir maarifçi kimi qızğın ədəbi-ictimai fəaliyyətə başlayarkən ilk növbədə dramaturgiyaya müraciət etmiş və ədəbi-tənqidi məqalələrində də dram əsərlərinin təbliğinə xüsusi diqqət yetirmişdir.

Dram janrları içərisində M.F.Axundzadə komediyanı daha çox sevmiş və Azərbaycanda yeni ədəbiyyatın əsaslarını məhz bu janrda yazdığı əsərlərlə qoymuşdur. Onun ilk növbədə komediyaya müraciət etməsini qətiyyən təsadüfi bir hadisə saymaq olmaz. Bunu müəyyən obyektiv, həmçinin subyektiv amillər şərtləndirmişdir.

XIX əsrin ortalarında Azərbaycanda feodalizmin tənəzzülü qüvvətlənmiş və o, öz tarixi inkişafının son mərhələsinə ayaq basmışdı. Bu iqtisadi, sosial tarixi proses nəticəsində feodal hakimlərinin daxili komik mahiyyəti, onların zahiri dəbdəbəsi, təmtərağı, iddiaları ilə həqiqi daxili mənası, puçluğu, geri-

liyi, həyatda öz əvvəlki rolunu, mövqeyini saxlamaq iqtidarına malik olmaması, cəmiyyətin iqtisadi-mədəni tərqqisi qarşısında ciddi bir bəlaya çevrilməsi arasında ziddiyyətlər kəskin və barışmaz bir şəkil almışdı. Beləliklə, bu dövr Azərbaycan həyatında satirik əsərlər, o cümlədən komediya üçün zəngin material, real komik ziddiyyətlər və konfliktlər yaranmışdı. Mirzə Fətəlinin komediyaları da bilavasitə Azərbaycan gerçəkliyində yaranmış bu yeni məzmundan doğmuşdu.

M.F.Axundzadənin komediyaya müraciət etməsində bu janrın onun təbii istedadına, yaradıcılıq meyllərinə uyğun gəlməsi də mühüm rol oynamışdır. Mirzə Fətəli öz təbiəti etibarilə həqiqətən yüksək komik istedada, iti tənqidi ağıla, incə yumor hissinə, real gerçəklikdə obyektiv surətdə mövcud olan komik hadisələri və ictimai ziddiyyətləri görmək, onun həqiqi daxili mənasını, gələcək iqbalını dərk etmək qabiliyyətinə malik idi. Nəhayət, onun bir komedioqraf kimi formalaşmasına və fəaliyyət göstərməsinə dünya komediyanəvisliyiynin görkəmli nümayəndələri, xüsusən, Molyer və Qoqol qüvvətli təsir göstərmişdir.

M.F.Axundzadənin komediyaları realist sənət prinsipləri əsasında yaradılmışdır. Məhz onun komediyaları ilə ədəbiyyatımızda realist sənətin, sözün həqiqi mənasında realizm yaradıcılıq metodunun mükəmməl binası ucaldılmışdır. Onların əsas ideya məzmununu və problemlərini isə maarifçilik təşkil etmişdir.

M.F.Axundzadə komediyalarında xalq həyatı və məişətinin geniş, dərin, rəngarəng əksini vermişdir. O, pyeslərinin bədii materialını, mövzusunu dərindən müşahidə etdiyi real həyat hadisələrindən almış və bu həyatı, olduqca düzgün, təbii, inandırıcı surətdə təsvir etmişdir. Onun dram əsərlərində təsvir olunmuş həyat hər cür mücərrəd, dini-mifik təsəvvürlərdən azaddır. Mirzə Fətəli həm də real gerçəkliyə empirik münasibət bəsləməmiş, xalq həyatını kortəbii, naturalistcəsinə, bir fotoqraf kimi qələmə almamış, eyni zamanda süni surətdə gözəlləşdirməmiş, romantik bir dona bürüməmişdir. O, təsvir etdiyi həyatın, hadisə və faktların daxili mahiyyətinə, ruhuna nüfuz etmiş, onun ən mühüm cəhətlərini, tipik xüsusiyyətlərini qələmə almışdır.

M.F.Axundzadənin komedioqraf kimi əlamətdar, diqqətəlayiq bir xüsusiyyəti də onda olmuşdur ki, əsərlərində doğma xalqının müəyyən tarixi bir dövrünün, bilavasitə XIX əsrin 30-40-cı illərinin ailə-məişət və ictimai münasibətlərinin dolğun, realist təsvirini vermişdir. O, həyatı sabit, durğun bir halda deyil, hərəkətdə, inkişafda götürmüş və əsərlərində onun həm köhnəlmiş, donub qalmış, dəhşətli bir ictimai bəlaya çevrilmiş sahələrini, həm də yeni doğulan, təşəkkül tapan və böyük gələcəyi olan cəhətlərini əks etdirmişdir.

Dünyagörüşü etibarilə maarifçi olan M.F.Axundzadə pyeslərində öz dövrünün mühüm, aktual məsələlərinə toxunur, feodal cəmiyyətinin əsas konflikt

və ziddiyyətlərini açıb göstərirdi. Bu konflikt və ziddiyyətlər dərin ictimai-siyasi səciyyə daşıyır və keçən əsrin ortalarında hakim dini-feodal təbəqələrlə yeni baş qaldırmaqda olan mütərəqqi qüvvələr arasında gedən mübarizəni əks edirirdi. Böyük ədibimiz Cəlil Məmmədquluzadənin doğru olaraq göstərdiyi kimi, onun "əl vurduğu məsələlərin hamısından qan qoxusu gəlirdi".*

M.F.Axundzadə komediyalarında təsvir olunmuş zəngin və rəngarəng surətlər aləmində mənfi qəhrəmanlar mühüm yer tutur. İctimai həyatı maarifçilik ideologiyası meyarından qiymətləndirən Mirzə Fətəli feodal cəmiyyətinin əsas nöqsan və eyiblərini ilk növbədə hakim imtiyazlı təbəqələrlə – bəylər və ruhanilərlə bağlamış və buna görə də ilk növbədə onları öz komediyalarının əsas qəhrəmanları və tənqid hədəfləri kimi götürmüşdür. Onun pyeslərində təsvir olunmuş Molla İbrahimxəlil kimyagər, dərviş Məstəli şah, Xan, vəzir Mirzə Həbib, Heydər bəy, Hacı Qara, Ağa Mərdan kimi mənfi tiplər mücərrəd bir bəy, mücərrəd bir ruhani, mücərrəd bir hakim, mücərrəd bir tacir və yaxud müəyyən eyibləri əks etdirən fiqurlar, sxematik, birtərəfli surətlər deyildir. Onlar konkret bir ictimai təbəqənin, zümrənin tipik xüsusiyyətlərini özlərində ümumiləşdirən, eyni zamanda fərdi keyfiyyətlərlə verilən həyati, canlı, dolğun xarakterlər, sözün həqiqi mənasında tipik şəraitdə verilmiş tipik surətlərdir. Məsələn, "Kimyagər" komediyasında Molla İbrahimxəlil və "Müsyo Jordan və dərviş Məstəli şah" komediyasında Məstəli şah surətində M.F.Axundzadə sadəcə olaraq fırıldaqçı bir kimyagəri, dərvişi deyil, feodal cəmiyyətinin müəyyən ictimai qruplarının tipik nümayəndələrini yaratmışdır. Molla İbrahimxəlil surətində yalançı kimyagərlərə, alimlərə məxsus xüsusiyyətlər ümumiləşdirilmişdir. Bu surətdə eyni zamanda müsəlman ruhaniləri üçün səciyyəvi olan bir sıra tipik cəhətlər də parlaq əksini tapmışdır. Məstəli şah surətində isə Azərbaycan və Yaxın Şərq xalqlarının həyatında mühüm rol oynayan dərvişlərin xarakterik keyfiyyətləri toplanmışdır. Dramaturq Molla İbrahimxəlili də, Məstəli şahı da xalqın avamlıq və geriliyindən istifadə edib, onu soyub-talayan, inkişafı qarşısında duran ciddi bir əngəl, mühüm ictimai bir bəla kimi kəskin tənqid atəşinə tutmuşdur. Lakin kimyagər və dərviş surətlərində eyni zamanda dərin daxili bir məna da ifadə olunmuşdur. Bu surətlər vasitəsilə dramaturq orta əsrə xas sxolastik düşüncənin puçluğunu, gərəksizliyini açıb göstərir, bütövlükdə dini-feodal təfəkkür əleyhinə çıxırdı. Komediyalarda tənqid və inkar həm də konkret müsbət ideal naminə aparılır, ağlın, dünyəvi elmlərin, qabaqcıl mədəniyyətin, həqiqi zəhmətin, dünyanı yeni dərketmə sisteminin təbliğinə xidmət göstərirdi.

"Vəziri-xani-Lənkəran" komediyasında təsvir olunan Xan və vəzir Mirzə Həbib surətlərində Mirzə Fətəli feodal-istibdad üsuli-idarəsinin ali hakimlə-

* M.F.Axundzadə. Məqalələr məcmuəsi. Bakı, 1962, s.67

rinin səciyyəvi sifətlərini əks etdirmişdir. Əsərdə xan da, vəzir də ölkənin, xalqın taleyinə laqeyd münasibət bəsləyən, müasir dövrdə ali dövlət başçılarının qarşısında duran böyük, ciddi, məsul vəzifələrdən, tələblərdən tam bixəbər olan, yalnız öz şəxsi mənafeyi, vəhşi instinktləri haqqında düşünən nadan, kütbaş, zalım, ədalətsiz hakimlər kimi təsvir olunmuşdur. Komediyada müəllif xanın və baş vəzirin nöqsanlarını bu və ya digər hakimə xas olan əzəli bir xüsusiyyət kimi deyil, ümumən feodal hakimlərinin tipik cəhətləri kimi qiymətləndirmişdir. Onun “Hacı Qara” komediyasının mənfi qəhrəmanı olan Heydər bəy surətində əsrin ortalarında müflisləşməyə doğru gedən mülkədarların tipik surəti yaradılmışdır. Mirzə Fətəli əsərində Heydər bəyin dili ilə “guya ki, mən Banazor ermənisiyəm ki, gərək gündüz axşamadək kotan sürəm, ya ləmbəranlıyam ki, qurd bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm!.. Heç vaxt Cavanşirdən (burada söhbət böyük tarixi keçmişi olan varlı, adlı-sanlı bəylikdən gedir – *N.M.*) kotançı və kümçü görükməyib! Mənim atam Qurban bəy onu etməyib, mən ki onun oğlu Heydər bəyəm, mən də etməyəcəyəm” – deməklə məsələnin kökünə, mahiyyətinə nüfuz edir və göstərirdi ki, tüfeylilik, zəhmətə xor münasibət bu və ya digər bir bəyə xas olan sifət yox, ümumiyyətlə bəyliyin tipik xüsusiyyətidir. Həmin əsərin ikinci qəhrəmanı olan Hacı Qara surətində isə bu dövr Azərbaycan tacirliyinin səciyyəvi sifətləri ümumiləşdirilmişdir. Əsərdə tacir xəsislik, tamahkarlıq, acgözlük timsalı kimi qələmə alınmışdır. Müəllif Hacı Qaranın da nöqsanlarını konkret tarixi həyatın məhsulu kimi alır, əsrin ortalarında burjua keyfiyyəti kəsb edən tacirliyin səciyyəvi sifətləri kimi verirdi. “Mürafiə vəkilləri” komediyasında Ağa Mərdan surəti timsalında M.F.Axundzadə ictimai həyatda mühüm mövqe tutan başqa bir təbəqənin – məhkəmə məmurlarının satirik-realist bədii surətini meydana gətirmişdir. Ağa Mərdan öz işinə görə özbaşınalıq və qanusluq əleyhinə çıxmalı, həqiqət, düzlük və ədalət keşiyində durmalıdır. Lakin ən adi insani hisslərdən, xalq qarşısında borc, məsuliyyət hissindən tam məhrum olan Ağa Mərdan vəkillikdən bir qazanc mənbəyi kimi sui-istifadə edir, xalqın başına çox müsibətlər gətirir. M.F.Axundzadə əsərində aydın və bariz şəkildə nümayiş etdirirdi ki, rüşvətxorluq, ədalətsizlik, qanunsuzluq bu təbəqənin – məmurların tipik sifətləridir. Komediyadan eyni zamanda belə bir aydın qənaət alınırdı ki, məmurların bu sifətləri ictimai mühitin məhsuludur, mövcud üsuli-idarə ilə bilavasitə şərtlənir.

Bütövlükdə götürdükdə, hakim imtiyazlı təbəqələri təmsil edən mənfi tiplər silsiləsi vasitəsilə Mirzə Fətəli feodal cəmiyyətinin əsas ictimai nöqsanlarını və ziddiyyətlərini açıb göstərir, onun xalqa zidd bir quruluş olduğu nəticəsini çıxarırdı.

M.F.Axundzadə bir maarifçi kimi komediyalarında feodal cəmiyyətinin əsas ictimai eyiblərini tənqid atəşinə tutmaqla bərabər, öz müasirlərini, xüsusilə, gəncliyin maarifçilik ideyalarına, dünyəvi elmlərin və mütərəqqi Avropa

mədəniyyətinin nailiyyətlərinə yiyələnməyə çağırmış, insan ağlına, zəkasına yüksək qiymət vermiş, şəxsiyyət azadlığı uğrunda fəal mübarizə aparmışdır. Bütün maarifçilər kimi, onun da yaradıcılığında zəhmət mövzusu, ictimai-faydalı əməyin, sənətin təqdiri və təbliği mühüm yer tutur.

"Molla İbrahimxəlil kimyagər" komediyasının müsbət qəhrəmanı olan şair Hacı Nuru Azərbaycan ədəbiyyatında maarifçilik görüşlərini ifadə edən ilk ziyalı obrazıdır.

Hacı Nuru "nuxuluların" və kimyagərin tam ziddini təşkil edir. O, ağılı, maarifi, zəhməti təmsil edən bir surət kimi təqdim olunmuşdur. Hacı Nuru durğun və qaranlıq feodal dünyasında parlayan bir işıq şüasıdır. Heç təsadüfi deyildir ki, müəllif şairi Nuru – işıq adlandırmışdır.

Hacı Nuru xalqının, vətəninin taleyi haqqında düşünən ağıllı, işgüzar, istedadlı bir ziyalıdır. Lakin onun cəmiyyətdə heç bir mövqeyi yoxdur. O, ictimai mühitə, müasirlərinin həyat tərzinə təsir göstərə bilmir, vətənin tərəqqisi yolunda konkret iş görmək iqtidarında deyildir. Şair özü də kasıb bir həyat sürür. Müəllif onun bu faciəsini də "nuxulular" aləmi ilə bağlayır. Komediyada "nuxulular"dan birisi "...bəs sən niyə öz sənətindən xoşgüzəran deyilsən? Qış tapsan, yaz tapmazsan; yaz tapsan, qış tapmazsan; sənin sözünlə, sənin hünərin, yəni şeir demək bəs gərək bir böyük iksir olaydı?!" – dedikdə Hacı Nuru ona belə cavab verir: "Bəli, mənim hünərim filhəqiqə iksirdir. Amma necə ki, siz deyirsiniz, iksirə laməhalə başqa filizzat lazımdır ki, onun təsirini qəbul edə: habelə mənim hünərim üçün dəxi ərbabi-zövq və kamal və mərifət lazımdır ki, dedyim əşarın qədrini bilələr. Zəmani ki, mənim bəxtimdən həmşəhərlilərim də ki, sizsiniz, nə kamal var, nə ağıl var, nə beyin var; bu surətdə mənim hünərimdən nə fayda hasil olacaq, mənim şerim nəyə məsrəfdir? Bu sözlərlə Hacı Nuru, bir tərəfdən, "nuxuluları" tərəqqi, inkişaf, işıq düşməni kimi damğalayır, ikinci tərəfdən isə, feodal cəmiyyətində ağılı, zəkası, istedadı başına bəla olan ziyalıların acı taleyini, faciəsini açıb göstərirdi. M.F.Axundzadə Hacı Nurunun dili ilə "hər kəsin öz sənəti özünə iksirdir və xoş güzəranına baisdir" – deməklə öz amalını ifa edir, ağıla, zəhmətə himn oxuyurdu.

"Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında M.F.Axundzadə hiyləgər, fırıldaqçı, avam adamları aldadıb soyan, tüfeyli həyat sürən dərviş Məstəli şaha qarşı fransız nəbatat alimi müsyö Jordan obrazını yaratmışdır. Əsərdə o, elm, maarif və tərəqqi dünyasının nümayəndəsi kimi təqdir və təbliğ olunur. Çox əlamətdardır ki, Məstəli şah geridə qalmış feodal ölkəsi olan İrandan, nəbatat alimi isə, inkişaf etmiş burjua ölkəsi olan Fransadan gəlmişdir. Həmin komediyada gənc Şahbaz bəy surətində Mirzə Fətəli Azərbaycan gəncliyinin yeni dünyaya qovuşmaq, elmə, maarifə, Avropa mədəniyyətinin nailiyyətlərinə yiyələnmək cəhdlərini təqdir edirdi. Müəllifin böyük məhəbbət və səmimiyyətlə qələmə aldığı Şahbaz bəy surəti sonralar N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov və Cəlil Məmmədquluzadə tərəfindən yara-

dılmış mübariz maarifçi, ziyalı qəhrəmanlar silsiləsinin ilk nümayəndəsi kimi diqqətəlayiqdir.

"Vəziri-xani-Lənkəran" komediyasında Mirzə Fətəli Teymurağa surətində maarifçi hakim ideyalarını təbliğ etmişdir. "Xırs quldurbasan" komediyasının gənc qəhrəmanı Bayram xalqımızın bir sıra müsbət keyfiyyətlərini özündə təmsil edən dolğun kəndli surətidir. Onun "Mürafiə vəkilləri" komediyasında yüksək insani sifətləri ilə səciyyələnən Səkinə xanım və Əziz bəy surətləri yaradılmışdır.

"Xırs quldurbasan" və "Hacı Qara" komediyalarında Mirzə Fətəli çar məmurlarının bədii obrazlarını da yaratmışdır. Onların içərisində zasedatel və naçalnik surətləri xüsusi əhəmiyyət kəsb edir. Dramaturq hər iki çar məmurunu müsbət planda qələmə almış, onları ölkədə qanun-qaydanı gözləyən, ədalətli hakimlər kimi təqdim etmişdir. Qeyd etmək lazımdır ki, zasedatel və naçalnik surətlərinin təsvirində müəllif həyat həqiqətlərini təhrifə, idealizəyə yol vermişdir. Lakin o, çar hakimlərinin ictimai qəbahətlərinə tam laqeyd olmamış, hər iki əsərində yeri gəldikcə onların bürokratizmini, rüşvətxorluğunu və ədalətsizliyini açıq və kəskin tənqid atəşinə tutmuşdur. Məsələn, "Hacı Qara" komediyasında M.F.Axundzadə çar hakimlərinin ictimai nöqsanlarını belə ifşa edirdi. Qaçaq mal keçirmək barədə bəylərlə söhbət apararkən Hacı Qara çar bürokratik üsuli-idarəsi, yerli çar məmurları haqqında belə bir mülahizə söyləyir: "Rus adı gələndə (Mirzə Fətəli çar məmurlarını nəzərdə tutur – N.M.) bağrım yarılır. Onların qılıncı-tüfəngi o qədər məni qorxutmur ki, silisti, apar-gətiri canıma vəlvələ salır".

M.F.Axundzadənin komediyalarında bir silsilə qadın surətləri mövcuddur. Bu surətlər klassik poeziyamızda romantik üslubda təsvir edilmiş ilahi gözəllər və ya müti, aciz, dilsiz-ağızsız qadınlar deyildirlər. Mirzə Fətəlinin qadın qəhrəmanları qabarıq milli koloritlə qələmə alınmış canlı xarakterlər, sözün həqiqi mənasında Azərbaycan ədəbiyyatında yeni, orijinal və dolğun realist surətlərdir.

M.F.Axundzadənin qadın surətləri müxtəlif ictimai təbəqələrə mənsubdurlar. Onlar xarakter, ağıl və düşüncə tərzi, ailədə və həyatda tutduqları mövqe baxımından da bir-birlərindən kəskin surətdə fərqlənirlər. Onların arasında həm müti, aciz, öz taleyinə sözsüz boyun əyən, həm də şəxsi arzusu, mənafeyi uğrunda fəal mübarizə aparmağı bacaran, həm avam, sadəlövh, həm də hiyləgər, dələduz qadın surətləri vardır.

M.F.Axundzadənin əlvan və rəngarəng boyalarla qələmə aldığı qadın surətləri silsiləsi onun dramaturgiyasının və ümumən Azərbaycan ədəbiyyatının böyük nailiyyəti idi.

M.F.Axundzadə komediyalarında bir silsilə ikinci dərəcəli və epizodik surətlərə də təsadüf edirik. Onlar başlıca olaraq əsas surətlərin xarakterini və psixologiyasını mükəmməl açmaq məqsədi ilə komediyalara daxil edilmişlər. Lakin bu surətlər müəyyən müstəqim mənaya, idrak əhəmiyyətinə də malikdirlər.

Mirzə Fətəli öz ikinci dərəcəli və epizodik surətlərini bir neçə dialoqu ilə onların xarakterinin və psixologiyasının başlıca xüsusiyyətlərini açmağa müvəffəq olmuş, müxtəlif təbəqələri, ictimai qrupları təmsil edən orijinal bədii obrazlar yaratmışdır. Məsələn, onun ilk komediyasında Şeyx Salah və Molla Həmid surətlərində müsəlman ruhanilərinin səciyyəvi sifətləri ümumiləşdirilmişdir. "Vəziri-xani-Lənkəran" komediyasında o, yaltaq, ikiüzlü, hiyləgər saray əyanlarının bədii surətlərini yaratmışdır. Həmin komediyada eyni zamanda vəzirin ev xidmətçiləri simasında feodal dünyasında insani ləyaqəti, hüquqları tapdanan, günahlı-günahsız hər cür təhqir və işgəncəyə məruz qalan nökərlərin bədii surətləri qələmə alınmışdır. Axundzadənin "Xırs quldurbasan" komediyasında xarakter, həyat və düşüncə tərzinə görə bir-birindən kəskin surətdə fərqlənən bir sıra kəndli surətləri (Namaz, Nəcəf, Tarverdi, Oruc, Vəli) vardır.

Beləliklə, Axundzadə öz komediyalarında Azərbaycan həyatının geniş, hərtərəfli, dərin əksini vermiş, Azərbaycan cəmiyyətinin demək olar ki, əsas sinif, təbəqə, ictimai qruplarının dolğun bədii surətlərini yaratmışdır. Məhz buna görə onun dramaturgiyası XIX əsrin 30-40-cı illər Azərbaycan həyatının güzgüsü, ensiklopediyası hesab olunur.

M.F.Axundzadə komediya janrının xüsusiyyətlərinə, sirlərinə dərindən bələd olan bir dramaturqdur. O, əsərləri üçün həyati, təbii, orijinal və maraqlı surətlər düşünüb tapmış, təsvir etdiyi hadisələri dinamik, gərgin və maraqlı bir kompozisiya ətrafında birləşdirmişdir. Onun komediyaları həyati bir zavyazka ilə başlayır, rəvan, təbii və real bir şəkildə davam və inkişaf etdirilir, gərgin bir kulminasiya nöqtəsinə qaldırılır və əsasən inandırıcı, məntiqi və əlamətdar bir razvyazka ilə tamamlanır.

Dramaturq komediyalarında təsvir etdiyi surətləri mühitlə sıx əlaqədə götürür, onları müxtəlif şəraitə, vəziyyətlərə salır, daim işdə, hərəkətdə, gərgin bir mübahisədə, toqquşma və mübarizədə əks etdirir. Komediyalarda süjetin və kompozisiyanın bütün komponentləri, hətta ən kiçik detallar və epizodik surətlər belə müəllifin məqsəd və idealının düzgün və mükəmməl açılmasına tabe edilmişdir.

M.F.Axundzadə nadir istedada malik olan komedioqraflar nəslinə mənsubdur. Onun komediyaları əvvəlindən sonuna qədər komizmlə, gülüşlə aşılanmış, yoğrulmuşdur. Dramaturqun əsərlərində təsvir edilmiş surətlərin mahiyyətindən, düşdükləri vəziyyətdən asılı olaraq gülüş bəzən satirik, bəzən isə yumoristik səciyyə daşıyır. O, mənfi qəhrəmanlarını əsasən satirik boyalarla, rəğbət bəslədiyi, təqdir və təbliğ etdiyi surətləri isə xəfif yumoristik boyalarla qələmə almışdır.

M.F.Axundzadənin komediyaları canlı xalq dili əsasında yaradılmışdır. İti müşahidəyə, nadir hafizəyə, yüksək istedada malik olan M.F.Axundzadə Azərbaycan dilinin tükənməz sərvətinə mükəmməl yiyələnmiş, onun səciy-

yəvi xüsusiyyətlərini, qrammatik qayda-qanunlarını, ən incə çalarlarını, müxtəlif ictimai təbəqələrin nitq-danışıq üslublarını dərindən öyrənmiş, xalq dilinin zəngin və rəngarəng söz ehtiyatından, qüdrət və imkanlarından məharətlə istifadə etmişdir. Bədii dilin təbiiliyi canlılığı, zənginliyi, rəngarəngliyi, səlisliyi və aydınlığı dramaturqun dram dilinin ümdə xüsusiyyətlərini, məziyyətlərini təşkil edir. Onun komediyalarını oxuduqda personajların dilində işlənilmiş canlı xalq dilinə mənsub olan söz və ifadələrin, idioma və frazeoloji birləşmələrin, atalar sözü və məsəllərin zənginliyinə və rəngarəngliyinə heyran olmamaq qeyri mümkündür. Onu da qeyd etmək vacibdir ki, komediyalarda istifadə olunmuş canlı xalq dilinə məxsus söz və ifadələrin böyük bir hissəsini yazılı ədəbiyyatımıza ilk dəfə məhz Mirzə Fətəli gətirmiş, onlara tam vətəndaşlıq hüququ qazandırmışdır. Akademik Məmməd Arif onun Azərbaycan ədəbi dilinin inkişafı tarixində böyük xidmətindən bəhs edərkən doğru olaraq göstərmişdir ki, "təkcə bu xalq dili M.F.Axundzadənin xatirəsini Azərbaycan xalqının qəlbində əbədiləşdirməyə kifayətdir"*.

M.F.Axundzadənin bir dramaturq kimi böyük məharəti bir də onda olmuşdur ki, o, müəyyən bir sinfin, təbəqənin bədii surətini yaradarkən onu özünəməxsus bir üslubda danışdırımış, hər bir surətin nitqini onun öz həyat və düşüncə tərzinə, psixologiyasına, mədəni səviyyəsinə, ailədə və cəmiyyətdə tutduğu mövqeyə, düşdüyü şəraitə, söhbət etdiyi, müsahibə apardığı, mübarizə etdiyi adamlara uyğun bir tərzdə, təbii və düzgün əks etdirmiş və realist ədəbiyyatın ən mühüm prinsiplərindən biri olan dildə tipikləşdirmə və fərdiləşdirməni məharətlə gözləmişdir.

M.F.Axundzadənin dramaturgiyası xalqımızın XIX əsr danışıq dilinin ümumi mənzərəsini mükəmməl və düzgün əks etdirir. Onun Azərbaycan ədəbi dilinin həqiqi xəlqilik və realizm yolunda inkişafında, tam milli dil keyfiyyəti almasında xidməti misilsizdir.

**Nəsri.** Azərbaycan ədəbiyyyatında bədii nəsrin təşəkkülü və inkişafı tarixində də Mirzə Fətəli müstəsna xidmət göstərmişdir. 1857-ci ildə yazdığı "Aldanmış kəvakib " povesti ilə o, Azərbaycan bədii nəsrinin çox uğurlu bir nümunəsini yaratmış, ədəbiyyatımızda bədii nəsrə tam hüquq qazandırmış və onun gələcək inkişaf yollarını müəyyənləşdirmişdir.

Bir tərəfdən, Qərbi Avropa maarifçi nəsri, ikinci tərəfdən isə, XIX əsr rus realist nəsri və tənqidi-nəzəri fikri ilə dərindən tanışlıq sayəsində M.F.Axundzadə dərk etmişdi ki, xalq həyatının hərtərəfli və rəngarəng təsvirini vermək, dövrün aktual problemlərindən bəhs etmək, mövcud cəmiyyətin ictimai yaralarını açmaq və geniş zəhmətkeş kütlələr arasında maarifçilik ideyalarını yaymaq üçün nəsr əsərləri çox geniş imkanlara malikdir. Odur ki, komediyalarının ardınca o, "Aldanmış kəvakib" adlı povestini yazmışdır.

---
* M.Arif. Ədəbi-tənqidi məqalələri. Bakı, 1958, s.399

“Aldanmış kəvakib” povestinin mövzusu tarixi bir hadisədən alınmışdır. Onun süjetinin əsasına İran tarixçisi İskəndər bəy Münşinin “Tarixi-aləm-arayi-Abbasi” əsərində təsvir edilmiş bir hadisə qoyulmuşdur. M.F.Axundzadə bu tarixi hadisəni yaradıcılıq süzgəcindən keçirmiş, yeni hadisələrlə, epizodlarla zənginləşdirmiş, ona tam yeni bir məna vermişdir. Bir növ macəra, sərgüzəşt səciyyəsi daşıyan həmin hadisənin əsasında o, İran feodal üsuli-idarəsinin bütöv bir mənzərəsini əks etdirən və yüksək ideya-bədii məziyyətlərə malik olan satirik bir povest meydana çıxartmışdır.

Povestin mövzusu tarixi hadisədən alınsa da, o öz bədii məzmununa, satirik istiqamətinə və müsbət ideyasına görə tam müasir səciyyə daşıyır. Əsərin əsas ideya məzmununu maarifçilik ideyalarının təbliği təşkil edir. Povestdə ədib maarifçilik ideologiyası konsepsiyasından feodal üsuli-idarəsinin, despot hakimlərin ictimai qəbahətlərini kəskin tənqid atəşinə tutur və yüksək, ali bir məqsəd – İranın və ümumən müsəlman Şərq ölkələrinin iqtisadi, sosial, mədəni tərəqqisinə nail olmaq, geniş xalq kütlələrinin güzəranını yaxşılaşdırmaq, dünyəvi elmlər, maarifçi-demokratik ideyalar uğrunda fəal mübarizəyə qalxır. Gerçəkliyi əks etdirmək prinsipləri, surətlərin dərki və təsviri, bədii strukturu baxımından isə əsər realizm yaradıcılıq metodu əsasında yazılmışdır. “Aldanmış kəvakib” Azərbaycan realist nəsrinin ilk, həmdə çox uğurlu bir nümunəsidir.

“Aldanmış kəvakib”də ədib şah Abbas və onun vəzirləri surətlərində böyük məharətlə ali feodal hakimlərinə məxsus sifətləri ümumiləşdirmişdir. Surətlərin səciyyəvi, tipik cəhətlərinin düzgün və sərrast təsviri povestin mühüm ideya-bədii məziyyətlərindəndir.

Mahir satira ustası olan M.F.Axundzadə İranın ali dövlət xadimlərinin cəmiyyətdə tutduqları yüksək mövqe ilə bu mövqeyə heç bir ləyaqətləri olmaması arasındakı ziddiyyətləri açıb göstərmək üsulu ilə onları ifşa etmiş və bu hakimlərin dolğun, mükəmməl satirik realist portretlərini yaratmışdır. Mirzə Fətəlinin sənəkarlığı bir də onda özünü göstərirdi ki, o, İranın ali hakimlərinin bədii surətlərini yaratmaq üçün geniş həyati lövhələrin təsvirinə, təfərrüata, detallara müraciət etməmişdir. Sadəcə olaraq o, şah və vəzirlərin həyatından yalnız bir maraqlı və əlamətdar hadisəni təsvir etməklə, onların xarakterinin, mənəvi aləminin, əxlaqının tipik, səciyyəvi xüsusiyyətlərini açmağa nail olmuşdur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu dünya ədəbiyyatında çox nadir satiriklərə nəsib olan bir keyfiyyətdir.

“Aldanmış kəvakib”in satirik qəhrəmanları içərisində ilk növbədə şah Abbas surəti diqqəti cəlb edir. Povestdə şah Abbas surətinə geniş yer verilməmişdir. Ədib şahın əsas simasını, səciyyəvi sifətlərini, bir tərəfdən, bilavasitə onunla əlaqədər olan səhnələrdə, o biri tərəfdən isə onun vəzirlərinin fəaliyyəti əsasında şərh etmişdir. Biz eyni zamanda əsərin ümumi məzmunundan çıxış edərək şahın xarakteri, psixologiyası və mənəvi aləmi haqqında məlumatımızı kamilləşdirir, təsəvvürümüzü tamamlayırıq.

M.F.Axundzadə göstərirdi ki, İran şahı dövlət, hakimiyyət işlərinə heç bir ləyaqəti olmayan bir adamdır. Ali dövlət başçısının qarşısında duran böyük, məsul, ağır vəzifələr barədə onun ən adi təsəvvürü yoxdur. Şah yalnız öz şəxsi mənafeyini düşünür, günlərini eyş-işrətlə keçirir, İranı iqtisadi, siyasi və mədəni iflasdan xilas etmək, xalqın ağır güzəranını yaxşılaşdırmaq üçün heç bir tədbir görmür, bir təşəbbüs göstərmir. O, elm, mədəniyyət və tərəqqi aləmindən tam bixəbərdir. Şah Abbas hər cür münəccim xəbərlərinə inanır, hətta öz canını ulduzların bəlasından xilas etmək üçün şahlıqdan belə əl çəkir. Şah Abbasın hakimiyyəti illərində din xadimlərinə geniş ixtiyar verilmiş, ölkədə dini təəssübkeşlik, fanatizm, ruhanilərin xalqa zülmü olduqca qüvvətlənmiş, sünnilərə zorla şiə məzhəbi qəbul etdirilmişdir.

Povestdən belə bir qənaət alınır: hər şeydən əvvəl şahın nadanlığı üzündən İran dövləti və xalqı dəhşətli bir vəziyyətə düşmüşdür; ticarət və əkinçilik süqut etmiş, şəhər və kəndlər viran olmuş, körpülər və karvansaralar uçulub-tökülmüş, ölkə büsbütün bir xarabazara dönmüşdür. Hər yerdə zalım, nadan, ədalətsiz, rüşvətxor dövlət məmurları və feodal hakimləri xalqa olmazın zülm edir, onu soyub talayır, başına min bir oyun açırlar. Adi darğadan başlamış baş vəzirə qədər – bütün İran hakimləri nadürüst adamlar olsalar da, şah onlardan çox razıdır. Taxt-tacdan əl çəkən zaman Şah Abbas İranın ali hakimlərini saraya çağırıb onlara öz minnətdarlıq hissini belə bildirir: “Cəmaət, imdi yeddimci sənədir ki, mən cənabi-əqdəsi-ilahinin məşiyyəti ilə sizə padişaham və bəqədri-imkan sizin hər birinizə nəvaziş və mərhəmət göstərmişəm və sizdən dəxi çox razı və xoşnudam; çünki Səfəviyyə ocağına olan iradət səbəbilə həmişə mənə ixlas və sədaqət göstəribsiniz”.

Öz növbəsində İran hakimləri də şahdan çox razıdırlar, çünki şah Abbasın hakimliyi dövründə onların hamısının günü və işi “çox xoş keçirdi”.

“Aldanmış kəvakib”in final səhnəsində Şah Abbasın tam səciyyəsini verərək ədib yazırdı: “Bu kəvakibin həmaqətinə mən təəccüb edirəm ki, necə bilmədilər iranilər oları aldadırlar? Yusif Sərrac hərgiz İranın şahı deyil idi. İranilər onu hiylə üzündən padşahı-məsnu eləmişdilər. Belə sadəlik olurmu ki, kəvakib özlərini iranilərə aldadıb biçarə və bitəqsir Yusif Sərracı bədbəxt etdilər? Şah Abbası kənar qoyub qırx il sərasər onun səffaklığına və cəbbarlığına bietina nazir oldular?

Şah Abbas cəbbarlığının ədna əlaməti bu idi ki, bir oğlunu öldürdü, ikisinin dəxi gözünü çıxartdı”.

Şah Abbas surətində ali feodal hakimlərin tipik sifətlərini ustalıqla ümumiləşdirən ədib onu despotizm və özbaşınalıq, ədalətsizlik və qanunsuzluq, kütlük və nadanlıq timsalı kimi tam və parlaq verməyə nail olmuşdur.

Baş vəzir Mirzə Möhsün də şah kimi tutduğu yüksək rütbəyə heç bir ləyaqəti, iqtidarı olmayan bir hakimdir. Onun da ali dövlət başçısının üzərinə düşən yüksək, məsul vəzifələrdən heç bir xəbəri yoxdur. Onu da ölkənin iqtisadi-

siyasi süqutu, xalqın ağır vəziyyətə düşməsi qətiyyən düşündürmür. Mirzə Möhsün də nadan və fanatikdir, hər cür cəfəng münəccim xəbərlərinə inanır. İranda qanunsuzluğun, özbaşınalığın, rüşvətxorluğun geniş intişar tapmasına da ilk növbədə o, günahkardır. Baş vəzir bütün saray xidfətçilərindən müxtəlif bəhanələrlə bəxşeyiş adı altında rüşvət alıb, onlara məsul dövlət vəzifələrini açıqdan-açığa satır. Bunun nəticəsində İranda nadürüst adamlar bütün dövlət idarələrini öz əllərinə keçirmişlər. Lakin bu səfeh və cinayətkar hərəkətlərinə baxmayaraq, Mirzə Möhsün özünü İran dövlətinə, bilavasitə şah Abbasa böyük xidmətlər göstərən qabiliyyətli, müdrik, uzaqgörən bir vəzir sayır.

Maliyyə naziri Mirzə Yəhya baş nazirin yaxın qohumu və "dəsti-pərvərdəsi"dir, bilavasitə onun himayəsi altında böyük mənsəb sahibi olmuşdur. Mirzə Yəhyanın da ali məclisdəki çıxışından məlum olur ki, o, dövlətin ən adi qanunlarına belə əməl etmir. Nazir, bir tərəfdən kiçik məmurlara və qoşuna maaş verilməsi haqqında açıq əmr elan edir, ikinci tərəfdən isə, vilayət hakimlərinə məxfi məktub göndərir ki, onun xüsusi icazəsi olmadan heç kimə məvacib verilməsin. Mirzə Yəhya şah qarşısında öyünür ki, "həmin tədbir səbəbilə xəzineyi-amirənin mədaxili çox təzayüd behəm edibdir".

Baş sərkar Zaman xan da özünü "dövləti-aliyənin xədamatında ixlas və hünər ilə" xidmət edən ağıllı, tədbirli, uzaqgörən bir sərkərdə sayır. Lakin ali məclisdəki çıxışı aydın göstərir ki, o, qabiliyyətsiz, qorxaq bir ordu başçısıdır və öz fəaliyyəti ilə İranı dərin fəlakətə uğratmışdır.

Ali hakim surətləri içərisində mollabaşı Axund Səməd diqqəti xüsusilə cəlb edir. Ədib əsərində başqa ali hakimlərə nisbətən ona bir qədər geniş yer vermiş və mollabaşının əməllərini müfəssəl təsvir etmişdir.

Mollabaşı Axund Səməd İranın dövlət aparatında böyük nüfuza malikdir. O, bütün dövlət məsələlərinin müzakirəsində fəal iştirak edir: şah da, vəzir də onunla hesablaşır, məsləhətlərinə qulaq asır, ona xüsusi ehtiram bəsləyir, hətta bir qədər qorxurlar da.

Axund Səməd ali məclisdəki çıxışında öyünə-öyünə deyir ki, mollabaşı vəzifəsinə keçən kimi İran əhalisinin yarısını təşkil edən sünnilərə zorla şiəlik məzhəbini qəbul etdirmişdir. O, hətta İranda yaşayan erməni və yəhudilərə də şiə məzhəbi qəbul etdirmək əqidəsində olmuş, lakin "bir para xeyrəndiş kimsələr"dən başqa ölkələrdə bu xalqların dininə toxunulmadığını eşidib, öz təşəbbüsündən əl çəkmişdir. Şahın tam etimadını nazanmaq, sarayda öz nüfuzunu möhkəmləndirmək üçün mollabaşı islam dininin müqəddəs və toxunulmaz sayılan qanunlarını belə təhrif etmişdir.

Mollabaşı paxıl, xain və bədxah bir adamdır. O, baş münəcimə düşmən münasibət bəsləyir və onu aradan götürmək üçün bir bəhanə axtarır. Şahın gərgin, çıxılmaz vəziyyətə düşməsindən istifadə edərək, mollabaşı ona söyləyir ki, "münəccimbaşı kəvakibin təsirini bildirib, dəfinin əlacını izhar etməyibdir, əlbəttə, bir xəbis fikrə görə; necə ola bilər ki, zəhri göstərə, padzəhri

göstərməkdən özünü kənar çəkə". O, şahı qızışdırır ki, "bu hadisənin dəfi üçün onun özündən əlac istəsin. Əgər üzr gətirsə boynunu vurdursun".

İran hakimlərinin və ruhanilərinin eyiblərini xalq arasında ifşa etdiyi üçün mollabaşı Yusif Sərraca da dərin kin bəsləyir, onu da məhv etmək üçün bir bəhanə axtarır.

Ədib əsərində mollabaşı simasında ruhanilərin əsas səciyyəvi sifətlərini ustalıqla ümumiləşdirmiş və onları istibdad üsuli-idarəsinin müdafiəçisi, ölkədə dini fanatizmin, nadanlıq və geriliyin baisi, geniş xalq kütlələrinin, ölkənin mütərəqqi qüvvələrinin düşməni kimi kəskin tənqid atəşinə tutmuşdur.

Əsərdə Yusif Sərrac elmi, maarifi, iqtisadi-mədəni tərəqqini təmsil edən maarifçi hökmdar kimi qələmə alınmışdır. Lakin Yusif Sərracı yalnız müəllifin idealını əks etdirən rezonyer bir surət kimi səciyyələndirmək düzgün deyildir. Bu surətdə eyni zamanda Azərbaycanın, eləcə də İran və Türkiyənin mütərəqqi ziyalılarının bir sıra müsbət sifətləri öz əksini tapmışdır.

Yusif Sərrac kəndli ailəsində anadan olmuşdur. Onun atası bir "mömin və müttəqi" adam olduğundan oğlunu ruhani etmək arzusunda olmuş və onu Qəzvində dini məktəbə qoymuşdu. Qəzvində ruhani məktəbini bitirdikdən sonra o, təhsilini İsfahanda davam etdirmiş, sonra Kərbəla şəhərində "böyük alimlərin məclisində təkmili-ülumə" nail olmuşdu. İti ağıla, dərin müşahidə qabiliyyətinə malik olan, nəcib, ali hisslərlə yaşayan, həqiqət və doğruluğu hər şeydən üstün tutan Yusif ruhanilərin ikiüzlülüyünü, yalançılığını və tüfeyliliyini görüb, – onlara dərin nifrət bəsləyir və ruhani olmaq niyyətindən əl çəkir. Burada Yusif Sərracın həyatı bizə bilavasitə "Aldanmış kəvakib"in müəllifinin bioqrafiyasını xatırladır. Məlumdur ki, M.F.Axundzadə anasının əmisi Hacı Ələsgərin himayəsi və rəhbərliyi altında mükəmməl dini təhsil alsa da, molla və axundların eyiblərini yaxından müşahidə edib, ruhani olmaq səyindən imtina etmişdi.

Dini mənsəbdən üz döndərən Yusif sərraclıq sənətini öyrənir və İranın paytaxtı Qəzvində bir dükan açıb, öz zəhməti ilə ailəsini dolandırmağa başlayır. O, ətrafına bir qrupp həqiqətpərəst, ağıllı, sağlam düşüncəli adamları toplayıb, onlara öz görüşlərini təbliğ edir. Nadan və qabiliyyətsiz İran hakimlərinə, satqın və tüfeyli məmurlara dərin nifrət bəsləyən, zəhmətkeş xalqın dərd və halına ürəkdən acıyan Yusif Sərrac öz dostlarına və həmfikirlərinə cəsarətlə söyləyir ki, kəndxudadan tutmuş padşahadək bütün hakimlər "əhli-zələmə" və yolkəsəndirlər. Onlar ölkəyə və xalqa heç bir fayda vermir, öz işlərində qanun-qaydaya əməl etmir, yalnız öz şəxsi mənafeyi haqqında düşünür, biçarə xalqı müxtəlif cərimə və vergilər vasitəsilə soyub talayırlar. Yusif Sərrac ruhanilərin yalançılığını, ikiüzlülüyünü, tüfeyli həyat sürmələrini də kəskin tənqid edir, müqəddəs dini müharibələr, xüms və imam malı verməyin əleyhinə çıxır.

Bir təsadüf nəticəsində İranda şah olduqdan sonra Yusif Sərrac ölkədə geniş ictimai-siyasi və iqtisadi islahatlar keçirməyə başlayır. İlk növbədə o, İranın

ali hakimlərini həbs etdirir və onların vəzifəsini dərin hörmət və etibar bəslədiyi məslək dostlarına tapşırır. Münəccimlərin dövlətə və xalqa ziyandan başqa heç bir fayda vermədiklərinə görə münəccim vəzifəsini birdəfəlik ləğv etdirir.

Yeni şah bütün vilayət hakimlərinə belə bir təliqə göndərtdirir ki, onlar nahaq iş tutmasınlar, xalqı talayıb çapmasınlar, öz şəxsi mənafeyi üçün heç kəsi cərimə etməsinlər, burun-qulaqlarını kəsməsinlər, gözlərini çıxartmasınlar, ölümə məhkum etməsinlər. O, eyni zamanda hər vilayətə mötəbər baxıcılar yollayır ki, onlar ölkənin əhvalını, xalqın ehtiyaclarını öyrənib bu haqda şaha məlumat versinlər.

Yusif şah vilayət rəislərinə ciddi surətdə tapşırır ki, bundan sonra şaha və ali hakimlərə peşkəş adı altında rüşvət verib, mənsəb sahibi olmaq istəyənlərə heç bir vəzifə tapşırmasınlar, hakimlik vəzifəsinə dövlət işlərindən yaxşı baş çıxaran savadlı, qeyrətli, namuslu adamları cəlb etsinlər.

Dövlət gəlirini nizama salmaq üçün Yusif şah qərar qoyur ki, bütün əhalidən – şahzadələrdən, bəyzadələrdən, bəylərdən, tacirlərdən, ruhanilərdən və başqa hakim-imtiyazlı təbəqələrdən vergi alınsın, şəhər əhli öz gəlirindən ondan biri, kənd əhli isə iyirmidən biri qədər dövlət xəzinəsinə vergi versin. O, ölkədə dini işlərin nizama salınması, din xadimlərinin hüquqlarının məhdudlaşdırılması, şəhər və kəndlərdə ruhanilərin sayının azaldılması haqqında xüsusi dövlət idarələrinə tapşırır, xüms və imam malı toplanmasını qəti qadağan edir. Yusif şah ticarət və əkinçiliyin inkişafına, yolların təmir olunmasına, körpülər salınmasına, karvansaralar tikilməsinə, xəstəxanalar və məktəblər açılmasına, susuz yerlərə su çıxarılmasına, dullara, yetimlərə və şikəstlərə ianə verilməsinə xüsusi diqqət yetirir və ölkə, xalq üçün faydalı olan başqa tədbirlər görür.

Yeni şahın geniş islahatları sayəsində İranın ictimai-siyasi həyatında böyük dəyişiklik yaranır, onun padşahlığı vaxtında "İran üçün əyyami-firuzluq, əyyami-səadət və iqbal üz" verir.

Yusif şahın fəaliyyətinin mahiyyətinə nüfuz etdikdə aydın olur ki, onun islahatları obyektiv olaraq İranın orta əsr feodal ziddiyyətlərindən və ictimai yaralarından xilas olub, tam yeni inkişaf yoluna düşməsinə, ölkədə burjua münasibətlərinin bərqərar olmasına aparıb çıxardır. Axundzadənin bu müsbət qəhrəmanının orta əsr klassik poeziyamızda və xalq ədəbiyyatında təsvir olunmuş ideal şah surətlərindən fərqi və ədəbi-ictimai fikir inkişafı tariximizdə böyük qiyməti, orijinallığı da məhz bundan ibarətdir.

M.F.Axundzadə "Aldanmış kəvakib" povestini yazdığı illərdə belə bir əqidədə idi ki, feodal cəmiyyətinin qəbahətlərini və ziddiyyətlərini adil, ağıllı, namuslu hökmdarın yuxarıdan islahatlar keçirməsi yolu ilə aradan götürmək və ölkənin, xalqın iqtisadi-mədəni tərəqqisinə nail olmaq mümkündür. Şübhəsiz ki, M.F.Axundzadənin bu arzuları maarifçilik xülyaları ilə bağlı idi. Məlumdur ki, keçən əsrin 70-ci illərində o, bu xülyalardan tam xilas olub,

feodal cəmiyyətinin xalq üsyanı vasitəsilə məhv edilməsi qənaətinə gəlib çıxmış və Azərbaycan ictimai-siyasi fikir tarixində inqilabi demokratizm ideyalarının ilk əsaslarını qoymuşdu.

"Aldanmış kəvakib" bədii keyfiyyət cəhətdən də yüksək məziyyətlərə malikdir. Povestdə yeni mütərəqqi ideyalar orijinal və maraqlı bir bədii formada əks olunmuşdur.

M.F.Axundzadə əsərin bütün bədii komponentlərini feodal cəmiyyətinin ictimai yaralarının kəskin tənqidinə, maarifçilik ideyalarının aydın və bariz təbliğinə yönəltmiş, tabe etmişdir.

"Aldanmış kəvakib" dil və üslub baxımından da çox diqqətə layiqdir. Povestin əvvəlində hadisələr sakit, rəvan, səlis bir dil və üslubda nəql olunmağa başlayır. Lakin bu sakit, rəvan, dil və üslub hadisələrin inkişafının istiqamətinə və müəllifin qarşısına qoyduğu məqsədə uyğun olaraq tezliklə və hiss edilmədən tənqidi, satirik mahiyyət alır. Bu cəhət xüsusən İranın ali hakimlərinin təsvirində özünü daha aydın, qabarıq göstərir. Ədib bilavasitə İranın ali hakimlərinin öz dili ilə, dediyimiz kimi, başlıca olaraq ali məclisdəki bir çıxışı ilə, onların komik mahiyyətini açıb göstərmiş və dolğun bədii portretlərini yaratmışdır. O, eyni zamanda qəhrəmanlarının hər birini özünəməxsus bir tərzdə danışdırmış, dildə fərdiləşdirməni məharətlə gözləmişdir.

Ədib əsərində saray həyatını, ali dövlət hakimlərini qələmə aldığı üçün dildə təntənəni, etiketi, bər-bəzəyi gözləməli olmuş və qəhrəmanlarının dilində çoxlu ərəb-fars söz və ifadə işlətmişdir. Bu, şəksiz, təsvir olunan həyatın, təqdim olunan surətlərin mahiyyətindən irəli gəlmişdir.

M.F.Axundzadə Yusif Sərracı hadisələrin sonrakı inkişafına cəlb etməklə əsərinin məzmununda və ideya istiqamətində dönüş yaratdığı kimi, üslub və dilində də əsaslı dəyişiklik etmişdir. Bu zaman povestdə hadisələr, Yusif Sərracın əməlləri, bir şah kimi fəaliyyəti səlis, aydın, bitkin ğir üslub və dildə təsvir olunur. Yusif Sərrac surətində maarifçi hakim ideyasını irəli sürən ədib onu savadlı, ağıllı, mədəni bir ziyalı kimi danışdırır.

"Aldanmış kəvakib" povesti Yusif Sərracın taxtdan salınması və şah Abbasın yenidən hakimiyyətə gətirilməsi ilə tamamlanır. Buna münasib olaraq ədib əsərinin üslub və dilində də yenidən dəyişiklik edir. Əsər istehza, kinayə, rişxəndlə yoğrulmuş dərin sətiraltı mənası olan belə bir cümlə ilə bitir; "Vallah, qəribə əhməqdirlər bu ingilis tayfası ki, belə xətərli millət ilə az qalmışdı cəng başlayalar".

M.F.Axundzadə "Aldanmış kəvakib"in dilində uzunçuluğa, geniş, yersiz təfərrüata, təsvirlərə, ritorikaya, bər-bəzəyə yol verməmişdir. Aydınlıq, yığcamlıq, sözə qənaət, az sözlə böyük fikir ifadə etmək, eyni zamanda ifadəlilik, emosionallıq onun mühüm sənətkarlıq məziyyətlərindəndir.

Yüksək ideya-bədii keyfiyyətlərlə səciyyələnən "Aldanmış kəvakib" povesti Azərbaycan bədii nəsrinin klassik nümunəsi kimi diqqətəlayiqdir.

Mirzə Fətəli öz əsəri ilə ədəbiyyatımızda realist ədəbi prinsiplərin və maarifçilik ideyalarının inkişafı sahəsində misilsiz rol oynamışdır.

M.F.Axundzadənin bədii əsərlərinin böyük ictimai-tərbiyəvi əhəmiyyəti olmuşdur. Feodal cəmiyyətinin əsas ictimai eyib və ziddiyyətlərini satira atəşinə tutan və maarifçi-demokratik ideyalar təbliğ edən M.F.Axundzadənin bədii yaradıcılığı geniş zəhmətkeş kütlələrin ictimai şüurunun oyanmasında mühüm rol oynamış, onlarda zülüm və özbaşınalığa, qanusuzluq və ədalətsizliyə, gerilik və ətalətə, bütövlükdə feodal üsuli-idarəsinə qarşı nifrət hissi aşılamış, onları iqtisadi-mədəni tərəqqi, azad və xoşbəxt həyat uğrunda mübarizəyə ruhlandırmışdır.

M.F.Axundzadə Azərbaycan ədəbiyyatının gələcək inkişafına qüvvətli təsir göstərmişdir. Görkəmli Azərbaycan yazıçıları N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, R.Əfəndiyev, S.S.Axundov, N.Nərimanov bilavasitə M.F.Axundzadənin təsiri altında bədii yaradıcılığa başlamış, onun ədəbi ənənələrini yeni tarixi şəraitdə davam və inkişaf etdirərək, milli dramaturgiyamızı və nəsrimizi yeni ideya-estetik keyfiyyətlərlə zənginləşdirmiş, tənqidi-realist ədəbiyyatımızı yüksək bir mərhələyə qaldırmışlar.

Yaxın Şərq ölkələrində, xüsusən, Cənubi Azərbaycanda və İranda dramaturgiyanın və yeni bədii nəsrin təşəkkülü də bilavasitə M.F.Axundzadənin adı ilə bağlıdır. Keçən əsrin son rübündə M.F.Axundzadənin bilavasitə təsiri altında Cənubi Azərbaycan yazıçılarından Mirzə Ağa Təbrizi bir sıra qiymətli komediyalar, Zeynalabdin Marağayi və Əbdürrəhim Talıbov isə romanlar yazmaqla Cənubi Azərbaycanda və İranda dramaturgiya və bədii nəsrin əsaslarını qoymuşlar.

M.F.Axundzadənin bədii yaradıcılığı öz ictimai-tərbiyəvi və bədii qiymətini indi də saxlamaqdadır. Axundzadə hər şeydən əvvəl nadanlığı, tüfeyliliyi, əməyə xor münasibəti, acgözlüyü, özbaşınalığı, haqsızlığı kəskin tənqid atəşinə tutan və zəhməti, maarifi, elmi, iqtisadi-mədəni tərəqqi ideyalarını qızğın təbliğ edən bir realist yazıçı kimi qiymətlidir.

Azərbaycan ədəbiyyatının yaranması və inkişafında M.F.Axundzadənin bədii əsərlərinin əhəmiyyətli rolu olmuşdur. Keçmişin mütərəqqi ənənələrini yeni tarixi şəraitdə, orijinal bir tərzdə davam və inkişaf etdirən Azərbaycan yazıçıları M.F.Axundzadə irsindən çox şey öyrənmişlər.

M.F.Axundzadənin ədəbiyyatımızın qızıl fonduna daxil olmuş ölməz bədii əsərləri yazıçılarımız üçün bir sənət məktəbi olaraq qalmaqdadır.

***Nadir Məmmədov***

# Komediyalar

# HEKAYƏTİ-MOLLA İBRAHİMXƏLİL KİMYAGƏR

*Təmsili-qisseyi-vaqiə ki, keyfiyyəti dörd məclisdə bəyan olub itmamə yetir*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Molla İbrahimxəlil – kimyagər, kəldəkli.[1]
Molla Həmid – onun şagirdi, samuxlu.[2]
Dərviş Abbas – onun nökəri, iranlı.
Hacı Kərim – zərgər, nuxulu.
Ağa Zaman – həkim, nuxulu.
Molla Salman – mərhum Molla Cəlil alimin oğlu, nuxulu, mərtub və qəviheykəl.
Məşədi Cabbar – tacir, nuxulu.
Səfər bəy – mülkədar, nuxulu.
Şeyx Salah – xaçmazlı.
Hacı Nuru – şair, nuxulu.

## ƏVVƏLİMCİ MƏCLİS

Nuxu şəhərində Hacı Kərim zərgərin evində vaqe olur min iki yüz qırx səkkizinci ildə,[3] baharın orta ayında. Hacı Kərim zərgər, xaçmazlı[4] Şeyx Salahın Nuxuya varid olduğu səbəbindən öz evinə dəvət edibdir: aşnaları Ağa Zaman həkimi və Molla Salmanı və Məşədi Cabbar taciri və Səfər bəy mülkədarı və həm Şeyx Salah xaçmazlını. Amma Hacı Nuru şair ittifaqən çağırılmamış gəlibdir. Tamam əhli-məclis öz adəti libaslarında əyləşiblər. Şeyx Salahdan başqa ki, müəmməmdir, əlində uzun təsbeh çevirir. Ev sahibi Hacı Kərim zərgər əhli-məclisə mütəvəcceh olub mətləb başlayır.

Hacı Kərim zərgər. Həzərat, bilirsiniz ki, mən sizi nə işdən ötrü çağırmışam?

Məşədi Cabbar tacir. Biz bir zad bilmirik.

Hacı Kərim. Sizə qəribə xəbərim var. Kəldəkli Molla İbrahimxəlil, deyirlər ki, Tiflisə gedib, rüsxət alıb, gəlib Xaçmazın dağlarında çadır qurub, kimya qayırır. Məsələn, bir zad dürüst edibdir ki, adına iksir deyirlər. Bir misqal ondan bir batman misə vurur, xalis gümüş olur.

Ağa Zaman həkim. Mən dəxi eşitmişəm.

Hacı Kərim zərgər. Şeyx Salah öz gözü ilə görübdür ki, Əylis erməniləri iyirmi beş min manat sikkəli pul gətirib, Molla İbrahimxəlildən əlli put xalis gümüş alıb aparıblar; belədimi şeyxəna?!

Şeyx Salah. Bəli, oxuduğum haqqı,[5] mən gözumlə gördüm ki, Molla İbrahimxəlilə hər kəs sikkəli pul gətirdisə, iki çəkisi bərabəri sikkəsiz xalis gümüş aldı apardı.

Səfər bəy mülkədar. Biz də gedək, alaq!

Molla Salman. Əgərçi nəqd pulumuz yoxdur, amma mən pullu Hacı Rəhim ilə dostam, əgər bir ilə on-on iki fayda və möhkəm girov verməyə razı olursunuz, mən ondan sizə və özümə nə qədər pul istəsəniz ala bilərəm.

Məşədi Cabbar tacir. Molla, mənim özümün pulum var, amma tamam nisyədir. Tezliklə ələ gətirmək çox çətindir. Əgər mümkün olur isə, mənim üçün Hacı Rəhimdən min manat al, iki dükanım var, yanında girov olsun.

Hacı Kərim zərgər. Min manat da mənim üçün al, evimi girov verdim.

Ağa Zaman həkim. Min manat da mənim üçün al, övrətimin bağını girov verdim.

Səfər bəy mülkədar. Min manat da mənim üçün al, kəndim girov olsun.

Hacı Nuru şair (*bimövqe cibindən bir kağız çıxarmış*). Həzərat, bir yaxşı əhvalat, yəni avar ləzgisi altmış il bundan əqdəm Xanbutayın sərkərdəliyilə Nuxunu gəlib çapdığını nəzm etmişəm. Hələ bir qulaq asın, onu oxuyum, görün bu keyfiyyəti necə bəlağət və fəsahətlə bəyan etmişəm.

Ağa Zaman həkim. Eh, Hacı Nuru, bu məclis nə şeir məclisidir! Ağzımızda söz danışırıq, məsləhət edirik, bu da gəldi ki, mən altmış il bundan əvvəl olan keyfiyyəti nəzm etmişəm. Ləzgi belə gəldi, belə getdi, bizə nə və bunun bizə faydası var?

Hacı Nuru şair (*incimiş*). Necə nə faydası var? Görərsiniz ki, o vaxt ləzgilər nə işlər sizin babalarınızın başına gətiriblər, nə birəhmlik onların haqqında ediblər. Məgər keçmiş güzarişatı bilmək bifaydadır?

Hacı Kərim zərgər (*xoşluqla*). Hacı Nuru, hələ şeir oxumaq vaxtı deyil. Bir özgə farağat vaxtda oxuyarsan. İndi de görək, Molla İbrahimxəlildən gümüş almağa getməyi sən dəxi məsləhət bilirsənmi? Yəqin ki, sənin dəxi əqlin qəbul edən işdir.

H a c ı  N u r u  ş a i r (*mükəddərliklə*). Xeyr!

M o l l a  S a l m a n. Nə səbəb ilə?

H a c ı  N u r u  ş a i r. O səbəbə ki, hər kəsin öz sənəti özünə iksirdir və xoş güzəranlığına baisdir; dəxi nə lazımdır ki, adam kimyagərlərin dalısınca düşsün. Molla İbrahimxəlili mən görməmişəm, amma fərasət ilə bilirəm ki, haramzadalıq pəstahası açıbdır. Hərçənd bir neçə vaxt bundan irəli, belə deyirlər, o, Tiflisə getmişdi, amma ona kimya qayırmağa kim izin verdi və kim gördü? İksirin aləmdə vücudu yoxdur. Əgərçi Xaçmazdan gələn bu Şeyx Salah sizi bir mərtəbədə inandırıb və əqlinizi çaşdırıb ki, mənim sözümə hərgiz etimad etməyəcəksiniz.

H a c ı  K ə r i m  z ə r g ə r. İksirin aləmdə vücudu olmağına dəlil çoxdur, ehtiyacı təqrirə yoxdur. Hələ sən bunu isbat elə ki, hər kişinin öz sənəti necə özünə iksirdir? Mən ki, zərgərəm, yövmiyyə xərcimdən ötrü acizəm.

H a c ı  N u r u  ş a i r. Ondan ötrü ki, xalqın arasında etibardan düşübsən. Heç kəs sənə iş tutdurmur. Əvaildə yanına əsbab qayırmaq üçün hər nə qədər qızıl və gümüş gətirdilər, nisfindən artıq oğurladın, mis və bürünc qatıb sahiblərinə rədd etdin, axırda fisqin büruz etdi. Dəxi yanına bir adam iş gətirmir. Əgər doğru rəftar eləsəydin, əlbəttə, indi dövlətli kimsənələrin biri idin.

A ğ a  Z a m a n  h ə k i m. Xub, mən niyə biövzaəm?

H a c ı  N u r u  ş a i r. Ondan ötrü ki, öz sənətini tərk edib bilmədiyin işə ayaq qoydun; həkimlik sənin sənətin deyil idi. Sənin atan usta Rəhman dəllək, ülgüc-bülöv ilə məqul dövlət qazandı, sən puç etdin. Mərhum zəhmət çəkib sənə pakizə dəlləklik öyrətmişdi, sən ona razı olmayıb, Tiflis dəlləkləri kimi, istədin ki, həkimlikdə dəxi şöhrət edəsən. Odur, bir qəbiristanlıq adam qırdın, xalq işindən başa düşdü, tərkini qıldı. İndi nə dəlləksən, nə həkim... Neçə kərə mən sənə dedim ki, rus həkiminin yanına gedib barı qızdırma davasını ondan öyrən; qarpız suyu ilə qızdırmaya müalicə etməkdən əl çək, sözümə qulaq asmadın...

A ğ a  Z a m a n (*etiraz ilə*). Mən dedilər ki, rus həkimi qızdırmaya xleb-sol ilə müalicə edir. Rus dili bilənlərdən soruşdum: sol nədir? Dedilər duz. Mümkünmüdür qızdırmaya müalicə etmək duz ilə?

M o l l a  S a l m a n (*Ağa Zamanın ağzını yumub*). Kəs səsini, allahı sevirsən. Həmaqətini az bildir, o duz başqa duzdur. (*Sonra üzün Hacı*

*Nuruya tutub*). Hacı Nuru, sənin qiyasına görə mən gərək Qarun[6] olaydım; bəs niyə bir həsir və lüləyindən qeyri bir zada malik deyiləm?!

Hacı Nuru şair. Onun da səbəi var. Ondan ötrü ki, sən çox yaxşı qatırçılığa layiqsən; amma beyninə düşübdür ki, mən də gərək molla olam, ondan ötrü ki, atam molla idi. Atan oxumuşdu, kamalı var idi, molla idi. Sən ki öz adını dürüst yazmağa qadir deyilsən; nə üçün molla olursan? Kamal ata kürkü deyil ki, irslə övlada yetişə. O səbəbdən xalq arasında miqdarın yoxdur; dövlətin haradan olsun? Əgər qatırçılıq etsəydin, bu qavara və zor ilə ildə əlli manata pul deməzdin.

Səfər bəy mülkədar. Mənim niyə dövlətim yoxdur?

Hacı Nuru şair. Sən mülkədarsan, sənə lazım idi ki, əkdirəydin, biçdirəydin və dövlət qazanaydın; amma sən əbəs yerə özünü saldın qalmaqala, durdun onun ilə, bunun ilə döyüşməyə, xalqın dalısınca yaman sözlər danışmağa. Ümənayi-dövləti təqsirlidən, təqsirsizdən şikayət etməklə təngə gətirdin. Axırda nadinc adam qələminə getdin. Üç il divana düşdün, üç il sürgünə sürüldün, gözəl ömrün keçdi. İndi istəiyrsən ki, bir yalançı kimyagərin dövlətindən birdən pullanasan, necə ki, Məşədi Cabbar təməinin çoxluğundan puluna yekə-yek fayda kəsib, tamam cüsvi tənxahını birdən xalqa dağıtdı ki, birdən pullansın. İndi yalnız tənxahına da razıdır, əgər ələ gələ...

Hacı Kərim zərgər. Cənab şair, bərfərə ki, bizim hər birimizdə bir təqsir var ki, sənətindən bəhrəyab olmur, bəs sən niyə öz sənətindən xoşgüzəran deyilsən? Qış tapsan, yaz tapmazsan; yaz tapsan, qış tapmazsan; sənin sözünlə, sənin hünərin, yəni şeir demək bəs gərək bir böyük iksir olaydı?!

Hacı Nuru şair. Bəli, mənim hünərim filhəqiqə iksirdir. Amma necə ki, siz deyirsiniz, iksirə laməhalə başqa filizzat lazımdır ki, onun təsirini qəbul edə; habelə mənim hünərim üçün dəxi ərbabi-zövq və kamal və mərifət lazımdır ki, dediyim əşarın qədrini biləl期. Zəmani ki, mənim bəxtimdən həmşəhərlilərim də ki, sizsiniz, nə kamal var, nə ağıl var, nə beyin var; bu surətdə mənim hünərimdən nə fayda hasil olacaq, mənim şerim nəyə məsrəfdir?

Hacı Kərim zərgər. Bu nə qələt edir, nə yava danışır? Səni kim bu məclisə çağırdı? Nəsihət verən vaqe oldu! Görəsən, haradan bu belə filosof olubdur? Çıx get, sənin nəsihətin bizə lazım deyil!

Tamam əhli-məclis (*bir yerdən*). Çıx get, sənin nəsihətin bizə lazım deyil!

Hacı Nuru şair (*tələsik şeir kağızını götürüb qoynuna dürtüb*). Gedirəm, doğru söz acı olar (*gedir*).

Hacı Kərim zərgər (*əhli-məclisə*). Həzərat, sözümüz sözdür. Gərəkdir ki, gələn həftənin başında pullar hazır ola, yola düşək Molla İbrahimxəlilin hüzuruna, Xaçmaz dağlarına.

Tamam əhli-məclis (*bir yerdən*). Bəli sözümüz sözdür.

*Pərdə salınır*

## İKİMCİ MƏCLİS

İkimci məclis Xaçmaz dağında vaqe olur. Dağın damənəsində bir müsəttəh və müəttər və rəngarəng gül, giyah ilə müzəyyən çəməndə iki çadır qurulubdur. Əlli qədəm bir-birindən aralı çadırların aşağı tərəfində ağacdan bir çardaq tikilib, içində böyük bir misgər kürəsi və bu kürəyə münasib bir körük nəsb olub. Kürənin çevrəsində ənbar ilə əzilmiş mis paraları tökülüb, guya tezliklə ərinib gümüş olasıdır. Çadırın birisinin yavığında genə ağacdan çardaq qurulubdur.

Çəmənin üst tərəfi getdikcə uca, qarlı dağlara müttəsil olur və qabağında bir dərə var, içindən bir balaca çay axır. Dərənin hər iki tərəfində bitmiş yüzillik palıd və fısdıq ağaclarının budaqları ahəstə əsən nəsimdən hərəkətdədir. Ənva və əqsam quşlar ağacların bir budağından o biri budağına qalxıb, qonub mövzun nəğəmat ilə dərəyə qülğülə salırlar. Çəmənin müqabilindən bir budaq suyu qayadan ahəstə və həzin səs ilə axıb dərəyə tökülür və axdıqca qətəratı ətrafa səpələnir. Çəmənin gündoğan tərəfi göz işləməyən səhradır. Dərəyə getdikcə çadırların birisində sakindir Molla İbrahimxəlil kimyagər, birisində Molla Həmid, onun şagirdi. Balaca çardaqda olur dərviş Abbas, onun xidmətkarı, öz alət və əsbabi ilə.

Sübhdən iki saat keçmişdi. Günün şüası dərədən tədriclə mütəsaid olan dumanın üstündə bərq vururdu. Bu halda Molla İbrahimxəlil kimyagər öz çadırından çıxıb, şagirdi Molla Həmidin çadırı tərəfinə üz qoyub Molla Həmidi çağırır. Molla Həmid çadırdan çıxıb qabağına gəlir, ədəbli durur. Molla İbrahimxəlil başlayır ona deməyə.

Molla İbrahimxəlil. Molla Həmid, Nuxudan yola düşən adamlar Şeyx Salahın yazmağına görə, gərək bu gün ilkindi çağı buraya yetişsinlər.

Molla Həmid. Bəli, ağa, dəxi tez.

Molla İbrahimxəlil. Molla Həmid, onlar gələndə hörmət elə, çadırda əyləşdir, əhvalat xəbər al, soruş ki, nə mətləbə gəliblər. Əgər desələr ki, pul gətirmişik, gümüş alacayıq, de ki, ustadım keçmiş kürələrin gümüşünü tamam Əylis ermənilərinə veribdir və bu əldəki

kürənin gümüşü dəxi onlara satılıbdır və ikinci kürənin iksirinin təkmil və tamam olmağına bir ay qalıbdır. Nahaq yerə siz cəfa çəkib gəlibsiniz... Ustadım sizdən nə pul qəbul edəcəkdir və nə gümüş verə biləcəkdir. Əgər məni görmək istəsələr, de ki, ustadım üç günün etikafına əyləşib, ibadətdədir. Bu üç gündə adamla görüşmək və danışmaq ona mümkün deyil.

Molla Həmid. Niyə, ağa, belə buyurursan? Bəlkə elə dedim, pulları götürdülər, geri qayıtdılar.

Molla İbrahimxəlil. Qəribə əhməğsən, sən nuxuluları mənə tanıdırsan? Onları öldürməsən, məni görməmiş və pulları mənə verməmiş buradan getməzlər. Sənə hər necə deyirəm, elə eylə. (*Gedir öz çadırına*)

Molla Həmid (*dalınca)*. Baş üstə, ağa.

Bundan sonra, axşama iki saat qalmış nuxulular yetişir. Molla Həmid çadırdan onların qabağına çıxır.

Nuxulular (*Mola Həmidə*). Salam-əleyküm!

Molla Həmid (*onlara*) Əleyküm-səlam! Xoş gəlibsiniz, səfa gətiribsiniz. Buyurun çadıra, əyləşin, rahat olun!

Nuxulular (*Molla Həmidə*). Çox müştaqvar idik sizi görməyə. Əhvalınız yaxşıdırmı? Damağınız çağdırmı?

Molla Həmid. Allaha şükür, belə səfalı yerdə, yaylada damağ çağ olmazmı? Xüsusən Molla İbrahimxəlil kimi büzürgüvarın xidmətində!..

Nuxulular. Bəli, belə səfalı yerlər çox tapılar, amma Molla İbrahimxəlil kimi büzürgüvar ələ düşməz. Aya, biz bu gün o cənabın ziyarətinə müşərrəf ola bilərikmi?

Molla Həmid. Mövlana üç günün etikafına oturub, ibadətlə məşğuldur. Bu üç gündə bəni-adəm ilə mülaqat və mükalimə etmək və bir tərəfə çıxmaq ona mümkün deyil. Üç gündən sonra onu görmək olar. Hələ buyurun görək zəhmət çəkməyinizdən qərəz məhz o cənabın ziyarətidir, ya başqa bir məramınız dəxi var?

Nuxulular. Əvvələn, o cənabın ziyarəti ümdə mətləbdir. Saniyən, hər birimiz bir töhfeyi-həqir xidmətinə gətirmişik, əgər qəbul edib öz şəfqətini bizə şamil edə.

Molla Həmid. Bəli, anladım Yəqin ki, pul gətirmişsiniz, gümüş almaq istəyirsiniz. Həqiqəti – mətləb budur ki, mövlana Molla İbra-

himxəlil sizdən pul almayacaqdır; ondan ötrü ki, keçən kürənin və əldəki kürənin gümüşünü tamam sikkəli pulun iki çəkisi bərabəri sövda edib veribdir və ikinci kürənin də iksirinin tamam və təkmil olmağına bir ay qalıbdır. Bu surətdə mümkün deyil ki, mövlana sizin pullarınızı qəbul etsin və sizə gümüş verə bilsin. Ələlxüsus, gümüş xahiş edənlər bir mərtəbədə çoxdur ki, hər kürənin gümüşünü bir ay, iki ay pişəki sövda edib alırlar.

N u x u l u l a r. Bizim ixlasımızın nisbəti mövlana Molla İbrahimxəlilə görə sair kimsənələrin ixlasına bənzəməz. Əgər biz özünü görə bilsəydik, çox yaxşı olardı.

M o l l a  H ə m i d. Bu surətdə üç gün gərək səbr edəsiniz, taki mövlana müddəti-etikafını itmamə yetirə. Üç gün mənim əziz qonağımsınız.

N u x u l u l a r. Çox yaxşı, çox gözəl.

Bu halda dərviş Abbas, sinni otuz, saçları çiyninə tökülmüş, kəndümgün, qırmasaqqal, dolu bığlı, uca qamətli, başında tac, çiynində pələng dərisi, əlində şahnəfir, qoltuğunda bir qırmızı böyük xoruz öz mənzilindən çıxıb heybətli səs ilə "ya hu, ya həqq" deyib, çadırların yuxarı səmtinə üz qoyub, bir münasib yerdə mıx çalıb, üç kərə şahnəfiri bozluyub, dağa-daşa səs salıb, xoruzu mıxa bağlayıb, Şeyx Sədinin[7] əşarından bu üç fərdi xoş avaz ilə oxuyur.

NƏZM

Ruzi – bəharəst xiz, ta bə – təmaşa rəvim,
Təkyə bər əyyam nist, ta digər ayəd bəhar.
Xiz qənimət şümər cünbüşi – rəbi,
Naleyi – mövzuni – mürğ, buyi – xoşi – laləzar,
Bərki-dirəxtani-səbz dər nəzəri-huşmənd,
Hər vərəqi dəftərist mərifəti kirdgar.[8]

Genə üç kərə şahnəfiri bozluyub, xoruzdan on qədəm iraq otların üstündə pusti – pələngi salıb, genə qaim və heybətli səs ilə "ya hu, ya həqq" çağırıb, pusti – pələngin üstündə iki dizin qucaqlayıb oturur. Nuxulular dərvişin və şahnəfirin səsindən əvvəl halda sərasimə çadırdan dişqarı sıçrayıb, bu növ haləti – qəribənin müşahidəsindən mədhuşvar keyfiyyətin axırınadək nigaran olub, dağdan-daşdan avazın əksi kəsilib sakit olandan sonra, nəhayət, təəccüb ilə Molla Həmidə mütəvəccəh olub məqami – suala gəlirlər.

N u x u l u l a r (*Molla Həmidə*). Molla Həmid, bu dərviş nədir, bu xoruz nədir?

Molla Həmid (*qəhqəhə ilə*). Xa-xa-xa-xa-xa-xa! Bəli, bu sualı etməyə haqq tərəfinizədir. Çünki siz biçarələr əsrardan qafil və ülmumi – hikmət və kimyadan bixəbər adamlarsınız. Aman ələf ki, iksirin güzi-əzəmidir və vücudu bu dağlarda olur və mövlana Molla İbrahimxəlildən başqa bir kimsənə onu tanımağa qadir deyil, hükəmayi – yunanın təhqiqinə görə xoruz sövti ilə nümuvv edər; dərviş Abbasın öhdəsinə müqərrərdir ki, hər axşam bu xoruzu gətirib, haman gördüyünüz rüsumu cari edib bir təzə yerdə bağlasın. Gecə-sabahadək yatmasın, xoruzu çaqqal və tülküdən mühafizə etsin; tainki gecə xoruz banlasın və onun səsi ilə ələfi-iksir nümüvv etsin və xoruzun xidməti bə-qeyr əz tayifeyi dərviş sair əsnafi-xəlqə caiz deyil; necə ki, kitabi – Əcaibül – Qəraibdə sərahətən qeyd olunubdur.

Nuxulular (*təəccüb üzü ilə*). Allahü əkbər... Sübhanallah...

*Pərdə salınır*

## ÜÇÜMCÜ MƏCLİS

Üçüncü məclis genə haman yerdə Molla İbrahimxəlilin çadırında vaqe olur. Molla İbrahimxəlil, sabah vaxtı səccadə üstündə, başında əmmamə, əlində uzun təsbeh, dizi üstə oturub övrad[9] oxumağa məşğuldur. Molla Həmid, onun şagirdi, əl bağlayıb qabağında durubdur.

Molla Həmid. Ağa, buyurursunuzmu, qonaqları hüzurunuza çağırım?

Molla İbrahimxəlil. Yaxşı, get çağır.

Molla Həmid baş vurub çadırdan çıxır. Nuxulular ilə bərabər qayıdıb Molla İbrahimxəlilin hüzuruna daxil olur.

Nuxulular (*bir yerdən Molla İbrahimxəlilə*). Sələməleyküm!

Molla İbrahimxəlil təbəssüm ilə halətinə əsla təğyir verməmiş, ahəstə gah o tərəfə gah bu tərəfə yırğanmaqda təsbehin dənələrin çevirə-çevirə səlamı rədd edir.

Molla İbrahimxəlil. Əleyküm-səlam, xoş gəlibsiniz, səfa gətiribsiniz. Zəhmət çəkibsiniz (*Nuxululara yer göstərir oturmağa*).

Nuxululardan birisi (*oturandan sonra*). Sizin kimi büzürgüvarın ziyarəti üçün çəkdiyimiz zəhmət bizlərə eyni rahət və səadət göründü.

M o l l a  İ b r a h i m x ə l i l  (*kəmali-istiğna və təbəssümlə*). Mənim şagirdim Molla Həmid, sizin hüsni-övsafınızı mənə təqir edibdir. Mən də sizi görməyə çox şaiq idim. Nəhayət, bir əmr barəsində, vallah, bilmirəm necə deyim, zahirən sizdən şərməndə olacağam; çünki Molla Həmidin təqririndən məlum oldu ki, siz guya bir miqdar pul gətirib gümüş xahiş edirsiniz.

N u x u l u l a r  (*təməllüq ilə*). Bəli, ağa, əgər şəfqətiniz şamil olsa.

M o l l a  İ b r a h i m x ə l i l  (*xoşnudluqla*). Vallah, sizin kimi əziz qonaqlardan şərməndə oluram. Gümüş müştərisi o qədərdir ki, hər kürənin gümüşünü bir ay, iki ay pişəki alıb pulun verirlər. Keçmiş və əldəki kürələrin gümüşünü alıblar. Bu ayın başında tamam olası iksirin və kürənin gümüşünü də Vartaşen yəhudiləri yalvarıb alıblar. Bu yavuq zamanda getdilər pul gətirməyə. Bu xüsusda mən hətta hələ Molla Həmidə də deməmişəm, çünki onun yəhudilərdən zəhləsi gedir. Amma mənim olara rəhmim gəldi. Çünki onlar bu yavuq kənddə olduqları cəhətdən mənə çox qulluq edirlər.

M o l l a  H ə m i d  (*miyani-kəlamda*). Ağa, bunlar...

M o l l a  İ b r a h i m x ə l i l. Hələ yavaş! Müxtəsəri-kəlam gümüş xahiş edənlər bir mərtəbədə çoxdur ki, hətta mənə aman vermirlər ki, iksirin müddətitəkmilini itmamə yetirəm. Çünki iksirin əcza tərkibi gərək iyirmi gün müttəsil kükürd ərəqində yata, gilihikmətdən qayrılmış zərfin içində və hər gün miqdari-müəyyəndə ona təzə ərəqi-kükürd qatıla. Sonra həmin əczayi-iksir gərək on gün müttəsil tizabiərğəvanidə qəri inqibin içində qala və hər gün keçmiş tizab dəyişib tazələnə.

Bu dövreyi-tərbiyət itmamə yetişəndən sonra əczayi-iksir gərəkdir hərarəti-nariyyə vasitəsilə öz təkmilini itmamə yetirsin. Gili-hikmətdən yapılmış butənin içində üç saəti-nücuminin ərzində xaricdən sair əczayi-əsrariyyə tədricilə məxlut olunmaq imdadı ilə ki, əvvəl bir cismi-maye nəzərə gəlir və sonra müncəmid olub yumşaq cismi-sabit olur. İksir, iksir ibarətdir həmin bundan ki, filizzati-kəsifəni, məsələn, mis kimi miqdari-müqərrərdə ərinəndən sonra bə-mücərrədi-məzc xalis gümüşə münqəlib edir. Mənim işim həmin budur. Amma əhməq xəlq əz qərari ki, eşidirəm, hər yerdə şöhrət verir ki, mən kəşf və kəramət sahibiyəm. Hərgiz belə deyil. Mən deyiləm, məgər bir təqva sevən və həsənata talib adam ki, əvvələn, cənababarinin tövfiqi ilə və saniyən, elmi-kimyada olan bihəsr ittilaat və tətəbbüatımın imdadı ilə ülumihikmətdə müddətlər ilə gördüyüm təcarübün vasitəsilə aləmitəbiətin əsrarına pey aparıb, iksirin tərkibinin keyfiyyətinə vaqif olmu-

şam. Hər dəfəyi-tərkibində bir para xarici, mənəvi şəraiti diqqətlə məmul və məlhuz etmək ilə ki, iksirin xəvassının müqtəziyyatındadır. Əgərçi sair mütəarif xalqa görə bu növ şəraiti-mənəviyyə badii-nəzərdə qəribə və əcibə görünür.

Molla Həmid. Ağa, onu ərz edirdim ki, bular hamı müsəlmandırlar, bunların tərcihi məlun cuhudlara vacibdir, əgər kərəminiz olsa...

Molla İbrahimxəlil (*bir az dikəlib*). Xeyr, elə deyil, mən söz vermişəm, milyon üçün öz sözümü dəyişmənəm. Bax, mənim xatirimə nə gəlir; hələ əvvəl sən mənə de görüm; bu ayın kürəsinin iksiri müddəti-təkmilindən sonra neçə pud misi gümüşə münqəlib etməyə kifayət edəcək?

Molla Həmid (*başını yuxarı qovzuyub, gözünü çadırın səqfinə dikib, sağ əlini baş barmağı ilə çənəsinə təkyə verib, yarım dəqiqə mütəəmmil olub cavab verir*). Otuz iki pud gümüşün iksiri mürəttəbdir ki, otuz gündən sonra təkmilə yetib, otuz iki pud misə vurulub xalis məhəkdən çıxmış gümüş edəcəkdir. Sən iki pudu dəxi misin tortasına-zadına çıx, gələn ayın əvvəlində otuz pud gümüş mövcuddur, necə ki, iksirin və filizzati-kəsifənin miqdarını mülahizə etməkdən müşəxxəs olur.

Molla İbrahimxəlil. Bu həzərat nə qədər pul gətiriblər?

Nuxululardan birisi. Beş min manat, ağa.

Molla İbrahimxəlil. Xub, Molla Həmid, bax, mənim xatirimə nə gəlir: bu həzəratın pulu cüzvi imiş. Bunlara on pud gümüş vermək lazımdır. Yerdə qalır iyirmi pud, onu da yəhudilər aparsınlar ki, vədim xilaf olmasın. Sən necə bilirsən yaxşı kəsdim işi? Həm sənin təvəssütün həmməzhəblərin barəsində məğbul oldu, həm mənim sözüm pozulmadı.

Nuxulular (*baş vurub razılıq yolundan*). Allah dövlətinizi artırsın. Buyurursunuz, pulları hüzurunuza təslim edək?

Molla İbrahimxəlil (*azca qaşını əyib ahəstə, istiğna ilə*). Pulları mənə nə lazım təslim etmək. Məndə hanı o qədər vaxt və fürsət ki, hər cüzviyyata özüm mübaşir olam. Sayın, tapşırın Molla Həmidə, otuz gündən sonra genə buraya gəlin, on pud gümüşünüzü alın, aparın. Xudahafiz! Günorta namazının vaxtı yetişir.

Nuxulular (*baş vurub xoşhallıq ilə*). Allah ömür və dövlətinizi artırsın.

Çadırdan çıxırlar

*Pərdə salınır*

## DÖRDÜMCÜ MƏCLİS

Dördümüncü məclis genə haman yerdə vaqe olur. Nuxulular vədə verilmiş otuzuncu gündə sübh çağı uzaqdan görünürlər. Molla İbrahimxəlil tez belinə bir ağ fitə bağlayır biləklərini çırmayır, mütəarif ev libasında, çit şəbkülah başında, əmmaməsiz çadırın qabağında durub, şagirdi Molla Həmidi çağırır, Molla Həmid qabağına gələndən sonra bu növ ilə ona buyruq verir.

Molla İbrahimxəlil. Molla Həmid, çadırdan tez zərgər kürəsini butəsilə kiçik körük ilə çıxar gətir. Kürəni yerə qoy, körüyün lüləsini ona keçir, kürəyə od sal, butəni üstünə qoy. Çadırın dalısından kömür çuvalını gətir, kürənin yanına tök. Gir çadıra, bir məcməi içində üç rəng-rəng balaca şüşə var və üç rəng-rəng bükülmüş kağız var, götür gətir, Sarı bükülmüş kağızı aç, içindən əczani tök butəyə, yaşıl şüşənin suyunu endir butənin içinə, otur, körüyü bas.

Bu buyruqlar tamam olandan sonra Molla İbrahimxəlil dəmir maşaya yapışıb butəni od üstünə bərkidir. Bu halda birdən çadırın dalısından, qıraqda atdan enmiş nuxuluların başları görükür. Molla İbrahimxəlil öz işiilə məşğuldur. Aşağı əyilib butəyə baxır, nuxuluları görmür. Amma onlar Molla İbrahimxəlili bu halət ilə görməkdən vəcd edib şövqdən qaim sövt ilə çığırırlar.

Nuxulular. Səlam-əleyküm...

Molla İbrahimxəlil (*başını qovzuyub*). Əleykümərsalam! Ax, siz bu gün nə üçün buraya ayaq basdınız? Bu nə işdir ki, mənim başıma gətirdiniz! Belə müsibət olmaz ki, məni saldınız! Mən sizə yaxşılıq etmək fikrindəyəm, siz mənim əməyimi və cəfamı zaye fikrindəsiniz! Vay, vay, vay! Ax, ax, ax...

Nuxulular (*təhəyyür ilə*). Ağa, nə vaqe oldu? Bizdən nə təqsir sadir oldu? Biz neyləmişik?

Molla İbrahimxəlil (*kəmali-yəsdə*). Dəxi bundan aprtıq nə eliyəcəksiniz ki? Bu gün iksir tamam və kamil olan saatda və əcza butədə qaynayan vəqtdə bu yerə ayaq basdınız. Axı iksirin xasiyyəti budur ki, butədə qaynadığı yerin dörd ətraf və həvalisində bir ağacadək əcnəbi bəni-adəm ayağı gərək basılmasın. Və illa iksir öz xasiyyətini itirib havaya qalxır və puç olur. Necə ki, Şəkkaki-müsəxxiri-əcinnə bu xüsusda təkidati-bəliğə edibdir. Məgər mən öz ixtiyarımla belə abadanlıqdan xaric xəlvət guşəyə özümü çəkmişəm?

Nuxulular (*heyrətlə*). Ağa, biz sizin buyruğunuza görə gəldik; otuz gün bu gün tamamdır.

Molla İbrahimxəlil. Axır mən demişdim ki, otuz gündən sonra. Bunun mənası budur ki, otuz gün ötürüb otuz birinci gündə gərək gələydiniz ki, iksir hazır olmuş və gümüş kürədən çıxmış olaydı. Siz gəldiniz otuzuncu gündə, iksirin butədə qaynamaq vəqtində. Ax, ax, ax!

Nuxulular. Hələ ki, belə ittifaq düşübdür, biz bilməmişik. İndi bunun çarəsi nədir?

Molla İbrahimxəlil. Dəxi əsla çarəsi yoxdur, nə iksir əmələ gələr, nə gümüş olar, məgərinki siz... Əlac münhəsirdir ancaq buna...

Nuxulular. Məgərinki... Biz nə eləyək, ağa? Əlac nəyə münhəsirdir?

Molla İbrahimxəlil. Dəxi ki, gəlibsiniz, laməhalə gərəkdir ki, iksir kürədə qaynadığı yerdən uzaqlaşmayasınız. Necə ki, qanunikimya təqaza edir, bəşərti ki, əgər öz xeyrinizi axtarırsınız və mənim sizin haqqınızda çəkdiyim cəfanı itirməzsiniz, iksir butədən çıxıb tamam olan zamana qədər ki, bir saatdır başlanıb, itmamına iki saat qalıb, gərəkdir ki, meymunu yadınıza salmayasınız və meymun şəklini xatirinizə gətirməyəsiniz. Əlac buna münhəsirdir; və illa həmin iksir ki, indi bir aydır müttəsil onun pərvərişində zəhmət çəkirəm, türfətül-eyndə puç olub havaya qalxacaqdır. Xasiyyəti belədir, necə ki, Çullu həkim[10] mükərrər təcrübə edib, öz kimya kitabında sərahətən yazıbdır.

Nuxulular (*əlac səhl görünməkdən sevinib bir yerdə*). Çox yaxşı, ağa bu bir asan işdir; təki iksirin təkmili buna mövquf olsun...

Molla İbrahimxəlil. Bəli, həmin buna mövqufdur. Allah sizdən razı olsun, mən sizdən razı oldum. Molla Həmid, körüyü bas!..

Molla Həmid, körüyü basır. Molla İbrahimxəlil butəni dəmir maşa ilə çevirir, içinə yanımdakı əczalardan birisin tökür, şüşələrin birisindən damızır, geri çəkilir. Saatı cibindən çıxarıb baxır. Bu halda Ağa Zaman həkim üzünü ona tutub.

Ağa Zaman həkim. Ağa, bundan başqa çarə yoxdurmu?

Molla İbrahimxəlil. Nədən başqa?

Ağa Zaman həkim. Meymundan başqa.

Molla İbrahimxəlil. Kişi, nə danışırsan? Nə söyləyirsən? Vaveyla!!!

Ağa Zaman həkim. Axı necə eləyim, ağa? Meymunu yadımdan çıxara bilmirəm.

Molla İbrahimxəlil (*darılmış və qeyzlənmiş*). Kişi, kəs səsini!!! Unut fikrindəkini!!

Ağa Zaman həkim. Baş üstə, ağa!

Molla İbrahimxəlil (*şagirdi Molla Həmidə qeyzlə*). Körüyü bərk bas! Yatırsan nədir!

Əyilir butəyə baxır, genə bir zad göy bükülmüş kağızdan butəyə tökür. Bu halda nuxululardan birisi, yəni Molla Salman papağını başından götürüb.

Molla Salman. Uf, nə istidir... Uf, lənətə gələsiniz! Uf, əl çəkməzlər! Çarə yoxdur...

Molla İbrahimxəlil. Kim lənətə gəlsin? Kimdir əl çəkməyən? Nədən çarə yoxdur? Nə söyləyirsən?

Molla Salman. Uf, çarə yoxdur... Əlac yoxdur...

Sair nuxulular. Doğrudur, heç çarə yoxdur... Hərgiz mümkün olmur.

Molla İbrahimxəlil (*hamısına qeyzlə*). Necə çarə yoxdur? Necə əlac yoxdur? Nə var? Sizə nə olub?

Molla Salman (*yoldaşlarının halətindən və təsdiqindən cürətlənib cavaba iqdam edir*). Ağa, tamam dağların heyvanatı meymun şəklinə, böyük həmdunələr sifətinə dönüb, uzun quyruqları ilə nəzərimdə basışırlar, üstümə hücum gətirirlər. Uf, bilmirəm necə edim, hara qaçım! Uf, lənətə gələsiniz, meymunlar!... Lənətə gələsininz həmdunələr!

Sair nuxulular (*başlarını yuxarı qovzuyub*). Uf, lənətə gələsiniz, meymunlar! Lənətə gələsiniz, həmdunələr. Bu nə iş idi düşdük.

Molla İbrahimxəlil cəld butəyə bir zad tullayır ki, nuxulular başları yuxarı görmürlər. Birdən butədən güllə kimi qığılcımlar sıçrayıb hər tərəfə dağılır, butə part edir. İksiri-mövhum barıt kimi havaya uçur. Od hər tərəfə səpələnir, tüstü havanı basır. Molla Həmid körüyün dalısından hövlnak geri sıçrayır. Molla İbrahimxəlil ikiəlli saqqalının tükünü yolur, gah dizinə çırpır və gah fəryad edir.

Molla İbrahimxəlil (*nuxululara fəryad ilə*). Evinizi Allah yıxsın! Bu nə iş idi etdiniz? Evinizi Allah yıxsın! Qapınız çırpılsın! (*Başının tükünü yolur, dizinə çırpır*).

Nuxulular. Ağa, sakit ol! Aram tut. Olacağa çarə yoxdur. İndi bizim təklifimiz nədir?

Molla İbrahimxəlil (*şiddət diltənglik ilə*). Sizin təklifiniz nədir? Təklifiniz budur ki, indi gün batmamış özünüzü yaxın kəndlərə yetirəsiniz. Qabaqdakı iksirin müddəti-təkmilinə qədər, yəni otuz bir gün gözətləyib, genə buraya qayıdasınız. Həmin cüsvi beş min manat

pullarınız əvəzində ki, bir para zəruriyyati-lazimiyyə üçün bilkülliyə məsrəf olunubdur, gümüşünüzü alıb aparasınız. Bəşərti ki, mən sizə piş əz vəqt xəbər göndərməmiş gəlməkdə sibğət eləməyəsiniz ki, məbada günlərin sayında genə bir günə səhv qılmaq ilə bimövqe iksirin təkmilindən əqdəm buraya gəlib, o iksiri də bunun kimi xərab etməyəsiniz... Sizdən ötrü müşəxxəs olunan gümüşün üstündə xəyalımdadır ki, pullarınızın faydasını dəxi izafə edəm, ondan ötrü ki, sizə bir parça artıq gümüş vermək, mənə görə heç bir təfavüt etməz... Amma sizin kimi aşxasa bir həbbə də puldur. Xudahafiz, yola düşün, gedin! Mənim xəbər göndərməyimə müntəzir olun! (*Gedir öz çadırına başı aşağı, yavaş, öz yanında söyləyə-söyləyə*). Ümid olun ki, mən sizə xəbər göndərəcəyəm. Allah qoysa o vaxtadək bir çarə taparam ki, bir də sizin üzünüzü görməyim.

Nuxulular qurumuş mat qalırlar.

*Pərdə salınır*

**Tamam olur**

# HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ-NƏBATAT VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ-MƏŞHUR

*Yəni təmsili-güzarişi-əcib ki, keyfiyyəti dörd məclisdə bəyan olub itmamə yetir*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Müsyö Jordan – həkimi-nəbatat, parijli qırx yaşında.[1]
Hatəmxan ağa – Təklə-Muğanlı obasının bəyi, qarabağlı, altmış beş yaşında.
Şəhrəbanu xanım – onun arvadı, qırx beş yaşında.
Şərəfnisə xanım – onun böyük qızı, on altı yaşında
Gülçöhrə – onun kiçik qızı, doqquz yaşında.
Şahbaz bəy – onun qardaşı oğlu, böyük qızının nişanlısı, iyirmi iki yaşında.
Xanpəri – Şərəfnisə xanımın dayəsi, qırx yaşında.
Dərviş Məstəli şah – cadüküni-məşhur, iranlı, əlli yaşında.
Qulaməli – onun şəyirdi, iranlı, otuz yaşında.

## ƏVVƏLİMCİ MƏCLİS

Əvvəlimci məclis Qarabağ vilayətində min iki yüz altmış üçümcü ildə[2] yazın əvvəlində, novruz bayramından bir gün keçmiş Təklə-Muğanlının qışlağında vaqe olur. Şərəfnisə xanım ikimci damda ahəstə ağlaya-ağlaya yun darayır, kiçik bacısı Gülçöhrə yanında oynuyur.

Gülçöhrə. Ağabacı, niyə ağlayırsan?

Şərəfnisə xanım (*onun əlini tutub o yana itələyir*). İtil cəhənnəmə!

Gülçöhrə (*şitəngilik başlayıb genə onun tərəfinə əlini uzadır*). Ağabacı, sən allah, niyə ağlayırsan?

Şərəfnisə xanım (*genə onun əlini rədd edib*). İtil cəhənnəmə deyirəm, əlimdə işim var, qoy işimi tutum.

Gülçöhrə (*genə haman qərar ilə*). Sən ki, iş tutmursan, ancaq ağlayırsan. De görüm, niyə ağlayırsan? Deməzsən, gedərəm anamı çağırram. Di de görüm, niyə ağlayırsan? (*Çarqatın başından dartır*).

Şərəfnisə xanım (*darılmış onu bərk itələyib*). İtil cəhənnəmə, ləktə, əl çəkməz, qoymaz işimi tutam.

Gülçöhrə yıxılıb, durub ağlaya-ağlaya anası olan dama gedir.

Şərəfnisə xanım (*yalqız*). Ax, ləktə, gedib anama xəbər verəcək. Allah, gəlib soruşsa ki, niyə ağlayırsan, nə deyəcəyəm? Eh, heç vaxt deyə bilmənəm ki, nədən ötrü ağlayırdım. Yaxşısı budur ki, danaram, deyərəm ki, heç ağlamırdım.

Yaylığı ilə bərk-bərk gözünü silir; bu halda qapı açılır, Şəhrəbanu xanım içəri girir.

Şəhrəbanu xanım. A qız, bu uşağı niyə itələyib yıxıbsan?

Şərəfnisə xanım. Uşağı yerə girsin. Dinc oturur məgər! Səhərdən bəri qoymuyub ki, iki çəngə yun darayım; elə şitəngilik edir: gah yunu qapıb, gah çarqatımı dartıb; axırda mən də cana doydum, bir tikə itələdim o yana, ağlaya-ağlaya qaçıb üstünə gedibdir. Qan-qan olmadı ki?

Gülçöhrə. Ana, vallah, yalan deyir, heç yun daramırdı, elə ağlayırdı; mən deyirdim ki, ağlama, məni itələdi, yıxdı, arxam üstə yerə dəydim. (*Gözünü ovxalaya-ovxalaya ağlayır*).

Şəhrəbanu xanım. Şərəfnisə, ağlamaq nədir? Sənə nə gəlibdir ağlayırsan? Allaha şükür, atan sağ, anan sağ. Gözəl-göyçək adaxlın gözün qabağında.Yeməyin bol, geyməyin bol, dəxi niyə ağlayırsan?

Şərəfnisə xanım. Vallah, ana, ağlamırdım. (*Gülçöhrədən bir çimdik götürüb*). A yerə girmiş, mən haçan ağlayırdım?!

Gülçöhrə təzədən lələ vay başlayır, sonra genə.

Şərəfnisə xanım. Ana, vallah, ağlamırdım! Allaha şükür, atam sağ, anam sağ, dəxi nə var ki, ağlayım?

Şəhrəbanu xanım (*gülə-gülə*). Niyə demirsən ki, adaxlım da gözümün qabağında?

Şərəfnisə xanım. Adaxlım kimdir?

Şəhrəbanu xanım. Necə adaxlım kimdir? Bəs əmin oğlu Şahbaz bəy kimin adaxlısıdır? Atan iyirmi gündən sonra allah qoysa sizə bir toy edəcəkdir ki, tərifi tamam Qarabağda söylənəcək. İsrağacün aşnası zərdablı Qurban bəyə kağız yazırdı ki, Şamaxı çəngilərinin vədəsini alsın, toya göndərsin.

Şərəfnisə xanım (*şəhadət barmağı ilə baş barmağının arasında alt dodağını dartıb başını yuxarı qovzuyur*). Bıy, anam nələr

söylüyür. Şahbaz bəy on gündən sonra çıxıb gedir. Bilmirəm atam kimə toy tədarükü görür.

Şəhrəbanu xanım (*təəccüblə*). Şahbaz gedir? Hara gedir? Şahbaz kiminlə gedir? Nə danışırsan? Allahı sevərsən, öz yanından zad quraltma. İndi bildim ki, doğrudan ağlayırmışsan. Gərçəkdən ki, qız uşağının ağlı olmaz imiş, gözünün yaşı əlində olurmuş. De görüm, sənə kim dedi ki, Şahbaz gedir?

Şərəfnisə xanım (*başın aşağı salmış*). Özü.

Şəhrəbanu xanım. Yaxşı, hara gedir?

Şərəfnisə xanım. Nə bilim, Firəngəmi, Parijəmi, adı batsın, dilim də yovuşmur.

Şəhrəbanu xanım. Yaxşı, Şahbaz kiminlə Parijə gedir?

Şərəfnisə xanım. Qonağımız müsyo Jordan ilə.

Şəhrəbanu xanım. O bizim çör-çöp döşürən firəng ilə? Nədən ötrü? Firəngdə onun nə alıb-verəcəyi var? Parisdə onun nə iti azıbdır?

Şərəfnisə xanım. Nə bilim, cahıl uşaqdır. Müsyo Jordan beyninə salıbdır ki, Parijdə qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzü açıq oturub dururlar. Nə bilim, başqa zadlar da çox deyibdir. İndi o da dəli-divanə olub ki, gərək gedəm bir Pariji görəm... Əvvəl əmimdən rüsxət istəyəcəyəm, qoymasa gecə atımı minib, Arazı o taya keçib, müsyö Jordan ilə görüşüb, onunla bərabər gedib, Pariji görüb seyr edəcəyəm.

Şəhrəbanu xanım (*toxuduğu corabı yerə tullayıb, kiçik qızına üzün tutub*). A qız, Gülçöhrə, get Şahbazı o biri damdan bura çağır, görüm bu necə sözdür.

Gülçöhrə qaçır.

Şəhrəbanu xanım. Dedim, kişi, Hatəmxan ağa, bu uşaqların toyun tez elə qurtar. Şahbazdan mən qorxuram, gündə min-min xəyala düşür, qulaq asmadı, osallıq elədi, axırda belə oldu.

Bu halda qapı açılır, Şahbaz bəy içəri girir.

Şahbaz bəy. Əmidostu, nə var, xeyir ola?

Şəhrəbanu xanım (*qaşqabağın tökmüş*). Şahbaz, eşidirəm ki, Firəngə, Parijə gedirsən? Bu necə sözdür?

Şahbaz bəy (*gülümsənmiş*). Gedəndə nə olar, əmidostu? Gedərəm də, qayıdaram da, Şərəfnisəyə firəng qızları başlarına örtən təsəklərdən alıb sovqat gətirrəm də.

Şərəfnisə xanım. Firəng qızları başlarına ötən təsəklər mənə lazım deyil; al Parijdə onların başlarına ört ki, Qarabağdan onların havasına yellənib uçursan.

Şəhrəbanu xanım. Yaxşı deyir, aldığın təsəkləri ört firəng qızlarının başlarına, Şərəfnisəyə lazım deyil! Hələ de görüm, sən özbaşınasan, ya sənin atan yerində bir böyüyün var?

Şahbaz bəy. Əlbəttə, əmimdən izin almamış ki, gedə bilmənəm. Müsyö Jordan özü ondan rüsxətimi alacaqdır.

Şəhrəbanu xanım (*acıqlı*). Çox yaxşı, sən azıbsan, yolundan-izindən çıxıbsan, get! Mən bu saat da Hatəmxan ağanı çağırram, görüm Müsyö Jordan nəçidir ki, onun qardaşı oğlunu tovlaşdırıb Parijə aparır? Vallah, ona bir tov tutaram ki, gəldiyi yolu da azar, özü də Pariji unudar. Çox yaxşı, sən get, mən bu saat Hatəmxan ağanı çağırram görüm ki, sənin iyirmi gün toyuna qalıb, sən necə Parijə gedirsən?

Şahbaz bəy. Necə iyirmi gün mənim toyuma qalıbdır? Mən hələ uşağam, mən öz xahişimə bu tezlikdə evlənməyəcəyəm. Toy etməyəcəyəm, məgər güc ola!

Şəhrəbanu xanım (*çığıra-çığıra*). Bəli, güc olacaq! Əlbəttə, hələ iki il bundan irəli gərək sənə toy olaydı, əgər Şərəfnisə çox uşaq olmasaydı. Sənin kimi cahıl uşaqlar subay qalmaqdan tamam yaman yollara düşər, oğurluğa, quldurluğa qurşanar!

Şahbaz bəy. Adam aclığından, susuzluğundan oğurluğa, quldurluğa qurşanır; mənim, allaha şükür, nəyim əskikdir?

Şəhrəbanu xanım (*rişxənd ilə*). Bəs hansı dilənçilər görəsən quldur oldular, yollar kəsdilər? Allahı sevirsən, ağlına zor vermə. Sən lap azışıbsan, get işinə!

Şahbaz bəy başını aşağı salıb gedir.

Şəhrəbanu xanım. Hatəmxan ağa və Şəhrəbanu xanım ölmüş imişlər ki, bir firəngi Şahbazı tovlaşdırıb Parijə apara! A qız, Şərəfnisə, yadımdan çıxdı, de görüm ki, Şahbazı o çör-çöp döşürən nə sözlər ilə tovlaşdırıb Parijə aparır?

Şərəfnisə xanım. Nə bilim, deyibdir ki, Parijdə tamam göyçək qızlar, gəlinlər məclislərdə, yığıncaqlarda üzü açıq oturub-dururlar.

Ş ə h r ə b a n u  x a n ı m . Başqa nə söz deyibdir?

Ş ə r ə f n i s ə  x a n ı m . Nə bilim, deyibdir ki, qızlar ilə, gəlinlər ilə oğlanlar bir yerdə oynarlar, danışarlar, gülərlər.

Ş ə h r ə b a n u  x a n ı m (*darıımış*). Eh, başqa nə sözlər deyibdir? Bu elə əvvəlki sözdür.

Ş ə r ə f n i s ə  x a n ı m . Başqa söz çox dedi. O biriləri yadımda qalmadı, elə bir bu yadımda qaldı, mən nə bilim?

Ş ə h r ə b a n u  x a n ı m (*acıqlanmış*). Allahu əkbər! A qız, axı mən necə Hatəmxan ağaya deyim ki, qardaşın oğlu Şahbaz bəy Qarabağda oturduğu yerdə Parij qızlarına ayağı yanıb, müsyö Jordana qoşulub gedir? On altı yaşında qızın Şərəfnisə xanım burdan ora, Parijin qızlarının, gəlinlərinin xayınlığın çəkib, hələ nə gedən var, nə gələn var, gözünün yaşın sel kimi axıdıb yas qurubdur!

Ş ə r ə f n i s ə  x a n ı m (*yerindən qalxıb*). Bıy allah, torpaq başıma, arvad nələr danışır! Ayağımın alğından yer qaçdı, durub qaçım! (*Tez damdan çıxır gedir*).

Ş ə h r ə b a n u  x a n ı m (*üzün kiçik qızına tutub*). Gülçöhrə, get atan damın dalısında çobanlar ilə danışır, de ki, tez bir bura gəlsin, vacib iş var.

Gülçöhrə qaçır.

Ş ə h r ə b a n u  x a n ı m (*öz-özünə*). Bu Firənglər necə naşükür xalq olurmuşlar. Hə yaxşılıq bilməzmişlər. Mən ağılsız, genə tarının hər günü nahara müsyö Jordana qaymaq gərək, yağ gərək, axşama plov gərək, bozartma gərək ki, gedib öz ölkəsində deməsin ki, Qarabağ elatının arvadları mərifətsiz olurlar, qonağa hörmət eləmək bilmirlər. Di gəl bundan sonra xalqa yaxşılıq elə! Tamam yaxşılığım bada çıxdı getdi.

Bu halda qapı açılır.

H a t ə m x a n  a ğ a (*içəri girir*). Xeyir ola, arvad, nə var, tələsik məni çağırıbsan?

Ş ə h r ə b a n u  x a n ı m (*qaşqabaqlı*). Nə olacaq, gəl gör çör-çöp döşürən, içdirib, yedirib bəslədiyin qonağın, deyirlər, qardaşın oğlunu azdırıb, özü ilə Parisə aparır.

H a t ə m x a n  a ğ a . Necə? Müsyö Jordan Şahbazı Parijə aparır? Kim deyir?

Şəhrəbanu xanım. Mən deyirəm! Şahbaz özü Şərəfnisəyə deyibdir!

Hatəmxan ağa (*qəhqəheyi-qeyri-təbii ilə*). Xa-xa-xa! Şahbaz bilir ki, sənin qızının ürəyi kövrəkdir, ona sataşıbdır. Yəqin ki, Şərəfnisə də bu sözlərdən dərd edir. Xa-xa-xa-xa, analı-qızlı iki pulluq ağlınız yoxdur. Hər boş sözdən ötrü yerdən olursunuz.

Şəhrəbanu xanım (*çığıra-çığıra*). Sən elə hər zadı boş tutarsan. Cahıl uşaqdır, bəlkə o firəngi bir para sözlər deyib, ağlını oğurlayıbdır. Kişisən, qan olmaz ki, hər ikisini bir çağırıb soruşasan ki, bu nə işdir, nə sözdür?

Hatəmxan ağa. Çox yaxşı, arvad, allahı sevirsən, çığırma! Elə indi bu saatda çağırıb öz yanında soruşaram. Hövsələn daralmasın.

*Pərdə salınır*

## İKİMCİ MƏCLİS

İkimci məclis haman gündə əvvəlimci damda vaqe olur. Dam kilim, kəbə ilə pakizə fərş olub, bir tərəfdə un çuvalları düzülüb, bir tərəfdə yağ dəriləri, yun məfrəşləri qoyulubdur. Hatəmxan ağa oturub damın yuxarısında, fərş üstə. Arvadı Şəhrəbanu xanım ərinin sağ böyründə, çənəsin yaşmayıb, ağ örpək başında, həllaci, samit əyləşibdir. Hatəmxan ağanın müqabilində qardaşı oğlu, Şahbaz bəy oturub, xəncərinin dəstəsinə söykənmiş, müntəzirdir görsün ki, əmisi nə danışacaq. Yun məfrəşlərin birisinin üstünə bir xalça salınıb, Şahbaz bəyin sol tərəfində qoyulub, üstündə müsyö Jordan firəngi libasında, qıçın qıçı üstə aşırıb, başı açıq, əlində barmaq uzunluğunda və yoğunluğunda bükülmüş və lülələnmiş tənbəki yarpaqlarını yandırıb çəkir. Hatəmxan ağanın böyük qızı Şərəfnisə xanım bulardan əvvəl xəlvətcə gəlib, yük qabağında asılan kilim gərdəyin dalısına girib pusur ki, görsün nə danışacaqlar. Bu halda Hatəmxan ağa üzün müsyö Jordana tutub xitab edir.

Hatəmxan ağa. Həkim sahib, eşidirəm ki, bizim Şahbazı Firəngistana aparırsan, bu necə sözdür?

Müsyö Jordan. Bəli, Hatəmxan ağa, bu sözü mən özüm sizə deyəcəkdim; çünki heyfdir Şahbaz bəy kimi cavan və zirək və sahib savad oğlan firəng dilini bilmiyə; mən təəhhüd edirəm ki, onu Parijə aparıb, firəng dilini ona öyrədib yola salam; çünki firəng dilinə çox şövqi var, tez öyrənər. İndii də mənim ilə durub oturmaqdan bir para kəlimatı hifz edibdir.

H a t ə m x a n  a ğ a (*üzün Şahbaz bəyə tutub*). Şahbaz, doğrudur ki, Parijə getmək istəyirsən?

Ş a h b a z  b ə y. Bəli əmi, əgər sizin rüsxətiniz olsa, müsyö Jordan ilə gedərəm, genə sonra özüm qayıdaram, gələrəm.

H a t ə m x a n  a ğ a. Nədən ötrü, balam?

Ş a h b a z  b ə y. Firəng dilini öyrənməyə, əmi!

H a t ə m x a n  a ğ a. Firəng dili nəyinə lazımdır, əzizim! Sənə lazım olan ərəb, fars, türki, rus dilləridir ki, Allaha şükür dövləti-aliyyəmizin şəfqətindən açılan mədrəsələrdə hamısını oxuyub öyrənibsən.

Ş a h b a z  b ə y. Əmi, firəng dili mənə çox lazımdır. Bildir ki, Tiflisə məni arx çıxartmaq üçün izin almağa göndərmişdiniz. Allahverdi bəyin oğlu Tarıverdi bəy Varşavada firəng dili öyrəndiyi üçün hər məclisdə məndən hörmətli idi. Bavücüdi ki, firəng və türki dilindən başqa özgə dil bilməzdi.

H a t ə m x a n  a ğ a. Balam, sən hələ uşaqsan, bu zadlar tamam boşdur. İnsana ağıl lazımdır. Bir dil artıq bilmək ilə ağıl artmaz. Adam gərək hər dil ilə olsa filcümlə fəhm və zəmanə əhlinin adət və xəvvasından müttəle olsun; öz işin yola aparsın.

Ş a h b a z  b ə y. Zəmanə əhlinin birisi də Parij xalqıdır. Sizin sözünüzə görə onların adət və xəvvasından xəbardar olmaq lazım gəlir.

H a t ə m x a n  a ğ a. Nə eybi var, onların adət və xəvvasını bilgilən, əgər istəyirsən.

Ş a h b a z  b ə y. Bu surətdə əgər Parijə getməsəm, oranın əhlinin adət və xəvvasından necə müttəle ola bilərəm?

H a t ə m x a n  a ğ a. Çox asan. Necə ki, mən onları bilirəm, ancaq müsyö Jordanı görmək ilə və sözlərinə qulaq asmaq ilə. Əgərçi Qarabağdan başqa bir özgə yer görməmişəm.

Ş a h b a z  b ə y. Əmi, qanmıram ki, siz necə Parij əhlinin adət və xəvvasından xəbərdarsınız?

H a t ə m x a n  a ğ a. Bu saatda mən sənə qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Parij əhlindədir. Məsələn, biz əlimizə hənə qoyarıq, firənglər qoymazlar, biz başımızı qırxarıq, olar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, olar başı açıq oturarlar; biz başmaq geyərik, olar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, olar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, olar gizlin alarlar; biz hər zada inanırıq, olar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parijdə çox ər almaq.

Şahbaz bəy. Əmi, bunu başa düşmədim.

Hatəmxan ağa. Niyə başa düşmədin, balam? Çox arvad almaq ibarətdir ondan ki, bir kişi bir arvada iktifa etməsin və çox ər almaq da ibarətdir ondan ki, bir arvad bir kişiyə iktifa etməsin. Əvvəlki adət bizdədir, sonrakı – Parijdə. O kitablara görə ki, müsyö Jordan bu uzun qış onların məzmununu müttəsil bizə hekayət edibdir, dəxi hamı zadı bu qərar ilə fərz eylə, bifayda Parijə getmək niyyətindən düş!

Müsyö Jordan (*rişxənd ilə*). Xa-xa-xa! Hatəmxan ağa, təəccüb edirəm ki, sizin kimi qəvaidi-məntiqiyyədən müttəle, əqilli və fərasətli, mərdi-kühənsal bu zamana qədər məşvərətxanaların birisində ərkani-məşvərət silkinə daxil olmuyubsunuz; əgərçi mən siz təqir etdiyiniz qaidəyə bir bəhs varid edə bilmənəm, lakin istərdim ki, mən də bir neçə kəlmə ərz edəydim, əgər rüsxətiniz olsa.

Hatəmxan ağa. Buyurun, həkim sahib! Sizin hər sözünüz bizə xoşdur.

Müsyö Jordan (*vüqar ilə*). Hatəmxan ağa, mənim qəsdim bu idi ki, Şahbaz bəyi Parijə aparıb, əvvələn, özüm onun tərbiyəsinə mütəvəcceh olub, firəng dilini və ülumunu bə-qədri məqdur ona təlim edib, saniyən, onu kralımıza tanıdıb, burada mənim haqqımda zahir etdiyiniz yaxşılıqların və zəhmətlərin əvəzində kraldan ona bir bəxşeyiş alıb geri qaytaram; çünki mən kralın məxsus və təhti-himayətində olan darülelmin hükəma və üləmasından və o əlahəzrətin müqərrəbi və mötəmədiyəm; amma çün sizin təqriratınızdan müşəxxəs oldu ki, siz səfərin fəvaidinə münkirsiniz; ona binaən mənə lazım olur ki, səfərin fəvaidini müvafiqi-vaqe məsəl ilə sizə isbat edim. Əgər, məsələn, mən Qarabağa gəlməsəydim (*əlini uzadıb cibindən bir dəftər çıxarıb, açıb, içində səliqə ilə düzülmüş bir neçə otları göstərib*), əgər mən Qarabağa gəlməsəydim, Kim biləcək idi ki, Qarabağın yaylaqlarında bu otlar mövcuddur? Bundan əvvəl bizim ətibba və hükəmalarımız cənab Linney[3] və Turnefor[4] və Bertram[5] belə güman etmişlər ki, bu nəbatat ancaq Alp dağlarında və Amerikada və Afrikada və Şveysariya dağlarında mövcud olur. Amma indii mən buraya gəlmək səbəbi ilə Parijin darülelminə isbat edəcəyəm ki, məzkur hükəmalar bilkülliyə səhv ediblər. Bu nəbatat Qarabağın dağlarında kəsrətlə mövcuddur və bu nəbatatın mahiyyətini, təhqiq və xəvassını təcrübə ilə müşəxxəs edib, o xüsusda əttibanın istehzarı üçün təsnifi-cədid aləmdə məşhur edəcəyəm. Məsələn, bu ot ki, görürsünüz (*əli ilə bir kiyaha işarət*

*edib*) latınca bunun adı aqantusdur ki, mənim təcrübəmə görə qarın ağrısına çox faydası var. Cənab Linney bunu fərz edir üçümcü dərəcədə və cənab Turnefor onu fərz edir dördüncü dərəcədə, amma mən onu ikimci dərəcədə fərz edəcəyəm və bu otun adı latınca serastrum alpinumdur ki, göz ağrısına nəhayət mənfəəti var. Cənab Linney bunu fərz edir yeddimci dərəcədə və cənab Turnefor onu fərz edir altıncı dərəcədə, amma mən onu fərz edəcəyəm onuncu dərəcədə və bu otun adı latınca qamlina afriqanadır ki, diş ağrısının əlacı münhəsirdir buna. Cənab Linney bunu fərz edir beşimci dərəcədə və cənab Turnefor onu fərz edir üçümcü dərəcədə, amma mən onu səkkizimci dərəcədə fərz edəcəyəm. Bu otun adı latınca qombretumdur ki, bu zamana qədər Yevropada hərgiz məşhur deyildi, ancaq onu Amerika nəbatatından bilirdilər. İndi mən çox sevinirəm ki, onu Qarabağın dağlarında tapmışam ki, soyuqdəymə üçün nəhayətdə nafedir; cənab Linney onu altıncı dərəcədə fərz edir, cənab Turnefor beşinci dərəcədə fərz edir, amma mən onu dördüncü dərəcədə fərz edəcəyəm. Və hamı tapdığım nəbatatın və ələfiyyatın mahiyyətini və xasiyyətini bu qərar ilə yazıb aləmə bildirəcəyəm. Və mənim ismü rəsmim bu cəhətdən cənab Linneyin hamisi Georq Qllifordun[6] ismü rəsmindən ərfə və əcəll və ülum üçün göstərdiyim xidmət Germaniyanın məcməyi-üləması kartoflu azarını axtarıb tapdıqları cəhət ilə vətənlərinə göstərdikləri xidmətdən əla və əfəl olacaqdır.[7]

Hatəmxan ağa. Həkim sahib, vallah başa düşmədim ki, nə danışdınız. Qlliford kimdir? Linney kimdir? Turnefor kimdir? Niyə olar zəhmət çəkib otlara dərəcə qərar veriblər? Germanı nədir, kartofl kimdir, o niyə azarlamışdır, o, nə böyük şəxsdir ki, vətən bu mərtəbədə onun etidalı-məzacına və tuli-ömrünə talibdir? (*Bir qədər sükut olunur. Müsyö Jordan gülür, sonra genə Hatəmxan ağa*). Yoxsa hakim sahib, bizim Şahbazı da aparıb belə tapmacalardan öyrədəcəksiniz?

Müsyö Jordan. Hatəmxan ağa, bağışlayın; doğru buyurursunuz, indi bildim ki, sizə nə qisim gərək misal gətirmək; məsələn, bir ay bundan əvvəl Qarabağın əlyetməz dölündən köhlən at altında gəlib sizə qonaq olan xoşbəxt adam ki, adı yadımdan çıxıbdır, əgər Qarabağa gəlməyəydi, bu qədər dövləti hardan ələ salardı?

Hatəmxan ağa. Həkim sahib, bax, bu söz necə aşkardır! Doğru buyurursunuz, əgər o, Qarabağa gəlməsəydi, heç vaxt dövlətə çatmazdı.

Ş a h b a z  b ə y . Başına dönüm, əmican, rüsxət verin, müsyö Jordan ilə gedim, əgər mənəim xoşbəxt olmağımı istəyirsiniz, heç vaxt belə fürsət ələ düşməz. Necə ki, səfərin faydasını hər ikiniz də iqrar etdiniz.

H a t ə m x a n  a ğ a  (*bir az fikir edib*). Həkim sahib, nə müddətə Şahbaz Parijə gedib qayıda bilər?

M ü s y ö  J o r d a n . Bir il çəkər gedib-gəlməyi, ziyadə çəkməz. Bir ildən az qalsa, getməyindən mənzur olan fayda bilkülliyyə hüsula gəlməz; çünki ümdəsi firəng dilini öyrənməkdir.

H a t ə m x a n  a ğ a  (*üzün arvadına tutub*). Arvad, dəxi nə eləyək, qoy getsin. Papağın çevirərsən, il gələr keçər. Uşaqdır, könlü istəyir, getsin, Pariji görsün. Həkim sahib də bir yaxşı adamdır, onun hüzurunda bir para mərifət kəsb edər; yaxşı, yamanı görər. Kraldan bəxşeyiş alar, il başında Qarabağda hazır olar, o vaxtadək biz də onun toy tədarükünə məşğul olluq, gələn kimi toyun başlarıq.

Ş ə h r ə b a n u  x a n ı m  (*yerindən qalxıb çığıra-çığıra*). Kişi, nə danışırsan, sənin fikrin haradadır? İstəmirəm onun Parijə getməyin də, mərifət kəsb etməyin də, firəng kralından bəxşeyiş almağın da! Bu sözlər tamam bəhanədir. Şahbaz istir getsin Parijə, məclislərdə, yığıncaqlarda üzüaçıq gəzən qız, gəlinlər ilə kef eləsin, danışsın, gülsün, vəssəlam!

H a t ə m x a n  a ğ a  (*təngə gəlib*). Ay arvad, bəsdir, Allahı sevirsən, çığırma! Dəxi mən nə iləyim? Bacarırsan, qoyma getsin! Göydə uçan qanadlı quşu əyləmək olursa, Şahbazı da güc ilə əyləmək olur. Rüsxət verməsəm, atılar minər atına, hoppanar Arazın o tayına, sonra mən onu haradan tapım? Sən onu tanımırsan məgər ki, necə höccətdir?

Ş ə h r ə b a n u  x a n ı m  (*dəxi də bərk çığırıb*). Mən onnan da höccətəm! Qoymanam getsin! Əgər Şahbazı Parijə getməyə qoysam, bu ləçək çəngilərin ləçəyi olsun! (*Əlini uzadır örpəyinə*).

Ş a h b a z  b ə y  (*gülə-gülə, arxayın*). Allahu əkbər! Əmidostum bilmirəm hansı qaravulları ilə məni dustaq edəcək?

Ş ə h r ə b a n u  x a n ı m  (*çığıra-çığıra*). Görərsən; sən də öz bildiyindən, mən də öz bildiyimdən! (*Qalxıb damdan çıxır*).

H a t ə m x a n  a ğ a . Arvadların işi xətadır.

Müsyö Jordan təəccüb edir və Şahbaz bəy qeyzlə samit qalır.

*P ə r d ə  s a l ı n ı r*

## ÜÇÜMCÜ MƏCLİS

Üçümcü məclis yenə orda vaqe olur. Damın bir tərəfində Şəhrəbanu xanım oturubdur. Bir tərəfdə Şərəfnisə xanım yun darayır. Bu halda birdən qapı açılır. Şərəfnisə xanımın dayəsi Xanpəri içəri girir.

Xanpəri. Səlam-əleyk!

Şəhrəbanu xanım. Əleykəssəlam! Xanpəri, bilirsən iş necə keçdi? (*Şərəfnisə xanım qulaq asır*). İş belə keçdi ki, Şahbaz gedir Parijə. İndi səni ondan ötrü çağırdım ki, əgər bir əlacın var isə eylə. Hatəmxan ağa, özün bilirsən ki, bir xamırağız kişidir. Əvvəldən yaxşı danışdı, amma sonra birdən boşaldı. Müsyö Jordan və Şahbazın bir para ağılsız sözlərindən yerdən oldu. Amma mən ya gərək öləm, ya Şahbazı qoymayam getməyə. Doğrusu, Şərəfnisəni gözü yaşlı görə bilmənəm! Allah götürərmi Şahbaz getsin Parijdə kef etsin, on beş yaşında gül üzlü uşağım ah çəksin, qan tüpürsün, saralıb sapa dönsün, incəlib ipə dönsün?!

Xanpəri. Xanım, əlac odur ki, bayaq sənə deyirdim. Nə lazımdır ki, Hatəmxan ağadan və ya özgəsindən minnət çəkəsən. Göndər qonşuluqdan, Ağcabədi kəndindən, Qızılbaşdan gələn dərviş Məstəli şahı gətirib necə ki, sənin muradındır, bu işi elə düzəltsin. Onun cadusunda mən bir hikmət görmüşəm ki, əgər istəsə, bu saatda məni qocamdan boşadar.

Şəhrəbanu xanım. Xanpəri, mən də onun cadusunun gücünü eşitmişəm. Amma genə bir az səksəkəliyəm; o, etdiyi işlərdən heç bilirsənmi? De görüm, ürəyim dürüst qızasıdırmı? Çünki bu iş çox çətin işdir.

Xanpəri. Xanım, ağcabədili Kərim koxanın arvadı Səlminazı o boşatdırıb oynaşına verdirmədimi? Muğanlı Səfərəli kişinin qızını sevgilisinə qovuşdurmadımı? Dədəsini ki, qızı verməyə razı olmurdu, cadu ilə öldürmədimi? Cavadlı Kərbəlayı Qənbər qızı Şahsənəmin ərini, bir illik yoldan başqa arvad almasın deyə, qaytarıb gətirmədimi? Onun əlindən heç zad qurtarmaz!

Şəhrəbanu xanım. Gözüm Xanpəri, bəs tez oğlun Əlmərdanı bu saatda göndər Məstəli şahı Ağcabədi kəndindən alıb gətirsin! Desin, xanım çağırır. Hər nə istəsə vədə eləsin. Xülasə, axşam çıraq yanan vaxtda gərək Məstəli şah bizim evdə hazır olsun!

X a n p ə r i . Baş üstə, xanım, bu saatda göndərrəm! Amma gərək Məstəli şah Hatəmxan ağadan, Şahbaz bəydən xəlvət bura gəlsin. Allah eləməmiş, əgər Şahbaz onu burda görsə, onu da öldürər və məni də sağ qoymaz.

Ş ə h r ə b a n u  x a n ı m . Əlbəttə, mən indi bu saatda çıxaram, Hatəmxan ağanı da, Şahbaz bəyi də ilxıya baxmağa göndərrəm və tapşırram ki, gələndən sonra Şərəfnisənin evində yıxılsınlar-yatsınlar ki, gecə bu damda su qoyub Şərəfnisənin başın yuyub çimdirəcəyəm. Sən dur get, dərvişin dalınca oğlunu göndər.

Hər ikisi gedir. Sonra Şərəfnisə xanım yalqız ayaq üstə.

Ş ə r ə f n i s ə  x a n ı m . Ux, Allah, kərəminə şükür, bir az ürəyim dincəldi. Yox olsun o ölkə ki, onda cadu, pitik olmaya! Əgər məməm deyən dərviş olmasaydı, şəksiz, müsyö Jordan Şahbazı aparacaqdı, günümü göy əskiyə düyəcəkdi.

Bu halda qapı açılır, Şahbaz bəy içəri girir.

Ş a h b a z  b ə y . Şərəfnisə, qadan alım, bilirsən ki, əmidostum bu gün nə tufan elədi? Müsyö Jordanın yanında əmimin üstünə çır-çır çığırdı, məni də hədələdi.

Ş ə r ə f n i s ə  x a n ı m . Şübhəsiz, heç özün etdiyindən xəbərin yoxdur, əmidostunun çığırmağı gözünə görünür.

Ş a h b a z  b ə y . Qadan alım, Şərəfnisə, mən özüm nə eləmişəm?

Ş ə r ə f n i s ə  x a n ı m (*tez yeriyib, əlin uzadıb hanasının dalısından bir neçə yarım səhifə kağız çıxardıb açır*). Şahbaz, bu şəkilləri bəs mənə kim gətirdi? Bunları sən gətirib demədinmi ki, Parij qızlarının, gəlinlərinin şəkilləridir, gör Parijdə necə gözəl qızlar var? Bu qızlar, gəlinlər tamam üzləri açıq məclislərdə, yığıncaqlarda oğlanlar ilə bir yerdə oturub-dururlar ? Hələ mən bu şəkilləri utandığımdan əmidostuna göstərməmişəm.

Ş a h b a z  b ə y . Bıy, Şərəfnisə, necə uşaq-uşaq danışırsan? Bu şəkillər müsyö Jordanın kitablarının içində idi. Müsyo Jordan kitablarını açıb baxanda gözü bunlara sataşdı, çıxardı, mənə verdi, apar adaxlına göstər və dedi ki, bu il Parijin qızları və gəlinləri belə paltar geyirlər. Keçən il ayrı tövr paltarları var idi. Gələn il bir özgə qayda ilə paltar geyəcəklər. Hər il Parijdə libas geymək sayağı dəyişilir. Mən də gətirdim sənə verdim; bundan gələsi nə var?

Şərəfnisə xanım. Bundan gələsi o var ki, sən bu qızların havasına yellənib uçursan, istəyirsən Parijə gedəsən!

Şahbaz bəy. Şərəfnisə, bu nə sözdür, deyirsən? Tamam Parijin qızları qurban olsun sənin bir tükünə! Mənim ki, sənin tək gözəl yarım var, behişt huriləri gözümə görükməz. Sənsiz mənim bir günüm olmasın!

Şərəfnisə xanım. Bəsdir Allahı sevirsən, bu bazıları bizə az gəl, sənsiz bir günüm olmasın deyən oğlan burdan Parijə getməz, sən məni heç sevmirsən!

Şahbaz bəy (*uzanıb onun boynundan qucaqlayıb öpür*). Şərəfnisə, doğrudan, sən məndən belə bədgüman olubmuşsan! Mənim ürəyimə bir ox vursaydın yaxşıdı ki, bu sözümü üzümə dedin. Axır bir soruş gör ki, Parijə nə səbəbə gedirəm?

Şərəfnisə xanım (*ağlaya-ağlaya Şahbaz bəyin əlin boynundan qopardıb*). Nə işim var soruşum; Səbəbini özüm çox yaxşı bilirəm. Səbəbi bulardır ey! (*Şəkil kağızların dişin-dişinə qısıb, əlində bərk-bərk övkələyir, salır ayağı altına*).

Şahbaz bəy. Vallah, yox, səbəbi olar deyil, sən bilmirsən. Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib, hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqda adsız, sansız.

Şərəfnisə xanım. Əvvələn, bu yalandır ki, deyirsən, kim bizlərdən mərifət ilə, qulluq ilə xoşbəxt olubdur? Bu gördüyünüz xoşbəxtlər tamam özgə yol ilə bəxtə yetişiblər. İkimci, əgər qulluq etmək istəyirsən, get Tiflisə, orda qulluq elə. Bir azdan sonra əgər istəyirsən, get başqa şəhərlərə ki, əl çatsın, ün çatsın. Parijə bizlərdən nə gedən var, nə gələn var!

Şahbaz bəy. Doğru deyirsən, amma adamın hər işdə gərək vasitəsi olsun. Tiflisdə və o biri şəhərlərdə məni tanıyan yoxdur. Mənə kim vasitə olub məni qulluğa qoyduracaq və hörmət tapdıracaq? Amma bu firəngi bir yaxşı adamdır, məni də sevir, ocağımızı tanıyır. Bu məni Parijə aparıb firəng dilini öyrətməkdən və krala tanıtmaqdan məşhur ollam, qayıdandan sonra hər yerdə yerim olar.

Şərəfnisə xanım. Bu sözlər tamam fənnü feldir. Məni aldatmaq üçün bəhanədir. Nə sözdür ki, sənin kimi cavan, kamallı oğlan Tiflisdə qulluq tapmaz?

Şahbaz bəy. Parijdən qayıdandan sonra genə gedib Tiflisdə quluq edəcəyəm.

Şərəfnisə xanım (*ayağı ilə şəkil kağızlarını itələyib*). Parijdə sənin kimi oğlan bu poşaların əlindən sağ qurtara bilərmi ki, qayıdıb gələndən sonra adam kimi durub-otura? Heç vaxt sən Parijə gedə bilməzsən. Ha vaxt getsən, öyün!

Bu halda Hatəmxan ağa qaim səs ilə Şahbaz bəyi çöldən çağırır, Şahbaz bəy tez damdan çıxıb gedir.

*Pərdə salınır*

## DÖRDÜMCÜ MƏCLİS

Dördümcü məclis Hatəmxan ağanın damında vaqe olur. Bir tərəfdə Şəhrəbanu xanım oturubdur, bir tərəfdə Şərəfnisə xanım, bir tərəfdə onun dayəsi Xanpəri. Gecədən iki saat keçibdir. Şəhrəbanu xanım başın yuxarı qovzuyub üzün Xanpəriyə tutub darıxmış soruşur.

Şəhrəbanu xanım. Xanpəri, necə oldu dərviş gəlmədi.

Xanpəri. Xanım, tələsmə, bu saat gələr.

Birdən qapı açılır. Məstəli şah caduküni-məşhur qaşqabağı tökülmüş içəri girir.

Məstəli şah. Səlam-əleyküm!

Şəhrəbanu xanım (*başını yuxarı qovzuyub*). Əleyküməssəlam, baba dərviş, xoş gəldin! Gəl otur.

Məstəli şah (*oturub*). Xanım, mənə nisbət nə qulluğunuz var? Buyurun, can-baş ilə bitirməkdə müzayiqə yoxdur!

Şəhrəbanu xanım. Baba dərviş, bir cüzvi, yüngül işdən ötrü sənə zəhmət vermişəm! Mətləb budur ki, bizim Şahbaz lap yolundan azıb; bir firəngi qonağımız var, xəyalındadır ki, ona qoşulub Parij şəhərinə getsin, mənim bu oturan, gülüzlü uşağımı ki, onun adaxlısıdır, iyirmi gündən sonra toyu başlanacaq, ağlar-sızlar qoysun. Mən və Hatəmxan ağa nə qədər yalvardıq, söylədik qulaq asmadı; gərəkdir ki, bir iş edəsən ki, bizim Şahbaz Parijə gedə bilməsin və müsyö Jordan ondan əl çəksin, aparmasın.

Məstəli şah. Xanım, bu cüzvi, yüngül iş deyilmiş; bəlkə çox böyük və çətin iş imiş. Gərəkdir bu işdə mənim cadumun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın.

Şəhrəbanu xanım. Baba dərviş, mən anlamadım, necə gərək cadunun əsəri ya Parijin, ya müsyö Jordanın başında çatlasın.

M ə s t ə l i ş a h . Xanım, məsələn əgər Şahbaz bəyə əl vursam, lazım olur ki, onun bədəninə bir cin müsəllət edim ki, bu səfərin xəyalını onun başından çıxarsın. Amma olur ki, bu işdən o qorxsun, ağlına rəxnə yetişsin, ya azarlasın, ya çolaq olsun, çünki çox uşaqdır, cavandır.

Ş ə h r ə b a n u x a n ı m . Bıy, Allahı sevirsən, baba dərviş, belə danışma, bu işlər tamam ondan ötrüdür ki, Şahbaz bir gün gözümüzdən uzaqlaşmasın. Necə olar ki, onun canına cin müsəllət olmağa razı olaq?

M ə s t ə l i ş a h . Bu surətdə gərəkdir ki, divlərə, ifritələrə əmr edim ki, Pariji xaarb etsinlər, altını üstünə çevirsinlər ki, Şahbaz bəy dəxi ora getmək niyyətindən düşsün, yainki Mərrix ulduzuna[8] hökm edim ki, müsyö Jordanın boynunu vursun ki, Şahbaz bəyi aparan olmasın. Bu işin bundan başqa heç çarəsi yoxdur.

Ş ə h r ə b a n u x a n ı m . Bu necə mümkün şeydir, baba dərviş, belə iş eləmək olarmı?

M ə s t ə l i ş a h . Pəh, bu mənim işimdir, xanım, nə şübhə yeridir! Məgər eşitməmisiniz ki, bir neçə şəyatinə əmr etmişəm ki, həmişə Şişə qalasında üsuli və şeyxi mollalarının arasında fitnə və fəsad salıb heç vaxt oları dinc qoymasınlar? Ondan ötrü ki, olar minbərə çıxıb aşkara xalqa vəz edirmişlər ki, cadukünə və sairə inanmayın. Aya, mən deyiləm ki, Gilcan adlı ifritin ruhunu ki, şeytənətdə və məzərrətdə fərdi-əsrdir. Ağa Vəli Əliqulu oğlunun bədəninə müntəqil edib Səlyan xalqının canına müsəllət etmişəm ki, gecə-gündüz onun qorxusundan evlərində rahat yata bilməzlər! Hələ Səlyan xalqına az qisas etmişəm. Ondan ötrü ki, olar bildir məni Səlyana qoymayıb qovdular ki, bura darülmöminindir. Sən dərviş və cadukünsən, bura ayaq basma! Hansı işlərimi söyləyim! Bu işlər yaxın zamanda etdiyim əməllərin əlamətidir. On bir il bundan irəli Araz qırağına gəlmişdim; istiyirdim ki, Naxçıvan və Şərur mahallarının qabağından keçib İrəvana gedəydim. Hər iki mahalın xalqı mənə mane oldular ki, səni qoymarıq bu torpağa keçəsən. Ondan ötrü ki, əlində təzkirən yoxdur. Naməlum, təzkirəsiz adamlara yol vermək, bu tərəfə keçirmək qanun ilə qadağandır. Bavücudi ki, əlləm-qəlləmlər özləri gecə-gündüz qaçaq mala gedən təzkirəsiz adamları o yana, bu yana bələd olub keçirirlərdi. Nə qədər yalvardım-yapışdım, sözümə qulaq asmadılar. Aşağı getdim, olmadı; yuxarı getdim, olmadı; axırda lap acığım tutdu. Əcinnələrə, ifritələrə hökm etdim ki, tamam Naxçıvan, Şərur mahallarının damlarını qaldırıb yer ilə yeksan etdilər ki, zərbindən Ağrı

dağının bir tərəfi də qopub tökülüb Akur kəndini batırdı. Xülasə, Murova desəm, yerindən qop, qopmazmı? Araza desəm, axma, axarmı?

Şəhrəbanu xanım (*təəccübdən əlin dodağına aparıb). Allah, dərdini əsirgə...*

Məstəli şah. Xanım, gecə keçir, durmaq vaxtı deyil. İndi siz mənə buyurun görüm, müsyö Jordan ha vaxt gedəcək?

Şəhrəbanu xanım. On gündən sonra.

Məstəli şah. Çox yaxşı, indi mən bu saatda, xanım, sizin gözünüzün qabağında Parijin heykəlin bərpa edib, burda onu pozacağam. Və divlərə və ifritələrə hökm edəcəyəm ki, haman dəqiqə Pariji yıxsınlar və on günə qədər xəbərini müsyö Jordana çatdırsınlar ki, Şahbaz bəyi aparmaq fikrindən düşsün; yainki bir böyük xoruzu qabağımda tutub adın qoyacağam müsyö Jordan, bu saatda onun boynunu vurub Mərrix ulduzuna əmr edəcəyəm ki, bu tövr ilə o da on günədək həqiqətdə müsyö Jordanın boynunu vursun; taki Şahbaz bəy ondan xilas olsun. İndi buyurun görüm, cənabınız Parijin xarab olmağınmı istərsiniz, ya müsyö Jordanın boynunun vurulmağın?

Xanpəri (*tez əlin yuxarı qovzuyub, çalıb*). Hər ikisini, baba, dərviş! Firənglərə yazığımızmı gələcək?

Şəhrəbanu xanım. Bıy, arvad, sənin ürəyin daşdır, nədir? Biçarə parijlilər bizə nə eləyiblər ki, evlərin, imarətlərin başlarına yıxaq, min-min adamın qırılmağına bais olaq? Bu qalmaqala bizi ancaq o çör-çöp döşürən müsyö Jordan salıbdır. (*Üzün Məstəli şaha tutub*). Baba dərviş, hər nə bilirsən ona eylə! Burada xoruzun boynunu vur. Mərrix ulduzuna hökm et ki, o da müsyö Jordanın Arazdan keçəndən sonra boynun vursun, Şahbaz yalqız qalsın, genə bu taya keçsin, qayıtsın gəlsin. Bir təqsirli adamın ölməyi çox yaxşıdır min-min günahsız xalqın qırılmağından isə.

Şərəfnisə xanım. Can ana, elə demə, müsyö Jordan yazıqdır! Çox yaxşı adamdır. Bu yaylaq hər gün qəribə güllərdən, çiçəklərdən dəstələr bağlayıb Şahbaz bəydən mənə göndərirdi ki, apar adaxlına ver, görsün, neçə ildir bu yaylaqları gəzirlər, heç bu gülləri və çiçəkləri görübdürmü və mənə bir güzgü bağışlayıbdır ki, Parijin əcayibat bağında bitən Yengi Dünya güllərinin surəti dalısında çəkilmiş. Məni öz qızı kimi istərdi. Mən özümü öldürrəm, qoymaram müsyö Jordanın boynu vurulsun! Parij dağılsın, bizə nə? Əgər orda qızlar, gəlinlər üzüaçıq gəzməsəydilər, Şahbaz heç vaxt ora getməzdi. Parij yıxılsın, qız-gəlini də qırılsın!

Şəhrəbanu xanım. Vallah, bilmirəm hansına razı olam? Amma dəxi necə eləyək? Şərəfnisə də doğru deyir; müsyö Jordan yazıqdır, yaxşı adamdır, eylə bircə bu işdə təqsirlidir ki, Şahbazı yoldan çıxarıb Parijə getməyi beyninə salıbdır. Məlum ki, Parijdə yaman adamlar var imiş. Qəza bu dərvişi bizə yetiribdir ki, bunun cadusu ilə oranı yıxdırıb xarab etdirək. (*Üzün Məstəli şaha tutub*) Baba dərviş, buyur divlərə, ifritələrə Pariji qaldırıb altını üstünə çevirsinlər!

Məstəli şah. Baş üstə, xanım! (*Üzün Xanpəriyə tutub*) Xanpəri xala, çıx çölə, mənim şagirdim Qulaməliyə de ki, mənim xurcunumu tez atın üstündən alsın, gətirsin gəlsin.

Xanpəri tez qalxıb çölə çıxır.

Məstəli şah. Xanım, Hatəmxan ağa, Şahbaz bəy indi haradadırlar?

Şəhrəbanu xanım. O biri damda. İlxıdan qayıdıb yatırlar.

Məstəli şah. Xanım, bu sirdən gərək olar və ya başqa adam nə indi, nə sonra xəbərdar olmasın ha! Və illah cadu heç əsər bağışlamaz!

Şəhrəbanu xanım. Bu cəhətdən xatircəm ol, baba dərviş!

Bu halda qapı açılır.

Qulaməli (*əlində xurcun Xanpəri ilə məclisə daxil olur*). Səlam-əleyküm!

Məstəli şah. Əleykəssəlam! Xurcunu yerə qoy, ağzının bağını aç, içində, üstündə əşkal çəkilmiş taxta parələri çıxart!

Qulaməli (*farsi dili ilə ki, oturan ünas tayi-fəsi anlamasın*). Mixahi çe bekoni?[9]

Məstəli şah. Mixahəm ke, heykəle-şəhre-Parijra bərpa nümude, bedivha və efritha hökm konəm ke, dər türfətül-eyn zirü zəbərəş konənd; mesle on ke ələn dər pişe çeşme in xatun (*gözü ilə Şəhrəbanu xanıma işarə edir*) mən heykələşra ziro zəbər xahəm kərd.[10]

Qulaməli (*gülümsənmiş*) Vase çi?[11]

Məstəli şah. Vase səd dane bacaqluye-taze ke, hala əz in xatun bəraye həmin mətləb xahəm gereft.[12]

Qulaməli (*gülümsənmiş*). Xub, in xatun ba paytəxti-firəng və əhləş çe ədavət darəd?[13]

Məstəli şah. İn hekayət xeyli derazəst, təqrirəş qüncayeşe in məqam nədarəd, təxtəparəhara əz xurcin birun kon![14]

Q u l a m ə l i . Həmin saət, əmma hiç əqləm bavər nəmikonəd ke, in əmre müşkil sürətpəzir gərdəd; nəmidanəm şuxi mikoni, ya nə? Dər türfətül-eyn Parij xərab şəvəd, yəni çi?[15]

M ə s t ə l i ş a h (*gülümsənmiş*). Çera yəni çe, mərdəke? Hala in xatune-mükərrəmə səd danə bacaqluyi-tazə bəraye in mətləb be mən xahəd dad və dəh ruz həm möhlət həst ke, caduye-mən əsəre-xodra bebəxşəd və kəsi həm bedin serr vaqif nist və nəxahəd şod. Bəd əz gereftəne bacaqluha dəsto pa quşadeəm. Məgər ta dəh ruz nəmitəvanəm ki, xodra be on tərəfe Ərəs beyəndazəm, məra dər onca ke peyda xahəd kərd? Bəd əz mən hər çe badabad! Əgər ta dəh ruz Parij xərab şəvəd bacaqluha biqilü qal əz həzme-rabe xahəd qozəşt. To çe midani, bəlke ta in moddət besaniheyi əz sanihat Parij xərab şəvəd. Məgər in növ hadisate-əcibə dər aləm kəmtər vüqu yaftəəst?[16]

Q u l a m ə l i (*taxtaparaları xurcundan çıxarıb gülümsənmiş*). İn fəqəreyi-əxirəra hərgez əqləm qəbul nəmikonəd xəyale-xaməst.[17]

M ə s t ə l i ş a h (*gülümsənmiş*). Bəs fəqəreye-sabiqəra əqlət qəbul nəmikonəd? On həm ke, xəyale xam nist?[18]

Q u l a m ə l i (*gülümsənmiş*). Ari, dər on çe şəkkəst?[19]

M ə s t ə l i ş a h . Xub, digər həvəssəmra ba sualhaye bifaidə məğşuş məkon. Bero pişe-əsbha, montəzer baş. Mən həm bəd əz yek saət əməle-xodra təmam kərde mirəsəm, səvar mişəvim, baz mikərdim.[20] (*Qulaməli gedir*). Xanpəri xala, dur qapını bərk bağla! Adam-madam gəlməsin.

Xanpəri durur, qapını bərk bağlayır, gəlir oturur.

M ə s t ə l i ş a h (*öz-özünə farsi dili ilə*). İn tayifeyi-zənan əcəb biçarə və sadəlövhənd, bedune-təsəvvür və təəmmül bavər mikonənd ke, mən dər Qarabağ neşəste Parijra dər torfətül-eyn zirü zəbər mitəvanəm kərd və ya Mərrixəm dər on tərəfe Ərəs gərdəni Müsyö Jordan ra vəqti rəftən mitəvanəd zəd.[21]

Ş ə h r ə b a n u x a n ı m . Baba dərviş, nə danışırsınız?

M ə s t ə l i ş a h . Məhzər oxuyuram, xanım ki, işimiz avand olsun. Divlər, ifritələr xəbərdar olsunlar ki, nə fikirdəyəm. (*Bundan sonra Məstəli şah palazı qovzuyub əvvələn bir müdəvvər cızıq çəkir, deyir*). Bu, Parij şəhərinin dairəsi. (*Sonra taxta parələri bir-birinə yapışdırıb on-on iki böyük, kiçik hücrə və otaq şəklində cızığın içində evlər yapıb deyir*). Bu da Parijin imarətlərinin və evlərinin şəkli. (*Sonra üzün Şəh-*

*rəbanu xanıma çevirib*). Xanım, buyurursunuzmu. Pariji künfəyəkün etdirim, altını üstünə çevirtdirim?

Şəhrəbanu xanım. Bəli, dəxi necə edək, Allah səbəbkara bəla versin! Qurunun oduna yaşlar da yanacaq, biçarə parijlilər bizə bir zad etməmişdilər. Bunun babalı olsun onların qızlarının, gəlinlərinin boynuna ki, məclislərdə həmişə oğlanlar ilə, kişilər ilə bir yerdə üzü açıq oturub, söhbətə və ixtilata məşğul olub, xalqı azdırıb yoldan çıxardırlar. Baba dərviş, işinə məşğul ol.

Məstəli şah. Xanım, divlərin əl muzdunu, ənamını kərəm edin!

Şəhrəbanu xanım. Baba dərviş, divlərə ənam nə lazımdır?

Məstəli şah. Pəh, xanım, məgər mənim divlərim İran sərbazı idi ki, müftə qulluq edələr? Məgər mən vəzir Hacı Mirzə Ağası[22] idim ki, olara heç zad verməyəm, ancaq söyəm, qorxudam?

Ma qulamani in Əli şahim,
Əz təmami zəmair agahim,
Nə məvacib, nə çirəvü nə əliq,
Novkəri qürbətən ələllahim.[23]

Şəhrəbanu xanım. Baba dərviş, məgər Hacı Mirzə Ağası sərbazlara heç zad vermirdi? Ancaq söyüb, qorxudurdu?

Məstəli şah. Xanım, vallah, mən Tehranda bir yol öz gözüm ilə gördüm ki, Hacı Mirzə Ağası Topxana meydanında Mirvarid topuna baxırdı. Birdən yeddi yüz sərbaz onun dövrəsini çevrəyib başladı məvacib istəməyə. Haman saat Hacı Mirzə Ağası əyilib, ayağından başmağının bir tayını çıxarıb, əlinə alıb, beş min yaman ilə, alıcı quş kimi, cumuldu onların üstünə. Sərbazlar kəklik sürüsü kimi onun qabağından dağılıb qaçdılar. Heç birisini tuta bilməyib, qayıdıb topun yanına gəldi, üzün hüzurda duran xanlara tutub xitab eylədi: "Həzərat, gördünüz? Belə qorxaq qoşun ilə bilmirəm Heratı necə alacağam.[24] Yaxşı ki, mən hələ qılınc ilə onların üstünə cumulmadım. Onda onların qaçmağı bilmirəm harada dayanacaq idi. Fəəmma bunu yalqız onların qorxaqlığına həml eləmək olmaz. Mənim rüstəmanə[25] şücaətimin vahiməsindən ki, birdən olara həmlə elədim, olar belə ürküb dağıldılar". Sərkərdənin... cürətində çox sirr var idi. İndi siz, xanım, güman eləməyin ki, mən divlərimi quru nağıl ilə bəsləyirəm; Bəlkə mən gərək belə işlərdən ötrü olara ziyafət edəm, onları oxşayam, oynadam, şihabi-saqib[26] düşüb onları qıranadək.

Şəhrəbanu xanım. Necə şihabi-saqib oları qıranadək? Baba dərviş, nə deyirsən? Məgər oları sonra şihabi-saqib düşüb qıracaq?

Məstəli şah (*gülə-gülə*). Əcəb fikir edibsiniz! Bəs divlər, ifritələr nahaq yerə o qədər bigünah xalqın həlakətinə bais olurlar və gözəl şəhəri nahaq yerə xarab edirlər? Belə günahi-əzimin cəzasında Allahın qəzəbi onlara yetişməz?

Şəhrəbanu xanım. Yaxşı, baba dərviş, çünki belədir, niyə canlarından qorxmayırlar? Niyə belə işə ayaq qoyurlar?

Məstəli şah. Əvvələn, o səbəbə ki, mən buyururam, ikinci o səbəbə ki, axmaqdırlar və təbiətlərinin təğazasıdır. Əgər belə etməsələr, dincələ bilməzlər. Şəyatin olmasaydı, dünyada heç bir yaman əməl olmazdı və bəni-adəmi yaman işlərə heç kəs düçar etməzdi.

Şəhrəbanu xanım. Doğru deyirsən, baba dərviş! Nə qədər gərək divlərə ənam verək?

Məstəli şah. Artıq istəmirəm, nə qədər ki, vədə edibsiniz, xanım, yüz bacaqlı.

Şəhrəbanu xanım. Baba dərviş, çox olmazmı?

Məstəli şah. Xub, min-min tümənə dəyən şəhəri xarab etdirirsiniz, yüz bacaqlı versəniz çoxdur?

Şəhrəbanu xanım (*üzün qızına tutub*). Şərəfnisə xanım, balam, pul sandıqçasını bura gətir. (*Şərəfnisə xanım tez qalxıb yükdən pul sandıqçasın alıb anasının qabağına qoyur. Şəhrəbanu xanım sandıqçanın ağzını açır, yüz dənə təzə bacaqlı çıxardır, deyir*). Balam Şərəfnisə, toy xərcinə dəxi heç pul qalmadı.

Şərəfnisə xanım. Neyləyək, ana, bir-iki yüz toğlu satarıq genə pul olar.

Şəhrəbanu xanım. Doğru deyirsən, balam, burun-qulaq başa sədəqə. (*Üzün çevirib*) Al, baba dərviş!

Qızılları verir Məstəli şaha. Dərviş qızılları alır, qoynuna qoyur, biləklərin çırmaıyb xurcundan bir kitab çıxardır, kitabı açıb vərəqləyir, bir para naxışlı səhifələrinə baxır, başın qovzuyur.

Məstəli şah. Bəli, Parij şəhəri Əqrəb bürcünün[27] altında vaqe imiş, əməl tamamdır. Bu bürcün təsirindəndir ki, bu şəhərdən heç vaxt bəla əskik olmaz... (*Sonra qalxır ayağa, əlində bir dəyənək, üzün Şəhrəbanu xanıma və qızına tutub*) Xanımlar, qorxmuyun, ürəyinizi bərkidin! (*Sonra gözlərin çevirir, surətin heybətli edir, bu məntəri oxuyur*).

Dəğdəğəha fətəndi,
Tübbəl-kəra kərəndi
Tübbəl-kümu kümuha,
Biyəndi, yəndi, yəndi.[28]

(*Sağına-soluna üfürür, heybətli səs ilə divləri, ifritələrəi adları ilə çağırır, buyruq verir*). Ya Məlixa, ya Səlixa, ya Bəlixa! Qaldırın Pariji yerindən, vurun yerə, bu saatda necə ki, mən bu heykəli vurub zirü zəbər edirəm. (*Bir qədər geri çəkilir, dəyənək ilə cızığa üz qoyub içindəki taxtaparalardan yapılmış balaca evlərin və otaqların əşkalını çırpıb darbadağın dağıdır, sonra bir ləmhə dayanıb üzün Şəhrəbanu xanıma tutur*). Xanım, gözünüz aydın olsun, Parij dağıldı! Razı oldunuzmu?

Şəhrəbanu xanım. Bəli, baba dərviş, çox razı oldum! Amma gərək Parijin dağılma xəbəri tez müsyö Jordana çata ki, öz başının hayına qala, Şahbazdan əl çəkə. Amma Parijdən bura bu xəbəri tezliklə bilmirəm kim çatdıracaq.

Məstəli şah (*qəhqəhə ilə*). Xa-xa-xa-xa! Xanım, bir adam ki, buradan Pariji göz açıb yuman saatdə bərbad edə, onun xəbərin bir dəqiqədə, bir saatda, bir gündə, on günədək bura çatdıra bilməz? Nə xəyal edirsiniz?

Şəhrəbanu xanım. Doğru deyirsən, baba dərviş, amma nə əcəb olurdu ki, bu xəbər elə bu saatda müsyö Jordana çataydı, başımızdan olaydı.

Bu halda birdən damın bağlanmış qapısı taraq-taraq döyülür. Az qalır qapı sınsın. Müsyö Jordanın səsi iztirab halətində qapının dalısından məlum olur. Dərviş Məstəli şah cəld taxta-paraları döşürüb tökür xurcuna, atır çiyninə, girir yükün qabağında asılan pərdənin dalısına, gizlənir. Müsyö Jordan qapını taraq-taraq döyür, az qalır qapını sındırsın: çağırır.

Müsyö Jordan. Hatəmxan ağa, Şahbaz bəy, qapını açın!

Şəhrəbanu xanım sərasimə yerindən qalxır, qorxu ilə gedir qapıya sarı. Qızı Şərəfnisə xanım tir-tir titrəyir. Xanpəri dizinə çırpır, yavaş səs ilə.

Xanpəri. Dədəm vay, nənəm vay!

Şəhrəbanu xanım qapını açır.

Müsyö Jordan (*nəfəsi tutula-tutula*). Hanı Hatəmxan ağa, hanı Şahbaz bəy?

Şəhrəbanu xanım (*qorxa-qorxa*). İkisi də Şərəfnisənin damında yatırlar. Bu gün ilxıya baxmağa getmişdilər, çox yorulmuşdular. Axşamdan yıxılıb yatıblar.

Müsyö Jordan (*qaim səs ilə, təngnəfəs*). Xanım, gərək bu saatda olar duralar. Mən gedirəm, dayana bilmənəm. Heyf sənə, Parij, heyf sənə Tülyeri.[29] Heyf sənə, gözəl paytaxt, gözəl səltənət! Fransa bədbəxt oldu! – Dimaj Parij! Mon diyö, mon diyö![30]

Şəhrəbanu xanım. Həkim sahib, nə var, nə olub?

Müsyö Jordan. Parij dağıldı, Tülyeri yıxıldı, Fransa xarab oldu. Dimaj Parij! Dimaj Tülyeri![71]

Şəhrəbanu xanım. Allah, sənə şükür, yəni, Allah dərdini əsirgə!

Müsyö Jordan. Gözəl şəhər, gözəl səltənət. Bir türfətüleyndə viran, kəən ləm-yəkün olubdur. Ağıl kəsmir ki, bu necə işdir, bu necə sehrdir!? Setefre mon diyö, mon diyö![82]

Şəhrəbanu xanım. Bu necə sehrdir? Məgər sehr ilə Parij yıxılıb! Nə deyirsiniz, həkim sahib?

Müsyö Jordan (*qaim səs ilə hövlnak*). Əlbəttə, sehrdir, mat qalmalı işdir. Bir türfətüleyndə qəflətən Parij xarab olubdur.

Bu sözlərdən Şərəfnisə xanım dəxi qaim başlayır titrəməyə, gözü dərviş gizlənən pərdədə.

Xanpəri (*xısın-xısın*). Dədəm vay, nənəm vay!

Bu halda qalmaqaldan Hatəmxan ağa Şahbaz bəy yatdıqları damdan yuxudan oynayıb, dəst-paçə, köynəkcək müsyö Jordan səsinə yüyürürlər.

Müsyö Jordan (*onları görən kimi*). Ax, gəldiniz! Hatəmxan ağa, Şahbaz bəy, sizi tarı tez mənə at hazır edin, gəərk bu saatda gedəm, dayana bilmənəm, özünüz də atlanın, məni Arazdan keçirdin, qayıdın!

Hatəmxan ağa (*heyrətlə*). Həkim sahib, nə vaqe olubdur? Belə tələsik getməyə səbəb nədir?

Müsyö Jordan (*qaim səs ilə*). Parij dağılıb, Tülyeri yıxılıb, Fransanın səltənəti pozulub, kral avara düşüb. Bu saatda Təbrizdə oturan ingilis konsulundan bu əhvalatı bildirəndən sonra yazır ki, Londona vacibi kağızlar ilə bu saat çapar gedir. Arazın kənarında mənə

müntəzirdir. On iki saatadək gərək mən özümü ona yetirəm. Əgər təxir etsəm, çapar gedər, sonra mən özümü tezliklə yalqız krala çatdıra bilmənəm. Lui Filipp[33] ingilisə qaçıbdır. Mon diyö, mon diyö![34]

Hatəmxan ağa (*təhəyyür ilə*). Həkim sahib, Pariji kim dağıdıbdır, kim yıxıbdır?

Müsyö Jordan (*iztirabla*). Şəyatinlər, əcinnələr, divlər, ifritələr, bəd əməllər! Hansını deyim? Aman, Hatəmxan ağa, at hazır edin. Dayanmaq mümkün deyil! Dimaj Parij! Tülyeri! Mon diyö, setefri![35]

Bu sözlərdən Hatəmxan ağa bir az mütəhəyyir qalır. Amma Şərəfnisə xanım başlayır çox bərk titrəməyə. Şahbaz bəy onun halətini duyur. Təəccüb edib, ona sarı üz qoyur. Yavıqlaşıb yavaş gülümsənmiş soruşur.

Şahbaz bəy. Sən niyə titrəyirsən, ay fəsad? Yoxsa Pariji sən buyurub yıxdırıbsan ki, mən dəxi ora gedə bilməyəm?

Şərəfnisə xanım (*titrəyə-titrəyə, nazik səsi ilə gözü dərviş gizlənən pərdədə*). Yox, vallah, quran haqqı, dayım canına, mənim heç zaddan xəbərim yoxdur, mənim heç təqsirim yoxdur!

Şahbaz bəy (*gülümsənmiş*). Bax, bax, necə and içir! Necə şirin dil ilə yaxasın qıraq çəkir! Dəxi niyə titrəyirsən? Əgər sən tək pərilər padşahı Pariji yıxdırsa da halaldır.

Bu sözdə Şəhrəbanu xanım üzünü müsyö Jordana tutub

Şəhrəbanu xanım. Həkim sahib, bizim Şahbazı da aparırsınızmı?

Şahbaz bəy adını eşidib geri çevrilir.

Müsyö Jordan. Nə söyləyirsiniz, xanım, özüm başımı qoymağa yer tapmıram, Şahbazı hara aparacağam? Hatəmxan ağa, amandır, tez olun, atlanın, məni ötürün! Gərək səhərdən Araz qırağına çatam. Tülyeri! Mon diyö, mon diyö![36]

Hatəmxan ağa. Şahbaz, gəl gedək, görək necə edirik, bu necə iş idi oldu?

Hər ikisi damdan çıxır, dallarınca müsyö Jordan, onlardan sonra yavaş gərdəkin dalısından dərviş Məstəli şah xurcun çiynində çıxır. Başı aşağı, heç məclisdə qalan övrətlərə mütəvəcceh olmayıb qaçır, gözdən itir; sonra

Şəhrəbanu xanım. Xanpəri, gördün, necə iş oldu?

X a n p ə r i . Xanım, mən sənə demədim ki, bu dərvişin əlindən heç zad qurtarmaz? Mən hələ ondan qorxuram ki, Parijin yıxılmağının zərbindən özgə şəhərlər də bərbad ola.[37] Naxçıvan, Şərur mahallaının yıxılmağının zərbindən Ağrı dağının bir parçası qopub tökülən kimi, necə ki, dərviş deyirdi.

Ş ə h r ə b a n u  x a n ı m . Bəli, bundan sonra bu təəccüb deyil; təəccüb odur ki, kişilər həmişə bizə deyirlər: caduya, pitiyə inanmayın! Necə inanmamaq olur ki, adam gözü ilə belə işlər görür?

X a n p ə r i . Eh, xanım, kişilərin əgər ağlı var, niyə biz onları hər qədəmdə min yol aldadırıq, öz bildiyimizi edirik?

Şərəfnisə xanım sakit və samit qorxub qurumuş mat qalır.

*Pərdə salınır*

**Tamam olur**

# HEKAYƏTİ-XIRSİ-QULDURBASAN

*Yəni təmsili-güzarişi-əcib ki, keyfiyyəti üç məclisdə bəyan olub itmamə yetir.*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Divanbəyi.
Kamalov – onun dilmancı.
Məşədi Qurban.
Tarverdi – onun oğlu.
Pərzad – onun qardaşı qızı.
Nəcəf.
Namaz.
Zalxa – onun arvadı.
Bayram – cavan oğlan.
Vəli Xatun oğlu.
Oruc Nəsib oğlu.
Sona – Pərzadın qayınanası.
Koxa.
Matvey – kazak.
Frans Foxt – hafizi – canəvəran.
Kərim – yasavul.
Tərəkəmələr və kazaklar.

## ƏVVƏLİMCİ MƏCLİS

Əvvəlimci məclis vaqe olur dərənin içində, bir böyük palıd ağacının dibində ki, Pərzad oturubdur daş üstündə, yanında qıvraq geyinmiş və yaraqlanmış Bayram gözün ona dikmiş.

Bayram. Axır ki, bu palıd ağacının dibində mənə müyəssər oldu ki, səninlə görüşüb, danışıb ürəyimi boşaldam. Niyə geri baxırsan?

Pərzad. Ay aman, qorxuram!

Bayram. Qorxma, mən səni çox əyləmənəm. İndi Pərzad, mənə de görüm, sən gedəcəksən Tarverdiyə, bu tata[1] arvad olacaqsan, sonra qızlar içində güvənəcəksən ki, guya sənin də ərin var?

Pərzad. Nə eləyim, əlimdən nə gəlir? Atam ölübdür, bir anam ilə qalmışam əmimin ixtiyarında; qardaşım yox, birköməyim yox. Əmim istərmi ki, məni özgəyə versin, atamdan qalan sürünü, ilxını özgəyə tapşırsın?

Bayram. Bəs məlum olur ki, əmin səni axtarmır, ancaq sənin sürün, ilxın axtarır. Onun üçün istir səni öz oğluna, o təcikə,[2] o maymağa verə ki, ömründə bir sərçə vurduğu, bir quzu oğurladığı yoxdur?

P ə r z a d. Neyləyim, yazını pozmaq olmaz. Həlbət mənim də qabağımda belə yazılmışmış ki, gərək mən təcik arvadı olaydım.

B a y r a m. Yəni nə dərddir? Təcikə arvad olmaqdansa, özünü bu gölə tulayıb boğulsan, yey deyilmi?

P ə r z a d. Əlbəttə, yüz qat boğulmağım Tarverdiyə arvad olmaqdan yeydir. Səndən çəkinirəm. Əgər sən rüsxət versən, bir gün bu dərd ilə özümü sağ qoymanam!

B a y r a m. Allah eləməsin, söz gəlişi mən belə deyirəm. Sən olmayandan sonra dəxi mən niyə dünya üzündə gəzirəm? Sənin ölümünə heç vaxt razı ola bilmənəm və Tarverdiyə də arvad olmağına tablaşmanam! Günü sabah bir güllə Tarverdinin böyrəyinə vurram, sonra özümün də başıma hər nə gəlsə gəlsin.

P ə r z a d. Bəs elədə bir güllə də mənə vur, məni də öldür, səndən sonra mən dəxi niyə gərək dünyada sağ qalam!

B a y r a m. Sən nə üçün sağ qalmayasan? Sən sağ qalarsan, sonra barı bir başqa abırlı, vuran, yıxan oğlana gedərsən, heç olmasa tay-tuş tənəsi çəkməzsən.

P ə r z a d. Ay Bayram, Allahı sevirsən, mənim ürəyimi Qana döndərmə! Mənim öz dərdim özümə bəsdir. Əgər mən vuran-yıxan oğlana nəsib olsaydım, sənə nəsib olardım.

B a y r a m. Mənə nəsib olmağın öz əlindədir, əgər istəsən.

P ə r z a d. Necə öz əlimdədir?

B a y r a m. Belə ki, mənə izin ver, səni götürüm qaçım.

P ə r z a d. Hara?

B a y r a m. Qarabağa, İrəvana, başqa uzaq yerə.

P ə r z a d (*bir az fikir edib*). Xeyr, anam razı olmaz. Anamın gözünün ağı-qarası bir mənəm. Məni uzaq aparsan, anamın günü qara olar.

B a y r a m. Bəs qoy səni aparım mahalımızın o biri başına.

P ə r z a d. Eh, o boş işdir! Əmim dövlətli, zorlu kişidir. Bu yaxında heç vaxt məni sənin əlində qoymaz. Başına yüz min qalmaqal açar, üstünə təqsir yıxar, divana salar, nə bilim, nə elər...

B a y r a m. Bəs necə gərək olsun? Sən gedəsən Tarverdiyə arvad olasan, mən də qıraqdan baxam?!

P ə r z a d. Bəs nə qayırım? Bir yol göstər, mən elə edim.

B a y r a m. Çox yaxşı, əgər mən bir hiylə qayıram ki, Tarverdi aradan çıxa, sən azad qalasan, ona razısanmı?

P ə r z a d. Bəşərti ki, Tarverdini öldürmək olmaya.

B a y r a m . Yaxşı öldürmək olmasın. Belə ola ki, Tarverdi burdan uzaqlaşa, özgə yerə düşə.

P ə r z a d . Yaxşı, buna mən razıyam.

B a y r a m . Bəs dur get Namaz arvadı Zalxanı bura göndər gəlsin, onunla danışım.

P ə r z a d . Bu saatda göndərrəm (*getmək istəyir*).

B a y r a m  (*onun əlini tutub*). Bir dayan, söz deyirəm!

P ə r z a d . Nə deyirsən?

B a y r a m . A zalım, mənim ürəyim od tutub alışır. yanır, elə məni belə qoyub gedirsən?

P ə r z a d . Bəs necə eləyim?

B a y r a m . Barı ürəyimə bir az su səp get!

P ə r z a d . Odur, su qabağında çaydan axır, iç nə qədər istəyirsən.

B a y r a m . Mənim ürəyimin yanğısı su ilə sönən yanğıdır?

P ə r z a d . Bəs nə ilə sönər?

B a y r a m . Bir cüt öpüş ilə...

P ə r z a d  (*əlini dartır*). Eh, bəsdir, sən allah hələ zarafat vaxtı deyil; qoy gedim, indi mənim dalımca gələn olar.

Bayram onun boynun qucaqlayıb bir cüt öpüş alır, buraxır. Pərzad tullana-tullana obaya qaçır.

B a y r a m  (*dalısınca*). Zalxanı tez göndər, burda gözətləyirəm! (*Yalqız*). Ax, Taverdi, Tarverdi! Güman edirsən ki, Pərzadı qoyacağam sənə gedə? Bu gədə qəribə axmaqdır! Bir fikir eləmir ki, axır nə hünərim var mən Bayram ilə meydana girəm? Onun kimi ata bilmənəm, vura bilmənəm, iki atın arpasın bölə bilmənəm, adım bir qoçaqlıqda söylənməyib, bir quldurluqda çəkilməyib, ömrümdə bir at oğurlamamışam, bir öküz qovmamışam, gecə vaxtı qorxudan alaçığın çətinindən başımı dişqarı çıxara bilmənəm. Bu ürək ilə necə Bayram kimi adamın sevgilisinə göz dikirəm. Vallah, əgər Pərzad izin versə, bir gün onu sağ qoymanam!

Bu halda Zalxa dalısı tərəfindən.

Z a l x a . Salaməleyk, Bayram. Kimlə gap eyliyirsən?

B a y r a m  (*dalı çevrilib*). A. Zalxa, sənsən? Kim ilə gap eyləyirəm? Tarverdinin qarasınca söylənirəm.

Z a l x a . Tarverdi sənə nə eləyibdir?

B a y r a m . Dəxi nə eyləyəcəkdir? Günümü qara edib, səbrü qərarımı kəsibdir; nə gündüz dincələ bilirəm, nə gecə yata bilirəm. Az qalıb dəli-divanə olub Məcnun kimi dağa-daşa düşəm, Kərəm kimi alışam, yanam!

Z a l x a . Axır niyə, nə səbəblə?

B a y r a m . O səbəblə ki, bu təcik, bu maymaq istir ki, Pərzada ər ola. Sən allah, Zalxa, doğru söylə, Pərzad kimi qız heç rəvadırmı ki, belə təcikə gedə?

Z a l x a . Kim deyir ki, Pərzad Tarverdiyə gedəcəkdir? Pərzadın ürəyin mən bilirəm. O səndən başqa bir adama ölsə də getməz. Tarverdi onun gözündə çibincə də görükmür.

B a y r a m . Bundan nə hasil ki, Tarverdi onun gözünə çibincə də görükmür? Amma çibin şirinə həris olan kimi, Tarverdi Pərzada hərisdir! Bugün-sabahdır, atası Məşədi Qurban kəbinin kəsdirib ona verəcək.

Z a l x a . Qızın könlü olmasa, necə onu ərə vermək olar?

B a y r a m . Eh, Zalxa, nə danışırsan? Allahı sevirsən, qız uşağının əlindən nə gələcək? Onun xahişinə kim baxacaq? Əvvəldən bir az uf-tuf elər, sonra çarəsi kəsilər, tən qəzaya verər, ancaq mən ah-zar ilə dərdə giriftar qallam.

Z a l x a . Bəs sənin fikrin nədir?

B a y r a m . Mənim fikrim budur ki, indidən başımın çarəsini görəm. Tarverdini aradan götürəm!

Z a l x a . Yəni onu öldürəsən?

B a y r a m . Yox, ona Pərzad razı olmur, mən özüm də səlah görmürəm. Öldürməkdən nə hasil? Mən özüm də qanlı-qaçaq ollam. Pərzad mənim əlimdən də çıxar.

Z a l x a . Doğru deyirsən. Bəs necə Tarverdini aradan götürmək istirsən?

B a y r a m . Bax, mən necə onu aradan götürmək istirəm. O sizə çox gəlir, sənin kişin Namaz ilə çox gəzir. Əgər sən və Namaz mənə kömək edib bir iş eləsəniz, özümün kürd atımı bağışlaram namaza və bir yanı buzovlu inək də sənə verrəm.

Z a l x a . Doğrudan bir inək?

B a y r a m . Şəksiz, şübhəsiz!

Z a l x a . Yanında da buzovu?!

B a y r a m . Bəli, buzovu ilə, inan ki, doğru deyirəm.

Z a l x a . Biz nə gərək edək?

B a y r a m. Məsələn, Tarvedini bir bəhanə ilə evinizə çağırın, inandırın ki, Pərzad səndən ötrü biixtiyardır, amma sənə gəlməyə taytuşunun tənəsindən qorxur; ondan ötrü ki, deyirlər, sən bir təcik və qorxaq adamsan. Hamı bilir ki, sənin əlindən heç bir iş gəlməz; bir oğurluqda, bir quldurluqda, bir qoçaqlıqda adın çəkilməyibdir. Atmağın məlum deyil, vurmağın məlum deyil. Hansı qız sənin kimi oğlanı sevər? Sən də bir hünər göstər, bir adam soy, pul gətir, parça gətir, ya bir at oğurla, ya bir mal oğurla, desinlər ki, filankəs də bu hünərin sahibidir. Ondan sonra qız da öyünsün ki, sənin kimi əri var. Tarverdi axmaqdır, bu sözlərin hamısına inanacaq, sarsaqlıq edib özün salacaq xata-balaya, Pərzad qalacaq mənə.

Z a l x a. Vallah, yaxşı fikir edibsən! Sənin kimi oğlandan ötrü gərək çalışam.

B a y r a m. Dürüsət anladınmı dediyim sözləri?

Z a l x a. Xatircəm ol!

B a y r a m. Sonra hər nə olsa, mənə bildirərsən?

Z a l x a. Gedib divanbəyinə xəbər verəcəksən?

B a y r a m. Yox, çuğulluq peşəsinin üstümə götürmənəm. İş özü öz başına açılar. Ancaq mən istərəm xəbərdar olam, ürəyim bir az toxtiya.

Z a l x a. Çox yaxşı, sonra hər nə olsa, sənə bildirrəm. İndi gedirəm, işim var, mal gələn vaxtdır.

B a y r a m. Get, al bu yaylıq da sənə peşkəş olsun.

Z a l x a. Ba, nə yaxşı yaylıqdır! İçindəki nədir?

B a y r a m. İçindəki kişmişdir; onu da ver uşaqlarına.

Z a l x a. A kişi, oğul sənin kimi olmaq gərək! Sənin qadan dəysin Tarverdinin böyrəyinə! Ömrümdə onun əlindən mən bir çürük alma da almamışam. Sağlıq ilə qal, muradına yetiş! (*Gedir*).

B a y r a m (*dalısınca*). Vədini unutmayasan!

Z a l x a (*geri dönüb*). Sən də bir inək demisən, sən də unutma!

B a y r a m. Bəli, bir südlü, cins inək ki, misli olmaya!

Z a l x a. Yanında da buzovu!

B a y r a m. Əlbəttə, buzov ilə!

Z a l x a. A kişi, sənin kimi qoçaq oğlanı sevməmək olurmu? Sağlıq ilə qal, şahbazım!

B a y r a m. Get, xoş gəldin! Allah, indi nə qayırım? Gedim dərədə barı ovdan-zaddan axtarım, bir az fikrimi dağıdam.

Bəzi-tamaşaxana təğyir tapıb, Namazın evinin surəti bərpa olur. Namaz və Zalxa.

N a m a z . Sən deyirsən ki, bu işdən ötrü Bayram özünün kürd atını mənə bağışlayacaqdır?

Z a l x a . Şəksiz bağışlayacaqdır!

N a m a z . Ağlım kəsmir, Bayrama əlli qızıl mənim yanımda sanadılar, kürd atını satmadı. Onu mənə peşkəş elərmi?

Z a l x a . Pərzaddan ötrü o indi canından keçər; at, mal nə şeydir?

N a m a z . Bəlkə allada, sonra verməyə?

Z a l x a . Aldatmaz, Bayramı tanımırsan? Onun kimi gözəl, sözü bütün oğlan tamam obada varmı?

N a m a z . Yaxşı oldu, mən özüm də istirdim ki, Tarverdini bir xataya salam. Atası Məşədi Qurban mənə borc verdiyi pulunu üstümə yasavul qoydurub aldı, mən də ona bir hayıf çəkməsəm ürəyim dincəlməz.

Z a l x a . Dəxi niyə durursan? Belə fürsət olurmu? Həmi at alarsan, həmi hayıf çəkərsən. Tarverdi yaxındadır, get çağır gəlsin bizdə çörək yeməyə, sonra mən hamı işi düzəldərəm.

N a m a z . Əcəb deyirsən. Vallah gedirəm (*Gedir*).

Z a l x a (*yalqız*). Vallah, əgər Tarverdi mənim sözlərimdən quldurluğa getsə, biçarənin heç təqsiri yoxdur. O neyləsin ki, bu viran olmuş ölkənin qızları quldurluq, oğurluq bacarmayanı sevmirlər. Divanbəyinə deyən gərək ki, biçarə gədələri niyə oğurluqdan quldurluqdan ötrü incidirsən? Bacarırsan ölkəmizin qızlarına qadağan elə ki, quldur olmayan oğlanlardan zəhlələri getməsin. Onda mən zamın ki, qurd qoyun ilə otlaya!

Bu halda Namaz Tarverdi ilə içəri girir.

N a m a z . Ay arvad, nəyin var, gətir görək, acmışıq!

Z a l x a . Bıy, nəyim olacaq? Acmışdınız, niyə Tarverdigildə gedib çörək yemədiniz, mənim üstümə gəldiniz?

N a m a z . Hər nəyin var, gətir, uzun danışma! (*Gedir, evin bucağında yarağlarına baxmağa məşğul olur*).

Z a l x a . Axşama dəxi bir zad qalmayacaqdır.

T a r v e r d i . Ay Zalxa, nə qayım olubsan?!

Z a l x a . Niyə qayım olmayım? Səndən mən nə xeyir görmüşəm? Barı bir dilinə gətirəsən ki, toyumda sənə bir zad bağışlaram.

T a r v e r d i . Necə toy?

Z a l x a . Toy bilmirsən? Toyunda de görüm mənə nə bağışlayacaqsan?

T a r v e r d i . Yaxşı, onda sənə bir cüt başmaq bağışlaram; görürəm çoxdan ayaqyalın gəzirsən.

Z a l x a (*üzün kənara tutub*). Necə mırdar, saqqat adamdır! (*Qaim səslə*) Sağ ol, çox razıyam! Toyun tezmi başlanacaq?

T a r v e r d i . Payızda.

Z a l x a . Niyə belə gec?

T a r v e r d i . Pərzad yubandırır; deyir, hələ cehizi hazır deyil.

Z a l x a . Doğrudanmı? Bəlkə başqa səbəb var?

T a r v e r d i . Nə başqa səbəb olacaq?

Z a l x a . Bəlkə qız səni sevmir? Ürəyi özgəsinə bağlıdır?

T a r v e r d i . Eh, bu nə danışır! Qız məni sevmir, qəribə söyləyirsən! Necə qız məni sevməz!

Z a l x a . Yəni sən deyəndə, çox zadsan! Niyə gərək səni sevə? Sən ömründə nə bir iş tutubsan, nə ad çıxarıbsan ki, qızlar səni sevsinlər?

T a r v e r d i . Nə ad çıxarmışam?

N a m a z . Arvad, nə danışırsan, nə işin var?

Z a l x a . Səsin kəs, sənlik zad yoxdur!

T a r v e r d i . Namaz, sənlik zad yoxdur, doğru deyir. Yaxşı, Zalxa, söylə görək, mən nə ad çıxarmışam, yəni nə ad çıxardacağam?

Z a l x a . Heç oğurluğa gedibsənmi?

T a r v e r d i . Xeyr, oğurluğa getdiyim yoxdur. Nədən ötrü oğurluğa gedəcəyəm? Özümün dövlətim, malım azdırmı?

Z a l x a . Dövlətin çoxdur, amma qoçaqlığın yoxdur. Heç bir adam soyubsanmı, heç bir adam vurubsanmı?

T a r v e r d i . Xeyr, nə adam soymuşam, nə adam vurmuşam. Sibirə gedənləri, dara çəkilənləri gözüm görmür?

Z a l x a . Qoçaq adam heç zaddan qorxmaz! Çəkinmək qorxaq adamın işidir. Axır odur ki, Pərzad bacarmır sənə gedə. Hamı deyir: sən qorxaqsan, taciksən!

T a r v e r d i . Kim deyir?

Z a l x a . Hamı deyir. Arvadlar, qızlar, kişilər, hətta balaca uşaqlar da! Hamı hayıfsılanırlar ki, Tarverdi necə gözəl oğlandır, heç tayı yoxdur, amma çifayda, qorxaqdır, yassardır!

T a r v e r d i . Kim deyir mən qorxağam? Heç vaxt qorxaq deyiləm. Bir az çəkinən, ehtiyatlı adamam... yoxsa məndə qorxaqlıq harda idi?

N a m a z . Ay arvad, bəsdir, az danış!

Z a l x a . Sən kəs səsini, işin yoxdur!

T a r v e r d i . A kişi, sənlik nə var? Dinməsənə, görüm bu arvad nə danışır? Bəs belə, hə? Pərzad onun üçün mənə gəlmək istərmir? Deyirlər ki, mən qorxağam? Vallah, acığım elə tutur ki, istirəm bu saatda yola düşəm, gedəm, adam soyam; hamıya bildirəm ki, mənim haqqımda nahaq güman ediblər.

Z a l x a . Hünərini göstər görək, adam dilində çox zad deyər.

T a r v e r d i . Sən bir yer nişan ver, mən bu saatda yola düşüm.

Z a l x a . Düş Şamaxı yoluna, beş yüz sövdəgər gəlib-gedir, birin, ikisin soy, malın gətir, görək ki, doğrudan qoçaqsan, ya lovğalıq edirsən?

T a r v e r d i . Görəsən sövdəgər tayfası yaraqlı-əsbablı yola çıxır, ya elə bomboş?

Z a l x a . Belə tutaq ki, yaraqlı-əsbablı olarlar, sən ki ağacla qabaqlarına çıxmayacaqsan? Əlbəttə, sənin də yaraq-əsbabın olacaq.

T a r v e r d i . Məlum ki, olacaq. Amma tək getmək bir az çətin deyilmi?

Z a l x a . Sən də yoldaş götür. Bizdə azmı qoçaq oğlan var. Eh, sən hara, belə iş hara?!

T a r v e r d i . Mən hara, belə iş hara? Vallah, görərsən ki, doğru deyirəm. Namaz, bura gəl! Sən allah, mənə yoldaş tap!

N a m a z . Yoldaşı neyliyirsən?

T a r v e r d i . Gəzməyə gedəcəyəm.

N a m a z . A kişi, boş-boş danışma, səndən karvan vuran olmaz!

T a r v e r d i . Vallah, doğru sözümdür, yoldaş tap!

N a m a z . Sarsaq söyləmə! Mən səlah görmürəm; sənin işin deyil!

T a r v e r d i . A kişi, nə tövr adamsan? Sənin nə vecinə? Sən mənə yoldaş ver, sonra gör ki, işimdir, ya yox?

N a m a z . Çünki əl çəkmirsən. Bəli Xatun oğlunu, Oruc Nəsib oğlunu çağırrıq apararsan.

T a r v e r d i . Elə ikicəsini?

N a m a z . İkisi bəsdir.

T a r v e r d i . Doğrudan bəsdir. Olsun. Di adam göndər, onları çağırsın!

N a m a z . Zalxa, get oları bura çağır!

Z a l x a . A kişi, sən onun sözünə nə inanırsan? Tamam o lovğalıq eləyir.

N a m a z . Kəs səsin. Tarvedi kimdən əskik igiddir? Əli-qolumu özgələrindən kiçikdir?

Z a l x a . Mən onu tanıyıram, o heç vaxt bu işə girişməz.

T a r v e r d i . Mən girişmənəm? Görərsən, necə girişərəm! Get onları tez çağır, sonra məlum olar.

Z a l x a . Yaxşı gedirəm. (*Üzün kənara tutb*) Axmaq, hamı sözümüzə inandı. İnşallah gedəcək. (*Gedir*).

N a m a z (*ahəstə*). Bax, Tarvedi, əgər bəxtin yar olsa, hər nə gətirsən gərək özün bərabəri mənə də pay verəsən ha! Ayıbdır məndən gizləmək! Gətirdiyiniz şeylərin başın batırmaq, izin itirmək mənim boynuma, bəşərti ki, hər zaddan mənə yarı pay olsun.

T a r v e r d i . Eh, məçit tikilməmiş kor əsasın dayadı. Hələ qoy görək nə olur!

N a m a z . A kişi, sənin əlindən nə gəlməz? Mən axmaq arvad tayfası deyiləm ki, səni tanımayam. Məgər sən ayı qıran Əmiraslanın nəvəsi deyilsən?

T a r v e r d i . Namaz, sən allah onun işlərindən eşidibsən ki, nələr edibdir?

N a m a z . Necə eşitməmişəm? Səfər dayım onun dostu deyildi idi? Onun işlərin birbəbir mənə nağıl etməyibdirmi? İnşallah biz də olar kimi bir-birimizi sevəcəyik. Ümidim budur ki, əlinə düşən ovu məndən gizləməyəsən.

T a r v e r d i . Olsun, təki bir para adamlar mənim haqqımda çürük sözlər danışmasınlar. Mən elə hamısını sənə verrəm, mən ki, pul, mal dərdində deyiləm.

N a m a z . Hamısını mənə verərsən? Vallah əcəb deyirsən! Barakallah! İndi bildim ki, damarında Əmiraslan qanı var. Vədini unutmayasan!

T a r v e r d i . A kişi, sən yoldaş ver, axırına bax!

N a m a z . Odur, yoldaşların gəlirlər.

Bu halda Zalxa, Vəli Xatun oğlu və Oruc Nəsib oğlu daxil olurlar.

V ə l i v ə O r u c . Səlam-əleyk!

N a m a z . Əleyk-səlam!

V ə l i . Namaz, nə var, xeyir ola, bizi əcəb çağırdıbsan?

N a m a z . Tarverdi təvəqqə edir ki, onunla gəzməyə gedəsiniz.

O r u c . Necə gəzməyə?

N a m a z . Dəxi nə soruşmaq? Gəzmək deyəndə özün bilmirsən?

V ə l i . Mən ömrümdə gəzməyə getdiyim yoxdur. Qoyun-quzu oğurluğundan başqa mənim əlimdən bir zad gəlməz. Orucu bilmirəm.

O r u c . Mənciyəz... yeyərəm. Mənim havaxt quldurluğa getdiyim var? Mən heç qoyun-quzu oğurluğu da bacarmanam.

N a m a z . Olan, nə danışırsınız? Məgər igid deyilsiniz? Tüfəng atmaq bilmirsiniz?

V ə l i . Tüfəng atmaq bilirik o da ova, quşa. Adama tüfəng atmaq nə bizim işimizdir?

N a m a z . Kim sizə deyir ki, adama tüfəng atın?

Atlanarsınız, çıxarsınız gəzməyə, düşərsiniz poşt yoluna; Birdən qabağınıza dəvə karvanı, ya erməni bəzirganları rast gələr, guya qorxutmaq üçün başlarının üstündən tüfəng boşaldarsınız. Bunda heç bir zərər yoxdur, olar qorxub hərə bir tərəfə qaçacaq. Malları, pulları tökülüb qalacaq, yığışdırıb, götürüb qayıdarsınız. Nə çətin işdir?

V ə l i . Eh, biz hara, belə iş hara? Biz bir çoban adamıq, bizə quldurluq nə yaraşar?

T a r v e r d i . Namaz, bura gəl, bilirsənmi, cəbr eləmə. Görürsən ki, qorxurlar, dəxi niyə qısnıyırsan? Hamı mənim kimi ki, olmayacaqdır? Burax getsinlər!

N a m a z . Xeyr, qoy görüm. Vəli, ayıb deyil baş qaçırırsınız? Artıq tikə məgər baş yarar? Əvvələn, malınz, pulunuz artar, ikinci ad-san çıxardarsınız.

O r u c . Mənciyəz... yeyərəm! Mənim nəyimə gərəkdir ad-san?

V ə l i . Bəli, bu keçəl Oruca ad-san çox lazımdır!

N a m a z . A gədə, nə qeyrətsiz adamsınız! Tarverdi ilə duz-çörək dadmıyıbsınızmı? Məgər siz bilmirsiniz ki, bizim obamızda bundan dövlətli adam yoxdur? Sizin həmişə vecinizə gəlməzmi? Az adammı ondan xeyir görüb?

T a r v e r d i . Namaz, niyə qısnıyırsan? Qoy görək, mən özüm də hələ bir az fikir eləmək istəyirəm.

N a m a z . Xeyr, nəməkbəhramlıq edirlər. Kiçik olan gərək böyüyün sözünə baxa!

V ə l i . Oruc, nə deyirsən? Gedəkmi?

O r u c . Nə bilim, vallah, gedirsən, gedək!

V ə l i . A kişi, olar ki, bir at bahası əlimizə düşə. İki ildir ki, at istəyirəm alam, pul tapmıram.

N a m a z . Əlbəttə, at bahası da əlinizə düşər! Belə xeyirdən adam qaçarmı?

V ə l i . Dəxi nə eyləmək, çünki Tarverdi çarəsiz xahiş edir, onun sözü sınınca, düşmənin boynu sınsın. Mən hazıram!

O r u c . Mən də hazıram! Yoldaşdan ayrılmaq ki, olmaz.

T a r v e r d i . Amma bir dürüst fikir edin...

N a m a z (*onun sözün kəsib*). Tarverdi sizdən razılıq edir və təvəqqe edir ki, fürsəti fövtə verməyib, gedib yaraqlanıb gələsiniz. Gəzmək üçün belə yaxşı vaxt ələ düşməz.

V ə l i . Oruc, gedək!

Gedirlər

T a r v e r d i . Namaz, bilirsənmi, bu zadı lap unutduq. Mənim atam bir məşədi kişidir. Heç razı olarmı ki, mən quldurluğa gedəm?

N a m a z . A kişi, atandan rüsxət al, get!

T a r v e r d i . Əcəb danışırsan? Atama deyim ki, mənə rüsxət ver, quldurluğa gedim?

N a m a z . Elə niyə deyirsən? De ki, aranda taxıl sulamağa gedirəm. Əlbəttə, rüsxət verəcəkdir; sonra çıx poşt yoluna. Dəxi nə var bunda?

T a r v e r d i . Necə bunda nə var?

N a m a z . Yəni bundan asan nə var?!

T a r v e r d i . Əcəb asan zad tapmısan? Mən, vallah, ancaq atamdan qorxuram, o cəhətdən bu iş mənə çox çətin gəlir.

N a m a z . Adam ki, qorxaq oldu, bu tövr ilə bəhanə gətirər. Getmirsən, özün bil.

Bu halda Zalxa daxil olur.

N a m a z . Zalxa, get uşaqlara de ki, dəxi cəfa çəkməsinlər, Tarverdi gerilədi.

T a r v e r d i . Mən ki, demədim geriləyirəm.

Z a l x a . Mən bu saatda Pərzad ilə görüşdüm. Hamı işi qulağına pıçıldadım. Necə sevindi, necə sevindi!.. Dedi ki, indi Allaha şükür, dəxi deməzlər ki, Tarverdi qorxaqdır. Bundan sonra mən utanmanam deyim ki, onu sevirəm. Bu vaxtadək tamam qızlar mənə tənə edirdi, hər birisini görəndə başımı aşağı salırdım.

N a m a z . Aşkar zaddır ki, bizim qızlarımız heç bir oğlanı sevməzlər ki, adam soymamış, yol kəsməmiş ola, elə birisi bu Zalxa! Axır bu da gözəl sayılırdı!

Z a l x a . Allahı sevirsən, ətimizi tökmə, az danış!

N a m a z . Vallah, doğru deyirəm, eləbirisi bu Zalxa! Məgər mənə əvvəldən gələrdi, əgər quldurluğa əl qoymasaydım? Arvad, belədirmi?

Z a l x a . Yaxşı, bəsdir, keçən işi indi çürükçülük eyləyib danışmaq sənə qalıbdır?

T a r v e r d i . Mən getməyə müzayiqə eləmirəm, amma üstümdə heç bir yaraq yoxdur. Bilmirəm necə edim. Yaraq üçün evə getsəm atam duyacaqdır.

N a m a z . Evə niyə gedirsən! Mənim qılıncımı, tüfəngimi, tapancamı götür, xançal da ki, öz belində var. Qoy mən səni geyindirim, yaraqlandırım. (*Başlayır yaraqları onun üstünə taxmağa*).

T a r v e r d i . Dəxi başqa nə götürüm?

N a m a z . Olan, bəsdir, bular ilə bir qoşun qırmaq olar, dəxi artıq nəyinə gərəkdir?

Z a l x a . Vay amanTarverdi, necə heybətli oldun? Səni görən kimi adamlar qaçacaqlar.

Bu halda Vəli və Oruc daxil olurlar

O r u c . Biz də hazırıq.

T a r v e r d i . Gedəkmi?

N a m a z . Gedin, gedin, uğurunuz xeyir olsun! Əlidolu qayıdasınız!

Z a l x a . Tarverdi, Pərzad ilə qoşa qarıyasan! Çoxlu oğul-qız görəsən! Oğlanların da sənin kimi qoçaq olsun!

T a r v e r d i . Qəm eləmə, olacaqlar, şəksiz olacaqlar! Ya saf adımı batırram, ya adam soymamış qayıtmayacağam!

Gedirlər.

N a m a z . Zalxa, bilirsənmi, mən şərtləşdim ki, Tarverdi hər nə gətirsə, yarısın mənə versin.

Z a l x a . Tarverdi yəni bir zad gətirəcəkdirmi ki, yarısın sənə verə? Sən niyə belə xam xəyal olursan? Şək yoxdur ki, onun qol-qıçını əzib yola salacaqlar.

N a m a z . Xeyir, kim bilir, olur ki, uğuruna bir xeyir gələ. Qorxaq həmişə özündən qorxağa rast gələr. Axırda iş necə qurtarsa, bizim xeyrimizdir; bir tərəfdən at, bir tərəfdən də pul! (*Gedir əlin ovuşdura-ovuşdura*).

*P ə r d ə  s a l ı n ı r*

## İKİMCİ MƏCLİS

Vaqe olur Şəmsəddin mahalında, dərənin içində ki, bir tərəfində təpə dəxi zahirdir.

B a y r a m (*yalqız*). A kişi, ov da ələ düşmür; nə bir ceyran var, nə bir turac var; bir dovşan da barı rast gəlmir ki, bir tüfəng atam. Ürəyim darıxır. Nə yaman bəxtim var imiş, mənim! Tutalım ki, Pərzad məni sevir, əlindən nə gələcək? Əmisinin əmrindən çıxamı biləcək, tamam obanın öhdəsindən gələmi biləcək? Qız tayfasının xahişinə məgər bizlərdə qulaqmı asarlar? Ümid yoxdur, iqbalım gətirməyəcək. Zalxa etdiyi vədini bitirməyə cürət edə bilməyəcək. Namaz bir tamahkar, şeytanfikir adamdır. Heç vaxtda Tarverdi kimi dövlətli adamı ələ salmaq istəməyəcək. Pərvərdigara, necə edim, bu dərdə necə tablaşım. Nə tövr səbr edim, necə aram tutum, necə bu qüssədən dincələ bilim? Ax, nə xışıltı səsi gəlir?! Gərək ki, bu kolun dalısındadır. Canavar olacaq, gedim bəlkə güllə ilə vura bilim, elə bilim ki, Tarverdinin böyrəyinə güllə vururam (*Gedir*).

Bir az sonra Tarverdi yoldaşları ilə yetişib, bellərini əyib, sinə-sinə o yana-bu yana baxırlar.

T a r v e r d i . Tss... tss... ehtiyatlı olun, gərək ki, yoldan gələn var!

O r u c . Var, var. At ayağının tappıltısı gəlir. Vəli, tüfəngin çaxmağın yuxarı ayağa qovza ki, hamımız birdən tüfəngləri boşaldaq!

T a r v e r d i . Dayanın, dayanın! Belə bilirəm ki, tüfəng atmasaq yaxşıdır.

V ə l i . Necə tüfəng atmasaq yaxşıdır? Onda necə soymaq olar? Sonra gərək əliboş obaya qayıdaq, tamam xalqı üstümüzə güldürək!

T a r v e r d i . Nə səbəbə xalq üstümüzə güləcək? Deyərik ki, yola çıxdıq, çox gözlədik, heç kəsə rast gəlmədik.

V ə l i . Buna heç kəs inanmaz. Mən bunu edə bilmənəm.

T a r v e r d i . Edə bilməzsən, bəs mən də köməksiz fəqir-füqəranın üstünə tökülə bilmənəm! Mən belə günah işə qoşulmayacağam! Adamda rəhm, mürüvvət yaxşı şeydir. Doğrusu budur ki, mən qayıdacağam. Mən qalmıram, gedirəm!

V ə l i . Yavaş, əzizim, çox gec başa düşübsən. Allaha and olsun, əgər ayaq geri qoyasan, şeytanını çəkib qarnını tüstü ilə doldurram. Sarsaq balası, sarsaq özün yalvarıb bizi bura gətirmisən, indi bizi qoyub getmək istəyirsən?

T a r v e r d i. Mən ki, sizi qoyub getmək istəmirəm. Mən sizin xeyriniz üçün deyirəm ki, geri dönək; Bəlkə yol adamı bizdən çox oldular, bəlkə bizim kimi qoçaq adamlar oldular; tükümüzü töküb qol-qanadımızı qırarlar.

V ə l i. Quşdan qorxan darı əkməz. İndi bu fikirləri eləmək vaxtı deyil! Yoldan ötənləri gərək əyliyək. Sən də bizim ilə gərək bir yerdə olasan; yoxsa, görərsən! İstirsən sabah aləmi bizə güldürəsən? Ayaq geri qoysan, bütün tüfəngi sənə boşaldacağam. (*Tüfəngi ona sarı çevirir*).

T a r v e r d i. Allahu əkbər, bizə qorxaq deməsinlər deyin, gərək özümüzü bəlaya salaq?! A qardaş, bircə qulaq as mənə, gör nə deyirəm; sən qoçaqlığı lap qələt anlayırsan, heç bilirsənmi qoçaqlıq, igidlik nədir? İgidlərin başçısı Koroğlu deyibdir ki, igidlik ondur, doqquzu qaçmaqdır, birisi heç gözə görünməmək. Mən deyirəm ki, bu iki işin hansına əməl edirsiniz edin.

V ə l i. Bəsdir, çox vəz vermə! Görürsənmi yuxarıda bir zad qaralır? O, yoldan gələn olacaqdır.

T a r v e r d i (*əyilib baxır*). Doğrudan gələn var. Görəsən kimdir? Vallah gəlir! Bilirsinizmi, siz qabağa gedin, mən sizin dalınızı saxlıyım.

V ə l i. Bəli, sənə çox ümid bağlamaq olar. Oruc, qabağa gedək görək, kimdir gələn. Ey, Tarverdi, vallah əgər qaçasan, obanın içində də haqqına fikir çəkərəm, özün bil!

Tarverdi və sonra nemsə Fok.

T a r v e r d i. Di gör, sevgililiyin axırı belə olar! Heç fikrimdən keçərdi ki, quldur olacağam, yol kəsəcəyəm, aləmə zəlzələ, vəlvələ salacağam? Pərvərdigara, sevgi nə yaman olurmuş?

F o k. Mən çox yaxşı elədim ki, arabadan düşdüm, bir az piyada yeridim, çiçək dərdim. Nə yaxşı çiçəkdir, nə gözəl qoxusu var. Bunu Mariya Adamovnaya peşkəş edəcəyəm. (*Qəflətən gözü Tarverdiyə sataşıb*) Ax, dədəm vay! Bu kimdir? Vay aman! Allah, sən saxla!

T a r v e r d i. Heç bilmirəm nə qayırırlar; orda arabanın atını əyliyiblər; kuçer[3] qaçıb özün kolluğa saldı. Barakallah, qoçaqlarım, necə iş gördük! (*Qəflətən gözü Foka sataşıb*). Ey vay, tarı! Yaman yerdə gün axşam oldu! Bu kimdir görəsən? Fok. Ey vay bu quldur olacaqdır! Yəqin məni öldürəcək! (*Başlayır titrəməyə*).

T a r v e r d i. Ey, yəqin bu adam da quldurluğa çıxıbdır, çiynində tüfəngi də var. Vay aman, atsa mənim işim xarabdır. (*O da başlayır titrəməyə*).

F o k. Mariya Adamovna, Mariya Adamovna. Sən hardasan!

T a r v e r d i. Yaxşı Pərzadı aldıq, yaxşı toy elədik, farağat, rahat duracağımız yerdə özümüzə iş qayırdıq!

F o k. Allah, necə heybətlidir!

T a r v e r d i. Allah, tüfəngi necə uzundur! Heç bir belə uzun tüfəng görməmişəm.

F o k. Yaxşısı odur ki, bir tərəfə qaçam!

T a r v e r d i. Barı qaçım, bəlkə evi yıxılmış tüfəngi mənə düzəldib atdı. Vaxt ikən bir tərəfə yayınım.

Hər ikisi birdən qaçırlar. Qəflətən bir-birilə toqquşurlar. Hər ikisi kisəsini çıxarıb bir-birinə uzadır.

T a r v e r d i. Vallah, mənim var-yoxum budur, al, məndən əl çək!

F o k. Vallah bundan artıq tamam səfərimdə bir zad qazanmamışam; al, məni burax!

T a r v e r d i. Allahı sevirsən, məni qoy obaya qayıdım.

F o k. Amandır, məni öldürmə, yazığam!

T a r v e r d i. Bəs sən quldur deyilsən?

F o k. Mən bir fəqir nemsəyəm. Sən kimsən?

T a r v e r d i. Mən kiməm? Qurumsaq? Görmürsən ki, mən quldu-ram! Mənim kolluğun içində iki yüz yoldaşım yatır! Siz necəsiniz?

F o k. Mən bircəyəm!

T a r v e r d i. Di bəs tez qaç, yoxsa bu saatda səni öldürrəm!

F o k. Doğrumu deyirsən ki, sən yalqız deyilsən?

T a r v e r d i. Eşitmirsən ki, mənim yoldaşlarımın qalmaqalı gəlir?

F o k. Ax, tarı, tamam var-yoxum qarət olacaq! Ax, Mariya Adamovna! Mariya Adamovna! Bu necə bədbəxtlik idi üz verdi. Biz bundan sonra necə edəcəyik? (*Ağlayır*).

T a r v e r d i. Yoldaşlarım yaxınlaşırlar, di itil cəhənnəmə, tez qaç, yoxsa bu saatda qarnını tüstü ilə doldurram!

F o k. Ax, Allahı sevirsən, dayan, bu saatda qaçım. (*Başlayır qaçmağa*).

T a r v e r d i (*yalqız*). Necə qorxutdum! Mənim kimi zalım olarmı? Əgər Pərzad məni bu halda görə bilsəydi, qorxudan bağrı çatlardı.

Bu halda Vəli və Oruc arabaya qoşulan atı cilovundan çəkirlər, arabada iki sandıq var.

T a r v e r d i. Ay uşaqlar hamısı qaçdılarmı?

V ə l i . Xatircəm ol, hamısı qaçdılar!

T a r v e r d i  (*gülə-gülə*). Necə qorxaq imişlər. Belə adamlar da var dünyada? Yaxşı, kəsbimiz nədir? Arabada nə şey var?

V ə l i . Arabada iki böyük sandıq var ki, heç tərpətmək olmaz. Sən, Tarverdi, tez oları sındır, içinin şeyin bir yerə yığ. Mən, Oruc gedək, arabanın atlarının birinə güllə dəyib, iki yaxşısı kolluğa qaçdı tutaq gətirək, şeyləri yükləyək aparaq.

T a r v e r d i . Çox yaxşı, siz gedib atları qaytarın, mən bu saatda sandıqları sındırıb, şeyləri bir yerə yığaram; amma tez qayıdın, burada çox dayanmaq olmaz, qorxuram üstümə adam tökülə, əlimdən nahaq qan çıxa.

V ə l i . Axmaq danışma, sarsaq! Sən bir toyuq öldürə bilməzsən. Tək özün qaçma; adam öldürməyini sənə bağışladıq!

O r u c . Bu saatda qayıdarıq, fikir eləmə, sandıqları aç!

T a r v e r d i . Baş üstə.

Vəli, Oruc cəld uzaqlaşırlar.

T a r v e r d i  (*yalqız*). Genə mən yalqız qaldım. Zərəri yoxdur. Kimdən qorxacağam? Mal yiyələrini qaçırmışıq. A gədə, nə böyük sandıqlardır! Yəqin içindəki tamam taftadır. Pərzad elə yaşı olduqca tafta tuman-köynək geysin. Qurumsaq Namaz yarısını indi məndən istəyəcək. Qələt eləyir! Nə qayırıbdır ki, yarısını ona verim! Bəlkə sandıqların içindəki tirmə şaldır ya padşahlıq puludur? Tez bir baxım, görüm nə var? (*Yavuqlaşır sandıqlara*). Sandıqda deyəsən bir zad təpənir. (*Sandığın qapağın qalxızır, birdən bir meymun sandıqdan dişqarı sıçrayır*). Allahu əkbər, bu nədir? Sandıqda meymun nə qayırır? Belə də sövdəgər malı olurmu? Belə zibil ilə alış-veriş edən sövdəgərlər də dünyada varmış? (*Meymun ona dişin qıcıdır*). Ax köpək oğlunun malı, nə mənə dişin qıcıdırsan? (*Meymun onun təqlidin gətirir*). Bax, bax mənim təqlidimi gətirir! Yaxşı oldu, bunu Pərzada peşkəş aparram. Qoy bunu görsün, sevinsin. Necə tutum? Ey, meymun, qorxma, yaxın gəl! (*Yeriyir meymuna sarı; meymun qabağından tullanır*). Bax, bax, köpək oğlunun malı, az qalmışdı mənə toxuna! Yavaş, mən gör necə səni tuturam! (*Qaçır meymunun dalısınca; meymun qabağından o yana-bu yana tullanır; sonra ağaca çıxır; başlayır onun təqlidini gətirməyə*). Bax, bax, fikri budur ki, mən onun dalısınca aqaca çıxam. Necə şeytan meymundur! Of, qəribə yoruldum, bu necə sarsaq

sövdəgər imiş ki, meymunu arabaya qoyub gəzdirir? Mən elə bildim, bu evi yıxılmış ağıllı-başlı mal aparır satmağa, üstünə düşüb soyduq. Mən nə bilim ki, o belə nadürüst imiş ki, bizim oxumuzu boşa çıxartdı. Necə ürəyim darıxır! Amma əliboş evə qayıtmaq olmaz. Görüm o birisi sandıqda nə var. Amma böyük sandıqdır, yəqin ki, bunun içində ağıllı-başlı mal var. Qapağı da nə yekədir? (*Qapağın sındırır*) Ax, pərvərdigara, nə xırıltı gəlir! (*Qapağı qalxızır, bir ayı çıxıb, onu süpürrəyir*). Ey vay, ayı! Ay Namaz! Ay Zalxa! Ay Pərzad! Evim yıxıldı! Ay haray, ay aman! Kömək edin, ay Allahı sevən, dadıma yetişin! Vay aman, qələt elərəm, quldurluğa dəxi çıxmanam, heç kimi soymanam! Tövbə olsun, tövbə, tövbə! Of, Alalh, sən qurtar! Allah, sən dada yetiş! Heç vaxt belə yola dəxi getmənəm.

Ayı onun üzün cırıb yıxır yerə, sıçrayır, belinə, başlayır övkələməyə, boğmağa. Bu halda Bayram təpənin üstündə zahir olur.

B a y r a m . Nə səs gəlir? Yəqin ayı adam boğur.

T a r v e r d i (*qaim səslə*). Ay Allahı sevən, kömək elə, məni qurtar!!

Bayram tüfəngi üzünə götürüb ayını nişana edir, atır. Tüfəng boşalanda güllə ayını Tarverdinin üstündən tullayır. Ayı tez qalxıb tüstü sarı yüyürür, girir kola, gözdən itir.

T a r v e r d i (*yerdə yıxılmış*). Ay Allah, görəsən güllə mənə dəymədi ki? Xeyr, inşallah dəyməyibdir. Durum qaçım. (*Tez qalxıb qaçır*).

B a y r a m (*enib, arabaya yaxın gəlir*). Bu nə arabadır? Bu ayı, bu adam bura haradan düşmüşdür? Mən belə bilirəm ki, ayını yaraladım, qan iz salıbdır. Ayı görəsən hara getdi? Bəs o qurtardığım adam necə oldu?

Bu halda divanbəyi, kazaklar və dilmanc hazır olurlar.

D i v a n b ə y i . Genə quldurluğa başlayıblar. Ay kazaklar, ikiniz bu yerlərə baxın, ikiniz atları tutun! O qalanınız bu qoçağı bağlasın!

B a y r a m . Məni bağlasınlar! Allahı sevirsən, belə buyurma, mənim nə təqsirim var?!

D i v a n b ə y i . Necə təqsirin yoxdur? Bəs bu sınmış sandıqlar, soyulmuş araba, tüfəng atılmaq təqsir deyil? Nə vaxtadək zakona müxalifət edəcəksiniz, ümənayi-dövlətin əmrindən çıxacaqsınız? Nə qədər ağlınız və fikriniz az olsa da, barı başa düşün ki, rus dövləti sizi ləzgidən və qaçaqlardan mühafizat edir.[4] Barı bu işin şükranəsinə nizama tabe olun, əgərçi heç nizamı və zabitəni anlamırsınız? Eh, səninlə danışmağın nə faydası var! Hanı sənin yoldaşların?

B a y r a m . Mənim heç yoldaşım yoxdur!

D i v a n b ə y i . Bu arabanın atları hanı?

B a y r a m . Bilmirəm.

D i v a n b ə y i . Köhnə peşənizdir; bilmirəm, görməmişəm! Sən belə xəyal edirsən ki, "bilmirəm" deməklə canını qurtaracaqsan?

B a y r a m . Ağa, bir sözümə qulaq as! Mən bu yaxınlıqda ov gəzirdim. Gördüm ki, bir çığırtı gəlir, yalvarır, kömək istəyir. Yüyürdüm yaxına, gördüm ki, bir ayı bir adamı boğur, tüfəng atıb ayını vurdum, yaraladım. Mən bundan başqa bir zad etməmişəm.

D i v a n b ə y i . Bəli, yaxşı danışırsan. İstəyirsən ki, bu sözlər ilə məni başdan çıxarasan? İş aşikardır, sən tutulubsan təqsir vaqe olan yerdə. Yaxşısı budur ki, yoldaşlarını mənə deyəsən!

B a y r a m . Mən həqiqəti ərz elədim.

D i v a n b ə y i . Oğlan, mənim sənə yazığım gəlir. Görükür ki, bir cavan, xoşsurət oğlansan. Bilirsən ki, yaraq və əsbabla tutulan quldura nə tənbih, nə nəsəq var?

B a y r a m . Əlbəttə, bilirəm? Tənbihi dar ağacıdır.

D i v a n b ə y i . Bəli, dar ağacıdır. Əgər özünə yazığın gəlmir, barı ata və anana yazığın gəlsin. Heç bir adamı dünyada sevirsənmi?

B a y r a m . Ancaq elə ondan ötrü təşvişdəyəm, ağa ki, bir sevgilim var.

D i v a n b ə y i . Bəs boynuna götürürsən?

B a y r a m . Mənim heç təqsirim yoxdur ki, boynuma götürüm.

D i v a n b ə y i . Mən belə munkir adam görməmişəm. Uşaqlar, bunun qollarını bərk dalısında bağlayın! Muğayat olun ki, qaçmasın, yoxsa siz cavab verəcəksiniz! Oğlan, obanız burdan nə qədər olar?

B a y r a m . Bir ağac.

D i v a n b ə y i . Biz ora gedirik. Gərəkdir tez işi isti ikən həqiqət eləmək; amma hələ gərək bir dəftərxanaya getmək. Allaha şükür, iş o qədər var ki, bilmirsən hansını qurtarasan. Dilmanc hardadır?

D i l m a n c . Burdayam, ağa!

D i v a n b ə y i . Gedək. Allah, bu necə qulluqdur? Gərək hamı zada cavab verəsən. Hər gün canından keçəsən. Amma bu axmaqlar genə anlamırlar ki, bulardan ötrü bu əzabı çəkirik. Yasavullar, gətirin bu oğlanı mənim dalımca!

Hamısı gedirlər. Bundan sonra məclis xali qalır. Meymun ağacdan enir, başlayır tullanmağa, bir azdan gözdən itir.

*P ə r d ə  s a l ı n ı r*

## ÜÇÜMCÜ MƏCLİS

Üçümcü məclis vaqe olur Şəmsəddin mahalında, obada, alaçığın içində. Tarverdi başı bağlı və Koxa və Məşədi Qurban və Nəcəf və Namaz və başqa tərəkəmələr oturublar.

N ə c ə f. Tarverdi, de görək sənin başına nə iş gəlib, kim səni yaralayıbdır?

T a r v e r d i. A başına dönüm, mən, Vəli, Oruc arana taxıl sulamağa çıxmışdıq. Tavus dərəsində arabaya rast gəldik. Vəli dedi ki, mən Oruc ilə bu arabanın adamlarını zarafat edib qorxudacağam; tüfəng atdılar, guya adamlar qaçdı, araba qaldı. Vəli, Oruc getdilər araba atlarını gətirələr, mən arabadakı sandıqlara yavuq gedəndə əvvəl qabağıma bir meymun çıxdı, sonra sandıqdan bir ayı qalxıb məni basdı, öldürürdü. Birdən tüfəng atıldı. Ayı məni buraxdı. Durub qaçdım. Sonra nə arabadan, nə atlardan bir əsər görmədik; bilmirəm bu nə sirdir?!

N ə c ə f. Nə sirr olacaq! Tavus dərəsi əcinnə yeridir, şəyatin yığınağına rast gəlibsiniz, başqa bir şey deyil. Çaharşənbə günümü yola çıxmışdınız?

T a r v e r d i. Bəli!

T ə r ə k ə m ə l ə r. Şəksiz şəyatin yığınağına rast gəliblər. Yoxsa, meymun, ayı arabada nə qayırır?

N ə c ə f. Amma, Tarverdi, sən yaralısan, dur burdan get, divanbəyi bura gələcək, görək bizim ilə nə sözü var.

Tarverdi gedir. Bu halda divanbəyi yetişir. Hamı durur ayaq üstünə.

D i v a n b ə y i (*kürsü üstə oturub*). Koxa, sən rus dilini bilirsən? De görüm, bu adamlar kimdir?

K o x a. Bular obanın adamlarıdır. Bu Namazdır, bu Nəcəfdir, bu da Məşədi Qurbandır ki, bir dövlətli, hörmətli kişidir.

D i v a n b ə y i. Çox lazımdır onun dövləti! Allah qoysa dövlətliləri tanıtmağa mə sizə tərgidərəm. (*Üzün dilmanca tutub*) Kamalov, buları tərtib ilə hər kəsin mərtəbəsinə görə cərgəyə düz. Hansının mərtəbəsi artıqdır?

D i l m a n c. Ağa, gərək bular hamısı elə bir mərtəbədədirlər.

D i v a n b ə y i. Xub, hansı ağıllı hesab olunur?

D i l m a n c. Belə bilirəm ki, hamısı elə bir ağılda olmuş olalar.

D i v a n b ə y i . Pərvərdigara, axır birisi, əlbəttə, o birilərinə görə söz qanan, danışan olacaqdır ki, ona mütəvəcceh olub söz soruşam. Hamısı ilə ki, birdən danışmaq olmaz!

D i l m a n c . O surətdə gərək Nəcəf o birilərindən söz qanan, danışan olsun, çünki rusicə də bir az bilir.

D i v a n b ə y i . Xub, Nəcəfi başda qoy.

Dilmanc Nəcəfi başda qoyur.

D i v a n b ə y i . A kişi, sözün axırınadək qulaq as, sonra cavab ver.

N ə c ə f . Baş üstə, ağa!

D i v a n b ə y i (*qoltuğunda bir kağız çıxardıb*). Məmləkəti-xaricə əhlindən cənab Fok hafizi-canəvaran,[5] mənə ərizə veribdir ki, o, israğa gün Tiflis yolundan öz canəvərləri ilə gəlirmiş; bir az arabadan geri qalmış imiş; ittifaqən arabanın üstünə bir neçə quldur tökülüb, arabada bir Yengi Dünya ayısı, bir Brazil meymunu, iki böyük kaftar və başqa canəvərlər dəxi varmış. Quldurlar atdıqları tüfənglərin gülləsindən araba atının birisi ölüb, Yengi Dünya ayısı yaralanıb, meymun qaçıb itibdir və güman gedir ki, arabada olan şeylər də qarət olubdur. Ayını yaralı kolluqdan tapdırmışam; quldurlardan birisi də tutulub, indi sərih xəbərlərə görə məlum olur ki, bu iş ittifaq düşən gündə üç atlını yaraqlı-əsbablı sizin obanızdan aşağı gedəndə görüblər. Bişək olar sizin uşaqlardandır. Gərək oları bu saatda mənə verəsiniz. Yoxsa sizi bədbəxt eylərəm.

N ə c ə f . Ağa, sən bir ağıllı adamsan ki, bu yekə mahalı sənə tapşırıblar. Düşmənlər sənin qulluğuna xilaf ərz ediblər. Sən gərək heç vaxtda belə quru nağıllara inanmayasan!

D i v a n b ə y i . Necə quru nağıl? Mənim mahalımın ortasında aşkara quldurluq quru nağıldır?

N ə c ə f . Ağa, həqiqəti məndən soruş, doğruluq ilə ərz edim.

D i v a n b ə y i . De, mən də elə onu istirəm.

N ə c ə f . Bizim obanın uşaqlarından bir neçəsi çaharşənbə günü arana taxıl sulamağa getmişdilər. Şəyatin yığınağına rast gəliblər. Şəyatinlər arabada gedirmişlər; bular axmaqlıq edib, araba sarı tüfəng atıblar ki, cinlər qorxub qaçsınlar. Gərək idi bismillah deyəydilər, cinlərin acığı tutub, çün hər şəklə dönə bilirlər, ayı şəklinə düşüb, buların üstünə tökülüb dişləyiblər. İndi bizim düşmənlərimiz bunu bir nağıl qayırıb, cinlərin böyügünə Poq adını qoyub, səni başdan çızardırlar.

D i v a n b ə y i (*acıqlanmış rus dilincə*). A kişi, nə qozqurursan?
N ə c ə f (*üzün dilmanca tutub*). Anlamıram, ağa nə buyurur?
D i l m a n c . Divanbəyi buyurur ki, sizdə qoz, fındıq çox olurmu?
N ə c ə f (*dilmanca*). A başına dönüm, divanbəyiyə ərz elə ki, elə bu dərənin adına Fındıqlı dərəsi deyirlər. Qozun, fındığın mədənidir. Allah qoysa, qoz çırpılanda, fındıq dəriləndə çuval-çuval qulluğuna gətirrik. Divanbəyinin layiqincə yolun görmək bizim başımız üstə.
D i l m a n c (*divanbəyiyə rusicə*). Ağa, Nəcəf ərz edir ki, qoz-fındıq vaxtı çuval-çuval qulluğunuza gətirəcəklər və layiqincə yolunuza baxacaqlar.
D i v a n b ə y i (*acıqlı*). Kişi, nə pərpuçat danışırsan?! Qoz-fındığı mən nə eyləyəcəyəm? Mənim yolumun nəyinə baxacaqsan? Mənim özüm, gəldiyim yola səndən də yaxşı baxmışam; Bələdə ehtiyacım yoxdur, quldurları verin!
N ə c ə f. Necə quldur, ağa?
D i v a n b ə y i. Necə, necə quldur? Bir saatdır səninlə danışıram, genə soruşursan necə quldur?
N ə c ə f. Axır mən də qulluğuna ərz elədim, ağa ki, uşaqlar heç kimin üstünə tökülmüyüblər, ancaq şəyatin yığnağına rast gəliblər.
D i v a n b ə y i. Sən məhz cəfəngiyyat danışırsan?
N ə c ə f. Ağa, sən dünya görübsən, heç ayının, meymunun, kaftarın, çaqqalın arabaya minib şəhərdən-şəhərə səyahət etdiyini eşidibsənmi?
D i v a n b ə y i. Məgər mən dedim ki, ayılar, meymunlar arabaya minmişdilər.
N ə c ə f. Bəs sən necə dedin, ağa?
D i v a n b ə y i. Mən dedim ki, oların hafizi səyahət edirdi.
N ə c ə f. Arabada?
D i v a n b ə y i. Bəli.
N ə c ə f. Yalqız?
D i v a n b ə y i. Xeyr, öz canəvərləri ilə.
N ə c ə f. Məgər o canəvərlər padşahıdır?
D i v a n b ə y i. Sənə lazım deyil hər sualı eləmək, ağlına zor vermək.
N ə c ə f. Mən ağlıma zor vermirəm, amma ayı və meymun arabaya minib səyahətə çıxmaz! Şəyatin imişlər, bu şəkildə görüküblər.
D i v a n b ə y i. Pərvərdigara, bular necə tayfadırlar! Di gəl, bulara mətləb qandır! Bayram boynuna heç zad götürmür, bular da məni aşkara istəyirlər müştəbeh etsinlər. Xub, o şəyatin yığınağına rast gələn uşaqları mənə göstərin!

N ə c ə f. Nə eləyəcəksən, ağa?

D i v a n b ə y i. Olar mənə lazımdır!

N a m a z. Ağa, düşmənlərin sözü ilə bizi böhtana salma!

D i v a n b ə y i. Hansı düşmənlərin?

N a m a z. Dörd çevrəmizdəki Əmirli tamam bizə düşməndir.

D i v a n b ə y i. A canım, aşağı düşən atlıların xəbərin mənə tatarlar verməyiblər, malağanlar söyləyiblər.

N a m a z. Malağanlar bizə hamıdan çox düşməndirlər. Həmişə bizim ilə onların arasında yer üstə, torpaq üstə cəngü cədəl olacaq. İndi məlum olur ki, belə ustalıq ilə söz qayırmaq, şeytanlıq eləmək onların işi imiş. Müsəlman başında belə şeytan fikri olmaz. Bundan sonra malağanlara tov tutmaq – baş üstə!

D i v a n b ə y i. Cəhənnəmə, hələ indi quldurları Verin, sonra hər nə bilirsiniz edin!

N ə c ə f. Ağa, yox yerdən quldur ki qayırıb verə bilmərik. Bizim uşaqlar bir adam soymuyublar!

D i v a n b ə y i. Kamalov, mən nə çarə edim? Doğrudan, bular mən dediyim sözlərə inanmırlar?

D i l m a n c. Vallah, ağa bir tük qədəri də inanmırlar.

D i v a n b ə y i (*üzün kazaka tutub*). Matvey, get yasavullara de ki, o ayını çəkə-çəkə bura gətirsinlər.

K a z a k. Baş üstə. (*Gedir*).

D i v a n b ə y i (*Nəcəfə*). Mən indi isbat edərəm ki, dediyim sözlər doğrudur, malağanlar qayırmayıblar.

N ə c ə f. Ağa, əbəs yerə zəhmət çəkməyin! Yox zadın nəyin isbat edəcəksiniz?

Bu halda yasavullar ayını gətirirlər.

D i v a n b ə y i (*dilmanca*). Kamalov, de ki, budur dəlil ki, mən boş söyləmirdim.

D i l m a n c (*ayı tərəfə işarə edib*). Divanbəyi buyurur ki, budur şahid ki, mən boş nağıl söyləmirdim.

N ə c ə f. Xub, bu şahid ədayi-şəhadət eləsin görək.

D i l m a n c (*divanbəyiyə*). Ağa, ərz edir ki, ayı ədayi-şəhadət eləsin görək

D i v a n b ə y i (*tündləşib*). Məgər ayı ədayi-şəhadət edə bilər? Fu, Kamalov, sən axmaq da bunu mənə deyirsən? Məgər özün cavab verə bilmirsən? Matvey, sən türkicə bilirsənmi?

K a z a k (*qaim sövt ilə*). Hərgiz bilmirəm, ağa!

D i v a n b ə y i . Kazaklardan bilən varmı?

K a z a k . Hərgiz bilən yoxdur. İyirmi birinci nomerin fövcündən kazak Sotnikov türkicə öyrənmək istir.

D i v a n b ə y i . Kəs səsini, çox lazımdır ki, o öyrənmək istir. (*Üzün Nəcəfə tutub*). A canım, ayı necə ədayi-şəhadət edə bilər?

N ə c ə f . Biz ki, demirik, ağa! Siz özünüz ayını bizim ilə üzdəşdirməyə gətirdiniz. Şəmsəddinin meşələrində ayı çox: hər kəs birini tuta bilər. Bundan lazım gəlməz ki, ayılar, meymunlar arabaya minib ölkələr gəzsinlər.

D i v a n b ə y i . İndi quldurları nişan verməyəcəksiniz?

N a m a z . Ağa, necə, quldup var ki, nişan verək?

D i v a n b ə y i . Quldurların izi açılıbdır, mən onları tutmağa çarə taparam. Amma sizin üçün çox yaman keçəcək.

N ə c ə f . Əlhökmü lillah, təqdiri-qəzadan qaçmaq olmaz!

D i v a n b ə y i . Di bəs itilin gözümün önündən. Bu qədər vaxt əbəs yerə siz ilə vaxtımı itirdim, mən özüm billəm ki, nə elərəm.

Hamısı çölə çıxırlar.

D i v a n b ə y i . Mən nə çarə edim? Zahirən görünür ki, Bayram müqəssir deyil, əgərçi güzariş onun təqsirinə çox dəlalət edir. Ey Koxa, sən o şəyatin yığınağına rast gələn uşaqları tanıyırsanmı?

K o x a . Tanımıram, ağa!

D i v a n b ə y i . Eşitməmisən ki, kimdirlər?

K o x a . Biz tərəkəmə adamıq, ağa! Hardan eşidəcəyik.

D i v a n b ə y i . Onları axtarıb tapmaq olarmı?

K o x a . Hardan tapacaqsınız? Bizim uşaqlar tamam qaçıb gizləniblər.

D i v a n b ə y i . Əgər təqsirli deyillər, niyə qaçıb gizləniblər?

K o x a . Arvadlar tamam alaçığın dalısından qulaq asırdılar. Əlbəttə, xəbər veriblər ki, divanbəyi şəyatin yığınağına rast gələnləri tutmaq istir. Qorxularından qaçmazlarmı?

D i v a n b ə y i . Yaxşı, sən də get! Bu tövr danışmaq ilə heç bir zad açılmaz. Hamısı deyəcəkdilər ki, bir zad bilmirik, bir zad anlamırıq, heç bir tərəfə getməmişik. Nə çarə eləmək? Kazaklar, dustağı bura gətirin! (*Kazaklar Bayramı qolu bağlı hazır edirlər*). Sənin təqsirsiz olmağına nə isbatın var?

B a y r a m . Ağa, siz vilayət görübsünüz, bir fikir edin ki, mən yalqız adam soymağa çıxa bilərəmmi?

D i v a n b ə y i . Di bəs niyə yoldaşlarını demirsən?

B a y r a m . Axır mən deyirəm ki, yoldaşlarım yoxdur!

D i v a n b ə y i . Var imiş, səni qoyub qaçıblar!

B a y r a m . Heç vaxt elə iş quldurluq ilə düz gəlməz. Ağa, quldur çarəsi üzülənədək yoldaşlarını buraxıb getməz. Yol kəsəndən sonra bir-birlərindən ayrılmazlar. Bir də, siz bunu hardan biləcəksiniz? Siz, yəqin ki, heç quldurluğa getməyibsiniz!

D i v a n b ə y i . Amma mən çox quldur tutmuşam, əgərçi quldurluğa getməmişəm; bilirəm ki, doğru deyirsən.

B a y r a m . Ağa, əgər mən təqsirli olsaydım, bizim adətə görə, döyüşməmiş tutulmazdım.

D i v a n b ə y i . Doğru deyirsən, bəs kimdir təqsirli?

B a y r a m . Dürüst bilmirəm: əgər bilsəydim, demək çox çətin olardı.

D i v a n b ə y i . Niyə?

B a y r a m . Ondan ötrü ki, adam necə tay-tuşunu ələ verə bilər?

D i v a n b ə y i . Bəs yalqız sən bədbəxt olacaqsan? Mənim sənə yazığım gəlir, amma çarə yoxdur. Bir ərzin, sözün vardırmı?

B a y r a m . Ağa, bir ərzim var, əgər qəbul edəsiniz.

D i v a n b ə y i . De görüm nədir?

B a y r a m . Bilmirəm cürət edimmi?

D i v a n b ə y i . Niyə cürət edə bilmirsən? De görüm?

B a y r a m . Ağa, mən istirəm ki, əgər izin verərsiniz, halallaşam.

D i v a n b ə y i . Atan ilə?

B a y r a m (*qısılmış*). Xeyr.

D i v a n b ə y i . Qohumlarınla?

B a y r a m . Xeyr, amma əgər mümkün olmasa, ixtiyar sizindir.

D i v a n b ə y i (*üzün kənara tutub*). Bu fəqirin görəsən dərdi nədir? (*Sonra Bayrama mütəvəcceh olub*). Söz ver ki, hərgiz qaçmasan, rüsxət verrəm.

B a y r a m . Allaha and olsun ki, heç vaxt qaçmanam!

D i v a n b ə y i . Ey, yasavul Kərim, aç bunun qollarını, yanında otur ki, qaçmasın. Ey, Kamalov, mən gərək yurdumuza qayıdıb quldurları axtarmaq üçün binagüzarlıq edəm və lazımdır ki, nemsə Fok özü də hazır olsun!

D i l m a n c . Bəli, ağa, gedək!

Çıxıb gedirlər, sonra Bayram Kərimə

B a y r a m . Divanbəyi əcəb adam imiş. Amma bilmir ki, mən səninlə köhnə dostam.

K ə r i m . Yəni bunu deməkdən qərəzin nədir? İstirsən ki, mən səni boşlayam qaçasan?

B a y r a m . Xeyr, mən divanbəyiyə söz vermişəm, heç yerə qaçmanam. Ayrı mətləbim var.

K ə r i m . Mətləbin nədir?

B a y r a m . Təvəqqə edirəm ki, tez bir Zalxanın yanına özünü salıb mənim əhvalatımı deyəsən.

K ə r i m . Namaz arvadı Zalxanın yanına?

B a y r a m . Bəli.

K ə r i m . Əhvalatı ona söyləyim?

B a y r a m . Bəli.

K ə r i m . Dəxi başqa söz?

B a y r a m . Başqa bir söz yoxdur.

K ə r i m . Yaxşı gedirəm (*Üzün kənara tutub*). Qəribə adamdır. Qaçsa qaçar ey! (*Gedir*).

B a y r a m (*yalqız*). Ay Allah, Zalxa anlayacaqdırmı? Mətləbi başa düşəcəkdirmi? Bir də Pərzadın üzünü görəcəyəmmi? Zalxa hiyləgər arvaddır. Ona bel bağlamaq olarmı? Ox, Allah, kəreminə şükür! Pərzad gəlir.

Bu halda Pərzad içəri girir. Zalxa uzaqdan pusur.

B a y r a m . Ax, mənim maralım, mənim ceyranım! Bu sənsənmi gəlibsən! Qoy bir səni bağrıma basım! A başına dönüm, qoy bir doyunca səni görüm. İndi ki, səni gördüm, tamam dərd-qəmim yadımdan çıxdı. A qadan alım, niyə ağlayırsan? A gözümün işığı, mənim sarıdan yoxsa qorxursan? Qorxma, haqq aşkar olar, mən qurtarram.

P ə r z a d . Sən qurtaranadək iş işdən keçər. Niyə sən tutulubsan? Niyə sənə təqsirsiz bu müsibət üz veribdir?

B a y r a m . Mənim başqa təqsirim yoxdur. Özgiyə quyu qazan özü düşər. Mən özgiyə quyu qazdım, özüm düşdüm. İndi sən istirsənmi ki, mən özümü bədnam edib, çuğulçuluq adını üstümə götürüm? Tarverdini nişan verim?

P ə r z a d . Nişan ver, mən ondan cana doymuşam!

B a y r a m . Heç dərd eləmə! Allah qoysa ölməsəm, tezliklə səni bəxtəvər elərəm.

P ə r z a d . Ax, Bayram, mənim dəxi bəxtəvər olmağım getdi. Qara gün çox yaxınlaşıbdır.

B a y r a m . Bu nə deməkdir? Pərzad, nə söyləyirsən? Niyə ağlayırsan? De görüm, sən tarı, necə qara gün yaxınlaşıbdır?

P ə r z a d . İş-işdən keçibdir. Toy tədarükü hazır olubdur. Əmimin buyruğunu mənə bildiriblər. Bir gündən sonra mənim toyum başlanacaq.

B a y r a m (*çığırıb*). Səni Tarverdiyə verirlər? Allah, divan elə! Pərvərdigara, bu necə işdir?! Bu zalım məni hər tərəfdən bədbəxt edəcək. Vallah, ya onu öldürrəm, ya özüm ölümə gedərəm!

P ə r z a d . Mən də, şübhəsiz, öləcəyəm; mən heç vaxt Tarverdiyə arvad olmanam.

Bu halda Pərzadın qayınanası və başqa tərəkəmələr daxil olurlar.

S o n a (*Pərzadın qayınanası*). A qız, ay utanmaz, sənin burada nə işin var? Sən bu yad yerə, yad adam yanına niyə gəlibsən?! Çıx çölə, cönnəmərg olmuş! Çölə çıx!

Bu halda Kərim yetişib

K ə r i m . Ay arvad, kəs səsin, heç vaxt qoymanam ki, sən o qızı burdan çıxardasan. O, Tarverdini sevmir, güclə onu heç vaxt ona verə bilməzsiniz. Qız Bayramındır!

M ə ş ə d i Q u r b a n . Sənlik nə var ki, bu işə qoşulursan? Sən nəçisən? O mənim qardaşım qızıdır, ixtiyarı məndədir, hər kəsə istərəm verrəm. Artıq-artıq söyləmə!

K ə r i m . Heç vaxt sənin həddin yoxdur ki, o qıza böyüklük edəsən!

M ə ş ə d i Q u r b a n . Mən sənə bildirrəm ki, böyüklük edə biləl-ləm, ya yox! A qız, gəl çıx çölə!

K ə r i m . Görüm necə bildirirsən! A qız, tərpənmə, yerində dur! Görüm səni divanbəyinin yasavulunun əlindən kim alıb aparacaq!

M ə ş ə d i Q u r b a n . Divanbəyi ilə bizi qorxutma! Bağırsaqlarını ayağına dolaşdırram.

Xançalı siyirir, irəli yeriyir. Kərim də xançal çəkir, bir-birinin üstünə hücum edirlər. Qalmaqal düşür, tərəkəmələr aralığa düşüb ayırırlar. Bu halda Tarverdi başı sarınmış yetişir.

T a r v e r d i . Mənim adaxlımı kimin həddi var burda saxlasın? Hamını vallah burda qırram, tikə-tikə doğraram!

Xalq onun qabağın əyliyir.

T a r v e r d i . Qoyun məni, vallah, hamını tikə-tikə doğrayacağam!

K o x a . A Tarverdi, nə danışırsan? Divanbəyinin yasavulun istirsən doğrayasan?

T a r v e r d i . Divanbəyinin yasavulu nə böyük adamdır! Mən divanbəyidən də, qubernatordan da, naçalnikdən də qorxmuram! Of, yaranın yeri nə pis ağrıyır, deyəsən kəsirlər.

M ə ş ə d i Q u r b a n . Ay arvadlar, dəxi qalmaqal eləməyin, çıxın çölə!

B a y r a m (*yavaş Pərzada*). Pərzad, hələ sən də get, görək necə edirik. Divanbəyi gələndə ərz edəcəyəm.

Bu halda divanbəyi yetişir.

D i v a n b ə y i (*qaim sövt ilə*). Qılıncları qınından çıxardın, heç kəsi qoymuyun yerindən tərpənməyə!

Sükut olunur.

D i v a n b ə y i . Cənab Fok, yaxın gəl! Bax görək, o meşədə sənə rast gələn adamı buların içində tanıya bilərsənmi?

F o k . Baş üstə, cənab divanbəyi, mən baxım görüm.

Başlayır adamların bir-bir üzünə baxmağa. Tarverdi dalısını ona çevirir. Fok onun qolundan yapışır.

T a r v e r d i . A kişi, məni niyə tutursan?

F o k . Üzünü bəri çevir, çənəni niyə bağlayıbsan?

T a r v e r d i . Dişim ağrıyır.

F o k (*onun üzünə baxıb*). Ağa divanbəyi, bu haman adamdır!

T a r v e r d i . Ağa, yalan deyir! Mən iki aydır azarlıyam, üç ildir naçağam!

D i v a n b ə y i . Bu saatda məlum olar (*onun başından dəsmalı dartıb yerə salır*). Üzündəki yara yerləri nədir?

T a r v e r d i . Ağa, mənim dişim ağrıyır, həcəmət qoydurmuşam.

D i v a n b ə y i . Xeyr, əzizim, bu, ayının dırnaqlarının yeridir. Kazaklar, bağlayın bunun qollarını!

T a r v e r d i (*onun ayağına döşənib*). Ağa, vallah, mən bundan əvvəl heç quldurluğa getməmişdim, dəxi bundan sonra hərgiz getmənəm.

Kazaklar Tarverdinin qolunu bağlamaq istirlər.

M ə ş ə d i  Q u r b a n. Ay aman, qoymuyun! Mənim gözümün ağı-qarası bir oğlum var!

Tərəkəmələr, arvadlar yeriyirlər Tarverdini kazakların əlindən almağa.

D i v a n b ə y i  (*tez tapançasın yuxarı qalxızıb*). Hər kəs ayaq irəli qoysa, qarnın tüstü ilə dolduracağam.

Hamı tərəkəmələr, arvadlar geri çəkilirlər.

D i v a n b ə y i  (*kazaklara*). Bağlayın bunu qolların!

Kazaklar Tarverdinin qollarını bağlayırlar.

D i v a n b ə y i. Bayram, sən azadsan!

B a y r a m. Ağa, təqsirli mənəm, bir ərzimə qulaq asın!

D i v a n b ə y i. Necə təqsirlisən? Nə danışırsan?

B a y r a m. Ağa, Tarverdini mən öyrədib quldurluğa göndərdim.

D i v a n b ə y i. Niyə?

B a y r a m. Ondan ötrü ki, mənim sevgilimi istirdi əlimdən alsın.

D i v a n b ə y i. Yoxsa sənin sevgilin budur? (*Pərzada işarə edib*)

B a y r a m. Bəli, budur, başına dönüm!

T a r v e r d i. Ağa, başına dönüm, məni yoldan çıxartdılar. Mən bir fəqir, dinc adamam. Mənə dedilər ki, qorxaqsan; mən də qorxumdan ki, mənə ürəksiz deməsinlər, quldurluğa getdim.

D i v a n b ə y i. Axmaq, sənə qorxaq deyəndə nə olacaq idi ki, özünü xataya saldın?

T a r v e r d i. A başına dönüm, onda mənə qız gəlmirdi. Bu qız ki, görürsən, mənim əmim qızı və mənim deyiklimdir. Mənə dedilər ki, əgər bir qoçaqlıq eləməsən, ad çıxarmasan, heç vaxt bu qız sənə arvad olmayacaq. Mən də yerdən oldum, quldurluğa getdim, qəzadan köpək oğlunun ayısına rast gəldim.

D i v a n b ə y i. Bayram, sən çox pis iş eləyibsən! Amma çünki mərdliklə təqsirini iqrar elədin, mən sənin günahından keçirəm. Amma bundan sonra belə iş eləmə! Kamalov, qızdan soruş ki, bu oğlanların hansına getmək istirsən?

Dilmanc qızdan soruşur.

P ə r z a d (*dilmanca*). Divanbəyiyə ərz elə ki, mən heç vaxt Tarverdiyə getmənəm. Əgər məni ona verməli olsalar, şəksiz özümü öldürrəm!

D i l m a n c (*divanbəyə*). Qız Tarverdini sevmir.

D i v a n b ə y i. Bəs məlumdur ki, Bayrama getmək istir. Məşədi Qurban, əl çək bu qızdan, qoy getsin Bayrama! Görükür ki, qoçaq oğlandır. Mən də onu özümə yasavul edərəm, sizin də vecinizə gələr.

M ə ş ə d i  Q u r b a n. A başına dönüm, istəmədim, əl çəkdim, təki mənim oğlumu xatadan qurtar.

D i v a n b ə y i. Cənab Fok, razısanmı bu işi sülh ilə qurtarasan?

F o k. Necə sülh ilə, ağa?

D i v a n b ə y i. Yəni pul alıb bu adamdan əl çəkəsən.

F o k. Pul alıb əl çəkəm? Baş üstə, ağa divanbəyi, pul almağa razıyam. Çox razıyam!

D i v a n b ə y i (*Məşədi Qurbana*). Məşədi, sənin oğlun təqsirlidir. Mən eləyə bilmənəm ki, bu işi örtəm, basıram. Amma bu nemsəni sən razı edəndən sonra mən bir bəhanə gətirib, ümənayi-dövlətdən təvəqqə edəcəyəm ki, Tarverdini bağışlasınlar. Bişək bağışlanar!

T a r v e r d i. Ağa, nə bəhanə göstərəcəksiniz?

D i v a n b ə y i. Yazacağam ki, axmaqlığın ucundan bu iş səndən baş veribdir.

T a r v e r d i (*baş əyib*). Bəli, ağa, elədir, başına dönüm!

D i v a n b ə y i. Ey camaat, sizdən ötrü indi ibrət olsun! Dəxi vaxtdır inanasınız ki, siz vəhşi tayfa deyilsiniz! Sizə eybdir yaman işlərə qoşulmaq.

*Pərdə salınır*

**Tamam olur**

# SƏRGÜZƏŞTİ-VƏZİRİ-XANİ-LƏNKƏRAN

*Yəni təmsili-güzarişi-əcib ki, keyfiyyəti dörd*
*Məclisdə bəyan olub itmamə yetir.*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Lənkəran vilayətinin xanı.
Mirzə Həbib – onun vəziri.
Ziba xanım – vəzirin əvvəlimci hərəmi.
Şölə xanım – vəzirin istəkli ikimci hərəmi.
Nisə xanım – Şölə xanımın bacısı ki, qızdır, vəzirin evində olur.
Pəri xanım – Şölə xanımın anası ki, o da vəzirin evində olur.
Teymur ağa – xanın qardaşı oğlu ki, Nisə xanıma aşiqdir.
Hacı Salah – tacir.
Ağa Bəşir – vəzirin naziri.
Heydər – vəzirin fərraşı.
Kərim – vəzirin mehtəri.
Xacə Məsud Qara – vəzirin xacəsi.
Səlim bəy – xanın eşik ağası.
Qədir bəy Səlim bəy – onun naibi.
Səməd bəy – xanın fərraşbaşçısı.
Əziz ağa – xanın pişxidmətbaşçısı.
Vəzirin bir neçə başqa fərraşları və bir neçə bəylər.
Xanın bir neçə başqa fərraşları.
Bir neçə ərizəçilər xan imarətində.

## ƏVVƏLİMCİ MƏCLİS

Əvvəlimci məclis əlli il bundan əqdəm.[1] dəryayi-Xəzərin kənarında, Lənkəran şəhərində, vəzir Mirzə Həbibin evində vaqe olur. Vəzir oturubdur ikimci arvadının otağında, qabağında əl-əl üstə, Hacı Salah durubdur.

Vəzir. Hacı Salah, eşitdim ki, Rəştə[2] gedirsən doğrudurmu?
Hacı Salah. Bəli, ağa!
Vəzir. Hacı Salah, sənə bir qulluq buyuracağam, gərəkdir bitirəsən. Onun üçün səni çağırtmışam.
Hacı Salah. Buyur, ağa, can-baş ilə bitirməyə hazıram!
Vəzir. Hacı Salah, gərəkdir Rəştdə bir nimtənə tikdirəsən. Yeri abi zərbəftdən ki, misl və bərabəri bu vaxtadək Lənkəranda görünməmiş ola; xülasə –

Bir nimtənə kim, ta ola zərbəftü nikutər,
Diba ona möhtac.
Mətnində tamam rabitə mövzun sərasər,
Tək haşiyə qıyqac,
Üstündə onun aşiqü məşuq müsəvvər,
Dil şövqünə minhac.
Ulduza şəbih nəqşi, yeri göy kimi əxzər,
Nəzzarəsi bəhhac.
Tiri-nəzəri əhli-təmaşaya müqərrər,
Hər butəsi amac.
İçində onun şölə verə tələti-dilbər,
Tabəndeyi-vəhhac.
Görən deyə bu mahdır, ol, çərxi-pürəxtər,
Ya bəhri-pürəmvac.
Kəbə evinin örtüyünə tuta bərabər,
Simasını hüccac[3].

Elə ki, hazır olar, iyirmi dörd dana dəxi qızıl düymə toyuq yumurtasından kiçik, göyərçin yumurtasından böyük, zərgərə kəsdirib, yaxasına düzdürüb, özünlə bərabər qayıdanda gətirərsən. Bu da sənə əlli qızıl (*Pulları kağıza bükülü qabağına qoyur*). Əgər çatmasa, artığın da qayıdandan sonra karsazlıq edərik. Tezmi qayıdacaqsan?

Hacı Salah. Bir ayadək qayıdaram, başqa bir işim yoxdur. Nəqd pul aparıram, ipək alıb yola düşəcəyəm. Amma, ağa, nimtənənin ölçüsü məlum olsa idi çox yaxşı olardı. Orda tikdirdim, bəlkə dar oldu, gen oldu; ya uzun oldu, gödək oldu, qulluğunuzda müqəssir ollam.

Vəzir. Eybi yoxdur, bir az gen və uzun tikdir; əgər burada düz gəlməsə, düzəldərik.

Hacı Salah. Ağa, olmazmı parçasın və düyməsin gətirdim, burada hər kəs ki geyəcək, onun əyninə görə biçdirib tikdirdəsiniz?

Vəzir. Ax, qəribə kişisən! Örgənibsiniz çox danışmağa ki, öz mərifətinizi bildirəsiniz. Qərəzin budur ki, mən mətləbi vazeh açıb sənə danışam? A, kişi, heç bilirsənmi ki, onu burda biçdirib tikdirsəm, nə qalmağala düşəcəyəm?

Hacı Salah. Xeyr, ağa, mən nə bilirəm?

Vəzir. Bəs gərək piş əz vəqt səni mətləbdən xəbərdar edəm və illa gedib bazarda demiyən adam qoymazsan ki, vəzir mənə belə-belə

qulluq buyurubdur. Sonra qulaq dincliyi bizə haram olar. Əzizim, mətləb budur ki, Novruz bayramına iki ay qalıbdır. Mən istəyirəm ki, bayramda bir qəribə nimtənə Şölə xanıma bağışlayım. Əgər onu burda tikdirsəm, Ziba xanım da bir eləsini istəyəcək. Ona da tikdirsəm, izafə xərcdir, çünki ona yaraşmaz. Tikdirməsəm, baş ağrısından, qalmaqaldan xilas olmayacağam!

Hacı Salah. Ağa, bağışlayanda da genə Ziba xanım bir eləsini istəməzmi?

Vəzir. Allahu əkbər, xata-balaya düşdük! Olan, sənlik nə var? Sənə hər nə buyururam, elə eylə!

Hacı Salah. Baş üstə, ağa!

Vəzir. Bağışlayanda mən deyəcəyəm ki, bacım, Hidayət xanın arvadı bu nimtənəni Şölə xanıma sovqat göndəribdir; onda Ziba xanım məni müqəssir görməz. Bu sözləri burda bir kimsəyə söyləsən, vay sənin halına!

Hacı Salah. Xeyr, ağa, mənim nə həddim var ki, sənin sirrini xalqa yayam?

Vəzir. Di get, mürəxxəssən!

Hacı Salah baş vurub otaqdan çıxır, sonra tez Ziba xanım otağın o birisi qapısını bərk ikiəlli açıb çığıra-çığıra içəri girir, vəzir qorxub, səksənib geri baxır.

Ziba xanım. İstəkli arvadına yaxası qızıl düyməli nimtənə buyurursan; barakallah sənin kişiliyinə!.. Deyəcəksən də ki, bacın onu Şölə xanıma sovqat göndərib, barakallah! Bacını mənə tanıdırsan? Sənin bacın xəsislikdən pəniri şüşəyə qoyuğ çöldən əppək batırır, elə oldu ki, əlli-altmış tümənlik nimtənə sənin arvadına sovqat göndərdi?

Vəzir. Arvad, nə danışırsan? Necə nimtənə? Necə sovqat? Dəli olubsan?

Ziba xanım. Mənə fəndü fel gəlmə! Əvvəldən axıradək Hacı Salah ilə danışığını eşitmişəm. Hacı Salahı çağıranda sümüyüm duymuşdu; xəlvət gəlib o biri qapının dalısından pusurdum. Allah mübarək eyləsin, arvadına yaxası qızıl düyməli nimtənə... Teymur ağanın gözü aydın olsun ki, sevgilisinə təzə nimtənə buyrulur ki, geysin, onun qabağında süzsün.

Vəzir. Arvad, nə yava-yava danışırsan? Məgər heç utanmırsan ki, mənim üzümə qarşı arvadıma böhtan deyirsən? Mənim namusumu batırırsan?

Z i b a   x a n ı m . Sənin namusunu mən batırsaydım, mən də bir oğlan sevərdim. Sənin namusunu arvadın Şölə xanım batırır ki, gecə-gündüz Teymur ağa ilə qol-boyundur. Qaravaşım neçə kərə gözilə görübdür.

V ə z i r (*rəngi təğyir tapmış*). Mən hərgiz sənə və sənin qaravaşına inanmanam!

Z i b a   x a n ı m . Bu sözü yalnız biz demirik. Tamam Lənkəran bu işi bilir. Sənin gözün örtülüb, uyubsan bu çənginin məkrinə, felinə, təmiz adını-sanını itiribsən.

V ə z i r . Şölə xanım nə tanıyır Teymur ağanı? Harda görübdür onu?

Z i b a   x a n ı m . Sən özün tanıdıbsan, özün göstəribsən!

V ə z i r (*qaim sövt ilə*). Mən tanıtmışam? Mən göstərmişəm?

Z i b a   x a n ı m . Bəli, sən tanıdıbsan, sən göstəribsən! Sən deyilmidin ki, oruc bayramında gəlib arvadına dedin ki, xan qala qırağında bəy uşaqlarını bir-birilə güləşdirir; sən və bacın Nisə xanım xacə və qaravaşınızla gəlin qala divarının dalısında, mərdrovda fərş saldırıb oturun, tamaşa edin!? Olar da yola düşüb getdilər. Orda Teymur ağa, iyirmi beş yaşında cavan, gözəl oğlan, tamam bəy uşaqlarını basıb. Şölə xanım bir könüldən min könülə ona aşiq və giriftar olub. Axır kim bilsin nə hiylə edib onu ələ salıbdır ki, bir gün görməsə, aramı yoxdur. Sənə demədimmi, kişi, bu əlli yaşında yengi yetişmiş qız almaq sənə yaraşmaz? Sözümə qulaq asmadın, indi çək, əzabındır!

V ə z i r . Yaxşı, çıx get, dəxi bəsdir, işim var, kağız yazacağam.

Ziba xanım çıxıb gedir.

V ə z i r (*yalqız*). Əqlim kəsmir ki, Şölə xanım bu işin sahibi ola, amma çox ehtimalı var ki,Teymur ağanın gücü ona xoş gəlib, cahıl qız uşağıdır, saymazyana tərifini onun-bunun yanında dilinə gətiribdir. Bu arvad xayınlıqla bunu sövgülülüyə həml edib, biçarəyə quyu qazır. Bəhər-hal, gərəkdir ki, Şölə xanıma inandırmaq ki, Teymur ağa çəndan güclü deyil, o basdığı uşaqlar tamam colma-çocuq idilər, bəlkə bu tədbir ilə dəxi Teymur ağanın vəsfi onun dilinə gəlməyə. Bəs durum gedim xanın yanına, sonra qayıdıb gəlləm otağına, görüm necə eyləröm. (*Ayağa durur, istir getsin, Ziba xanım girir içəri*).

Z i b a   x a n ı m . Bu gün nahara, şama nə buyurursan, hazır etdirim?

V ə z i r . Zəhrimar, zəqqum! Sən mənə belə xörək yediribsən ki, bir ay da yeməsəm acımanam. (*İstir gedə, otağın ortasında bir xəlbir*

*düşmüş imiş, gözü qapıda, fikirli getdiyi yerdə ayağını xəlbirin sağanağının bir başına basır, o başı qalxıb taraq dəyir onun dizinə. Uf edib dizin tutur, əylənir, qaşqabağı tökülmüş, üzün arvadına tutub çığıra-çığıra*). Bu xəlbir burda nə qayırır?

Ziba xanım (*təəccüblə*). Mənim heç xəbərim yoxdur!

Vəzir. Fərraş!

Heydər fərraş dəhlizdən otağa daxil olub, əl-əli üstə baş əyir. Ziba xanım üzün örtüb, çəkilir otağın bir tərəfinə.

Vəzir (*acıqlı*). Heydər, bu xəlbir otağın içində nə qayırır?

Fərraş. Ağa, sübhdən mən otağı süpürürdüm. Mehtər Kərim əlində xəlbir bura gəldi, bir az danışdı, sonra getdi, məlum olur xəlbiri burda qoyub gedibdir.

Vəzir. Bu saatda mehtəri buraya çağır.

Fərraş gedir.

Vəzir. Mehtərin mənim otağımda nə işi var? Xəlbiri mənim otağımda nə qayırır? Bu gün hər tərəfdən mənə inciklik üz verir. Hər vaxt ki, mən bu xarab olmuş otağa gəlləm, heç bir xətadan xali olmanam.

Ziba xanım. Əlbəttə, ondan ötrü ki, bu otaqda Şölə xanım yoxdur! Çünki belədir, dəxi bura niyə gəlirsən? Həmişə get Şölə xanımın otağına.

Fərraş və mehtər daxil olurlar.

Vəzir (*acıqlı*). A gədə, Kərim, sənin mənim otağımda nə işin var? Sənin yerin töylədir. Sən nə cürət edib mənim otağıma ayaq basırsan?

Mehtər. Ağa, mən bir dəqiqə gəlmişdim Heydərdən soruşam ki, cənabınız bu gün atlanacaqsınızmı? Soruşdum və tez çıxdım, getdim.

Vəzir. Bəs bu xəlbiri bura niyə salıb gedirsən?

Mehtər. Xəlbir əlimdə idi, atlara arpa xəlbirləyib verəcəkdim. Yadımdan çıxıb burda qalıbdır.

Vəzir. Sonra niyə gəlib aparmadın?

Mehtər. Burda qaldığı ağlıma gəlmirdi, elə indiyədək xəlbiri axtarırdım.

Vəzir (*fərraşa*). Səndə ağıl harda idi, haramzada! Heydər, bu saatda nazir Ağa Bəşiri bura çağır və çubuq və fələqqə də özünlə gətir, bir üç nəfər dışqarı fərraşlara da de, bura gəlsinlər.

Fərraş gedir.

Mehtər (*başlayır titrəməyə və ağlamağa*). Ağa, xanın başına çevir məni!

Vəzir (*qeyzlə*). Kəs səsini, it oğlu it!

Mehtər (*başlayır ökküldəməyə*). Ağa, qurbanın olum, qələt eləmişəm, atan goruna bağışla məni! Atam ilə, babam ilə qələt eləmişəm, dəxi heç vaxt buraya ayaq basmanam!

Vəzir. Səsin kəs, eşşək toxumu, eşşək!

Bu halda nazir Ağa Bəşir, Heydər fərraş qoltuğunda bir dəstə çubuq, əlində fələqqə və başqa üç nəfər fərraş daxil olurlar, baş əyirlər.

Vəzir (*fərraşlara*). Yıxın naziri, ayağın salın fələqqəyə!

Fərraşlar naziri yıxırlar, ayağın fələqqəyə salırlar, ikisi fələqqəni tutur, ikisi çubuq götürür.

Vəzir. Vurun!

Fərraşlar vururlar.

Nazir. Ağa, başına dönüm, mənim təqsirim nədir?

Vəzir (*qeyz ilə əlin xəlbirə sarı uzadır*). Bu xəlbir mənim otağımda nə qayırır?

Nazir. Necə xəlbir, ağa?

Vəzir. Çubuq dəyəndə bilərsən necə xəlbir!

Fərraşlar vururlar.

Nazir. Ay haray, ay dad! A başına dönüm, axır mənim təqsirim nədir? A qurbanın olum, bir təqsirimi buyur, sonra öldürürsən öldür!

Vəzir (*fərraşlara*). Dayanın! Ağa Bəşir, sənin təqsirin budur ki, bu qapıda qulluq edənlərin vəzifəsini olara tanıtmayıbsan! Bu qapıda qulluq edənlər hamı sənin ixtiyarındadır. Gərək sən hər kəsin yerini, işini ona bildirəsən. Mehtər gərək tövlədən başqa özgə yerə ayaq basmasın; xəlbir gərək heç vaxt mənim otağıma düşməsin. Bu gün mehtər Kərim əlində xəlbir mənim otağıma girib, xəlbiri burda qoyub gedibdir. Qəflətən onun sağanağının bir tərəfini basdıqda, o biri tərəfi qalxıb dizimə belə toxunubdur ki, indi ağrıdan qıçımı qaldıra bilmirəm. Mən bir böyük vilayətə vəzarət edib dolandırıram; sən gövdən bir mənim evimi, mənim nökərlərimi dolandıra bilmirsən!

N a z i r. Ağa, sənin başını və ağlını Allah böyük yaradıbdır; mən necə sənə tay ola bilərəm?

V ə z i r (*fərraşlara*). Vurun!

N a z i r. Ağa, başına dönüm, bu səfər məni bağışla, dəxi bundan sonra heç vaxt belə iş olmaz.

V ə z i r (*fərraşlara*). Qoyun əldən! Ağa Bəşir, bu səfər səni bağışladım, əgər bundan sonra bir də mənim otağımda xəlbir görünsə, özünü ölmüş bil!

N a z i r (*durub ayağa*). Bəli, ağa, xatircəm ol.

V ə z i r. Di get!

M e h t ə r (*yavaş*). Allah, sənə şükür!

Hamıdan irəli xəlbiri qaldırıb özün qapıya salır, dalınca da o birilər, sonra da vəzir çıxır.

*Pərdə salınır*

## İKİMCİ MƏCLİS

İkimci məclis Şölə xanımın otağında vaqe olur. Teymur ağa və Nisə xanım qabaq-qabağa ayaq üstə danışırlar.

T e y m u r a ğ a. De görüm, bu işin çarəsi nədir? Bu nə xəyaldır ki, vəzir düşübdür? Məgər mən ölmüşəm ki, səni vəzir özgəsinə verə bilə? Axır bu qərabətdən onun mənzuru nədir?

N i s ə x a n ı m. Mənzuru nədir? Məgər özün bilmirsən? Əlbəttə, mənzuru ixtiyar axtarmaq və izzətdə olmaqdır!

T e y m u r a ğ a. Məgər xan ona verdiyi ixtiyar və izzət bəs deyil?

N i s ə x a n ı m. Bəs olsa da, amma bietibardır: istir ki, qərabət səbəbi ilə bu ixtiyar və izzət payidar olsun.

T e y m u r a ğ a. Qəribə axmaqdır. Məgər xan öz yaxın əqrəbalarına etdiyi işləri gözü ilə görmür? Bəhər surət işə çarə tapmaq gərəkdir. Sən əbəs yerə bu vaxtadək məni qoymadın ki, onu xəbərdar edim; indi mən istirəm ki, sabah onun yanına adam göndərib məlum edəm ki, bu niyyətdən düşsün, yoxsa xeyir götürməz.

N i s ə x a n ı m. Amandır, Teymur ağa! Bu fikirdən düş ki, bu işi hərgiz vəzirə bildirmək olmaz; ondan ötrü ki, o həmişə deyir: xan səni

öldürməyə bəhanə axtarır və mən bilirəm ki, bu xüsusda vəzirlə mükərrər məşvərət edibdir; əgər vəzir bizim məhəbbətimizi anlasa, öz xeyri və səlahı üçün haman saat gedib xana bildirəcəkdir ki, sən, guya onun namizədinə göz dikirsən, xüsusən ki, vəzir səndən çox incikdir!

Teymur ağa. Xan mənim atamdan qalan ölkəni və xanlığı zəbt etdiyini yetişməz, indi məni öldürmək fikrinə də düşür? Onun xam xəyalıdır!

Nisə xanım. Əlbəttə, çünki ehtiyat edir ki, sən atan məmləkəti ondan iddia edəsən, səni özünə müxill görür. Mən eşitmişəm ki, ancaq el üzünə sənə hörmət edir; əgər fürsət tapsa, bir gün səni sağ qoymayacaqdır.

Teymur ağa. Heç vaxtda onun kimi xanlar məni öldürə bilməz! Bəylər və xalqın çoxusu mənim atamın yaxşılıqları səbəbinə mənə ixlaskeşdir. Mən o quşlardan deyiləm ki, ətim yeyilə. Xub, mən vəzirə nə eyləmişəm ki, məndən incik olubdur?

Nisə xanım. Sən köhnə vəzirin oğlu Mirzə Səlimi gətirib özünə mirzə eləmisən. Vəzir belə bilir ki, əgər sənin əlinə bir ixtiyar düşsə, Mirzə Səlim bişək qabağa çıxacaq, atasın yerin tutacaq, indi bu fikirdədir ki, xana desin, onu bu vilayətdən qovdursun.

Teymur ağa. Onun ağzı deyil, mənim mirzəmi qovdura! Mənim atamın mərhəmətləri ona haram olsun ki, mənim haqqımda bir tövr bədniyyət olubdur! İnşallah taala onun tədbirlərinin hamısını pozub öz mətləbimə çataram. Amma doğru deyirsən; hələ gərək vəzir bizim məhəbbətimizi anlamaya. Şölə xanım hardadır? Mənim ona bir para deyəsi sözüm var.

Nisə xanım. Anamın otağındadır.

Teymur ağa. Olmazmı gedib onu buraya çağırasan?

Nisə xanım. Anam evdə yoxdur, ikimiz də gedək ora.

Teymur ağa. Yaxşı.

Hər ikisi çıxıb gedirlər, sonra Ziba xanım otağa daxil olur.

Ziba xanım. Ay ləçər, axır işi o yerə yetiribsən ki, mənim qaravaşımı söyüb mənim üstümə göndəribsən? Vəzir səni belə qudurdubdur? (*Görür ki, otaqda heç kim yoxdur. O yana-bu yana baxıb söyləyir*). Ax, hardadır bu dilaram çəngi? Evi yıxılsın Mirzə Həbib vəzirin ki, bizim axırımızı bu günə çıxartdı. (*İstir geri dönsün, kişi sədası eşidir, səksənir, əylənir*). Vay, yad kişinin səsi gəlir! Vay, indicə qapı-

dan girəcəkdir, qapıdan çıxa bilmənəm, necə edim? (*O yana-bu yana vurxunub girir pərdə dalısında gizlənir, sonra Teymur ağa ilə Şölə xanım içəri girir*).

Teymur ağa. Anan nə tez hamamdan qayıtdı, qoymadı ki, otaqda danışaq, burda münasib deyil idi, çünki mənim danışası sözüm çoxdur, olur ki, vəzir bura gəlsin.

Şölə xanım. Xatircəm ol, bu gün vəzir bura gələ bilməz.

Teymur ağa. Necə gələ bilməz?

Şölə xanım. Ondan ötrü ki, bu gün növbəti Ziba xanımın otağındadır. Onun qalmaqalının qorxusundan hərgiz cürət edib bura ayaq basa bilməz.

Teymur ağa. Bu hesabi sözdür, amma yalqız bu ehtimal ilə xatircəm olmaq olamaz; genə gərək ehtiyatı əldən qoymamaq, bəlkə bir ittifaq ilə bura gəlmək istədi.

Şölə xanım. Fikir eləmə, Nisə xanıma tapşırmışam ki, dəhlizdən dişqarı bir yerdə oturub gözətləsin; Əgər vəzir görünsə, tez bizi xəbərdar etsin. Yoxsa qorxursan?

Teymur ağa. Mən qorxan adam deyiləm, bir para səbəblərə görə mən istəmirəm ki, vəzir məni burda görə, gedib xana xəbər verə. Bir neçə fikrim var; gərəkdir əvvəl onları itmamə yetirəm.

Şölə xanım. Əlbəttə, gərəkdir vəzir bu işləri bilməyə, yoxsa xana bildirər, iş bilkülliyyə pozular.

Bu halda Nisə xanım başın içəri uzadıb.

Nisə xanım. Ay Aman, vəzir gəlir!

Şölə xanım iztirab halətində qapıdan dışqarı baxır.

Şölə xanım. Ay aman, vəzir düzbədüz qapıya sarı gəlir. Teymur ağa, sən qapıdan çıxa bilməzsən!

Teymur ağa. Bəs mən necə gərək edim! Olur ki, mənim burda olmağımı bir adam ona xəbər veribdir. Vallah, hər kəs mənim bura gəlməyimi açmış ola, bu xəncəri dəstəsinədək ürəyindən çıxacağam (*Əlini xəncərinə uzadır*).

Şölə xanım. A kişi, söyləmək vaxtı deyil, hələ gir bu pərdənin dalısına, görüm bir tövr ilə vəziri geri qaytara billəmmi?

Teymur ağa girir pərdənin dalısına, sonra vəzir əlində ağac axsaya-axsaya otağa daxil olur.

V ə z i r . Şölə xanım, nə işdəsən, kefin yaxşıdırmı?

Ş ö l ə  x a n ı m . Allaha şükür, sənin dövlətindən kefim həmişə yaxşıdır, sənin kefin yaxşı olsun. Niyə qaşını əyibsən, nə əcəb axsıyırsan?

V ə z i r . A kişi, bu gün başıma bir qəziyyə gəlibdir ki, heç fikrimdən keçməzdi. Ovqatım lap təlx olubdur. Xacə Məsud, get mənə bir qəhvə bişir gətir.

Xacə Məsud baş vurub gedir.

Ş ö l ə  x a n ı m . De görüm, başına nə qəziyyə gəlibdir? Amma olur ki, söyləməyi uzun çəkə, nə lazım zəhmət vermək!

V ə z i r . Xeyr, uzun çəkməz. İş budur ki, mən bir neçə bəylər ilə xanın hüzurunda oturmuşduq. Teymur ağanın güclülüyündən söz düşdü. Hamı bəylər dedi ki, tamam Lənkəranda Teymur ağadan güclü bir kimsənə tapılmaz; xan da təsdiq elədi. Mən inkar etdim ki, Teymur ağada heç güc yoxdur; əgərçi oruc bayramında bir neçə uşaq basdı; amma olar tamam çolma-çocuq idilər. Teymur ağa da hüzurda durmuşdu. Xan mənim sözümü qəbul etməyib dedi: "Sən nə dəlillə bunu isbat edirsən?". Mən cavab verdim ki, əgər mənə yaraşaydı, bu əlli yaşımda Teymur ağa ilə güləşib onun arxasın yerə qoyardım. Xan ki, həmişə belə işlərə həvəsi var, hökmən buyurdu, gərək Teymur ağa ilə güləşəsən. Çarəm kəsilib, ayağa durub tutuşduq, qeyrət mənə əl verib, bir dəqiqə çəkməyib Teymur ağanı çəkdim pişləngə, dəxi bilmirəm necə yerə vurmuşam ki, biçarə uşaq bihiss yerdə nəqş bağladı, ancaq yarım saatdan sonra özünə gəldi; zordan mənim də onbam bərk ağrıyıb, indi axsayıram.

Ş ö l ə  x a n ı m (*təbəssüm ilə*). A kişi, bu nə işdir sən edibsən? Bəlkə kişinin oğlu öləydi, anasının günü qara olaydı?

V ə z i r . Bəs özüm də çox peşman oldum, amma çifayda, belə ittifaq düşdü.

Ş ö l ə  x a n ı m . A kişi, bəs biçarə elə yerdə qaldı? Sən çıxdın gəldin mənə hünərini söyləməyə?

V ə z i r . Xeyr, fərraşlar onu dala götürüb apardılar anasının yanına.

Bu halda Teymur ağa pərdənin dalısında gülməyin saxzlaya bilməiyb pıqqıldayır. Vəzir tez yeriyib pərdəni qaldırır. Teymur ağanı və Ziba xanımı pərdənin dalısında görüb mat qalır və habelə Şölə xanım.

V ə z i r . Sübhanallah, bu nə işdir? (*Sonra üzün Teymur ağaya tutub acıqlı, qaim sövt ilə*). Ağa, sən burda nə qayırırsan? (*Teymur ağa başın*

*aşağı salır*). De görüm, axır sən burda nə qayrırsan? (*Teymur ağa cavab vermir, pərdədən çıxıb başı aşağı istir getsin. Vəzir onun qolundan tutub*). Qoymanam gedəsən, ağa, de görüm, sən burda nə qayrırsan?

Teymur ağa (*qolun çəkir*). Əldən qoy!

Vəzir (*ona bərk-bərk suvanıb*). Qoymanam gedəsən, mənə cavab ver!

Teymur ağa təncə gəlib, bir əlilə yapışır onun boynunun ardından, bir əlilə paçasından qaldırıb tullayır. Vəzir otağın ortasında palaz kimi sərilir. Teymur ağa tez qapıdan çıxıb gedir.

Vəzir (*bir dəqiqədən sonra hala gəlib, üzün tuturu Ziba xanıma*). Ay ləçər, bu necə məkrdir mənim başıma gətirirsən?

Ziba xanım. Mən sənin başına məkr gətirirəm? Vay sənin halına! Vay sənin halına ki, qəflət gözünü ortübdür!

Vəzir. Kəs səsini, ay ləçər! Məni dilə basdırma, dəxi səni tanıdım; bu qədər fitnə və fel tamam sənin işin imiş, Allah qoysa sənin axırına çıxaram!

Ziba xanım. Ay biçarə, bir de görüm nə səbəbə mənim axırıma çıxacaqsan?

Vəzir. Səlitə, dəxi bundan artıq səbəb olar ki, yad adam ilə pərdə dalısına girib gizlənibsən?!

Ziba xanım. Ay biçarə, bir arvadın Şölə xanımdan soruşsana ki, yad adam onun otağında nə qayırır?

Vəzir. Ay ləçər, hələ sən bir özün mənə cavab ver ki, sən naməhrəm ilə bir pərdənin dalısında nə qayırırsan?

Ziba xanım. Yaxşı, mən deyim. Arvadın Şölə xanım mənim qaravaşıma söymüşdü, mən gəlmişdim onun ilə dalaşam ki, niyə həddindən çıxır; ittifaqən onu otaqda görmədim. İstəyirdim geri qayıdam, gördüm ki, qapı tərəfdən bir yad adam Şölə xanım ilə danışa-danışa gəlir. Girdim bu pərdənin dalısına, gizləndim; görüm olar nə qayracaqlar ki, sonra səni xəbərdar edim. Xüsusən ki, üzüaçıq yad adama görükə bilməzdim. İttifaqən sən bura gələndə o adam da girdi pərdənin dalısına gizləndi.

Vəzir. Niyə çıxıb o saat məni xəbərdar etmədin, əgər doğru deyirsən?

Ziba xanım. Necə çıxıb xəbərdar edəydim ki, xəncəri dəstəsinədək ürəyimə çaxacaq idi?!

V ə z i r (*bir az təəmmül edib, üzün Şölə xanıma tutub*). Şölə, doğrusunu de: bu adam sənin yanına gəlmişdi?

Ş ö l ə  x a n ı m. Sənin arvadın tutuquşu cinsidir; dil-dil ötmək, yalan danışmaq peşəsidir. O adamı mən ömrümdə görməmişəm və heç tanımanam.

V ə z i r. Necə tanımazsan? Teymur ağanı sən tanımırsan?

Ş ö l ə  x a n ı m. Teymur ağa burda nə qayrır? Məgər sən Teymur ağanı yıxıb anasının üstünə göndərməmisən?

V ə z i r. Ay ləçər, sən mənim sözümə cavab ver, Teymur ağa səninmi yanına gəlmişdi?

Ş ö l ə  x a n ı m. Temur ağa mənim yanıma gəlsəydi, onu mənim ilə bir yerdə görərdin, Ziba xanım bilirdi ki, mən bu gün hamama getdim; belə xəyal edib ki, mənim otağım xalidir, öz sevgilisini bura çağırıb istirmiş eyş-işrətə məşğul olsun; çünki bu gün sənin növbətin onun yanında olmaq səbəbilə sevgilisini öz otağına gətirə bilməzdi. İttifaqən hamam suyu kəsilmək səbəbilə biz qəflətən geri qayıtdıq. Ona binaən qaça bilməyib, hər ikisi giriblər bu pərdənin dalısına ki, bəlkə mən çölə-bayıra çıxan zamanda fürsət tapıb qaçsınlar. Doğru söz budur, əqlini başına yığ, bu bihəyanın məkrinə uyub, mənim haqqımda nahaq bədgüman olma!

Z i b a  x a n ı m (*Şölə xanıma çığıra-çığıra*). Ay ləktə, bu necə sözdür ki, özündən qayrırsan? Öz işini mənim üstümə qoyursan? Vay, vay, mən özümü öldürrəm!..

Ş ö l ə  x a n ı m. Ləktəsən də, ləçərsən də, kovulsan da! İstər özünü öldür, istər qoy, sənin məkrü felin tamam Lənkəran xalqına məlumdur. Çığırmaq ilə özünü təmizə çıxara bilməzsən! Ərin gözü var, görür ki, bu iş sənin işindir, ya mənim işimdir?

Z i b a  x a n ı m. Ay Aman, mən özümü öldürrəm! A kişi, bu ləçərin ağzına niyə vurmursan ki, mənə belə böhtan deyir?..

Ş ö l ə  x a n ı m. A ləktə, o mənim ağzıma niyə vurur? Əgər o kişidir, gərək səni tikə-tikə doğraya ki, yad oğlan ilə bir yerdə tutubdur.

V ə z i r (*Ziba xanıma*). Əlbəttə, səni gərək tikə-tikə doğramaq! Hələ mənə bir möhlət ver ki, özümü xanın yanına yetirib sənin ciyərguşən axırına çıxım, sonra sənin haqqında fikir çəkərəm. Sən ömrünü yalançılığa sərf edibsən!

Z i b a  x a n ı m (*acıqlı*). Mən yalançıyam? Doğru danışan sənsən? Necə ki, söylədiyin nağıldan məlum oldu...

V ə z i r . İtil gözümün önündən, ləçər! (*Ziba xanım otaqdan çıxır*). Şölə doğru de, bu işdən xəbərin varmı?

Ş ö l ə x a n ı m . Mən hərgiz bu xüsusda təqsirli deyiləm!

Bu halda xacə Məsud əlində qəhvə fincanı daxil olub vəzirin dal tərəfindən ərz edir.

X a c ə . Ağa, qəhvə buyurursunuzmu?

V ə z i r (*geri dönüb, əlilə qəhvə fincanına vurub xacə Məsudun üstünə dağıdır*). İtil cəhənnəmə, məlun! Bu hövsələmin dar vaxtında nə qəhvə içmək yeridir! Mən bu saat xan qulluğuna gedirəm.

Xacə Məsud geri dönüb dağılan qəhvəni üstündən silə-silə.

V ə z i r (*kəsrəti-pərişanlıqdan*). Buyur, tez mənim qırmızı cübbəmi versinlər, kəhər atımı yəhərləsinlər, eşitdinmi?

X a c ə M ə s u d . Eşitdim, ağa, necə ki, buyurursan əmələ gələr.

Ondan sonra vəzir də çölə çıxır.

Ş ö l ə x a n ı m . Allahu əkbər, əcəb işə rast gəldim! Canım qurtuldu, Allah, sənə şükür! (*Nisə xanım içəri girir*) Nisə, qəribə iş ittifaq düşdü; vəzir Ziba xanımı Teymur ağa ilə pərdə dalısında gördü.

N i s ə x a n ı m . Nə danışırsan? Ziba xanım pərdənin dalısında nə qayırırdı?

Ş ö l ə x a n ı m . Bilmirəm, evi yıxılmışın qızı haçan gəlib ora girmişdi ki, mənim canım qurtuldu. Amma xan bişək və şübhə Teymur ağanı öldürəcək! Onu qurtarmağa bilmirəm nə çarə edək?

N i s ə x a n ı m . Qorxma, xan Teymuru öldürə bilməz! Amma gərək idi bu iş olmayaydı; indi mətləb uzanacaqdır. Anam çağırır, gedək onun otağına və xacə Məsudu da göndərək xanlığa, bir xəbər bilsin.

Hər ikisi gedirlər.

*P ə r d ə s a l ı n ı r*

## ÜÇÜMCÜ MƏCLİS

Üçümcü məclis Lənkəran xanının divanxanasında, dərya kənarında vaqe olur. Xan taların sədrində, taxt üstündə oturubdur; hüzurunda durubdur Səlim bəy eşik ağası, əlində çomaq və hər iki tərəfdən Lənkəran bəylərindən neçələri səf çəkiblər, qapının ağzında fərraşbaşı Səməd bəy və pişxidmətbaşı Əziz ağa və bir-iki cavan pişxidmət qaimdir və taların altında ərizəçilər, yanlarında naibi-eşik ağası Qədir bəy müntəzirdirlər. Fərraşlar da taların aşağısında, qapının dalısında oturublar.

X a n . Bu gün çox xoş havadır; divandan sonra istirəm dərya üzündə bir az seyr edəm, könlüm açıla. Əziz ağa, buyur gəmiçilərə ki, dərya kənarında lötgə hazır etsinlər!

Ə z i z  a ğ a . Baş üstə.

Çölə çıxır.

X a n . Səlim bəy, denən ərizəçiləri qabağa gətirsinlər.

E ş i k  a ğ a s ı (*talardan*). Qədir bəy, ərizəçiləri növbət ilə qabağa gətir.

Qədir bəy iki ərizəçini qabağa gətirir, ərizəçilər ikiqat olurlar.

Ə r i z ə ç i l ə r d ə n  b i r i s i . Xan, başına dönüm, ərzim var!

X a n . Kişi, de görüm, ərzin nədir?

Ə v v ə l i m c i  ə r i z ə ç i . Xan, başına dönüm, bu gün atımı çaya suvarmağa aparmışdım; birdən əlimdən qurtuldu, qaçdı. Bu kişi qabaqdan gəlirdi; çağırdım, a kişi, allah xatiri üçün bu atı qaytar. Əyilib yerdən bir daş götürüb ata sarı tulladı, daş atın sağ gözünə dəyib töküldü. İndi at məsrəfdən çıxıbdır; diyəsini istirəm,vermir; mənim ilə cəngü cədəl edir.

X a n (*ikinci ərizəçiyə*). A kişi, belədir?

İ k i m c i  ə r i z ə ç i . Başına dönüm, belədir, amma mən qəsdən daş atmamışam.

X a n . Pərpuc danışma; qəsd olmasa necə daşı götürüb atmaq olar. Sənin də atın varmı?

İ k i m c i  ə r i z ə ç i . Vardır başına dönüm.

X a n (*əvvəlinci ərizəçiyə*). A kişi, sən də get, vur bunun atın bir gözün çıxart! “Əssinə bissinin, vəl eynə bil-eyni, vəl-cürufə qisas”.[4] Bu şübhəli iş deyil, Səməd bəy, fərraşlardan birini qoş getsin, buları haqlaşdırsın!

Səməd bəy baş vurub aşağı enir, bir fərraş qoşub ərizəçiləri yola salır, qayıdır.

X a n. Səlim bəy, de ki, o biri ərizəçilər irəli gəlsinlər; tez olun, bu gün seyrə çıxacağam!

S ə l i m  b ə y. Qədir bəy, o birilərini irəli gətir!

Qədir bəy genə iki nəfər ərizəçini irəli gətirir.

X a n. Ax, xanlıq, səndən əzab dünyada nə var! Hər kəs ancaq öz əhli-əyalının qəmin çəkir, mən gərək min-min adamın qəmin çəkəm, dərdinə yetişəm. Əvvəl xanlığımdan bu günə qədər heç bir gün qapımdan ərizəçiləri rədd etməmişəm!

S ə l i m  b ə y. Bu qədər xalqın duası sizin əcrinizdir. Həqiqətdə bu qədər xalq sizə əyal hesab olunur. Bu, Lənkəran vilayətinin abadlığı sizin ədalətinizin bərəkətindədir.

Ərizəçilər baş əyir.

Ə v v ə l i m c i  ə r i z ə ç i. Xan, başına dönüm, mənim qardaşım naxoş idi. Dedilər ki, bu kişi həkimdir. Getdim, üç tümən pul buna verib qardaşımın üstünə gətirdim. Bu ümid ki, qardaşımı sağaldacaqdır. Gələn kimi qardaşımdan qan aldı, Qanı kəsilən kimi qardaşım canın tapşırdı. İndi deyirəm, kişi, barı pulumu özümə qaytar. Pulumu vermədiyi yetməz, hələ deyir ki, qan almasaydı dəxi pis olacaqdı; hələ genə məndən iddiası var. Dadıma yetiş, başına dönüm!

X a n (*ikimci ərizəçiyə*). Cənab həkim, necə qan almasaydın dəxi pis olacaqdı?

İ k i m c i  ə r i z ə ç i. Xan, başına dönüm, bunun qardaşı möhlik istisqa mərəzinə mübtəla idi. Əgər qan almasaydım, altı aydan sonra bişək və şübhə öləcək idi; qan almaqla bu kişinin altı ay ona bica xərc və zəhmət çəkməkdən xilas etmişəm.

X a n. Cənab həkim, bəs sənin hesabına görə gərək bu kişi genə sənə artıq zad bağışlasın?

İ k i m c i  ə r i z ə ç i. Bəli, başına dönüm, belədir, əgər insaf eləsə!

X a n (*bəylərə üzün tutub*). Vallah, bilmirəm ki, buların divanını necə kəsim? Heç belə çətin davaya rast gəlməmişdim!

B ə y l ə r d ə n  b i r i s i. Başına dönüm, həkim taifəsinin ehtiramı vacibdir, xalqın vecinə gəlirlər. Buyur bu kişiyə, ona bir xələt versin, onu razı etsin. Xüsusən, bu həkimi mən tanıyıram, çox haziq həkimdir.

X a n . Əgər o sənin aşnandır, qoy sən deyən kimi olsun. (*Üzün ərizəçiyə çevirir*). A kişi, get həkimə bir çuxa da ver, onu razı elə. Səməd bəy, bir fərraş qoş, getsin çuxanı alsın, versin həkimə.

Səməd bəy aşağı enir. Bu halda vəzir töyşüyə-töyşüyə içəri girir, qələmdanın aparır qoyur xanın qabağına.

V ə z i r . Qurbanın olum, bəsdir dəxi mənim vəzarət etməyim. Mənim qulluqlarımın əvəzi mənə yetişdi, indi vəzarəti hər kəsə ki, layiq görürsən, ona ver; Mən başımı götürüb bu vilayətdən dərbədər olacağam!

X a n (*təəccüblə*). Cənab vəzir, nə var, sənə nə olubdur? Bu nə halətdir?

V ə z i r . Başına dönüm, cəmi ölkələrdə bu zamanadək sənin ədalətin dillərdə söylənir, sənin qorxundan heç bir kimsənə bəndələrindən bir fəqirin malına və əyalına dəstdirazlıq edə bilməz. Amma sənin qardaşın oğlu Teymur ağa gör necə səndən bivahimədir ki, günün günortasında mənim kimi kişinin evinə giribdir ki, övrətimə əl uzatsın.

X a n (*qeyzə gəlib*). Vəzir, nə söyləyirsən? Teymur bu cürəti edə bilərmi?

V ə z i r . Sənin çörəyin mənə qənim olsun əgər xilaf ərz edirəm! Özüm gözüm ilə gördüm; tutdum ki, əyliyib qulluğuna gətirəm, əlimdən dartınıb çıxıb getdi.

X a n . Səməd bəy, bu saatda get Teymuru bura çağır! Amma bu xüsusda ona bir söz demə! (*Səməd bəy baş vurub gedir*). Vəzir, aram tut, indi bu saatda ona bir divan edərəm ki, məcmui-aləmə ibrət olar!

V ə z i r . Başına dönüm, keçən padşahlar ədalətin icrasında övlad və əqrabalarına tərəhhüm etməyiblər. Xüləfayi-əzimüşşən[5] öz övladlarına xalqın əyalına kəc baxmaqdan ötrü bazxasti-şədid etmişlər. Sultan Mahmud Qəznəvi[6] bu günə cürm üçün müqərrəblərindən birisinin boynunu öz əlilə vurdu. Odur ki, müruri-dühur ədalətlərinin vəsfi aləmdə məzkurdur.

X a n . Vəzir, indi görərsən ki, sənin xanın da bu babda xüləfalardan və Sultan Mahmud Qəznəvidən əskik deyil.

Bu halda Səməd bəy Teymur ağa ilə içəri girir, hər ikisi baş əyirlər.

X a n (*Teymur ağaya*). Mən sənə buyurmamışam ki, heç vaxt xəncər ilə mənim hüzuruma daxil olma?!

T e y m u r  a ğ a . Mən xəncər qurşamamışam!

X a n . Mənə belə göründü. Xub, sənin vəzirin hərəmxanasında işin nə idi? (*Teymur ağa başın aşağı salır*). Sənin qərəzin budur ki, sənin kimi nadürüst qardaş oğlundan ötrü mən vilayətlər içində bədnam olam? Mən sənin kimi qardaş oğlunu istəmirəm! Tənab! (*Haman saat bir neçə fərraş əllərində tirmə şal hazır olurlar*). Salın şalı bunun boynuna, sürüyün aşağı!

Fərraşlar şalı salmağa hazırlanırlar, tamam bəylərin gözü dolur yaş ilə.

E ş i k  a ğ a s ı  v ə  t a m a m  b ə y l ə r . Xan, qurbanın olaq, cavandır, bu səfər bağışlayın bunun təqsirini!

X a n . Babam ərvahına, hərgiz bağışlamanam. (*Üzün çevirib*). Salın şalı! (*Fərraşlar bir cüzvi hərəkət edirlər; tamam bəylər ağlamaqdan özlərini saxlaya bilməyib biixtiyar ökküldəməyə şüruh edib torpağa düşürlər, yalvarırlar*).

B ə y l ə r . Amandır, xan, başına çevir, anasının bircəsidir. (*Ökküldəyirlər*).

X a n . Olmaz, olmaz! (*Qeyzlə fərraşlara üzün tutub*). Salın demirəm, köpək uşağı!

Fərraşlar əllərində şal, yavıqlaşdıqca Teymur ağa cəld əlin uzadıb dalısında sancılmış tapançanı çıxardıb çevirir fərraşlara sarı; fərraşlar qorxudan hər tərəfə səpələnirlər; Teymur ağa aralıqdan çıxıb gedir.

X a n (*dalısınca*). Ay tutun, ay qoymuyun getsin!

Hamı hərəkət edir, amma dalısınca düşən olmur.

X a n (*acıqlanmış, bəylərə üzün tutub*). Sizin heç biriniz mənim mərhəmətlərimə layiq deyil! Bu cüvəllağını niyə qoydunuz getdi?! (*Heç kəs cavab vermir*). Səməd bəy!

Səməd bəy qabağa yeriyir.

X a n . Bu saatda əlli nəfər cəzairçi[7] özünlə götür, Teymuru hər yerdə olsa, axtarıb tapıb tutun, qolu bağlı bura gətirin; ta mən onu öldürməsəm, ölkə dincəlməz!

S ə l i m  b ə y . Baş üstə. (*Qapıdan çıxır*).

X a n (*bəylərə*). Dağılın!

Bəylər dağılırlar.

X a n . Əziz ağa! (*Əziz ağa qabağa gəlir*). Lötgə hazırdırmı?

Ə z i z  a ğ a . Hazırdır!

X a n (*ayağa durub*). Vəzir, sən get, aram tut, qəm eləmə, sənin qisasın yerdə qalmaz. Al, bu üzüyü də Nisə xanıma ver, bu gün məxsus onun üçün zərgərdən gətirtmişdim. Və onu köçürmək tədarükünə məşğul ol; bir həftədən sonra gərəkdir toy başlansın!

V ə z i r . Bəli, fərmanınıza əməl edəcəyəm.

Baş vurub çıxır. Sonra da xan Əziz ağa ilə lötgəyə minib dərya seyrinə çıxır.

*Pərdə salınır*

## DÖRDÜMCÜ MƏCLİS

Dördümcü məclis Şölə xanımın otağında vaqe olur. Şölə xanım və Nisə xanım qayət nigaranlıqda oturublar.

N i s ə  x a n ı m . Görəsən nə vaqe oldu? Xacə Məsud gəlmədi ki, bir xəbər gətirə; ürəyim çox iztirabdadır.

Ş ö l ə  x a n ı m . Niyə iztiraba düşürsən? Sənin sözünlə xan Teymur ağaya bir zad edə bilməyəcəkdir.

N i s ə  x a n ı m . Doğrudur ki, bir zad edə bilməz amma qorxuram ki, Teymur ağa ilə mənim arama ayrılıq sala ki, ölümdən bədtərdir.

Bu halda xacə Məsud girir.

Ş ö l ə  x a n ı m . Xacə Məsud, söylə görək nə oldu!

X a c ə  M ə s u d . Nə olacaq! Vəzir xana ərz elədi, xan Teymur ağanı gətirib istirdi boğdursun. Teymur ağa tapança çəkib fərraşları dağıtdı, aralıqdan çıxdı. Xan dalısınca əlli adam buyurdu ki, hər yerdə tapsalar tutub qolu bağlı gətirsinlər ki, öldürsün. İndi tamam şəhəri və evləri ondan ötrü axtarırlar.

Nisə xanım qüssədən ah çəkir; bu halda qapı açılır. Teymur ağa içəri girir.

Ş ö l ə  x a n ı m . Vay, dədəm vay, sən bura necə gələ bildin? Məgər Aslan ürəyi yemisən? Məgər canından qoxmursan?

T e y m u r  a ğ a (*təbəssümlə*). Nə var ki, canımdan qorxam?

Ş ö l ə  x a n ı m . Necə nə var? Xan səni axtardır ki, tutdursun, öldürsün. Necə sən arxayın bura gəlmisən? Xacə Məsud, çıx çölə, gözətlə! Gələn olmasın!

Xacə Məsud çıxır çölə.

T e y m u r  a ğ a . Sənin xəyalına gəlir ki, mən ölüm qorxusundan bu gün Nisə xanımı görməyə gəlməyəcəkdim? Bu başı qoymuşam onun uğrunda! Amma mən işsiz də gəlməmişəm. İstirəm, bu gecə Nisə xanımı götürüb qaçam. Dəxi bundan sonra onu burada qoymaq olmaz! Sənin ərin mənim ilə nəməkbəharamlıq binasını qoyubdur; mən dəxi öz nişanlımı onun əlində qoyub, ondan sonra bura gəlib-gedə bilmənəm?

Ş ö l ə  x a n ı m . Çox yaxşı, mən də bu əmrə razıyam. Amma gündüz bura gəlmək xilaf idi. Özün bilirsən ki, Ziba xanım yüz yerdən pusquçu qoydurub ki, bir səbəblə səni ölümə verib, bizi bədnam etsin. Yaxşısı budur ki, indi bir tövr ilə buradan uzaqlaşıb gecənin yarısında at və adamla darvaza dalısında hazır olasan. O saatda mən Nisə xanımı çıxarıb sənin əlinə tapşırram, aparарsan.

T e y m u r  a ğ a . Nisə xanım, razısanmı?

N i s ə  x a n ı m . Əlbəttə razıyam, dəxi bundan başqa çarə qalmayıb.

Bu halda Xacə Məsud qapıdan çığırır.

X a c ə  M ə s u d . Ay aman, vəzir gəlir!

Ş ö l ə  x a n ı m  v ə  N i s ə  x a n ı m (*rəngləri təğyir tapmış*). Vay, dədəm vay, nənəm vay! Amandır, Teymur ağa, pərdənin dalısında gizlən, görək bu zalımı qaytara billikmi?

T e y m u r  a ğ a (*heç halətinə təğyir verməyib arami-qəlb ilə*). Mən hərgiz dəxi o pərdənin dalısına girməyəcəyəm; qoy gəlsin məni burda görsün!

Ş ö l ə  x a n ı m  v ə  N i s ə  x a n ı m (*onun ayağına düşüb dizlərindən qucaqlayırlar, iztirab ilə*). Allahı sevirsən, özünü qana çalxama! Baban goru xatiri üçün gizlən pərdənin dalısında!

T e y m u r  a ğ a . Heç vaxt!

X a c ə  M ə s u d (*genə başın içəri uzadıb*). Ay Aman, vəzir yetişdi!

Ş ö l ə  x a n ı m  v ə  N i s ə  x a n ı m . Ay başına dönüm, bizə rəhm elə, bizə yazığın gəlsin! Vəzir bu səfər səni burda görsə, biz bişək ölümə gedərik!

T e y m u r  a ğ a . Hə, ancaq sizdən ötrü. (*Girir pərdənin dalısına, bir saniyə keçmiş vəzir içəri daxil olur*).

V ə z i r . Yaxşı oldu ki, siz hər ikiniz burdasınız. Mənə vacib idi ki, siz ilə danışıq edim. Qulaq asın. Şö lə xanım, heç bilirsənmi ki, sənin bacını xana vermək ilə nə qədər mənim dərəcəm və sənin rütbən artıq olacaqdır? Belə olan surətdə, aya sənə lazım deyilmi öz təmiz adını itirməyəsən və deməsinlər ki, xan bu övrətin bacısını alır ki, naməhrəmlər ilə həmişə aşnalığı var.

Ş ö l ə  x a n ı m (*arami-qəlb ilə*). Buyur, görək, mən hansı naməhrəmlərlə aşnalıq edirəm?

V ə z i r . Məsələn, Teymur ağa ki, sənin otağında gördüm.

Ş ö l ə  x a n ı m . Arvadın Ziba xanımla bu pərdənin dalısında?

V ə z i r . Doğrudur, mən sənin haqqında gümani-bəd edə bilmənəm; olur ki, bu təqsir Ziba xanımın ola; amma bu sözləri ondan ötrü deyirəm ki, elə durub-oturmayasan ki, sənin xüsusunda xana bir yaman söz deyələr və Nisə xanımdan da könlü çıxa; çünki bu saatda Nisə xanımdan ötrü biixtiyardır və mənə buyurdu ki, bir həftəyədək onun köçmək tədarükünü gör! Budur, ona bir üzük də peşkəş göndəribdir. Al, Nisə xanım, tax barmağına! (*Üzüyü Nisə xanımın əlinə qoyur*).

N i s ə  x a n ı m . Bir qız ki, onun bacısının haqqında bədgüman olalar, xana layiq olmaz. Bu üzüyü apar, xana layiq bir qız tap, onun barmağına tax! (*Üzüyü vəzirin qabağında yerə qoyur, çölə çıxır*).

V ə z i r (*dalısınca*). Qızım, mən məgər sənin bacın haqqında bədgüman oluram? Mən bu sözləri nəsihət yolunca ona danışdım.

Ş ö l ə  x a n ı m . Olmazmı bu nəsihətləri arvadın Ziba xanıma verəsən?

V ə z i r . Əlbəttə, sabah ona bundan qaim sözlər deyəcəyəm.

Ş ö l ə  x a n ı m . Dəxi sabah niyə, elə bu saatda gedə bilməzmisən?

V ə z i r . Dəxi saatda çəndan lüzumu yoxdur. Ondan ötrü ki, Teymur ağa fərzən onun sevgilisi də olmuş ola, öz cəzasına yetişdi, ya tapılıb ölümə gedəcək, ya da bu vilayətdən dərbədər düşəcəkdir. Bundan sonra bu xüsusda heç zad danışmaq lazım deyil. Nisə xanımın köçmək tədarükünə gərək məşğul olmaq.

Ş ö l ə  x a n ı m . Get anamın otağına, bu sözləri ona danış; bu mənim işim deyil.

V ə z i r . Get ananı bura çağır, burda danışaq.

Bu halda qapı açılır, Pəri xanım və Nisə xanım içəri girirlər.

V ə z i r. Əcəb oldu gəldin. Buyur otur!

P ə r i  x a n ı m. A qadan alım, oturmaq vaxtı deyil, genə əlimdən çıxıb gedərsən. Sözümə qulaq as. O qədər şüğlun var ki, səni görmək olmur.

V ə z i r. Bəli, ələlxüsus bu günlərdə heç bir macalım yox idi. De görüm, ana, mətləbin nədir?

P ə r i  x a n ı m. A qadan alım, bir cüzvi mətləbdir. Getmişdim falçı Qurbana dua yazdırmağa ki, Allah sən qızım Şölə xanımdan bir oğlan kəramət eləsin. Falçı duanı yazıb buyurdu ki, gərək vəzirin başının üç ağırı buğda səməni qoyub füqəraya paylayasan. İndi gərək sənin başının üç ağırını tutam, səməni vaxtı keçir.

V ə z i r. Əcəb təklif edirsən, ana! Mənim başımı necə çəkib ağırını tutacaqsan, madam ki, başım bədənimdədir.

P ə r i  x a n ı m. A qadan alım, çox asan zaddır. Falçı tövrünü öyrədibdir. Bir dərin qab qoyarıq başına, əgər başın tamam ola sığsa, onun dolusu buğda o başın ağırıdır. Nisə xanım, o badyanı bura gətir!

Nisə xanım gedib qapının dalısında Xacə Məsud hazır eləmiş bir kiçik badyanı gətirir. Pəri xanım tez arami-qəlb ilə vəzirin papağın qaldırır.

V ə z i r. Əgərçi namünasib təklifdir, amma müzayiqə yoxdur; necə ki, deyiblər əməl elə, taki Allah Şölə xanımın arzusun bitirsin.

P ə r i  x a n ı m. Bəli, qadan alım. Nisə xanım, badyanı qoy başına!

Nisə xanım badyanı geydirir. Badya vəzirin qaşına qədər girib aşağı getmir. Nisə xanım zor edir.

V ə z i r. Ay aman, burnum əzildi! Nə qayırırsan, yavaş! (*İki əlli badyanı qaldırır*).

P ə r i  x a n ı m (*tez*). A qız, o böyük badyanı gətir.

Nisə xanım yüyürüb tez böyük badyanı gətirir.

V ə z i r. Ay ana, Allahı sevirsən, olmazmı bu iş özgə vaxta qala? İndi səninlə vacibi danışası mətləbim var.

P ə r i  x a n ı m. Olmaz, vaxtı keçər, a qadan alım! İncimə, bir dəqiqəlik işdir. Biz də səndən ötrü çalışırıq! (*Ağlamaq halında*). Bəs bu axır ömrümdə sən rəva görürsən ki, mən Şölə xanımın qucağında oğul görməyim ölüm? (*Gözün yaşla doldurur, Nisə xanıma üzün tutur*). A qız, qoy badyanı, əvvəldən gərək bunu gətirəydin.

Nisə xanım badyanı qoyur, badya vəzirin lap boğazına keçdikdə, Pəri xanım tez Şölə xanıma pərdə sarı işarə edir. Şölə xanım ahəstə pərdəni qalxızıb, Temur ağanı çıxarıb qapıya sarı ötürür. Teymur ağa qapıdan rədd olduqda Nisə xanım badyanı qaldırır.

V ə z i r . Ana, indi otur səninlə söz danışacağam.
P ə r i  x a n ı m . Baş üstə, oğul!

İstir otursun, bu halda həyətdə çox qalmaqal səsi gəlir. Bir dəqiqə çəkməmiş Teymur ağa əlində tapança otağa daxıl olur. Vəzir onu görən kimi başlayır titrəməyə.

T e y m u r  a ğ a . Mənim atamın yaxşılıqları sənə haram olsun! Axır heç nahaq yerə məni ölümə vermək istirsən? Mən əvvəl səni öldürməmiş özüm ölmənəm.

Tapançanı qalxızır vəzir tərəfinə. Şölə xanım düşür onun ayağına, yalvarır.

Ş ö l ə  x a n ı m . Amandır, Teymur ağa, təəmmül et, əl saxla!

Teymur ağa əl saxlayır. Bu halda Səməd bəy bir neçə cəzairçi ilə otağa daxil olur, qapı ağzında durur.

T e y m u r  a ğ a . Səməd bəy, qərəzin nədir?
S ə m ə d  b ə y . Ağa, biz sənin atan və özün nökəriyik. Bizim həddimiz nədir ki, sənə tərki-ədəblik edək? Amma özün bilirsən ki, xanın buyruğudur, gərək səni onun yanına aparaq.
T e y m u r  a ğ a . Məni diri onun yanına apara bilməzsiniz! Məgər mənim başımı apararsınız. Başım da asanlıqla ələ gəlməz! Bismillah, əgər hünəriniz var, ayaq irəli qoyun. (*Tapançanı yuxarı qalxızır*).
S ə m ə d  b ə y . Ağa, fərz elə ki, onun ilə öldürdün bir adamı; mənim ilə əlli cəzairçi var, buları ki, qırıb qurtara bilməzsən? Bu hərəkətlər nə lazımdır? İnanın ki, xan əhd edibdir sizə bir zad etməsin.
T e y m u r  a ğ a . Mənim hərgiz onun əhdinə etibarım yoxdur. O hansı əhdin üstündə durubdur ki, ona inanmaq olar? Söz odur ki, dedim.

Bu halda həyətdə dübarə qalmağal qopur. Səlim bəy eşik ağası, Teymur ağanın süd qardaşı Riza ilə içəri girir.

S ə l i m  b ə y . Səməd bəy, geri çəkil! Teymur ağa, başın sağ olsun! Əmin xan dərya üzündə seyrə çıxmışdı, qəflətən bərk külək əsib, lötgə çevrilib, xan dəryaya qərq olubdur. İndi xalq xanlıq imarətinin ətrafına cəm olub özlərinə xan istirlər. Təşrif gətirin!

T e y m u r  a ğ a . Riza, belədirmi?

R i z a . Bəli, başına dönüm, belədir! Buyurun gedək! (*Bu halda vəzir və Səməd bəy yeriyib torpağa düşürlər, yalvarırlar*). Ağa, bizi başına çevir!

T e y m u r  a ğ a . Səməd bəy, sən dur geri çəkil! (*Səməd bəy qalxıb geri çəkilir. Teymur ağa vəzirə*). İndi sənə məlum olsun ki, mənim sənin evinə gəlməyim ondan ötrü idi ki, mən sənin baldızın Nisə xanıma təəşşüq yetirib Allahın əmrilə onu almağa talib idim. Amma çünki sən bir para arzuların xatiri üçün onu xana vermək fikrinə düşmüşdün, ona görə bu əmri sənə bildirmək mümkün olmurdu və o cəhətdən sən bir para gümani-bəd mənim haqqımda edib mənim ölümümə çalışırdın! Amma canəbi-əqdəsi-ilahi doğruya yar olub, sənin muradın əksi üz verdi. İndi mən təqsirindən keçib səni bilkülliyyə bağışlayıram və əgərçi səni öz sifətlərinə görə dəxi şüğli-vəzarətdə baqi qoya bilmənəm. Lakin bundan sonra müdamül-həyat məndən vəzifəxar olub, kamali-asayişdə güzəran edəcəksən. Nisə xanımı köçürmək tədarükünə məşğul ol ki, bir həftədən sonra gərəkdir ki, toy başlansın. Anam Pəri xanım, bacım Şölə xanım, xudahafiz!

P ə r i  x a n ı m  v ə  Ş ö l ə  x a n ı m . Ağa, Allah sənin ömür və dövlətini ziyad eləsin, yüz il xanlıq edəsən!

Teymur ağa bəylər ilə otaqdan çıxır, vəzir heyrətlə baxmaqda qalır.

C ə z a i r ç i l ə r  (*qışqırır*). Teymur xan sağ olsun!

*P ə r d ə  s a l ı n ı r*

**T a m a m  o l u r**

# SƏRGÜZƏŞTİ-MƏRDİ-XƏSİS

## (HACI QARA)

*Təmsili-güzarişi-əcib ki, keyfiyyəti beş məclisdə bəyan olub itmamə yetir.*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Heydər bəy
Əsgər bəy
Səfər bəy
Sona xanım – Heydər bəyin adaxlısı.
Teyyibə xanım – Sona xanımın anası.
Hacı qara – sövdəgər.
Tükəz – onun arvadı.
Bədəl – onun oğlu.
Kərəməli – onun nökəri.
Xudaverdi – müəzzin.
Ohan – qaravulların yüzbaşısı.
Sərkis, Qəhrəman, Karapet və başqa altı qaravul.
Mkrtıç və Arakel – Tuğ əkinçiləri.
Murov.
Naçalnik.
Xəlil – yüzbaşı, murov yanında.
Murovun və naçalnikin əmələsi.
Yasavul.

## ƏVVƏLİMCİ MƏCLİS

Əvvəlimci məclis vaqe olur Heydər bəyin obasından kənar bir böyük palıd ağacının dibində, aydınlıq gecədə. Səfər bəy qıvraq geyinmiş, yaraqlı-əsbablı oturub daş üstə, Heydər bəy qabağında habelə yaraqlı-əsbablı, qıvraq geyinmiş məlal ilə danışır.

Heydər bəy. Pərvərdigara, bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var! Sabahdan axşamadək, axşamdan sabahadək arvad kimi dustaq alaçığın içində oturasan. Dövlət dəxi hardan olsun, pul hardan olsun? Ah, keçən günlər! Keçən dövrlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu, bir ordu dağıtmaq olurdu. İndi karvan çapmaq olur, nə ordu dağıtmaq olur. Nə Qızılbaş döyüşü var, nə Osmanlı döyüşü var.[1] Əgər qoşuna getmək istəsən də gərək ancaq çılpaq ləzgilərin üstünə gedəsən.[2] Əgər yüz min zəhmətlə birisini dağların dəlik-deşiyindən çıxartsan, bir dağarcıq, bir kürkdən başqa əlinə bir zad düşməyəcək.

Hanı Qızılbaş və Osmanlı döyüşü ki, tamam Qarabağı qızıl-gümüşə boyadı? Aslandüzün çapqınından indiyədək də çox evlər abaddır. Əmiraslan bəyin övladı genə dünən də Ağcabədi bazarında dədələri Osmanlıda qəsb etdiyi gümüş rəxtlərdən satırdılar. Bir belə döyüş olsun, hamıdan irəli dəstə başında gedən mən ollam! Bir hünər göstərrəm ki, Rüstəmi-dastan[3] da göstərməmiş ola! Mənim işim budur! Nə ki naçalnik çağıırb deyir: Heydər bəy, rahat dur-otur, quldurluq etmə, yol kəsmə, oğurluğa getmə! Peşiman oldum dedim ki, naçalnik, biz də bu əmrə rağib deyilik, amma sizə lazımdır ki, bizim kimi nəcib kimsənələrə bir çörək yolu göstərəsiniz. Qulaq as, gör mənə nə cavab verdi: Heydər bəy, cüt ək, bağ becər, alış-veriş elə. Guya ki, mən Banazor ermənisiyəm ki, gərək gündüz axşamadək kotan sürəm, ya ləmbəranlıyam ki, qurd bəsləyəm və ya ləkəm ki, kəndlərdə çərçilik edəm. Ərz elədim ki, naçalnik, heç vaxt Cavanşirdən kotançı və kümçü görünməyib! Mənim atam Qurban bəy onu etməyib; mən ki onun oğlu Heydər bəyəm, mən də etməyəcəyəm! Qaşqabaqlı üzün çevirib atın sürdü.

S ə f ə r  b ə y . Bu sözlərdən fayda yoxdur. Hər kəs hər nə deyir, desin: Oğurluq ət yeməyib, at minməyəndən sonra dünyada gəzməiyn nə ləzzəti var? Gecə keçdi, Əsgər bəy bilmirəm niyə yubandı! Ha, odur gəlir!

Bu halda Əsgər bəy yetişir.

Ə s g ə r  b ə y . Heydər bəy, mən də hazıram. Gedirsiniz, bismillah, yola düşək. Niyə belə qəmgin və fikirli görükürsən?

H e y d ə r  b ə y . A kişi, bilmirəm hansı ağzı dağınıq naçalnikə məni nişan veribdir. Mahalı gəzməyə çıxmış imiş. Bu gün obanın qırağında ötəndə məni çağırıb deyir ki, Heydər bəy, quldurluq, oğurluq eləmə!

S ə f ə r  b ə y . Yəni acından öl!

H e y d ə r  b ə y . Əlbəttə, elə deməkdir! Guya ki, bütün Qarabağda – dana-doluq oğrusu bir Heydər bəydir! Əgər o əl çəksə, ölkə farağat olur. Dana-doluq oğurlamaq da bizə çətin olubdur. İndi məəttəl qalmışam: əgər qızı gedib götürsək, qorxuram ata-anası şikayət edə: Gərək genə təzədən qaçaq olam.

Ə s g ə r  b ə y . Heydər bəy, tamam Qarabağ bilir ki, o qızı ata-anası sənə veriblər; bilmirəm götürüb qaçmağına səbəb nədir?

Heydər bəy. Səbəb odur ki, pul tapmıram xərcin çəkib, toyun edib gətirəm. Ondan ötrü Səfər bəy məsləhət görür ki, götürüb qaçım, toy xərci aralıqda itsin. Amma bu iş mənə ölümdən bedtər görünür ki, deycəklər: Qurban bəyin oğlu pul tapmadı toy edə, nişanlısını götürüb qaçdı. Çün Səfər bəy dedi ki, qorxundan bu bəhanəni gətirirsən, onun üçün acığa düşüb səni çağırtdım ki, sən də mənə yoldaşlıq edəsən.

Səfər bəy. Mənim üçün təfavütü yoxdur! Mənim yanımda uf-tuf elədin ki, iki ildir adaxlını toy edib gətirə bilmirsən. Mən dedim ki, istirsən gəlim, gedək qaçıraq, gətirək! İndi özün bil!

Əsgər bəy. Heydər bəy, niyyətdən düş! Mənə bir on beş gün möhlət ver, mən sənə toy xərci hazır edim; ağıllı-başlı toy elə, adaxlını gətir!

Heydər bəy. Toy xərcini hardan hazır edəcəksən?

Əsgər bəy. On beş günədək Təbrizə gedərik, qayıdarıq, qaçaq mal gətirrik, birə bir qazanarıq; onun qazancı ilə toyunu elərsən!

Heydər bəy. Avazın yaxşı gəlir, oxuduğun quran olsa! Məgər Təbrizdə müftə mal töküblər, gedib yığışdırıb gətirək, gələk?

Əsgər bəy. Əlbəttə, müftə mal harda idi; pul ilə satın allıq.

Heydər bəy. Əcəb danışırsan! Mən pulu hardan alım?

Əsgər bəy. Məgər mənim özümün pulum var? Mən dediyim budur ki, Hacı Qara ağcabədilidən ki, sövdəgər və dövlətli kişidir, pul götürrük, gedərik, mal gətirrik, satarıq, onun pulunu özünə rədd edərik, qazancı bizə qalar.

Heydər bəy. Hacı Qara, deyirlər, çox xəsisdir. O, adama pul verər?

Əsgər bəy. Mən onun özünü də tovlaşdırıb özümüzə şərik edə billəm. Tamahkar adamdır; ondan ötrü bizə də pul verər, özü də bizim ilə gedər.

Heydər bəy. Yaxşı, əgər özünə gümanın gəlirsə, mən razıyam. Amma gərəkdir əvvəl bir qız ilə görüşüb əhvalatı bildirəm, çünki söz vermişəm, bu gecə məni gözlüyür.

Əsgər bəy və Səfərbəy. Çox əcəb, çox gözəl!

Heydər bəy. Di, bəs siz gedin, sonra mən gəlləm, sizinlə görüşərəm, bərabər gedərik Hacı Qaranın yanına.

Əsgər bəy və Səfərbəy. Salamat ol, gedirik. Amma sübh tezdən gəl (*Gedirlər*).

Bu halda məclis dəyişilir. Uzaqda bir alaçıq görünür. Alaçıqdan on qədəm kənar, kolun daldasında Sona xanım qəşəng səfər paltarını geymiş, ipək çadirşəbi başında, o yana-bu yana baxır, qalxır, oturur.

S o n a   x a n ı m . Allah görəsən genə nə oldu, gəlmədi? Gecə yarıdan ötübdür, hələ indiyədək görünməyir. Dan yeri ağarıb, sabah indicə açılar, bilmirəm necə edim? Bir azacıq da gözətləyim, əgər gəlməsə, çarə yoxdur, gərək alaçığa qayıdam! (*Qalxır ayağa, o yana-bu yana baxır*). Xeyr gəlmədi! Yəqin ki, dəxi gəlməz. Şəkk yoxdur ki, gəlməyəcək! Görəsən genə hansı dəli qudurmuşa rast gəldi, tovlayıb at, mal oğurluğuna götürüb getdi, yoxsa bu vaxtadək gərək idi gələydi, öhdəsindən gələ bilmirəm. Əgər bu səfər də tanıyalar, gərək genə təzədən qaçaq ola, mənim günümü qara edə. Genə iki il evdə məni dustaq eyliyə.Vallah, dəxi gözləmənəm! Heç vaxt dəxi onun yolunda bu qədər oturmanam, gedərəm özgəsinə! Onun fikri budur ki, atam evində mənim birçəyimi ağarda (*Oturur yerə, sonra*). Eh, nə vəsvəsələr gəlir könlümə! İnşallah getməz, mənə and içibdir ki, səni aparanadək heç bir quzu oğurluğuna da getmənəm. Şəksiz, yubanmağına başqa səbəb var. Ax, indi bu kolun dalından qulaq asıb eşidəydi ki, mən deyirəm, gedirəm özgəsinə, görəsən inanardımı? Əlbəttə, inanmayacaqdır, çünki bilir yalan deyirəm. Hövsələm daralıb, ağzıma gələni söyləyirəm. Bıy, şıqqıltı gəlir.

Bu halda kolun dalısından Heydər bəy atlı üzə çıxır, atdan enir.

H e y d ə r   b ə y . Sona xanım! Sona xanım!

S o n a   x a n ı m . Heydər sənsən?

H e y d ə r   b ə y . Mənəm!

S o n a   x a n ı m . Yalqızsan? Bəs hanı yoldaşların?

H e y d ə r   b ə y . Yoldaşlarım yoxdur, yalqız gəlmişəm.

S o n a   x a n ı m . Bu nə sözdür deyirsən? Yalqız niyə gəlibsən? Atam da, qardaşlarım da alaçıqda yatırlar, belə ki, gec gəlibsən, indicə sabah açılacaq, məni alaçıqda görməyib duyacaqlar, şəksiz, dalımca atlanıb, atın izilə gəlib məni əlindən alacaqlar. Sonra dəxi mənim üzümü qiyamətədək görməzsən!

H e y d ə r   b ə y . Hələ səni aparmağa gəlməmişəm, qorxma!

S o n a   x a n ı m  (*qeyz ilə*). Necə aparmağa gəlməmişəm? Nə söylüyürsən?

H e y d ə r   b ə y . Başqa məsləhət var, qulaq as!

S o n a  x a n ı m . Heç məsləhət yoxdur! Atı bəri çək, gedəcəyəm! Dəxi məni alaçığa qayıda bilmənəm!

H e y d ə r  b ə y . Bir dayan, söz deyirəm!

S o n a  x a n ı m (*atın cilovundan yapışıb*). Qulaq asmıram. Hələ üzəngini bas, sözünü yolda deyərsən!

H e y d ə r  b ə y (*onun qolundan tutub*). A qız, bir gör nə deyirəm! Axır tələsmə!

S o n a  x a n ı m . Sabah açılır. Dayanmaq vaxtı deyil. Sözünü sonra de!

H e y d ə r  b ə y . A qız, belə pul tapmışam! Ağıllı-başlı, ellər adətincə toy edəcəyəm. Dəxi səni niyə götürüm qaçım? Səni ki, əlimdən alan yoxdur?

S o n a  x a n ı m . Yalan deyirsən? Pul tapan bu iki ildə tapardı. Mən toy istəmirəm. Elə toysuz gedəcəyəm. Qoşulub qaçan ölkədə ki, bir mən deyiləm; gündə yüzü qoşulub qaçır. Nə ayıb-zaddır? İyirmi qızdan birisinə toy olmur.

H e y d ə r  b ə y . A canım, o qoşulub qaçanların ata-anası vermir, qızın da çarəsi kəsilir, qoşulub qaçır. Axır sənin atan-anan ki, səni mənə özləri verir. Deməzlərmi, utanmaz, dəxi bu nə hərəkət idi etdin, bizi rüsvay elədin? Onda nə cavab verrəm?

S o n a  x a n ı m (*bir az fikir edib*). Pulu hardan tapıbsan?

H e y d ə r  b ə y . Di, bir yerə otur, qulaq as, deyim ki, hardan tapmışam.

S o n a  x a n ı m (*yerə oturur*). Yaxşı, söylə görüm!

H e y d ə r  b ə y . Sən bilirsənmi ki, qaçaq mal necə bahadır, necə qazanclıdır?

S o n a  x a n ı m . Qaçaq mal ilə nə alıb-verəcəyin var? Sövdəgər ki, deyilsən, bu hesabları yoxlursan? De görüm, nə qədər pul tapıbsan?

H e y d ə r  b ə y . Axır bir qulaq ver, gör nə deyirəm! Rus firəng çitini qadağan edibdir; heç kəs qorxudan gedib gətirə bilmir; məgər handa bir rəşid və qoçaq adam cürət edib bir yük, iki yük çızarda bilir.[4]

S o n a  x a n ı m . A kişi, mənim nə vecimə ki, rus firəng malını qadağan edibdir? Allah vara yerli-dibli çit geyməyi xalqa qadağan edə! Sözünü de görüm; pulu kimdən aldın?

H e y d ə r  b ə y . A qız, qoymazsan, bir sözümü tamam edəm? Amma buranın xalqı belə firəng çitinə hərisdir ki, onu görən al-yaşılın üzünə baxmırlar? Əsgər bəy deyir ki, həmi ucuzdur və həmi göyçəkdir, həmi də rəngi solmur. Arvadlar belə çitlərdən ötrü biixtiyardırlar. Heç rus çitini tanımırlar.

S o n a  x a n ı m . Axır mənə nə, firəng çiti, ya rus çiti? İkisi də cəhənnəm olsun! Sözünü de!

H e y d ə r  b ə y . Belə, naçalnikin arvadı da, deyirlər, ərindən xəlvət həmişə firəng çiti alır geyir, Hacı Əziz bu yaxında iyirmi tümənlik firəng çiti satıbdır.

S o n a  x a n ı m . Cəhənnəmə satsın, gora satsın! Bilmirəm çit sözü haradan bunun beyninə düşübdür! Heydər, ağlın çaşıb? Nələr söylürsən?

H e y d ə r  b ə y . Hər nə isə, başa düşürsənmi ki, burda firəng çiti necə əzizdir?

S o n a  x a n ı m . Nəyimə gərəkdir ki, başa düşüm? Firəng çiti alıb-satanam?

H e y d ə r  b ə y . Çox yaxşı, di onda qulaq as. Mən bir yol gedib firəng çiti gətirib sövdəgərlərə versəm, iki toyun xərci çıxar!

S o n a  x a n ı m . Elə bayaqdan bəri hıqqana-hıqqana bunu deyəcəkdin? Barakallah! Mən də deyirəm ki, bəs oğlan doğrudan pul tapıbdır. Firəng malı deyəsən çöldə imiş, bu gedib yığışdırıb gətirə! Dur ayağa gedək, bəsdir, indicə sabah açılar!

H e y d ə r  b ə y . Pul tapmışam, yalan demirəm!

S o n a  x a n ı m . Pul tapıbsan, toyunu elə! Dəxi firəng malına niyə verirsən?

H e y d ə r  b ə y . Axır borc almışam, bu şərt ilə mənə verir ki, firəng malı gətirəm, qazancını yarı bölək. Yoxsa verməz ki, toy edim!

S o n a  x a n ı m . Mən elə qazanc ilə toy istəmirəm, dur gedək! Əgər firəng malında belə qazanc var, dəxi pul yiyəsi səninlə niyə bölür? Gedib özü gətirib hamı xeyrini özü görsün.

H e y d ə r  b ə y . Özü sövdəgər, tacir kişidir; mənim kimi adama yanaşmasa, nəkarədir ki, Arazın o tayına ayaq basa bilə? Kazaklar onun tükün didərlər.

S o n a  x a n ı m . Kazaklar sənin də tükünü didə bilməzlərmi?

H e y d ə r  b ə y . Mən oğurluğa, quldurluğa getmiş adamam. Yüz tülkü fənni bilirəm. Kazakların gözünə görükərəmmi ki, mənim tükümü didələr?

S o n a  x a n ı m . Sən elə oğurluğa, quldurluğa da gedəndə deyirdin ki, məni görən, tanıyan olmaz; amma genə görürdülər, tanıyırdılar. İki il qaçaq gəzib ev üzü görmədin. İndi üzə çıxıbsan, istiyirsən genə bir iş tutasan, qaçaq olasan, məni ağlıya-ağlıya qoyasan? Mən razı deyiləm! Dur gedək, mən toy istəmirəm!

Heydər bəy. Deyək ki, toy istəmədin, axır gərəkməz mənim bir qazanc yolum ola? Çörək istəməzsənmi?

Sona xanım. Allah kərimdir, ac ki qalmayacağıq ?

Heydər bəy. Necə ac qalmanıq? Deyirsən, oğurluğa getmə, quldurluğa getmə, çörək bacadan ki düşməz!

Sona xanım. Sabah açılır. Hələ dur gedək! Məni apar evində qoy, iki həftədən sonra istirsən get qaçaq mala!

Heydər bəy. Çünki rüsxət verirsən, iki həftə atan evində otur, əgər sonra sənə toy edib aparmasam, məndən əskik adam yoxdur!

Sona xanım. İstəmirəm! İstəmirəm! Mən indi gedəcəyəm! Dur gedək! (*Qalxır ayağa*).

Heydər bəy. Belə başına dönüm, qadan alım, ayağından öpüm, yalvarıram, iki həftə səbr et! İki həftədən sonra vallah toy ilə səni aparram. Səni toysuz aparmaq mənə ölümdən bədtər görünür. Atan-anan yanında məni xəcil eləmə!

Sona xanım. İki həftə səbr eləmək cəhənnəm əzabından artıqdır. Dəxi dayana bilmənəm, dur gedək!

Heydər bəy. Allahı sevirsən, sözümə qulaq as!

Sona xanım (*başlayır ağlamağa*). Heydər, görükür ki, məndən soyumusan?

Heydər bəy. Sona xanım, ürəyimi dağlama! Çünki tablaşa bilmirsən, atı min, gedək.

Sona xanım istir ayağın üzəngiyə qoya, bu halda dan yeri ağarıb. Sona xanımın anası Teyyibə xanım alaçıqdan çıxır, çağırır.

Teyyibə xanım. Sona, Sona, Sona huy!

Sona xanım. Vay, dədəm, vay, anam çağırır, dəxi gedə bilmənəm (*tez qısılır yerə*).

Heydər bəy. A qız, bəs mən necə edim?

Sona xanım. Dəxi burda durma, get! Anam indicə bu tərəfə gəlir!

Heydər bəy. Ha vaxt bəs gəlim?

Sona xanım. Heç vaxt, get, dəxi məni görməzsən!

Heydər bəy. Sona, sözünü dəyiş, yoxsa bu xəncəri çaxaram ürəyimin başına, özümü öldürrəm!

Sona xanım. Yox, yox, Allahı sevirsən! Get qaçaq mala, sonra gəl, toyunu elə! Get, get, anam səni görməsin!

Heydər bəy (*onun boynun qucaqlayıb üzündən öpür*). Bu saatda gedirəm, qadan alım, dərd eləmə, bax özün izn verdin!

Teyyibə xanım. A qız, Sona, hardasan?

Heydər bəy tez atı minib tələsik uzaqlaşır.

Sona xanım. Ay ana, burdayam, gəlirəm.

Teyyibə xanım (*yaxınlaşıb*). A qız, çöldə nə qayırırsan bu qədər vaxt?

Sona xanım. Ay ana, gündüz burda xalça salıb oturmuşdum. Gecə yadıma düşdü ki, xalça burda qalıbdır. Yerdən qalxıb gəldim götürüm ki, tezdən sığırçıya, buzovçuya rast gəlib aparmasın. Xalçanı götürüb gəlirdim, başmağımın tayı ayağımdan sürüşüb çıxdı, qaranlıqda axtarıram, tapmıram (*əyilib başmağın axtarır*).

Teyyibə xanım. Ayağıın düz yerə basa bilmirsən? Hansı tərəfdə düşdü?

Sona xanım. Elə buradaca düşdü ey (*əlin yerə sürtür*).

Teyyibə xanım (*yerə əyilib*). Bəs hanı, əgər burda düşübdür?

Sona xanım. Bax, budur, tapdım (*Başmağın tayın əlində göstərir*).

Teyyibə xanım. Di gey ayağına, gedək!

Sona xanım başmağı geyib anası ilə gedir.

*Pərdə salınır*

## İKİMCİ MƏCLİS

İkimci məclis Ağcabədi kəndində vaqe olur. Bazarın bir küncündə tikilmiş dükanın içində qədəkdən, bezdən, şilədən, alçaq çitlərdən tökülübdür. Hacı Qara yarım arşın əlində bikef oturubdur.

Hacı qara. Allah kəssin belə bazarı! Belə alış-verişi! İt oğlu qədək, şilə verənin əli qurğuşun imiş! Üç aydır Qalada[5] almışam, gətirib beş top satmamışam! Heç kəs malın üzünə baxmır. Deyəsən ölətdən qırılanların sovxasıdı. Heç kəs yovuğuna gəlmir. Bu bazar ilə mən bir ilədək də buları satıb qurtara bilməyəcəyəm. Evim yıxıldı getdi! Bu nə iş idi mənim başıma gəldi?! Beş yüz manat nəqd pul verəsən, faydasından, qazancından əl çəkəsən, mayan da əlinə gəlməyə, bu

harda görülübdür? Evin dağılsın çit satan! Qapın çırpılsın şilə verən! Çadra verən, səni görüm heç uğruna xeyir gəlməsin! Sağ-salamat satdığın malın qazancın yemiyəsən! Uf, uf! (*Əlin dizinə çırpır*). Zalım oğlu, yüz yol qurana, peyğəmbərə and içdi ki, çox rəvac maldır. Ağcabədi bazarında üç gündə hamısın satarsan! Üç gün, indi üç ay oluğdur. Üç ay deyil ki, bu mal üç ilə də satılmaz. Yaxşı məni allatdı. Bu hesab ilə düz yüz manat zərərim var. Bu dərd məni şəksiz öldürəcək.

Bu halda Xudaverdi müəzzin yetişib qəflətən.

X u d a v e r d i . Salam-əleyk! Hacı, atanızın ismi-şərifi nədir?

H a c ı  q a r a . Əleykəssəlam! Naşurun topu neçiyədir?

X u d a v e r d i . Xeyr, mən soruşuram ki, mərhum atanızın adı nədir?

H a c ı  q a r a . Nəyinə lazımdır, əzizim?

X u d a v e r d i . Necə nəyinə lazımdır? Axır bir sureyi-cümə oxumuşam, istəyirəm atanızın adına tapşıram.

H a c ı  q a r a . Çox-çox razıyam, əzizim! Yaxşı, bu xeyir iş hardan sizin xəyali-şərəfinizə düşdü?

X u d a v e r d i . Necə hardan düşdü? Bu gün səhərdən bizim evin qabağından keçəndə bəndəzadənizə özünüz buyurmuyubsunuz ki, atana de, bu gün bir cümə surəsi mənim atama oxusun, gəlsin bir abbası verim?

H a c ı  q a r a . Mən? Necə? Nə danışırsan, dəli olubsan?

X u d a v e r d i . Hacı, hələ dəli olmağa bir səbəb yoxdur. Sən deyibsən, oğlum da mənə xəbər veribdir, surəni də oxumuşam, indi abbasını verməsən, bəlkə onda dəli olam.

H a c ı  q a r a . Kişi, özbaşına sənə nə lazım olmuşdu, mənim atama quran oxuyursan?

X u d a v e r d i . Mən özbaşına oxumamışam, sən demisən, mən oxumuşam.

H a c ı  q a r a . Mən heç vaxt belə sözü deməným! Bu heç olan iş deyil! Mən həmişə özüm atama quran oxuram. Pul ilə mən ömrümdə quran oxutduğum yoxdur!

X u d a v e r d i . Hacı, bir abbası nə olacaqdır ki, bu qədər danışırsan? Deməmiş olsan da, bir abbası şəfəqqət elə gedim. Əgərçi oğlum nişanbənişan səni deyirdi.

H a c ı  q a r a . Əzizim oğlun yanılıbdır; olur ki, özgəsi demiş ola, get, axtar, tap, abbasını al. Bu kasad bazarda mənim bir şahı qazancım

yoxdur, abbasını hardan alıram, sənə verim? Allahı sevirsən, dukanın qabağın kəsmə, müştəri gəlir.

Xudaverdi gedir. Bu halda Əsgər bəy, Səfər bəy, Heydər bəy yetişirlər.

Əsgər bəy. Səlam-əleyküm, hacı!

Hacı qara (*başın yuxarı götürüb*). Vəəleyküməssəlam!.. Hacı belə sizin qadanızı alsın! Buyurun içəri, əyləşin! (*Bəylər dükana girib otururlar*). Xoş gəldiniz, ağrınızı alım, səfa gətirdiniz. Bu dükan sizə peşkəşdir! Çubuqmu çəkirsiniz, qəlyanmı istirsiniz?

Əsgər bəy. Qəlyan çəkirik!

Hacı qara. Bu saatda, qadanız mənə gəlsin! (*Tez qəlyanı doldurur*).

Əsgər bəy. Hacı, bazarınız necədir? Alış-veriş yaxşıdırmı?

Hacı qara. Allah bərəkət versin! Ağrın alım, mal ki yaxşı oldu, bazar heç vaxt kasad olmaz. Özün bilirsən ki, mən dükana pis mal qoymanam. Günbəgün satılır. Dünən dükan lap boşalmışdı. Qalaya sifariş eləmişdim, qulbeçəniz bu malı təzə göndəribdir. Elə bu gün yığıb doldurmuşam. (*Qəlyanı verib, əlin uzadır qədəkdən, şilədən tökür bəylərin qabağına*). Hacı qadanızı alsın, hər nə qədər istirsiniz seçin. Getdiyim Kə`beyi-beytüllah haqqı,[6] qur`ana and olsun, peyqəmbər haqqı, oğlum Bədəlin toyun görməyim, yalan deyirəmsə, tamam Ağcabədidə bundan yaxşı qədək və çit heç kimdə tapmazsınız! Buların qumaşı özgə qumaşdır. Müştəri macal vermir, göydə götürür. Sabah bura güzarınız düşsə, buların birin də dükanda görməzsiniz. Alın, aparın!

Əsgər bəy. Nəyimizə gərəkdir, Hacı? Zəhmət çəkib parçaları töküb-dağıtma!

Hacı qara (*təəccüb və məlal ilə*). Necə nəyinizə gərəkdir? Bəs sövdə eləməyəcəksiniz? Bayram ağzıdır, yalavaşlıq istəməzsinizmi?

Əsgər bəy. Xeyr, Hacı, yalavaşlıq üçün gəlməmişik, bir ayrı mətləbimiz var.

Hacı qara. Əgər nəqd pulunuz yox isə, mən yağ ilə də sövdə edərəm. Bəşərti ki, xalis inək yağı ola.

Heydər bəy. A kişi, yağ olsa, özümüz yeyərik: nə inək yağı var və nə qoyun yağı. Qulaq as, gör Əsgər bəy nə deyir.

Hacı qara (*qaşqabaq ilə*). Allahı sevirsiniz, indi zəhmət çəkin, gedin, bir özgə vaxt gələrsiniz, danışarıq! Müştərinin gələn zamanıdır, dükanın qabağın kəsməyiniz!

Əsgər bəy. Hacı, bir çox vacib iş vardır. Alış-veriş bir az sonra olsun. Axı biz səni deyib gəlmişik!

H a c ı  q a r a. Vallah, indi macalım yoxdur. Sonra danışarıq. Hələ zəhmət çəkin, gedin!

H e y d ə r  b ə y. A kişi, bizi qovmayacaqsan ki? Nə tövr adamsan!

H a c ı  q a r a. A başına dönüm, mən ki, qovmuram. Təvəqqə edirəm. Axır kasıb adamam, siz mənim zərərimə razı gərək olmayasınız! İndiyədək siz gəlməsəydiniz, beş-on top çit, qədək satmışdım.

H e y d ə r  b ə y. Əsgər bəy əcəb adam yanına gətirdi bizi! Durun gedək, bundan fayda yoxdur!

Ə s g ə r  b ə y. Heydər bəy, sən allah, sən dinmə! Hacı, incimə, bir qəlyan ver çəkək, bu saatda gedərik.

H a c ı  q a r a. Oğlum ölsün ki, dəxi kisədə tənbəki yoxdur. Elə axırı idi ki, silkədim, doldurdum. Xoş gəldiniz!

Ə s g ə r  b ə y. Hacı, doğru deyirmişlər ki, bir adamdan allah alsa, bəndə verməklə dövlət olmaz. Mən ki, bilirəm sən Ağcabədidə üç aydır üç top çit, qədək satmayıbsan, dərya zərərin vardır. Biz gəlmişdik ki, on beş günün içində sənə yüz manat xeyir yetirək; çifayda bəxtin işləmədi, xudahafiz!

Ayağa durub çevrilirlər getməyə.

H a c ı  q a r a. Bura baxın görüm, nə deyirsiniz? Necə on beş günün içində yüz manat?

Ə s g ə r  b ə y. Dəxi nə deyək? Sən ki, qulaq asmadın, bizi aşkara qovdun.

H a c ı  q a r a. A kişi, nə vaxt mən sizi qovdum? Oturun aşağı, allahı sevirsiniz, cəhənnəm olsun alış-veriş! Oturun aşağı! Mən bilmədim ki, siz inciyəcəksiniz, yoxsa yüz tümən zərərə düşsəydim də, sizə get deməzdim. Məndən bir kimsənə güldən ağır söz eşitdiyi yoxdur!

Ə s g ə r  b ə y. İndi ki, belədir, baş üstə, oturaq, deyək ki, mətləb nədir.

Hamı təzədən otururlar.

H a c ı  q a r a. Di söyləyin görüm, Hacı qadanızı alsın, yüz manat xeyir hardan yetişəcək? Bu xeyri yetirən kimdir?

Ə s g ə r  b ə y. Bu xeyri yetirən Heydər bəydir. (*İşarə edir Heydər bəyə*).

H a c ı  q a r a. Hardan yetirəcək? Bay sənin qadan alım, Heydər bəy! Qəlyan doldurummu, ağrın mənə gəlsin!

H e y d ə r  b ə y . Tənbəki yoxdur, nədən dolduracaqsan?

H a c ı  q a r a . Torbada var. Sən təki qəlyan çək. (*Tez əlin uzadıb, torbadan tənbəki çıxarıb, qəlyanı doldurub Heydər bəyə təvazö edir, uzun çevirir Əsgər bəyə*). Di söylə görüm, neçə yetirəcək?

Ə s g ə r  b ə y . Hacı, bu qədər mal ki, bura tökübsən, heç bir quruş bundan qazanc varmı?

H a c ı  q a r a . Nə bilim varmı, yoxmu, sözünü de!

Ə s g ə r  b ə y . Hacı, Heydər bəyin qoçaqlığını sən bilirsənmi?

H a c ı  q a r a . Bəli, deyirlər ki, qoçaq adamdır!

Ə s g ə r  b ə y . Hamı bilir ki, Qarabağda Heydər bəyin adı gələndə quş qorxusundan qanad salır!

H a c ı  q a r a . Bu zəmanədə çox qoçaqlıqdan isə ağrın alım, adamın cibi pul ilə dolu olsa yaxşıdır.

Ə s g ə r  b ə y . Qoçaqlıq da olmasa, pul olmaz. Hacı, sözümə qulaq as! İndi firəng malı görürsənmi necə baha olub? Təbrizdə arşını bir abbasıya alınan çit, burda altı şahıya satılır. Girvənkəsi bir manata alınan çay, burda manat yarıma göydə gedir, heç bilirsənmi bunun səbəbi nədir?

H a c ı  q a r a . Xeyr, bilmirəm!

Ə s g ə r  b ə y . Səbəbi odur ki, qarabağlıların, erməni yasavullarının, gömrükxana qaravullarının və kazakların qorxusundan quş quşluğu ilə Arazın o tayına cəkə bilmir.

H a c ı  q a r a . Yaxşı, siz istirsiniz ki, quşdan da zirək olub Arazın o tayına səkəsiniz?

Ə s g ə r  b ə y . Əlbəttə, bizim Araz aşığımızdandır, Kür topuğumuzdan! Heydər bəy ki, bizim yanımızda ola, qaravul, yasavul bizə nə eyliyə bilər!

H a c ı  q a r a . Olan, qaravulları, yasavulları qırağa qoy, kazaklar olmasa, vallah, ayda iki yol Təbrizə gedib qayıdaram. Qaravul, yasavul mənə nə eliyəcək? Mən Allahın lütfü ilə yalqız onların iyirmisinin öhdəsindən gələrəm. Doğrusu, kazaklardan çox xəta var!

Ə s g ə r  b ə y . Eh, biz əlli yolun bilirik. Kazakları aldadıb elə yerdən kecərik ki, izimizi-tozumuzu görməzlər.

H a c ı  q a r a . Bəs indi mənim yanıma gəlməkdən qərəziniz nədir?

Ə s g ə r  b ə y . Qərəzimiz odur ki, milçək gözünə qona-qona sən burda nə qazanacaqsan? Dur, çoxlu pul götür, bizə də ver, özündə də saxla, gedək. Bizim alış-verişdən başımız çıxmaz. Təbrizdə sən bizə də, özunə də xirid elə. Biz də səni sağ-salamat malın ilə gətirək bura

çıxardaq. On beş günə yüz qızıla əlli qızıl qazanc olur. Bizə verdiyin pulun qazancın bizə ver, öz pulunun qazancın özün götür.

Hacı qara. Yaxşı, sizə verdiyim pulun faydası necə olsun?

Əsgər bəy. Axır faydasının əvəzinə biz də sənə yaxşılıq edirik; səni quldurdan ötürürük, qazanc yetiririk, dəxi artıq nə istirsən? On beş günə bizdən puluna fayda istəmək sənə ayıb deyilmi? Bizsiz ki, sən nə gedə bilərsən, nə mal gətirə bilərsən!

Hacı qara. Niyə gedə bilmirəm? İstəsəm bu gün gedərəm. Heç kəs də mədən bir çöp ala bilməz! Mən özüm neçə yol quldura rast gəlmişəm, dava eləmişəm.

Əsgər bəy. A canım, yüz əjdaha olasan, bu yola yalqız gedib-gələ bilməzsən! Biz ki, sənin rəşidliyini danmırıq.

Hacı qara. Doğrusu, mən faydasız pul verməyə öyrənməmişəm. Əgər pulumun faydasın çıxarsanız, sözünüzə qulaq asaram.

Əsgər bəy. Adama yüz qızıl versən, on beş günə nə qədər fayda istəyəcəksən?

Hacı qara. Beş qızıl yüz qızıla fayda götürrəm. Artıq hər nə qazansanız sizin olsun.

Əsgər bəy (*Heydər bəyə, Səfər bəyə üzün çevirib*). Yoldaşlar, nə deyirsiniz, razısınızmı?

Heydər bəy və Səfər bəy. Dəxi, nə eliyək, razıyıq!

Əsgər bəy. Hacı, di pul hazır elə!

Hacı qara. Ha vaxt gedirsiniz?

Əsgər bəy. Bu axşam gərək yola düşək!

Hacı qara. Çox yaxşı, pul hazırdır. Gedin, geyinin, axşam gəlim bizim evə. Mən də atımı, əsbabımı tədarük edim, yola düşək.

Bəylər (*ayağa durub*). Xudahafiz, hacı!

Gedirlər.

Hacı qara (*dallarınca*). Xoş gəldiniz, axşam vaxtlı qayıdın!

Bəylər. Xatircəm ol.

Uzaqlaşırlar.

Hacı qara. A kişi, canım çıxdı dəxi bu köpək oğlunun malının üstündə oturmaqdan! Qiyamətədək bu satılmayacaqdır. Deyirlər firəng malı alıb satma, sövdəgərlik eliyirsən, qızılbaş, rus malı al, sat. Mən başıma nə kül töküm! Bu qızılbaş, rus malı bəs niyə satılmır? Xeyr, bir

elə iş olmasa, mən bu zərəri ölüncə ödəyə bilməyəcəyəm! Durum, gedim evə, tədarükü görüm. Bir belə xeyir az ələ düşər, yoxsa qüssədən dərdəcər ollam.

Dükanı yığışdırıb bağlayıb gedir. Bu vaxtda məclisin vəzi dəyişib. Hacı Qaranın evi nəzərə gəlir. Hacı Qara əlində açar, sandığın ağzın açır, torbadan qızıl çıxardır. Üç yüz qızıl sanıyıb əlahiddə kisələrə qoyur, sonra gedir tüfəng-tapançasını, xəncərini, qılıncını gətirir, yığır qabağına. Bu halda arvadı Tükəz yetişir.

Tükəz. A kişi, nə qayırırsan? Bu yaraq-əsbabı qabağına niyə tökübsən?

Hacı qara. Səfərim var, yola çıxacağam!

Tükəz. De görüm, hara gedəcəksən?

Hacı qara. Sənə deməli deyil!

Tükəz. Necə deməli deyil! Quldurluğa getmirsən ki, məndən gizlirsən.

Hacı qara. Elə, bir elə zaddır!

Tükəz. Bəs elə zad isə, heç vaxt gedə bilməzsən! Dur ayağa, get dükanına, malını sat! (*Yaraqları yığışdırır*).

Hacı qara. Dükanı allah batırsın, malı yoxa çıxsın! Satılır məgər! Qoymazsan başımın çarəsini görüm?

Tükəz. A kişi, başına nə gəlibdir, çarəsini görəsən? Nə danışırsan?

Hacı qara. Dəxi nə gələcəkdir! Evim yıxılıb, gedib! Düz yüz manat indiyədək zərərim var. Boğazıma çörək getmir.

Tükəz. Səni görüm boğazın elə tutulsun ki, su da ötməsin, ay göyərmiş! Uşaq aşıq yığan kimi, bu qədər pulu yığıb nə eləyəcəksən? Yüz il ömrün ola yiyəsən, geyəsən, içəsən, sənin pulun tükənməz. Yüz manat zərərdən ötrü nə özünü öldürürsən?

Hacı qara. Min kərə sənə demişəm ki, sən arvadsan, get arvadlığına, mənə öyüd-nəsihət vermə! Yaraqları yerə qoy! (*Əlini uzadıb tüfəng-tapançanı dartıb alır*).

Tükəz. Yəni sən bu yaraqları qurşanıb olar ilə adam qorxudacaksan? Bu tüfəng-tapançanın iyirmisin üstünə götürəsən, mən bu arvadlığım ilə səndən qorxmanam! Torpaq sənin başına (*ikiəlli başına qarıyır*).

Hacı qara. Səni lənətə gələsən, arvad! Toxumunuz yer üzündən götürülsün! İtil burdan!

Tükəz. Kişi dəli olubsan. Mən evimdən hara itiləcəyəm? De görüm, hara gedirsən?

H a c ı  q a r a . Cəhənnəmə, gora! Əl çəkməzsən? Nə istirsən məndən?

T ü k ə z . Kaş cəhənnəmə, gora indiyədək getmiş olaydın! O günü görərəmmi toy-bayram edəm? Çifayda, Əzrailin yolu yumrulsun ki, sənin kimi murdarı yer üzündə qoyub gözəl cavanları qara torpaq altına yollayır.

H a c ı  q a r a . Yer üzündə qalan murdarların biri sən özünsən ki, tugi-lənət olub keçibsən mənim boğazıma! Mən ömrümdə bir kimsəni incitməmişəm, bir kimsəyə bir zərər yetirməmişəm! Mən niyə murdar oluram?

T ü k ə z . Bir kimsəyə zərər yetirməmisən, xeyir də verməmisən! Ondan ötrü murdarsanki, öz malını nə özün yeyib-içirsən, nə əyalına məsrəf edirsən. Sən ölsən, heç olmazsa arvad-uşağın doyunca çörək yeyər.

H a c ı  q a r a . Arvad-uşaq zəhrimar yesin!

T ü k ə z . Sənin evində zəhrimar da tapılmaz; Olsaydı, onu bizə qıyıb verməzdin!

Bu halda bəylər çağırır.

B ə y l ə r . Hacı! H a cı !

H a c ı  q a r a . Arvad, çəkil get, adamlar gəlir!

Tükəz uzaqlaşıb, qapını dalısından qulaq asır.

B ə y l ə r  (*geyinmiş içəri girirlər*). Səlam-əleyk, Hacı!

H a c ı  q a r a . Əleyküməssəlam. Hacı qadanızı alsın, buyurun əyləşin.

Ə s g ə r  b ə y . Hacı, hazırsanmı?

H a c ı  q a r a . Bəli başına dönüm, hazıram! Pulları da, budur, ayırmışam; amma Hacı ağrını alsın, üç yüz qızılı mən özüm Təbrizdə gözünüzün qabağında çaya, parçaya verrəm, əlinizə tapşırram, gərirərsiniz!

Ə s g ə r  b ə y . Elə niyə, Hacı? Burada tapşıranda nə olar?

H a c ı  q a r a . O yaxşıdır, qadan alım! Heç təfavütü yoxdur.

Ə s g ə r  b ə y . Eybi yoxdur, olsun. Di dur gedək!

H a c ı  q a r a . Bir az dayanın, qulbeçənizi göndərsmişəm atlarımı, nökərimi gətirməyə.

Ə s g ə r  b ə y . Neçə at götürürsən Hacı!

H a c ı  q a r a . Üç at, ağrın alım! Birin qulbeçəniz minəcək, birin özüm, birini də yüklərik, nökər başın çəkər. Siz neçə at götürürsünüz?

Əsgər bəy. Bizim də hər birimizin ik atı var: biri yük üçün, biri minik üçün. Bu yaraq-əsbab sənindir, Hacı?

Hacı qara. Bəli!

Əsgər bəy. Çox yaxşı. Di bəs geyin!

Heydər bəy. Vallah, Hacı, səni tanımayan adam olsa, görəndə bağrı yarılacaq.

Səfər bəy. Vallah, mənim Hacıya bu gümanım yox idi.

Hacı qara. Adam iş vaxtı tanılır, qadan alım! Siz məni elə arşınölçən bilib saya salmırsınız. Amma, inşallah, görərsiniz ki, mən qorxaqlardan deyiləm! Təəccüb edirəm bir para qaçaqçılara ki, hər yoldan ötənlərə mallarını verib boş qayıdırlar.

Səfər bəy. Hacı, mal tutanlar bilmirsən necə hiyləgərdirlər. Yasavul-qaravul libasında ki, adamın gözünə görükmürlər. Görürsən ki, bəzi vaxt ya palanlı at, ya eşşək minib, bəzi vaxt piyada, yaraqsız-əsbabsız qabağına rast gəlirlər, nə biləsən, deyirsən ki, fəqir yoldan ötəndir. Elə ki, qapaqap yavuqlaşanda, yaraq-əsbab bilmirsən ki, haradan tapıldı. Dəxi əl açmağa heç macal olmur; soyurlar, hər nəyin var alırlar.

Hacı qara. Bular tamam qorxaqlıqdan və ehtiyatsızlıqdan adamın başına gəlir. Heç kəsi gərək adam özünə yavuq qoymasın. İstər hər libasda olsa da. Bircə mənə rast gələlər, görərlər onların başına nə gətirrəm! Hamısına tövbələmə verrəm ki, dəxi heç qaçaqçının qabağın kəsməsinlər!

Səfər bəy. Bəli, doğru deyirsən, adam gərək qorxaq olmaya, ehtiyatını əldən qoymaya!

Bu halda Kərəməli – Hacının nökəri və oğlu Bədəl içəri girirlər.

Kərəməli. Ağa, atlar hazırdır. Hara gedəcəksən?

Hacı qara. Təbrizə!

Kərəməli. Təbrizə məni də istirsən aparasan?

Hacı qara. Bəli!

Kərəməli. Nədən ötrü gedirsən, ağa?

Hacı qara. Sənin nə vecinə?

Kərəməli. Necə vecimə deyil? Axı deyirsən, səni də aparıram. Bəs bilməyim ki, mən nəyə gərəyəm?

Hacı qara. Gedirəm xiridə. Mal alıb ata yükləyəcəyəm, sən çəkə-çəkə gətirəcəksən.

K ə r ə m ə l i . Ay ağa, havaxt başburt aldın ki, Təbrizə gedirsən?

H a c ı  q a r a . Başburt lazım deyil.

K ə r ə m ə l i . Elə olsa, mən getmənəm. Mən bir yol burdan Səlyana bilitsiz getmişdim, murov o qədər döydürdü ki, indi də ağrısı yadımdan çıxmayıbdır.

Ə s g ə r  b ə y . Qorxma, murov heç vaxt bizim getdiyimizi bilməz!

K ə r ə m ə l i . Doğrusu, mənim vədəm yaxınlaşıbdır, çıxıb özgəyə nökər duracağam. Hacı çox az muzd verir; bir də, qarnım doymur. Mən gedən də deyiləm.

Ə s g ə r  b ə y . Sən bu səfər get. Yolda qarnın tutunca biz sənə çörək verrik. Hər birimsiz də bir top çit bağışlarıq.

K ə r ə m ə l i . Hacı da bağışlarmı?

H a c ı  q a r a . Yükü sağ-salamat gətirib çıxarsan, mən də çalışaram sənin xeyrin üçün sənə verilən çitləri çox baha sataram!

K ə r ə m ə l i . Olsun!

H a c ı  q a r a . Buyurun, gedək!

Hamısı çölə çıxırlar. Sonra Tükəz məclisə gəlir, yalqız.

T ü k ə z . Vay, evinizi Allah yıxsın! Kişiciyi tovlayıb qaçaq mala apardılar. Başına bir iş gəlsə uşaqcıqlarım yetim qalacaq! Vay-vay (*dizinə çırpır, gedir*).

*P ə r d ə  s a l ı n ı r*

## ÜÇÜMCÜ MƏCLİS

Üçümcü məclis vaqe olur Arazın kənarında, Qızılbaş səmtində. Bəylər və Hacı Qara Təbrizdən qaçaq mal alıb qayıdırlar. Arazın kənarına, piyadalanıb yığışıblar qırağa. Araz qıjhaqıj axır, dumanlı gecədir, gah-gah ildırım şaxır.

H e y d ə r  b ə y . Burdan indi keçmək olmaz. Gərək bir dört verst aşağıda küy-qalmaqal salaq, kazaklar tamam aşağı ensinlər, sonra qayıdıb burdan keçək.

Ə s g ə r  b ə y . A kişi, indi bu dumanda, çiskində kazaklar tamam dam altına yığışıblar. Arazın qırağında cin də tapılmaz, gəlmişkən keçək.

H e y d ə r  b ə y . Heç vaxt olmaz! Mən Arazdan bu taya çox oğurluğa gəlmişəm; kazakların həmişə Arazın qırağında busqusu olur.

Hacı qara. Heydər bəy doğru deyir. Ehtiyatı əldən qoymamaq gərək! O deyən kimi edək.

Səfər bəy. Hacının sözü doğrudur. Gedək aşağıda küy salaq. Hacı, sən yüklərin yanında qal.

Bəylər uzaqlaşırlar aşağı. Bir azdan sonra küy, qalmaqal qopur. Yuxarıdan kazaklar yaraqlı-əsbablı başlayırlar beş bir, üç bir aşağı enməyə.

Kazaklardan birisi. Ax, məlunlar! Yəqin quldurdurlar, at qovub gətirib keçirmək istirlər!

İkincisi. Mən belə bilirəm qaçaqçıdırlar!

Üçüncüsü. Hər kim olsa, haqqına fikir çəkərik.

Kazakların dalı kəsilir. Bir azdan sonra qalmaqal sakit olur. Bəylər Hacı Qaranın yanında olurlar.

Heydər bəy. Di tez olun! Dayanmaq vaxtı deyil.

Hamısı tökülürlər Araza, ortasında Hacı Qaranın atı büdrüyür. Hacı Qara atdan oynuyub düşür suya, axır, kənardan suya uzanan söyüd ağacının budağına ikiəlli yapışıb sallanır, çağırır.

Hacı qara. Ay Aman Heydər bəy, Səfər bəy, Əsgər bəy, mənim dadıma yetişin, mən boğuldum!

Heydər bəy. Hacı, hardasan?

Hacı qara. Burda, söyüd ağacına yapışıb sallanmışam!

Heydər bəy. Ay evin yıxılsın, bir elə dərin yerə düşübsən ki, səni çıxarmaq heç mümkün deyil!

Bədəl. A başınıza dönüm, mənim atamı çıxardın!

Kərəməli. A gədə, qoy boğulsun, malı dövləti tökülsün qalsın, beş gün yeyin, için, kef edin! Nəyinə gərəkdir qaydına qalırsan?

Əsgər bəy. Gədə, sarsaq danışma! Xurcundan sicimi çıxart, bura ver!

Kərəməli sicimi tez çıxardıb verir.

Heydər bəy. Əsgər bəy, tez sicimi gətir!

Əsgər bəy sicimi yetirir.

Heydər bəy. Hacı, sicimi atırıq, tut!

Hacı qara. A qurbanınız olum, tuta bilmənəm. Əlimi budaqdan üzsəm, su güclüdür, məni aparacaq. Halqa edin, atın, belimə düşsün!

Heydər bəy sicimi halqa edib tullayır, düşür Hacı Qaranın boğazına, çəkir. Hacı Qara ikiəlli sicimdən yapışıb boğula-boğula qırağa çıxır, suyu səpələnir.

Hacı qara. Evin yıxılsın məni bu günə salan! Qapın çırpılsın məni dükanımdan avara qoyan!

Heydər bəy. Hacı, səfərdə adamın başına çox iş gələr, gərək darılmamaq! Söyləmək vaxtı deyil, indi üstümüzə tökülərlər. Tez gərək qıraqdan uzaqlaşaq, qamışlıqda gizlənək. Gecə yarısı adam yatan vaxtda yola düşək.

Hamısı tez qıraqdan uzaqlaşıb gözdən itirlər. Sonra on nəfər yaraqlı-əsbablı ermənilər bu yan tərəfdən yetişirlər.

Ohan (*ermənilərin yüzbaşısı*). Qoççum Sərkis, qoççum Karapet, qoççum Qəhrəman, siz mənim yanımda durun, qabaqda tüfənglərinizi hazır edin, mən havaxt deyərəm, o saatda atın, vurun! Mən sizi adbaad murova nişan verib istəmişəm, siz mənim yanımda olandan sonra yüz qaçaqçı da olsa, öhdəsindən gəlləm. Ay qalan uşaqlar, siz bizim dalımızda olun qorxmuyun. İnşallah bizi görən kimi yükləri töküb qaçacaqlar. Qaçmasalar, əl açsalar, Allah bilir, hamısını xingəl kimi doğrayacağam!

Sərkis. A yüzbaşı, hansı tərəfdən gələcəklər?

Ohan. Bax, elə qabağımızdan gələcəklər. Qasid xəbər gətirib ki, burdan başqa gələsi yolları yoxdur. Sərkis, muğayat ol! Allah qoysa, bu yüklərdən adama əlli manatdan artıq bəxşeyiş yetişəcək!

Sərkis. A yüzbaşı, elə hamı yüklərini alacaqsan?

Ohan. Allah bilir ki, xurcunlarınadək alacağam!

Sərkis. A yüzbaşı, yazıq deyillərmi? Hər necə olsa axır qarabağlıdırlar. Biz onların tərəfin saxlamasaq, kim saxlayacaq? Genə gərək bir zad özlərinə qoyaq qalsın; yoxsa bəd dua yiyəsi olluq.

Ohan. Olan, nə danışırsan, tərəf saxlamaq bizəmi düşübdür? Tərəf saxlasan, qarabağlılığını gözətləsən, bəd duadan qorxsan, qulluq yaraşdıra bilməzsən.

Sərkis. Yüzbaşı, bir irəli gedim, baxım görüm gəlirlərmi?

Ohan. Yaxşı, ehtiyatlı ol, qorxudub geri qaçırma!

Sərkis. Xeyr, heç gözlərinə görükmənəm!

Gedir.

Ohan. Uşaqlar, sərhesab olun!

Başlayır adamları düzməyə, sonra Sərkis qayıdıb.

Sərkis. Yüzbaşı, evinə od düşsün, qaçaqçılar gəlirlər! Amma qabaqlarınca bir ucaboylu, qıvraq geyinmiş, yaraqlı-əsbablı oğlan gəlir ki, çox heybətlidir. Gözlərindən qan damır.

Ohan. Doğru deyirsən?

Sərkis. Allah bilir ki, doğru deyirəm!

Ohan. De ki, sən öləsən!

Sərkis. Sən öləsən, sənin başın üçün!

Ohan. Üstündə doğrudan tüfəng və tapança gördün?

Sərkis. Vallah gördüm!

Ohan. Neçə idilər?

Sərkis. Hamısı üç adam nəzərə gəldi, amma o bir oğlan heç birisinə bənzəməz.

Ohan. Heç qorxu yoxdur, qoy gəlsinlər. Amma, Sərkis, çox irəli durmuşuq, bu yerdə qapaqap üstümüzə çıxarlar. Bir az geri dursaq yaxşıdır ki, sərvaxt olaq.

Adamları geri durğuzur. Bu halda bəylər qabaqca, dallarınca Hacı Qara və yüklər yetişirlər.

Heydər bəy (*Əlində tüfəng irəli yeriyir*). Ey nə atlısınız? Yolu niyə kəsibsiniz? Çıxın yoldan!

Ohan. Ba, olan, yoldan niyə çıxırıq? Sən kimsən ki, belə ürəklə danışırsan?

Heydər bəy. Qırışmal, qara soransan, rahdarsan, bizim yolmuzu kəsdiribsən? Sənə nə kiməm? Demirəm çıxın yoldan, doldurummu qarnını tüstü ilə! (*Tüfəng qaldırır*). A gedə, Əsgər bəy, Səfər bəy, niyə durubsunuz, niyə buları qırmırsınız? Vursanız buları yıxılalar

Ohan (*yoldaşlarilə yoldan yan durub*). Olan, dəli olubsunuz, qudurubsunuz? Biz qırılası adamlar deyilik.

Heydər bəy. Qırışmal, siz yəni nə qoçaq adamlarsınız ki, qırılmayıbsınız? Al gəldi! (*Tüfəngi uzadır*).

Ohan. A balam, dəli olma! Bax, biz gedirik. Gəl yolunla düz çıx get. Allahı sevirsən, nahaq qan yiyəsi olma. Bizim sizlə işimiz yoxdur!

Heydər bəy. Olmaz, qırışmal, öyünmə! Səni öldürməmiş qoymayacağam!

Ohan. A canım, mən qoçaqlıqdan ötrü demirdim ki, biz qırılası adam deyilik. Mən dediyim odur ki, bizi murov göndərib, bizi öldürsəniz, murova nə cavab verərsiniz?

H e y d ə r   b ə y . Qırışmal, özümüz billik murova nə cavab verrik; sənin nə borcundur soruşursan? Çıxın yoldan, yoxsa bu saatda hamınızı yarpaq kimi tökərəm!!

O h a n . Çıxırıq, çıxırıq, darıxma balam! Sarkis, Karapet. Qəhrəman, dönün, qayıdın, balam! Bulardan qan iyiysi gəlir!

S ə r k i s . A yüzbaşı, bəs murova nə deyək?

O h a n . Olan, nə deyəcəyik? Görmürsən bular quldurdular? Qaçaqçı belə olar? Qaçaqçı yarım ağaclıqdan qaraltı görəndə malın tökür, qaçır. Bular ha bizi soymaq, qırmaq istirlər. Sarsaq köpək oğlu qasid, buları nahaq yerə qaçaqçı hesab edib, xəbər gətiribdir!

Qayıdırlar.

S ə r k i s . A yüzbaşı, murov soruşsa ki, heç bir adama rast gəlmədinizmi, nə deyək?

O h a n . Deyərik ki, heç qaçaqçıya rast gəlmədik!

S ə r k i s . Bəs deyəkmi quldura rast gəldik?

O h a n . Balam, nə işimiz var? Deyərik: dəvə gördün, qığın görmədik.

K a r a p e t . Xeyr, yüzbaşı, deyərik quldura rast gəldik, çox idilər, girişə bilmədik.

O h a n . Yaxşı, onu sonra fikir edərik, hələ gəl!

S ə r k i s . Qoy bir bulardan soruşum ki, qaçaq malınız varmı? (*Geri dönür*).

H e y d ə r   b ə y . Erməni, genə geri dönürsən? Vallah, sizin əcəliniz yetib. Mən sizi qırmasam, siz burdan itməzsiniz.

Ermənilərin üstünə hərəkət edir. Bu halda Sərkisin papağı qaçdığı yerdə başından düşür.

O h a n (*diltəng*). A gedə, Sərkis, bu yana dön, bizi Qana çalxama!

S ə r k i s . Yüzbaşı, papağım düşübdür, qoy bir əyilim götürüm.

O h a n (*darıxmış*). A gədə, qoy gəl, qoy qalsın!

Sərkis tez dönür, hamısı gedirlər.

H e y d ə r   b ə y (*dallarınca*). Ey, atamın goru haqqı, əgər bizi gördüyünüzü bir yerdə deyərsiniz, xəbər verərsiniz, sonra evinizin içində beşikdəki uşaqlarınızadək tamam gəlləm qırram! Özünüz bilin!

O h a n (*uzaqdan*). Olan, nə danışırsan? Bir elli deyilik, üz-üzə gəlmiyəcəyik? Nə işimiz var, xəbər verək? Sən elə bilirsən, biz sizin

üstünüzə gəlmişdik? Yalandan sizə sataşırdıq ki, bizi murov göndərib, görək siz nə deyirsiniz. Biz hadrutluyuq, gəlmişdik şahsevənlərdən camış almağa, sövdəmiz baş tutmadı, qayıdıb gedirik.

Heydər bəy. Yaxşı, di gedin! (*Heydər bəy qeyzlə ayağın yerə çırpıb*). Tez-tez gedin!..

Ermənilər qədəmlərin yeyin götürürlər, uzaqlaşıb gözdən itirlər. Bundan sonra Hacı Qara irəli yeriyib yoldaşlarına.

Hacı qara. A kişi, niyə erməniləri buraxdınız? Niyə qolların bağlayıb bu qamışlığa salmadınız?

Heydər bəy. Nədən ötrü, Hacı?

Hacı qara. Ondan ötrü ki, gedib üstümüzə kazak gətirməsinlər.

Heydər bəy. Camış alanın nəyinə lazımdır ki, gedib özünə zəhmət verə, üstümüzə kazak gətirə?

Hacı qara. Sən bilmirsən, şəksiz, bular camış alan deyillər! Onların sözünə necə inanmaq olar? Eşitmədin, Səfər bəy deyirdi ki, buların yüz hiyləsi olur?

Heydər bəy. Hacı, mən zamın ki, bu səfərdə bulardan sənə heç bir xəta yetişməsin.

Hacı qara. Olan, nə danışırsan? Məgər elə bu səfərdir? Gərək belə adamların bir neçəsinə tənbih oluna ki, qaçaqçının qabağına çıxmayalar. Hər qabağa gələni adam sağ-salamat buraxsa, dəxi buların əlindən qaçağa gedib-gəlməkmi olar? Bundan sonra hərgiz dəxi belə qazanclı səfərdən geri qalmayacağam. Çifayda, mən sənə arxayın oldum, dalda durdum, yoxsa bulara zərbi-dəstimi göstərib, bu nadürüstlərdən gələcəyinə yolları təmizlərdim!

Əsgər bəy. Yaxşı, bir özgə dəfə rast gələndə zərbi-dəstini göstərərsən, indi keçdi dəxi.

Hacı qara. Allah qoysa, siz də eşidərsiniz. Di sürün, durmağa vaxt yoxdur; gərək bu gecə Qarğabazarına yetişək. Ordan mən Bədəli sizin yanınızda qoyub gərək Kərəməlilə ötüm Ağcabədiyə ki, sabah cümə günüdür, bazara çatam, malı satam.

Heydər bəy. Hacı, oradan o yana yalnız gedə bilərsənmi?

Hacı qara. Oradan o yana dəxi ki kazak yoxdur.

Heydər bəy. Kazak yoxdur, amma murov yasavuluna tuş gələsən, onda yaxşı olmaz.

Hacı qara. Mən özüm tarıdan istirəm ki, bir murov yasavuluna rast gələm, olardan bir qisas alam!

H e y d ə r  b ə y . Barakallah, Hacı, maşallah qoçaq imişsən!

H a c ı  q a r a . Bir-iki yasavul mənə rast düşsün, onların başına bir iş gətirim ki, qiyamətədək dadı damaqlarından getməsin; bundan sonra xalq olar sarıdan farağat olsunlar. Ta bu yasavulların bir neçəsinə toy tutulmasa, ölkə onların əlindən dincəlməz!

H e y d ə r  b ə y . Əcəb olar, Hacı, biz də hünərini eşidərik.

Başlayırlar getməyə, bir az gedib gözdən itirlər.

*Pərdə salınır*

## DÖRDÜMCÜ MƏCLİS

Dördümcü məclis vaqe olur Xonaşin dərəsində, aydınlıq gecədə, iki erməni, biri piyada, biri eşşək üstə gəlirlər.

A r a k e l . Mkrtıç, Allah qoysa, bu il səksən çuval taxılım olar.

M k r t ı ç . İnşallah olar. Üç ildir taxılımızı çəyirtkə yeyirdi, amma tarı bu il o qədər veribdir ki, keçən illərin də əvəzi çıxacaq.

A r a k e l . Mkrtıç, nə yaxşı deyirəm ki, bizim köhnə zamandan quyularda taxıllarımız qalırmış, yoxsa bu bahalıq illərdə çox korluq çəkərdik.

M k r t ı ç . Bişək, bizim kəndin taxılı olmasaydı, Dizaq mahalı acından qırılacaq idi.

A r a k e l . Əkinçiliyə Allah bərəkət versin. Dünyada ondan yaxşı peşə yoxdur.

M k r t ı ç . At tappıltısı gəlir. Dayan görək kimdir.

Dayanırlar, bu halda qabaqda Hacı Qara görükür.

K ə r ə m ə l i . Evimiz yıxıldı, ağa, qabaqda iki adam görürük. Dedimmi, yoldaşlardan ayrılma! Tamahın güc gətirdi, gəldin di indi yaxşı Ağcabədi bazarında malını satarsan! Bu saatda yükü alacaqlar.

H a c ı  q a r a . Gədə, nə danışırsan? Kimin həddi var mənim malımı ala?

K ə r ə m ə l i . Belə bu görükənlər! Bir irəli dur, bax! Bular, səksiz, murov yasavullarıdırlar. Di çalış görək necə yükünü saxlayacaqsan.

H a c ı q a r a. Allah qoysa olara bir çöp də vermənəm dişlərini qurtlayalar! Sən yükün üstündə bərk otur, qorxub yıxılma. Mən buları qabaqlayım, görüm sözləri nədir? Tutub qollarını bağlayıb yıxacağam dərəyə. Ta mən özümü bir neçə beləsinə göstərməsəm, yollar əmin olmaz! Allah qoysa bir iş tutum ki, dəxi heç kəs cürət edib qaçaqçı malına tamah etməsin.

K ə r ə m ə l i. Mən mıx kimi yükün üstünə qaxılmışam dartıb salan olmasa, yıxılan deyiləm.

H a c ı q a r a. Yaxşı, otur irəli! (*Ermənilərlə qabaqlaşıb əlində tüfəng*). Ay adam, kimsiniz? Dinin, yoxsa vurdum!

M k r t ı ç. A canım, niyə vurursan? Biz ki, sənə yamanlıq eləmirik? Yoldan gedənik!

H a c ı q a r a. Yava-yava danışma! Yoldan çox adam gedir. Doğrusun de görüm, kimsiniz? Bu gecə vaxtı burda niyə görükürsünüz?

M k r t ı ç. Tuğluyuq, getmişdik çöldə taxılımızı biçirdik. Biçib qurtarıb evimizə qayıdırıq.

H a c ı q a r a. Bu sözlər ilə məni aldada bilməzsiniz. Mən siz deyənlərdən deyiləm. Mən bilirəm ki, siz kimsiniz! Ta mən sizin ikinizi də şil-küt etməsəm, ölkə sizin əlinizdən dincəlməz, gəlib-gedənlər sizin əlinizdən qurtarmaz!

M k r t ı ç (*təəccüb ilə*). Arakel, bu nə danışır?!

A r a k e l. Bir ağıllı-başlı soruş gör sözü nədir, nə istir?

M k r t ı ç. Ay qardaş, biz fağır padşah rəiyyətiyik. Öz kasıbçılığımız ilə başımızı saxlayan adamıq. Biz ömrümüzdə bir kəsə zərər yetirməmişik. Yol kəsmirik, bunt salmırıq. Biz neylirik ki, ölkə bizim əlimizdən dincələ bilmir?

H a c ı q a r a. Mən sizin tamam hiylələrinizdən xəbərdaram! Əgər siz dürüst adam olsaydınız, bu gecə vaxtı bu yolda görükməzdiniz. Sizin fikriniz həmişə xalqa zərər yetirməkdir, xalqın evin yıxmaqdır. Tüfənglərinizi yerə salın, yoxsa vurdum!

M k r t ı ç. A canım, tüfəngimiz harda idi ki, yerə salaq! Bir cüt oraqdan başqa bizdə bir zad yoxdur. Əgər qərəzin bizi soymaqdır, onu bildir.

H a c ı q a r a. Mən adam soyan deyiləm. Sizin kimi özgə malına tamah edənlərin canını alanam!

A r a k e l. Mkrtıç, bu necə quldurdur? Mən heç bunun sözlərin başa düşmürəm.

M k r t ı ç . Heç mən də başa düşmürəm. Dinmə, görüm nə danışır, (*Hacı Qaraya mütəvəcceh olub*). Qardaş, biz kimin malına tamah eləmişik. Biz bir əkinçi xalqıq. Allaha şükür, padşaha xərac da, töycü də veririk. Biyara gedirik. Bacardıqca xalqa də xeyrimiz dəyir. Bu qış bahalıqda tamam Qonşu müsəlman obalarına taxıl borc verdik ki, aclarından qırılmasınlar. Əgər bu zamanadək tuğlu bir adamın bir quruşunu yeyibsə, bizim qanımız sənə halaldır!

H a c ı   q a r a . Sizin qanınız çoxdan halaldır. Amma bu zamanadək tökən olmuyub. İndi sizi əcəl çəkə-çəkə mənə düçar edibdir. Özgəyə quyu qazan özü düşər. Çox adamların evin yıxıbsınız. İndi cəzanıza yetişərsiniz! Yaraqlarınızı salın, yoxsa, vallah, tüfəngi bu saatda ürəyinizin başına boşaldaram!

Ermənilər başlayırlar qorxmağa.

M k r t ı ç . Ay qardaş, yer haqqı, göy haqqı bizim yarağımız yoxdur! Axır bizim təqsirimiz nədir ki, sənin belə qəzəbin tutur?

H a c ı   q a r a . Sizin təqsiriniz nə yerə sığışır, nə göyə! Qurumsaq uşağı, başınıza sənət qəhət olubdur?

M k r t ı ç . A canım, dünyada bizim sənətimizdən yaxşı sənət varmı? Bizim peşəmiz olmasa, aləm çörək tapmaz.

H a c ı   q a r a . Bax, bax, cürətinə bax, sənətini tərif də edir! Qırışmal uşağı, xalq əzab çəksin, Alnının tərilə mal qazansın, siz müftə yerə sahiblik edin! Bu harda görülübdür?

M k r t ı ç . A qardaş, Allahı sevirsən, bizi incitmə, qoy ötək, çıxaq gedək! Sənin işin zarafata bənzir.

H a c ı   q a r a . Vallah, əgər ayaq-ayaqdan tərpədibsiniz, cəmdəklərinizi yerdə sərilmiş bilin! Mənim sözlərimi zarafat sayırsınız? Qərəziniz budur ki, mən sizin kimi sarsaqlara allanam, yaxın gəlib öz bildiyinizi edəsiniz? Yaraqlarınızı tulluyun, deyirəm!

M k r t ı ç . Arakel, nə eyliyək?

A r a k e l . Vallah, mən özüm də mat qalmışam.

M k r t ı ç . Pərvərdigara, bu nə iş idi düşdük? A canım, irəli qoymursan ötək, bəs qoy geri qayıdıb, başqa yol tapıb gedək.

H a c ı   q a r a . Heç vaxt olmaz! Ayaq tərpədə bilməzsiniz, fikriniz odur ki, gedib murova xəbər verəsiniz, özü gəlib mənim üstümə tökülə? Allah qoysa, sizin ölüm xəbəriniz murova çatar! Bundan sonra qalan yoldaşlarına ibrət olar!

M k r t ı ç . A canım, sən bizi kim hesab edirsiniz ki, bu oyunu bizim başımıza gətirirsən?

H a c ı  q a r a . Mən sizi hesab edirəm quldura, yol kəsənə, xalqın evini yıxana, zalıma, müftəxora, dar ağacına layiq olana!

M k r t ı ç . Bəs sən özün kimsən?

H a c ı  q a r a . Məni siz özünüz yaxşı bilirsiniz. Bilməsəydiniz bu gecə vaxtı dərənin ortasında məni qabaqlardınızmı?

M k r t ı ç . Vallah, biz özümüz də çox-çox peşmanıq ki, bu yol ilə gəldik, sənə düçar olduq. Biz heç səni tanımırıq və xəyalımızdan da keçməzdi ki, səni görəcəyik.

H a c ı  q a r a . Bu sözlər bir pula dəyməz! Axırıncı sözümdür, məni məəttəl eləməyin. Tez olun, yaraqlarınızı salın!

M k r t ı ç . Arakel, nə çarə edək?

A r a k e l . Vallah, yarağımız yoxdur! Bu iki oraqdan başqa bizdə bir kəsər tapılmaz; istirsən tullayaq, ha!

Oraqları qabağa tulluyurlar.

H a c ı  q a r a . Tüfənginizi, tapançanızı, qılıncınızı tulluyun! Yoxsa od elədim!

A r a k e l . A kişi, sən necə adamsan? Allah haqqı, peyğəmbər haqqı tüfəng, tapança yoxdur!

H a c ı  q a r a . İnanmanam, yalan deyirsiniz, gizləyibsiniz, tulluyun.

M k r t ı ç . Çünki inanmırsan, özün bil, hər nə eləyəcəksən elə! Allah cəzanı versin!

H a c ı  q a r a . Bəs belə? Görün nə eylərəm! (*Başlarının üstündən tüfəngi atır. Eşşək ürkür, Arakel qorxusundan eşşəyin üstündən yumbalanır. Hacı Qara tapançanı çəkib buların üstünə yüyürür, çığırır*). Tərpənməyin!

Biçarə ermənilərin biri yıxılmış, biri ayaq üstə.

M k r t ı ç . Ay Allah bəndəsi, bizi nahaq yerə niyə öldürürsən?

H a c ı  q a r a . Tərpənməyin! (*Sonra üzün Kərəməliyə tutub*). A gədə, Kərəməli, mən buları əyləmişəm, tez qaç qurtar!

K ə r ə m ə l i . Ay ağa, geri qaçım, ya irəli!

H a c ı  q a r a . Gic oğlu, gic, geriyə hara qaçacaqsan? Genə Araza qayıdıb gedəcəksən? İrəliyə qaç qurtar, tez!

K ə r ə m ə l i . Yəni yük ilə qaç demirsənmi?

Hacı qara. Fu, gic balası gic! Əlbəttə, yüksüz necə gedərsən?
Kərəməli. Mən özüm də belə bilirəm.

Atı çubuqlayıb qabağa, gözdən itir. Bu halda Arakel istiyir ayağa dursun.

Hacı qara (*qaim sövt ilə*). Ay tərpənmə, yoxsa vurdum!

Arakel genə yerə enir. Bu əsnada murov, üstüncə bir dəstə adam yetişir.

Xəlil yüzbaşı (*murova*). Ay ağa, burdadırlar, tapmışam, gəlin!
Mkrtıç. Ay başınıza dönüm, gəlin bizi bu zalımın əlindən qurtarın!
Arakel (*ayağa durmuş*). Ay qurbanınız olum, yetişin, bizə bu quldurdan nəcat Verin!
Hacı qara. Gözünüzə dönüm, hər kimsiniz, gəlin! Bular mənim qorxumdan tərpənə bilmirlər. Buların qolun bağlayın, əyliyin, mən çıxım gedim.

Bu halda murov adamları ilə bulara tərəf çevrilir.

Murov. Haramzadalar, mənim əlimdən hara gedəcəksiniz? Sorağınızı alıb dalınızca gəlmişəm! Xəlil yüzbaşı, qoyma!
Xəlil yüzbaşı (*irəli yeriyib ermənilərə*). Ey, vallah, tərpənərsiniz, hamınızı qırrıq, yarağınızı salın!
Mkrtıç. Ay başına dönüm, biz quldur deyilik. Bizim üstümüzə tökülən bu kişidir.

Hacı Qaraya işarə edir. Xəlil yüzbaşı onun tərəfinə çevrilir.

Xəlil yüzbaşı. A kişi, tərpənmə, yarağını sal!
Hacı qara. A qardaş, mən dinc, farağat kəsb əhliyəm. Yoldan ötdüyüm yerdə bular məni qabaqlayıb əyləyiblər, istirdilər soyalar, çalışıb özümü soydurmamışam.
Murov. Xəlil yüzbaşı buyurur ki, hamınız yarağınızı salın! Sonra hər kim təqsirlidir, məlum olar!
Mkrtıç və Arakel. Ay ağa, vallah, bizim yarağımız yoxdur. İstirsən, yaxın gəlin, baxın.
Xəlil yüzbaşı (*Hacı Qaraya*). A kişi, sən yarağını sal, murov buyurur!
Hacı qara. A başına dönüm, murov buradadır? Başım üstə, budur saldım! Mənim canım və malım murova peşkəşdir. Amma bular yalan deyirlər, yaraqların gizləyiblər.

Yaraq-əsbabını yerə salır, sonra murov öz adamları ilə yavuqlaşıb Hacı Qaraya.

Murov. A kişi, mən səni üç gecədir axtarıram. Xəlil yüzbaşı, bağla bunun qolların!

Xəlil yüzbaşı Hacı Qaranın qollarını bağlayır.

Hacı qara. A başına dönüm, mənim təqsirim nədir?

Murov. Çox danışma, yoldaşlarını de, yoxsa sabah səni dar ağacından asdırram.

Hacı qara. Ağa, niyə məni dar ağacından asdırırsan? Mən quldur deyiləm, yolkəsən deyiləm. Quldur, yolkəsən dar ağacından asılır.

Murov. Necə quldur deyilsən! Bəs sən Əylis ermənilərini soyub ipəklərin aparanların yoldaşı deyilsən?

Hacı qara. Ay ağa, başına dönüm, mən bir fağır adamam, peşəm sövdəgərlikdir. Adam soymaq bacarmanam.

Murov. Bəs yaraqlı-əsbablı bu gecə vaxtı burda nə qayırırsan? Düz adam burda gəzməz. Ay uşaqlar, bunu bərk saxlayın, görüm bu adamlar kimdir (*Üzün çevirir ermənilərə*). A kişi, siz kimsiniz?

Mkrtıç. A qurbanın olum, biz tuğlu fağır biçinçiyik. Əkindən evimizə qayıtdığımız yerdə bu kişi bizi əyliyib qoymuyub gedək. Sən yetişməsəydin, bunun əlində dustaq idik.

Murov (*Hacı Qaraya*). A kişi, buları sən burda saxlamışdın?

Hacı qara. Mən buları saxlamışdım? Yalan isə buların evini allah yıxsın! A başına dönüm, bular mənim yolumu kəsib məni soymaq istirdilər.

Mkrtıç. Ağa, yalan deyir, o bizi soymaq istirdi.

Hacı qara. Bularda çox hiylə var, ağa! Bulara inanma! Deyirdilər ki, guya sizin yasavullarınızdandırlar. İndi öz sözlərini gizlirlər.

Mkrtıç. A ağa, vallah, bu kişi yalan deyir! Bunun sözünə inanma! Biz əvvəldən axıra özümüzü tuğlu biçinçi deyib buna yalvarmışıq ki, bizdən əl çəksin. Bunun bir yoldaşı davar idi, qaçdı.

Murov. Xəlil yüzbaşı, di gəl qan ki, buların hansı doğru deyir. Şeytan da buların sözündən baş açа bilməz. Kim bilsin bular necə adamdırlar? Buların üçün də götürün gedin, sabah naçalnikə göstərrik, silist olunar. Hər necə buyursa, əməl edərik.

Xəlil yüzbaşı hamısını dustaq edir.

Hacı qara (*başlayır ağlamağa*). Evin yıxılsın mənim evimi yıxan! Qan qusasan məni qana çalxayan! İmansız öləsən məni bəlaya

salan! Mən harda, divan harda! Mən silistdən qaçırdım, genə silistə düşdüm! Çibindən birəyədək başlayacaqlar soruşmağa. Di, gəl boş-boş suallara cavab ver! Gözlə axırı yaxşı olacaq!

Ermənilərdən birisi. A kişi, səni görək könlün şad olub, üzün gülməsin ki, bizi nahaq yerə müsibətə saldın. Kim bilsin indi silistdən havaxt qurtaracağıq! Urusun silisti beş il qurtarmaz. Taxılımızı kim yığacaq, xırmanımızı kim döyəcək. Ax-ax!

Xəlil yüzbaşı. A kişi, az danışın, yeriyin.

Hamı gedirlər, gözdən itirlər.

*Pərdə salınır*

## BEŞİMCİ MƏCLİS

Beşimci məclis vaqe olur obada. Heydər bəy alaçığın içində oturubdur bir gün irəli toy edib gətirdiyi gəlini ilə. Çöldə zurna-qaval çalırlar. Cahıl uşaqlar oynuyub söz oxuyurlar.[8]

Heydər bəy. Allah kəraminə şükür! Yuxudur, görəsən, ya zahirəndir ki, mən səninlə qabaq-qabağa oturmuşam. İki il çöllərdə dərdinlə gün keçirib axır ki, arzuma yetişdim. Bu nemətin şükürün yerinə yetirə bilmənəm.

Sona xanım. Heydər bəy, səni Allaha and verirəm ki, bundan sonra dəxi gəzməyə getməyəsən! Vallah, dəxi məni ayrılığa hərgiz tabım yoxdur. Allah eləməmiş, əgər sənin başına bir iş gələ, ya qaçaq olasan, ya tutulasan, mən dünyada sağ qala bilməyəcəyəm. Bundan sonra səni bir gün görməsəm, öləcəyəm!

Heydər bəy. Xatircəm ol! Quldurluğa, oğurluğa, hərgiz getməyəcəyəm. Naçalnik də mənə dili ilə tapşırıbdır. Amma bir yaxşı qazanc yolu tapmışıq. İnşallah sən özün də ona mane olmazsan. Çünki bir artıq iş deyil.

Sona xanım. De görüm, necə işdir?

Heydər bəy. Özün bilmirsən? İyirmi beş gün bundan irəli sənə demədim ki, Hacı Qaradan pul götürüb qaçaq mala gedirik? Onda razı olmurdun. İndi xeyrini gördünmü? Gedib gətirən kimi bir gündə Qarğabazarında satıb mayasını verdik Hacı Qaranın oğluna, qazancını götü-

rüb gəldik. Yoldaşlarım da bu səfər paylarını mənə verdilər. On günün içində xərc çəkib, el adətincə toy edib səni gətirdim. Əgər sənin sözünə baxıb getməsəydim, ya gərək səni götürüb qaçaydım, ya indiyədək hələ atan evində qalaydın.

Sona xanım. Bəs deyirlər ki, axır qadağandır, gedib-gələnlərə tənbih edirlər.

Heydər bəy. Əlbəttə, acizləri həmişə tuturlar. Malını alıb tənbih edirlər. Amma mənə kim yavuq gələ bilər!

Sona xanım. Bəs sənin qabağına çıxan olmadı?

Heydər bəy. Niyə olmadı? Onu birdən çıxdı; qoxutdum, hamısı qaçdı, getdi.

Sona xanım. A aman, Heydər bəy, bu iş də xatalı işə bənzəyir! Doğrusu, mən buna da razı deyiləm! Hacı Qaraya sifariş edəcəyəm ki, dəxi sizə pul verməsin, sizi tovlaşdırıb aparmasın.Vallah, bu işi də fikir edəndə ürəyim əsir!

Heydər bəy. A qız, nə var ki, ürəyin əsir? (*Sona xanımın boynun qucaqlayıb üzündən öpür*). A qurbanın olum, bəs nə işə yapışım? Bəs nə ilə səni saxlayım?

Sona xanım (*başlayır ağlamağa*). Əl çək. Bu işdən də əl çək! Mən atam evindən gətirdiyim cehiz ilə bir il yaxşı dolannıq. Sonra bir yaxşı iş tapmasan, özün bil!

Heydər bəy. Bəs qoy bir-iki dəfə də gedim, yoldaşlarımın borcunu verim, sonra deyərsən dəxi getmənəm.

Sona xanım (*ağlaya-ağlaya*). Heç bir dəfə də qoymanam! Yarım dəfə də qomanam! Qoy yoldaşların gözləsinlər!

Heydər bəy. Axır şərtimiz belə idi. Getməsəm, pullarını istirlər, gözləməzlər.

Sona xanım. Sənin işin olmasın, anama sifariş edərəm, atama deyər, oları sakit edər.

Heydər bəy. Yaxşı, amma mən heç bilmirəm ki, sən nədən ehtiyat edirsən?

Sona xanım. Mən ondan ehtiyat edirəm ki, genə sənin adın çəkilə, işə düşəsən, mən günü qara olam.

Heydər bəy. Boş-boş xəyal eləmə. Bu heç vaxt olmaz!

Sona xanım. Çifayda mən dincələ bilmirəm. Ürəyim yarpaq kimi əsir. Elə bilirəm genə səni əlimdən alacaqlar.

Bu halda Hacı Qaranın arvadı Tükəz içəri girir.

T ü k ə z . A başına dönüm, mənim ərimi neylədiniz? Mənim ərimin başına nə iş gəldi? Siz hamınız gəlibsiniz, onun nə özü var, nə nökəri var!

H e y d ə r b ə y . Ay arvad, hələ bu vaxtadək gəlib çıxmayıbdır?

T ü k ə z . Xeyr. Axır bu nə iş idi eylədiniz? Kişiciyi tovluyub aparıb avara saldınız? Yoxsa ölümə verdiniz?

H e y d ə r b ə y . Ay arvad, qorxma, görəsən kəndlərin hansında əylənibdir, gələr çıxar, fikir eləmə?

T ü k ə z . Kəndlərdə əylənməz. İndiyədək başı əlində olsaydı, gələrdi. Mən ərimi sizdən istirəm? Gərək mənim ərimi necə ki, aparıbsınız, elə də mənə tapşırasınız?

H e y d ə r b ə y . Bizə mühəssil vaqe oldun? Ərin uşaq deyildi, nabaliğ deyildi, biz onu tovlayıb aparaydıq. Biz ona bir təklif elədik, öz xeyrini yoxladı, qoşuldu bizə getdi. Hər yerdə müğayət olub, qorxulu yerlərdən ötürüb yola saldıq. Dəxi biz nə eləyək ki, gəlib çıxmayıbdır. Çıx get, başımı ağrıtma?

T ü k ə z . Gedirəm Murova, naçalnikə şikayət etməyə. Mənim ərimi siz itiribsiniz!

Bu halda qışqırıq qopur, Murov və naçalnik adamları ilə alaçığı çevirirlər.

M u r o v . Naçalnikin buyruğudur ki, hər kəs yerindən tərpənməsin.

H e y d ə r b ə y (*qabağa çıxıb*). Murov, naçalnikin qərəzi nədir, buyursun görüm! Burada təqsirli yoxdur ki, onnan qaça.

M u r o v . Təqsirli var, ya yoxdur, ancaq naçalnik Heydər bəyi görmək istəyir.

H e y d ə r b ə y . Heydər bəy mənəm, hər nə qulluğunuz var buyurun!

N a ç a l n i k (*irəli yeriyib*). Heydər bəy, sən mənim nəsihətimi eşitməyib, genə yaman işə qoşuldun? İndi gərək mənim ilə Qalaya gedəsən?

Sona xanım başlayır titrəməyə, ağlama.

H e y d ə r b ə y . Naçalnik, sən mənə buyurmuşdun ki, oğurluğa, quldurluğa getmə. Əgər mən sənin sözündən çıxmışam, mənim yerim Sibirdir.

N a ç a l n i k . Bəli, çıxıbsan! On gün bundan irəli Arazdan bir az yuxarı Əylis ermənilərini soyub, ipəklərini alıbsınız. İş aşkar olubdur. Yaxşısı odur ki, tənbihin yüngül olmaq üçün boynuna götür, yoldaşlarını nişan ver.

H e y d ə r  b ə y . Naçalnik, buyursan ki, bu iş aşkar olubdur. Amma mən bir adamı soymamışam. Əgər bir kəsə mənim üzümə durub bir söz desə, mən qanımı sənə halal elədim.

N a ç a l n i k . Yaxşı, Xəlil yüzbaşı, o ermənilər bura çağır!

Xəlil yüzbaşı Ohan yüzbaşını öz dəstəsi ilə irəli gətirir.

N a ç a l n i k . Ohan yüzbaşı, bu idimi sizə rast gələn?

H e y d ə r  b ə y . Naçalnik, hər belə mujik sözünə etibar edib məni bədbəxt etməyin!

O h a n . Başına dönüm, mən hərgiz mujik deyiləm. Mən iyirmi ildir vilayət böyüklərinə qulluq edirəm. İyirmi rizaməndlik kağızım var. Keçən il mənə gümüş medal yazmışdılar! Alın bu kağızları bir oxuyun, görün! (*Kağızları göstərir*).

N a ç a l n i k . Hələ mənə sənin qulluqlarını bilməyə vaxt yoxdur. Gördüyün işi söylə!

O h a n . Başına dönüm, mənim bəylik üçün şəhadətnaməm var! Alın, oxuyun! (*Şəhadətnaməsini cibindən çıxarıb uzadır naçalnikə*)

N a ç a l n i k . Olan, sözünü de, nəcabətini isbat eləmək qoy sonraya qalsın!

H e y d ə r  b ə y . Naçalnik, bu şəhadətnamələrin yüzü bir pula dəyməz. Zatında şübhə olanlar öz nəsəbləri üçün şəhadətnamə qayırdarlar.

O h a n . Bu sözü naçalnik hüzurunda deməyib, bir özgə yerdə mənə desəydin, bu tüfəng ilə sənə cavab verərdim! (*Əlin uzadır tüfənginə, sonra naçalnikə mütəvəcceh olub*). Başına dönüm, mən bu axırıncı nüfus dəftərində bəy yazılmışam. İndi bu mənim bəyliyimi istir batırsın. Haqq elə mən bədbəxt olmuyum.

N a ç a l n i k . Bu saatda buyurram sənə əlli çubuq vurarlar. Bəyliyini lap unudarsan, əgər sualıma cavab verməsən! Səndən mən soruşaram ki, bu idimi sizə rast gələn?

O h a n . Bəli, başına dönüm, bu idi bizim üstümüzə yoldaşları ilə tüfəng və qılınc çəkən! İyirmi yaraqlı-əsbablı atlı idilər. Biz ancaq on adam idik. Əgər bizdən çox olmasaydılar, sizin dövlətinizdən, buları tutardıq. Elə ki, bizdən ötüblər, gedib Əylis ermənilərini soyublar.

H e y d ə r  b ə y . Naçalnik, tamam danışdığı sözlər böhtandır!

N a ç a l n i k . Tatar tayfası tamam yalançı olar. Səndə o cümlədənsən, sözünüzə etibar eyləmək müşküldür. Birisi də yaraqlı-əsbablı, iki

tuğlu ermənini əyləyib soyurmuş. İndi aşkara yalan deyir ki, güya ermənilər onu soymaq istirlərmiş.

Heydər bəy. Mən bilirəm ki, o, kişi kimdir. Mən Qarabağın tamam yaxşı-yaman adamlarını tanıyıram. Onu görsəm billəm ki, onun sözü doğrudur, ya yalandır. Sənin başına and olsun ki, həqiqətini ərz eylərəm!

Naçalnik. Xəlil yüzbaşı, o tutulan kişini bura gətirin!

Xəlil yüzbaşı gedib Hacı Qaranı hüzura gətirir.

Naçalnik. De görüm, bu kimdir, necə adamdır?

Heydər bəy. Naçalnik, mən bunu tanıyıram. Sənin başına and olsun ki, bu adamsoyan deyil, ermənilər xilaf ərz ediblər.

Naçalnik. Xəlil yüzbaşı, erməniləri gətir.

Xəlil yüzbaşı tuğluları gətirir.

Naçalnik. Heydər bəy, odur ki, sənin sözünə etibar etmirəm! Axır özün bir fikir eylə: bəs bu ermənilər adam soyandırmı? Amma bu kişi deyir ki, guya bular onu soymaq istirmişlər!

Heydər bəy. Belə deyil, bu kişi də yalan danışır.

Naçalnik (*acıqlanmış*). Bəs necə olmaq gərək? Məlum ki, hamınız yalan danışırsınız! Hamınız tənbihə layiqsiniz! Mən gərək səni aparam!

Heydər bəy. İxtiyar sənindir.

Sona xanım başlayır titrəməyə.

Naçalnik (*Hacı Qaraya*). A kişi, sən axır bu erməniləri nə səbəbə əyləmişdin?

Hacı qara. Başına dönüm, mən öz kəsb-karım ilə dolanan adamam. Heç vaxt yol kəsmək mənim işim deyil. Həmişə alış-veriş eylərəm. Padşaha çox qulluqlar etmişəm.

Naçalnik. Padşaha sən nə qulluq etmisən, a kişi?

Hacı qara. Başına dönüm, on beş ildir padşah gömrüyünə ildə əlli tümən xeyir verirəm.

Naçalnik. Bəli çox böyük qulluqlar edibsənmiş. Əlhəq böyük mərhəmətə layiq imişsən.

Hacı qara. Bəli, başına dönüm, bu qulluqlarıma görə gərək mənə qızıl medal veriləydi, nəinki...

N a ç a l n i k. Bəli, sənin kimi qulluq edənlər çoxdur. Verdiyiniz pulları gərək verib qızıl medal qayırdaq, genə özünüzə dağıdaq. Cəfəngiyyat danışma! De görüm, ermənilər niyə əyləmişdin?

H a c ı  q a r a. Başına dönüm, olar məni əyləmişdilər.

Ermənilərin birisi, yəni Mkrtıç.

M k r t ı ç. Qurbanın olaq, yalan deyir, bu bizi soymaq istirdi.

Bu halda Cavanşir murovunun yasavulu yetişib,

Y a s a v u l (*naçalnikə*). Ağa, murovumuz əylisliləri soyan quldurları tutub, tamam ipəkləri alıb, özlərini dustaq edib. Məni qulluğunuza göndərdi ki, bu xüsusda ərz edim. Dalınca əhvalatı yazı ilə bildirəcək.

M u r o v. Yəqin ki, genə tatardırlar.

Y a s a v u l. Bəli.

N a ç a l n i k. Yoxsa xəyal edirdin ki, ingilis ya firəngdirlər?

O h a n. Başına dönüm, quldur həmişə tatardan olur. Bizlərdən heç vaxt quldur olmaz!

N a ç a l n i k. Kəs səsin, bu sizin doğruluğunuzdan deyil. Ondan ötrü ki, cürət edə bilmirsiniz və bacarmırsınız!

Y a s a v u l. Ağa, murov bir qaçaqçı da yük ilə tutub göndəribdir.

Hacı Qaranın rəngi qaçır.

N a ç a l n i k. Hardadır! Hüzura gətir!

Yasavul gedir.

H e y d ə r  b ə y. Naçalnik, indi sizə məlum oldu ki, mən quldur deyiləm?

O h a n. Ağa, o, tutulan quldurlar bişək bunun yoldaşlarıdırlar.

N a ç a l n i k. Həqiqət olunar.

Bu halda yasavul Kərəməlini hüzura gətirir. Hacı Qara onu görən kimi "vay" edib özündən gedir.

N a ç a l n i k (*təəccüb ilə*). Bu necə işdir? Bu kişi niyə özündən getdi! Bunu ayıldın görək!

Murov su tökür, Hedər bəy, Xəlil yüzbaşı qolun boğur, Hacı Qara gözün açır.

N a ç a l n i k. A kişi, sənə nə gəldi özündən getdi?

Hacı Qaranın dili tutulur.

N a ç a l n i k (*Kərəməliyə*). A gədə, doğrusun de, səni buraxaram. Bu kişi səni görəndə niyə özündən getdi?

K ə r ə m ə l i . Bilmirəm başına dönüm!

N a ç a l n i k . Sən kim ilə və haçan qaçaq mala getmişdin?

K ə r ə m ə l i . Mən heç kim ilə və heç vaxt qaçaq mala getməmişdim.

N a ç a l n i k . Nə danışırsan? Səni yükün üstündə tutublar? Necə dana bilərsən?

K ə r ə m ə l i . Mənim o yükdən heç xəbərim yoxdur.

N a ç a l n i k . Bəs o mal kimindir?

K ə r ə m ə l i . Bilmirəm.

N a ç a l n i k . Bəs sən at üstündə deyildin?

K ə r ə m ə l i . Bəli.

N a ç a l n i k . Bəs yükü atın üstünə kim qoyubdur?

K ə r ə m ə l i . Şeytan qoyubdur, mənim ondan xəbərim yoxdur.

N a ç a l n i k . Əzizim, biz şeytanı səndən yaxşı tanıyırıq. Ondan çox iş baş verər. Amma qaçaq mal alış-verişi eləməz. Doğrusunu de, yoxsa dərini soyaram.

H e y d ə r b ə y . Naçalnik, bir ərzim var.

N a ç a l n i k . De görüm.

H e y d ə r b ə y . Qulluğunuzda çox-çox müqəssirəm, amma təqsirimi boynuma götürrəm. Bu kişini mən iki yoldaşım ilə qaçaq malı gətirməyə aparmışdım. Bu tutulan onun nökəridir. Çün bu çox xəsis olduğu üçün malı tutulduğundan ötrü özündən getdi. Erməniləri də malının qorxusundan yolda əyləmiş imiş.

N a ç a l n i k (*Heydər bəyə*). Mətləb məlum oldu. Bəs yoldaşların kim idi?

H e y d ə r b ə y . Əsgər bəy, Səfər bəy.

N a ç a l n i k (*murova*). Onları çağırt, gətirt.

M u r o v . Bu saatda.

Murov bir yasavul göndərir.

N a ç a l n i k (*Heydər bəyə*). Bəs niyə utanmadın, dedin ki, Ohan yalan danışır?

H e y d ə r b ə y . Ohan həqiqətdə yalan danışdı, naçalnik! Ondan ötrü ki, biz hamı bir yerdə altı adam idik, qaçaq mal gətirirdik. Dörd yükümüz var idi. Bulara rast gəlib, qorxudub qovduq, çıxıb gəldik. Sənin başın üçün, Əylis ermənilərinin soyulmağından bizim xəbərimiz yoxdur!

Bu halda bir yasavul Əsgər bəyi, Səfər bəyi gətirir.

Naçalnik. Heydər bəy, yoldaşların bulardımı?

Heydər bəy. Bəli, bulardır!

Naçalnik. Heydər bəy, əgərçi quldurluq cəhətindən sənin təqsirin yoxdur, amma çün başburtsuz sərhəddən o taya keçib, qaçaq mal gətirib, murov göndərən qaravulların üstünə qılınc və tüfəng çəkibsiniz, zakona görə gərək mən bu saatda sizi dustaq edib Qalaya aparam.

Heydər bəy. İxtiyar sənindir, naçalnik!

Sona xanım (*yeriyib naçalnikin ətəyin tutur*). Qurbanın olum, məni öldür, onu aparma! Məni bisahib qoyma!

Naçalnik. Heydər bəy, bu kimdir?

Heydər bəy. Naçalnik, bu mənim arvadımdır. Dünən toy edib gətirmişəm. Bu bədbəxtliyimə bais budur!

Naçalnik. Necə məgər?

Heydər bəy. Naçalnik, biz bir-birimizi nəhayətdə sevirdik. İki il idi qovuşmaq həsrətin çəkirdik. Pul tapmırdım toy edim. Axır ki, qaçaq mal gətirib satdıq, qazancı ilə toy elədim, bunu gətirdim. Kaş öləydim, bu günü görməyəydim.

Sona xanım. Başına dönüm, bizi padşahın başına çevir! Qul xatasız olmaz, ağa kərəmsiz. Yaz bu işi yuxarı bildir, bəlkə mənim göz yaşıma rəhm eləyələr. Mən dilimdən kağız verrəm ki, bundan sonra Heydər bəyi heç bir yaman işə qoymuyum.

Heydər bəy. Naçalnik, mən hazıram ki, bu təqsirimi öz qanım ilə Dağıstanda padşahın düşmənlərinin qabağında yuyam.

Naçalnik (*murova*). Vallah, yazığım gəlir bu biçarələri bir-birindən ayırmağa. Görəsən mən bu işi yuxarı bildirənədək buları zamına vermək olarmı?

Murov. Ola.

Əsgər bəy. Naçalnik, biz də düşmən qabağında qılınc çalmağa hazırıq!

Naçalnik (*murova*). Buları zamına ver, ta yuxarıdan cavab gəlincə.

Murov. Baş üstə!

Bu halda Hacı Qaranın arvadı Tükəz içəri girib, naçalnikin ayağına döşənib.

Tükəz. Başına dönüm, mənim ərimi mənə ver!

Naçalnik (*Hacı Qaraya*). Kişi,dəxi qaçaq mala getməzsən ki?

H a c ı  q a r a . Tövbə olsun, naçalnik! Tövbə, tövbə! Gecə-gündüz sənə dua edəcəyəm ki, məni bu əməldən qaytardın!

N a ç a l n i k  (*murova*). Bunu da zamına ver.

M u r o v . Baş üstə!

H a c ı  q a r a . Başına dönüm, bəs malım necə olsun?

N a ç a l n i k . O barədə səbr elə

H a c ı  q a r a . Qurbanın olum, malım yetişməsə ölləm!

N a ç a l n i k . Özün bil. Xəlil yüzbaşı, Hacı Qaranın nökərini və tuğluları da burax getsinlər. (*Bəylərə*). Sizin nəcabətinizə hərgiz layiq deyil ki, yaman əməllər ilə özünüzü bədnam edib ümənayi-dövlətin nəzərində xar və zəlil olasınız. Necə ki, oğurluq, elə də qaçaq mala getmək dövlət tərəfindən qadağandır. Padşahın əmrindən çıxan – Allahın əmrindən çıxan kimdir. Allahın əmrindən çıxana o dünyada qəzəb yetişər, padşahın əmrindən çıxana bu dünyada; Allahın əmrini bitirənə bəhişt var, padşahın əmrini bitirənə mərhəmət və şəfəqqət. Ümənayi-dövlətin rəhmi çoxdur, olur ki, sizin bu təqsirinizi bağışlayalar. Amma bundan sonra gərəkdir niyyəti-xalis ilə dövlətə sədaqətindiş olub, hər bir xüsusda, yaman xəyalları başınızdan çıxardasınız!

B ə y l ə r . Can-baş ilə nəsihətini qəbul edirik, naçalnik.

N a ç a l n i k  (*Sona xanımın əlindən tutub*). Bax, sənin gözəlliyinə və göz yaşına Heydər bəyi səndən ayırmadım. Ondan yaxşı muğayət ol, genə bir pis iş tutmasın, ta yuxarıdan cavab gəlincə.

S o n a  x a n ı m . Mənim başım üstə, naçalnik! Arxayın ol! Özümü öldürrəm ki, onu yaman işə qoymanam.

N a ç a l n i k . Çox-çox razıyam! Sənin zamınlığın hər kəsin zamınlığından etibarlıdır. Xudahafis! (*İstir getsin*).

H a c ı  q a r a . Başına dönüm, naçalnik, murovun yasavulları məni tutanda cibimdən yarım abbasımı çıxardıblar, buyur versinlər.

N a ç a l n i k  (*murova*). Buyur, bu saatda bunun pulunu versinlər! Yasavulların gərək belə əməlləri tərk ola!

H a c ı  q a r a . Allah sənin ömür və dövlətini artıq eləsin, ağa! Nə qədər bədənimdə canım var, sənin bu şəfəqqətini unutmayacağam!

Naçalnik uzaqlaşır, dalısınca da adamlar.

*P ə r d ə  s a l ı n ı r*

**T a m a m  o l u r**

# MÜRAFİƏ VƏKİLLƏRİNİN HEKAYƏTİ

## (ŞƏHRİ-TƏBRİZDƏ)

*Təmsili-guzarişi-əcib ki, keyfiyyəti üç məclisdə bəyan olub itmamə yetir.*

ƏFRADİ-ƏHLİ-MƏCALİS

Səkinə xanım – mərhum Hacı Qafurun bacısı, on səkkiz yaşında, qız.
Gülsəba – onun qaravaşı.
Əziz bəy – onun sevgilisi və adaxlısı.
Zeynəb – Hacı Qafurun mütə siğəsilə olan arvadı.
Yeddiaylıq tifil – onun oğlu.
Ağa Abbas – onun qardaşı.
Zübeydə – Səkinə xanımın bibisi.
Ağa Həsən – tacir.
Ağa Mərdan – vəkili-mürafiə, halvaçı oğlu.
Ağa Səlman – vəkili-mürafiə, ələkçi oğlu.
Ağa Kərim – miyançı, dəllalbaşı.
Dörd nəfər sərbaz – Bədəl və Qəhrəman və Qəffar və Nəzər adlı.
Hacı Rəcəbəli – darugeyi-bazari-Təbriz, dörd nəfər əmələsi ilə – Həp o və Şeyda və Qurbanəli və Hənifə adlı.
Hakimi-şər.
Haşiyənişinani-məhkəmeyi-mürafiə – Ağa Rəhim və Ağa Cabbar və Ağa Bəşir və Ağa Səttar adlı.
Şahzadənin fərraşı – Nəsir.
Hakimi-şərin nökəri – Əsəd.
Şahzadənin fərraşbaşısı.

## ƏVVƏLİMCİ MƏCLİS

Əvvəlimci məclis vaqe olur Təbriz şəhərində, Bağmeşə küçəsində, Hacı Qafurun imarətində. Onun bacısı Səkinə xanım pəncərə qabağında durub, qaravaşı Gülsəbani çağırır.

Səkinə xanım. Gülsəba, Gülsəba, huy!

Gülsəba (*daxil olur*). Nə buyurursan, xanım?

Səkinə xanım. Gülsəba, heç bilirsən ki, mənim bu bihəya qardaşım arvadı başıma nə iş gətiribdir?

Gülsəba. Xeyr, xanım, bilmirəm.

Səkinə xanım. Hakimi-şərə adam göndərib bildiribdir ki, qardaşından qalan pulları mənə verməsin ki, mənim ilə onun davası var;

o pul gərək ona yetişə. Gülsəba, belə iş olurmu? Vallah, mən bilmirəm ki, tarı yanında nə günahın sahibiyəm ki, həmişə bir səbəb düşər, mənim bəxtim bağlanar.

G ü l s ə b a . Xanım, nə cəhət belə güman edirsən?

S ə k i n ə   x a n ı m . Gülsəba, özün bilirsən ki, mən Əziz bəydən ötrü biixtiyaram. Biçarə iki il sərasər mərhum qardaşıma yalvardı ki, məni ona versin; vermədi ki, əhli-zələmə oğludur. İndi ki, qardaşım ölüb, ixtiyarım düşüb öz əlimə; istirdim ki, qardaşımdan qalan pulu alıb, tədarükümü görüb arzuma çatam. Bu bihəya qardaşımın arvadı mənə müddəi çıxıb, pulun yetişməyini təxirə saldı. Gərək indi dava çəkməyə məşğul olam.

G ü l s ə b a . Xanım, qardaşın arvadının məgər irsdə payı var?

S ə k i n ə   x a n ı m . Xeyr, heç payı yoxdur. O, qardaşıma kəbinli arvad deyildi ki, irs apara. Övladı yoxdu ki, irsə şərik ola. Heç bilmirəm ki, nə səbəbə mən müddəi çıxıbdır?

G ü l s ə b a . Xanım, inşallah bir iş bacara bilməz. Mənə bir nəzir elə dua edim, Allah tez sənin bu işinə feysəl versin, arzuna yetirsin.

S ə k i n ə   x a n ı m . Nə nəzir edim?

G ü l s ə b a . Nəzir elə ki, işin tamam olub pul yetişsə, mənim də toy xarcımı çəkib ərə verəsən.

S ə k i n ə   x a n ı m . Çox yaxşı, dua elə, davamız tez qurtarsın, səni də ərə verrəm. İndi dur, get Əziz bəyi bura çağır, görüm bu işə nə bina qoyur. Hakimişər adam göndərib mənə xəbər edibdir ki, vəkil tutub mürafiəyə göndərim. İndi Əziz bəydən başqa mənim bir adamım yoxdur. Biz Təbrizdə qəribik, əgərçi, bir bibim var; amma arvad tayfasının əlindən nə iş gələcək?

Gülsəba tez çölə çıxıb geri qayıdır.

G ü l s ə b a . Əziz bəy özü gəlir.

Səkinə xanım pəncərəni salır, bu halda Əziz bəy içəri girir.

Ə z i z   b ə y (*tünd*). Səkinə xanım, axır mənim günümü bu yerə yetirdin!

S ə k i n ə   x a n ı m (*təəccüblə*). Əziz bəy, məgər nə vaqe olubdur acıqlanmısan?

Ə z i z   b ə y . Səkinə xanım, sən bilirsən ki, mən iki ildir məktəbdən çıxıb, sənin dərdi-eşqinə giriftar olub Təbrizdən ayaq bir yana

qoya bilməmişəm! Nə qədər ki, sənin qardaşın mənə sitəm edib məni səndən uzaq eləməyə çalışırdı, o qədər mənim məhəbbətim artıb, onun cövr və cəfasına səbr edib dayanmışam; bu ümidlə ki, sənin vüsalın mənə müyəssər olacaq. İndi ki, vüslət zamanı yaxınlaşıb, arzuma çatmaq ümidilə xəyalımı xoş edib aram tutmuşam, istəyirlər ki, genə məni bədbəxt etsinlər.

Səkinə xanım. Nə danışırsan? Vazeh danış görüm mətləbin nədir? Anlamıram nə deyirsən?

Əziz bəy. Necə anlamırsan? Məgər sənin xəbərin yoxdur? Dünən Ağa Həsən tacir malikütüccarın və kəndxudanın və Molla Bağırın arvadını bibin yanına elçi göndərib, səni xastkarlıq edibdir və bibin də söz veribdir ki, səni ona versin.

Səkinə xanım. Bibim boş söyləyibdir. Kimdir onun sözünə baxan!

Əziz bəy. Xeyr, bu sözlər ilə mən sakit olmanam. Ya gərək bu saatda bibini çağırdıb mənim qulağım eşidə-eşidə deyəsən ki, sən Ağa Həsənə getməyəcəksən, yainki gərək bu gün mən Ağa Həsəni öldürəm! Nə karədir bir arşın ölçən mənim adaxlıma göz tikə! Vallah bu saat gedib bu xəncər ilə onun bağırsaqlarını ayağına dolaram!

Səkinə xanım. Çox yaxşı, mən bu saatda bibimi çağırdıb deyərəm ki, mən Ağa Həsənə gedən deyiləm. Bibim gələndə sən gir o biri otağa, öz qulağınla eşit. Gülsəba!

Gülsəba. Bəli!

Səkinə xanım. Gülsəba, get bibimi bura çağır! (*Gülsəba gedir*). Yaxşı, indi de görüm, biz kimi vəkil tutaq?

Əziz bəy. Nə işdən ötrü?

Səkinə xanım. Necə nə işdən ötrü? Axır eşidibsən ki, qardaşım arvadı qardaşımdan qalan irsə müddəi çıxıb, məni mürafiəyə çağırır.

Əziz bəy. Bəli, eşitmişəm! İndi ağlım başımda yoxdur, bibin gəlsin getsin, sonra mən vəkil taparam.

Bu halda ayaq tappıltısı gəlir. Əziz bəy girir o biri otağa. Səkinə xanımın bibisi Zübeydə içəri daxil olur.

Səkinə xanım. Səlam-əleyk, bibi!

Zübeydə. Əleykəssəlam, Səkinə! Nə qayırırsan, əhvalın yaxşıdırmı?

Səkinə xanım. Yaxşı deyil, bibi! Sənə mən nə zaman izn vermişəm ki, məni Ağa Həsənə verəsən? Mənim bu saatda nə atam var, nə anam, nə qardaşım; özüm öz vəkilimən.

Zübeydə. Utan, utan! Qız uşağına yaraşmaz ki, böyüyünün yanında belə danışa! Sənin nə vecinə? Sənə ər lazımdır, hər kəsə verirlər, ona gedərsən!

Səkinə xanım. Xeyr, danışacağam! Dəxi mən ixtiyarımı əldən verən deyiləm. Məni heç kəsə vermək olmaz.

Zübeydə. Bəs, balam, ərə getməyəcəksən?

Səkinə xanım. Yox!

Zübeydə (*təbəssüm ilə*). Çox sənin kimiləri "Yox" deyibdir, amma genə gedibdir.

Səkinə xanım. Mən zarafat eləmirəm, bibi! Vallah, mən Ağa Həsənə gedən deyiləm! Bu niyyətlərdən düş!

Zübeydə. Olmaz, əzizim, qardaşım qızı! Təbrizin mötəbər adamlarını bizə düşmən elərsən.

Səkinə xanım. Cəhənnəmə düşmən olsunlar! Ağa Həsəndən mənim zəhləm gedir!

Zübeydə. Niyə?

Səkinə xanım. Nadürüst adamdır!

Zübeydə. Nadürüst adamdır özgələrinə. Bizə görə yaxşıdır. Ticarətdə səriştəsi var, dövləti var. Pul qazanmaqda zirəkdir. Təbrizin tamam mötəbərləri ilə aşna, dost və qohumdur. Dəxi bundan artıq əri hardan tapacaqsan?

Səkinə xanım. Ağa Həsən istir məni başdan ayağadək cavarhirə də tuta, mən ona gedən deyiləm. Get ona bildir ki, bu niyyətdən düşsün!

Zübeydə. Bu heç vaxt olan iş deyil! Sən nə karəsən ki, mənim sözümdən çıxasan? Kişi Təbrizin mütəşəxxis adamlarının arvadlarını mənim yanıma göndərmişdi. Mən uşaq deyiləm. Mənim ağlım qəbul elədi ki, ona getmək sənin məsləhətindir. Ona söz verdim. İndi istirsən ki, mənim Təbriz arvadlarının içində bir pulluq edəsən? Axır mənim də özümə görə adım, abrım var!

Səkinə xanım. Sənin adına və abrına zərər yetişməsin deyən, mən gərək ömrüm olduqca özümü qara günlü edim? Qəribə təklif edirsən mənə, bibi! Vallah, istər aləm tufana gedə, mən Ağa Həsənə gedən deyiləm! Mən deyirəm ki, sən ona bildir ki, bu niyyətdən

düşsün! Yoxsa, vallah, özüm onu çağırdıb beş yüz söyüş üzünə qarşı deyərəm. Onu itdən biabır edərəm!

Zübeydə (*ikiəlli üzünı cırıb*). Bıy, zamananız çevrilsin, ay qızlar! Üzlərində bir tikə həya və şərm qalmayıbdır. Səkinə, mən sənin kimi qızıl-qırmızı qız görməmişəm. Bizim də axır qızlıq zamanımız var idi; həyadan baş qaldırıb böyüyümüzün üzünə baxa bilməzdik. Sizin üzünüzün susuzluğundandırki, Təbrizdə vəba və taun əskik olmur!

Səkinə xanım. Xeyr, vəba və taun haramzadə kişilərin nadürüstlüyündəndir. O nadürüst oğlu altmış min tümən adın eşidib, onun üçün məni istəməyə talib olubdur! Yoxsa o məni sevdiyindən ki, almaq istəmir. Əgər o məni alan idi, niyə qardaşım sağlığı heç bir ağız açmadı?

Zübeydə. Qardaşın sağlığı bəlkə arvad almaq fikrində deyildi. Altmış min tümən nəqlin yaxşı yadıma saldın. Ağa Həsənə getməsən, bilirsənmi ki, altmış min tümən batar?

Səkinə xanım. Niyə batır?

Zübeydə. Ondan ötrü ki, o da gedər qardaşın arvadına kömək elər. Dostları və qohumları ilə onun işinə çalışar, sənin haqqını itirərlər.

Səkinə xanım. Yaxşı imiş. Dəxi mən bilmirəm ki, bir mütə[1] necə gəlib mənə irsdə şərik olacaq. Məgər ölkədə haqq və hesab yoxdur?

Zübeydə. A balam, xalqın hiyləsindən nə baş açmaq olur? Hacı Rəhim arvadının Hacı Rəhimin dövlətində nə haqqı var idi ki, on iki min tümən pul, bir həmmam onun oğlu Ağa Rzadan alıb o arvada verdilər? Vəkili hiylə ilə bir hibənamə[2] dürüst edib göstərdi ki, Hacı Rəhim sağlığında arvadına on iki min tümən, bir həmmam hibə edibdir. Beş-altı nəfər də bu xüsusda şəhadət elədi. Biçarə Ağa Rzadan çığırda-çıbırda o qədər pul aldılar, o arvada verdilər. Amma tamam Təbrizə məlum oldu ki, bu iş məhz hiylədir. Sən məgər Ağa Rzadan zorlusan ki, fəryadı heç bir yerə çatmadı? Təbrizin şeytan fikir vəkillərinin hiyləsindən heç baş çıxarmaq olurmu?

Səkinə xanım. Mənim haqqım yerli-dibli batsa da, mən Ağa Həsənə gedən deyiləm! Get ona bildir ki, qız razı olmur!

Zübeydə. Səkinə, nə danışırsan? Mən sənin fikrini bilirəm! Sənin qərəzin budur ki, gedəsən Əziz bəyə, o əhli-zələmədən[3] törəyənə, tamam ölülərimizin ruhunu özünə qarğadasan. Bizim qanımızı əhli-zələmə qanına qarışdırasan. Belə iş heç bizim ocağımızda görükübdürmü? Mömin və müttəqi tacirin qızı nədir, əhli-zələməyə getdi nədir?!

Səkinə xanım. Hamı Allah bəndəsidir. Əziz bəyin dədəsi əhli-zələmə idi; Özü ki, hələ divan qulluğuna girməyibdir? Nə məlumdur ki, o da əhli-zələmə olacaq?

Zübeydə. Nə təfavütü? Nütfəsi ki, əhli-zələmə nütfəsidir.

Səkinə xanım. Sənə nə məlumdur ki, mən Əziz bəyə gedəcəyəm? Nə ona gedirəm nə başqasına; oturacağam evimdə. Sən dur get, mənim sifarişimi Ağa Həsənə yetir!

Zübeydə. Sən qız uşağısan, ağlın başında yoxdur, öz xeyrini anlamırsan! Mən ona gedib deyən deyiləm ki, qız razı olmur. Səni vermişəm, gedəcəksən, artıq danışma! (*Durur ayağa yola düşür*).

Səkinə xanım (*suznaq*). Vay, dədəm vay, bu nə danışır!

Zübeydə qapıdan çıxır, uzaqlaşır. Əziz bəy o biri otaqdan içəri girir.

Əziz bəy. İndi gördün mənim iztirabım yerində idi. Ya yox? Mən gedirəm.

Səkinə xanım. Hara?

Əziz bəy. Gedirəm o nadürüst oğlu Ağa Həsəni cəzasına yetirməyə, dəxi məndə tab yoxdur!

Səkinə xanım. Nə söyləyirsən? Sən dayan, getmə, əlindən xəta çıxar. Mən özüm bu saatda o nadürüst oğlunu çağırıb deyəcəyəm ki, bu xəyaldan düşsün. Gülsəba! (*Gülsəba hazır olur*). Gülsəba, get Ağa Həsən tacirə xəlvət de ki, səni çox vacib işdən ötrü ünas tayfasından bir şəxs çağırır. Adımı nişan vermə. (*Gülsəba gedir*). Əziz bəy, vallah, sən hələ lap uşaqsan! Bir güzgüyə bax, gör gözlərin acıqdan qan çanağına dönübdür. Niyə belə kəmhövsələlik edirsən? Bu nadürüst oğlu ki, məni güc ilə alıb aparmayacaqdır!

Əziz bəy. Hamı sözün doğrudur, amma çifayda ürək aram tutmur.

Bu halda ayaq tappıltısı gəlir. Əziz bəy girir o birisi otağa. Səkinə xanım üzün bürüyür, oturur. Gülsəba və Ağa Həsən içəri girirlər.

Ağa Həsən. Səlam-əleyk.

Səkinə xanım (*ahəstə*). Əleykümməssəlam. Ağa Həsən qardaş, bilirsən ki, mən kiməm?

Ağa Həsən. Xeyr, xanım, bilmirəm.

Səkinə xanım. Ağa Həsən, mən Hacı Qafurun bacısı Səkinəyəm.

Ağa Həsən (*təəccüb ilə*). Bəli, xanım, tanıdım. Fərmayişini buyur! Mən sənin bəndənəm, qulunam!

S ə k i n ə   x a n ı m . Xeyr, Ağa Həsən, sən mənim nə bəndəmsən, nə qulumsan! Sən axirət dünya mənim qardaşım ol. Məndən əl çək! Səni bundan ötrü çağırmışam. Sözüm sənə budur.

A ğ a   H ə s ə n (*heyrətə düşüb*). Xanım, niyə məni bəndəliyə qəbul etmirsən? Məndən nə xəta baş veribdir?

S ə k i n ə   x a n ı m . Heç bir xəta baş verməyibdir. Söz açıq gərək: sən məndən ötrü bibimin yanına elçi göndəribsən, o da əbəs yerə razı olub, söz veribdir. Amma, əzizim, mən deyirəm ki, sənə gedən deyiləm! Bu xəyaldan düş, bundan sonra bu sözləri ağzına alıb danışma.

A ğ a   H ə s ə n . Xanım, bir səbəbini bildirəydin ki, mən niyə sizin iltifatınıza və mərhəmətinizə layiq olmuram?

S ə k i n ə   x a n ı m . Səbəbi öz yanımdadır. Ancaq sözüm budur ki, məndən əl çək!

A ğ a   H ə s ə n . Xanım, nə təqsir məndən sadir olubdur ki, məni özündən uzaq edirsən?

S ə k i n ə   x a n ı m . Qardaş, heç bir təqsir sadir olmuyubdur. İndi mən özüm öz vəkiliməm. Mən sənə getmək istəmirəm! Mən səni sevmirəm! Könülə ki, güc yoxdur?

A ğ a   H ə s ə n . Xanım, bu söz sənə çox zərər gətirər, belə buyurma!

S ə k i n ə   x a n ı m . Bilirəm nə deyirsən, hər nə bilirsən elə, əlindən gələni əsirgəmə! Əsirgəsən, namərdsən!

A ğ a   H ə s ə n . Sonra peşman olarsan. Bir fikir elə ki, nə sözlər mənə buyurursan...

S ə k i n ə   x a n ı m . Fikir yeri deyil. Get bildiyin elə! Eləməsən, səndən əskik adam yoxdur.

A ğ a   H ə s ə n (*darılıb*). Yaxşı, sənə mən bir oyun tutum ki, tamam dastanlarda deyilsin, ölənədək dadı damağından getməsin! (*Ayağa durur*).

S ə k i n ə   x a n ı m . Get, get! Səndən qorxan səndən əskikdir! Əlindən gələni beş qaba çək!

Ağa Həsən gedir. Səkinə xanım və Əziz bəy.

S ə k i n ə   x a n ı m . Di indi bir fikir elə, kimi vəkil edək? Bir düşmən də özümüzə artırdıq.

Ə z i z   b ə y . Belə düşmənlərdən yüzü olsun. Yüz qarğaya bir sapan daşı! Bu saatda gedərəm, şahzadəyə bu əhvalatı müfəssələn bildirrəm. Özü bu işə tədbir eləsin.

S ə k i n ə   x a n ı m . Şahzadə ki, mürafiəyə mane olmaz; genə gərək bir vəkil ola.

Ə z i z   b ə y . Şahzadə mürafiəyə mane olmaz, amma Ağa Həsən kimi nadürüstlərin hiyləsini və zərərini dəf edə bilər. Gərək bu işi şahzadəyə bildirəm. Mənim atam onun yanında çox qulluq edibdir. Mənim xatirimi istəyir və vədə edibdir ki, mənə xidmət rücu edib vəzifə qərardad eləsin və atamın tiyul[4] kəndləri də mənə vagüzar etsin.

S ə k i n ə   x a n ı m . Səlah budur ki, əvvəl bir vəkil tutaq, sonra bu əhvalatı şahzadəyə məlum edəsən ki, o da haqqa kömək eləsin.

Ə z i z   b ə y . Çox yaxşı. Vəkil kimi tutaq?

Bu halda Gülsəba içəri girir.

G ü l s ə b a . Qapıda bir kişi durubdur; deyir ki, mən gərək Səkinə xanım ilə danışam. Bir kişi tayfası varmı ki, aralıqda vasitə ola, çox vacib əmr var.

S ə k i n ə   x a n ı m . Əcəb oldu. Əziz bəy də burdadır. Get çağır gəlsin, görək nə deyir.

Gülsəba gedir.

Ə z i z   b ə y . Hər gələn məni gərək sənin yanında görə?

S ə k i n ə   x a n ı m . Nə bilirlər ki, sən kimsən? Elə güman edərlər ki, sən mənim yaxın qohumumsan.

Ağa Kərim içəri girir, Səkinə xanım çadirşəbə bürünür.

A ğ a   K ə r i m . Səlam-əleyküm!

Ə z i z   b ə y . Əleykəssəlam. Xoş gəlibsən. Buyur əyləş!

Ağa Kərim bir tərəfdə oturub Əziz bəyə mütəvəcceh olur.

A ğ a   K ə r i m . Məxdum, ismi-şərifinizi buyurun.

Ə z i z   b ə y . Mənim adım Əziz bəydir.

A ğ a   K ə r i m . Mübarək addır. Əziz bəy, mən sizinlə göftgu edim, Səkinə xanım da eşitsin.

Ə z i z   b ə y . Buyur, Səkinə xanımın özü ilə də göftku edə bilərsən. Onu özgə qızlar ayağına aparma. Yeri gələndə o özü də danışmaqdan çəkinən və qısqanan deyil.

A ğ a   K ə r i m . Vallah, çox yaxşı eləyir. Əziz bəy, məlum ola ki, mənə Ağa Kərim dəllalbaşı deyərlər. Mən mərhum Hacı Qafur ilə çox

dost idim. İndi bu saatda bir işdən ötrü Ağa Mərdan halvaçı oğlunun yanında idim. Birdən tacir Ağa Həsən içəri girdi, səlam verib dedii ki, Ağa Mərdan, eşitmişəm Hacı Qafurun arvadı Zeynəbin vəkilisən. Mənim bu işdə sənə çox köməyim dəyəcək. İstirəm səninlə xəlvət danışam. Mən gördüm ki, olar danışacaqlar, çölə çıxdım və bildim ki, onların tədbiri Səkinə xanımın ədavəti üçündür. Çün Hacı Qafur ilə duz-çörək yemişdim, o xatirə gəldim ki, bu işdən Səkinə xanımı xəbərdar edim.

Səkinə xanım. Çox-çox razıyam. Ağa Kərim ki, aşnalığı unutmuyub, öz dostunun bacısını belə vaxtlarda yad edirsən!

Ağa Kərim. Əlbəttə, xanım, dostluq belə vaxtlarda lazımdır. Çünki Ağa Mərdan yerin-göyün haramzadasıdır. Mən özümə vacib bildim ki, piş əz vəqt sizi onun hiyləgarlığından xəbərdar edim. Yoxsa iş işdən keçər, sonra çarə tapılmaz.

Səkinə xanım. Ağa Mərdan mənə nə eyləyəcək, Ağa Kərim?

Ağa Kərim. Nə eyləyəcək? Axır eşitdim ki, qardaşın arvadına vəkil olubdur, onun tərəfindən mürafiəyə duracaq. Belə işlərdə o, çox mahirdir. Onunla bacarmaq çox müşküldür.

Səkinə xanım. Mürafiəyə durub nə eləyəcək? Qardaşımın övladı yoxdur ki, puluna varis ola; arvadı da ki, ona varis ola bilməz; çünki mütədir, belə işdə Ağa Mərdan və ya başqa düşmən mənə nə zərər yetirə biləcək?

Ağa Kərim. Xanım, sizin təcrübəniz belə işlərdə azdır. Ağa Mərdan hər nə istəsə, ona yol tapar; onun müqabilində gərək qəflət eləməmək.

Səkinə xanım. Necə edək ki, qəflət olmasın?

Ağa Kərim. Məsələn, vəkillərinizi mənə tanıdın ki, kimdir. Mən onu Ağa Mərdanın bir para hiyləsindən başa sallam. İşdə huşyar olar, qəflət eləməz.

Səkinə xanım. Bizim hələ heç vəkilimiz məlum deyil.

Ağa Kərim. Necə məlum deyil? Bəs bu işdə vəkil tutmuyubsunuz?

Səkinə xanım. Xeyr, bilmirik kimi vəkil tutaq. Elə özümüz də bu fikirdəyik.

Əziz bəy. Doğrudan, Ağa Kərim, heç bir adam bilirsənmi ki, bizə tanıdasan, onu bu işdə vəkil tutaq?

Ağa Kərim. Xeyr, xatirimə bir belə adam gəlmir ki, Ağa Mərdana hərif ola. Bəs mən elə bilirdim ki, sizin vəkiliniz hazırdır.

Əziz bəy. Xeyr, hazır deyil, axtarırdıq ki, bir kamil adam tapaq vəkil edək. Bir fikir elə gör xatirinə bir adam düşürmü?

Ağa Kərim. Vallah, heç bir kamil adam fikrimə gəlmir. Adam çoxdur, amma Ağa Mərdana hərif ola bilməz. Ba! Bir adam fikrimə düşdü, əgər razı ola; çünki vəkil olmaqdan neçə zamandır əl çəkibdir. Ancaq məgər Ağa Mərdana o hərif ola bilər.

Səkinə xanım. O kimdir?

Ağa Kərim. Ağa Səlman ələkçi oğlu. Əgər razı olsa, onu vəkil edin.

Səkinə xanım. Onunla kim görüşsün, danışsın?

Ağa Kərim. Başqa adam lazım deyil, xanım. Onu çağırdın bura, özünüz danışın. Olur ki, sizin nəfəsinizin təsirindən razı ola. Ünas tayfasının nəfəsində başqa təsir olur.

Səkinə xanım. Bəs olmazmı onu bura göndərəsən, Ağa Kərim?

Ağa Kərim. Xeyr, xanım, ayrı adam göndər. Mən bir çüzi işdən ötrü onunla küsülüyəm.

Səkinə xanım. Bəs ona sən necə bir para zad təlim edərsən?

Ağa Kərim. Özgə vəkil olsaydı, mənim təlimim lazım idi. Amma Ağa Səlmana mənim təlimim lazım deyil. O özü şeytana papuş tikər. Mən əgərçi ondan narazıyam, amma hünərini danmaq olmaz. Təki sizin işiniz əmələ gəlsin.

Əziz bəy. Mənim özüm bu saatda gedərəm, onu çağırram.

Səkinə xanım. Çox yaxşı, bəs get.

Əziz bəy və Ağa Kərim ayağa durub getmək istirlər.

Ağa Kərim. Xudahafiz, xanım!

Səkinə xanım. Xoş gəldin, Ağa Kərim. Mən sənin bu yaxşılığını heç vaxt unutmayacağam!

Əziz bəy və Ağa Kərim gedirlər.

Səkinə xanım. Gülsəba, yerə bir döşək sal, dalısına bir püştü qoy!

Gülsəba tez döşəyi salır, püştünü qoyur. Bu halda ayaq tappıltısı gəlir. Əziz bəy və Ağa Səlman içəri girirlər. Yuxarıda Səkinə xanım oturub, Gülsəba böyründə ayaq üstə durubdur.

Ağa Səlman. Səlam-əleyk!

Səkinə xanım. Əleykəssəlam. Ağa Səlman, xoş gəldin, səfa gətirdin, buyur əyləş!

İşarə edir, döşək üstə Ağa Səlman oturur, ondan aşağıda Əziz bəy əyləşir.

Səkinə xanım (*nazik səs ilə*). Ağa Səlman, mən Hacı Qafurun bacısıyam. Ümidim budur ki, məni qızlığa qəbul edib, mənim bu dar günümdə köməyini məndən əsirgəməyəsən.

Ağa Səlman. Xanım, buyur görüm mətləbin nədir.

Səkinə xanım. Ağa Səlman, özünüzə məlumdur ki, altı-yeddi ay bundan irəli Təbrizə vəba düşmək səbəbilə tamam xalq qaçıb dağılmışdı. Qardaşım Hacı Qafur bir təvəkküllü adam idi. Dedi ki, mən heç tərəfə gedən deyiləm. Amma bərai-ehtiyat tamam pulunu ki, altmış min tümən idi, sandıqlar içində aparıb şahid və sübut ilə hakimi-şərə tapşırdı ki, əgər əhyana mən ölsəm, bu pulu sonra mənim hər kəs şəri varisim qalsa, ona rədd elə. Hakimi-şər haman məbləği götürüb, sair xalq kimi, o da şəhərdən çıxıb başqa yerə getdi. Bizim qonşularımız da tamam uzaqlaşdılar. Bizim evdə qaldı bir qardaşım, bir onun mütəsi və bir də mən. İttifaqən qardaşım naxoş oldu, bir kimsə yox idi, məgər şəhərdə difan tərəfindən bir dəstə sərbaz qoymuşdular ki, hər evi yoxlasınlar, ölənləri qəbiristana nəql etsinlər. O gün sərbazlardan dördü bizim evə gəldi. Qardaşım onlara dedi ki, mən ölürəm, mənim bir bacımdan başqa dünyada bir varisim qalmır. Mən öləndən sonra, məni qəbiristana nəql edin. Qardaşım allahın rəhmətinə getdi. İndi qardaşımın arvadı ki, mütədir və ona heç irs yetişməz, istiyir ki, mənim qardaşıma varis ola, mənim ilə mürafiəyə dura. Ağa mərdan halvaçı oğlu ona vəkil olubdur. Təvəqqe edirəm ki, zəhmət qəbul edib bu işdə sən də mənə vəkil olasan.

Ağa Səlman. Səkinə xanım, mən vəkil olmaqdan əl çəkmişəm. Dəxi bir kimsənəyə vəkil olmuram.

Səkinə xanım. Ağa Səlman, bu iş çox tez qurtarası işdir. Az müddətdə mürafiəsi tamam olur. Əgər qardaşımın dilindən şahid lazım olsa, o sərbazları şahid göstərə bilərsən. Təvəqqe edirəm ki, mənim xatirim üçün bu işi boynundan tullamayasan.

Ağa Səlman. O sərbazların adı və məkanı sizə məlumdurmu?

Səkinə xanım. Bəli, Əziz bəy kağızda onların adlarını və yerlərini yazıb sənə təslim edər.

Ağa Səlman. İndi ki təvəqqe edirsən, qəbul edərəm. Ümidim budur ki, uzun iş olmasın. Yoxsa mənə çox məəttəl olmaq mümkün deyil.

Səkinə xanım. Xeyr, inşallah bir gündə qurtaracaqdır. Ağa Səlman, həmin bu bir gün zəhmətin üçün sənə beş yüz tümən həqqülnəfəs vədə edirəm.

Ağa Səlman. Onsuz da olar. Xanım, mən məhz sənin xatirin üçün bu işə iqdam edirəm. Tamah ucundan deyil.

Səkinə xanım. Bilirəm, Ağa Səlman, bu məbləği mən ancaq sənin uşaqlarına cib xərci verirəm.

Ağa Səlman. Xanım, indi məni mürəxxəs buyur, gedim sərbazları görüm. Əhvalat xəbər alım ki, mürəfiə vaxtında şəhadətlərini əda etsinlər və siz də mənim adıma vəkalətnamə yazdırıb göndərin.

Səkinə xanım. Çox yaxşı, hazır edib göndərrəm. Amma, Ağa Səlman, deyirlər ki, Ağa Mərdan çox mühil adamdır. Onun hiyləsindən qafil olmayasan.

Ağa Səlman. Xatircəm ol, onun hiyləsi mənə kar eləməz. Əziz bəy, o sərbazların adlarını və yerlərini, yaz, mənə göndər.

Əziz bəy. Çox yaxşı, bir saatdan sonra yetişər.

Ağa Səlman durub gedir. Əziz bəy və Səkinə xanım.

Əziz bəy. Mən də durub gedim, əhvalatı şahzadəyə bildirim.

Səkinə xanım. Otur, sərbazların adların, yerlərin kağıza yaz, Ağa Səlmana göndər, sonra get.

Əziz bəy oturur yazmağa.

*Pərdə salınır*

## İKİMCİ MƏCLİS

İkimci məclis vaqe olur Ağa Mərdan halvaçı oğlunun evində.

Ağa Mərdan (*yalqız*). Görəsən Ağa Kərim niyə gec gəldi? Bəlkə Ağa Səlmanın vəkillik işi onu əyliyibdir? Əgər bu iş mən deyən kimi baş tutsa, Təbrizdə mənim şöhrətim ərşi-fələkə çıxacaq! Külli pula çatdığımdan başqa, yəni vaqiən bu vəkillik bir tükənməz xəzinədir, yollarını bilənə. Əlhəmdüllah ki, mənim bu xüsusda qüsurum yoxdur.

Bu halda qapı açıldır. Ağa Kərim içəri girir.

Ağa Kərim (*başaşət ilə*). Səlam-əleyk! İşləri bitirdim, muştuluğumu ver!

Ağa Mərdan (*təbəssüm ilə*). Yəqin?

Ağa Kərim. Sənin canın üçün, bir növ ilə səni Hacı Qafurun arvadının yanında nəzərə verdim ki, əgər özün də orda olsaydın, öz haqqında müştəbeh olardın. Dedim ki, bu saatda hakimi-şər yanıda Ağa Mərdandan mötəbər kimsənə yoxdur. Onun bir sözü iki olmaz. Dərxanədə də ancaq o mərufdur. Hətta şahzadə hüzuruna da həmişə bir para işlər üçün gediş-gəlişi var. İş bilməkdə də Əflatuni-əsrdir.[5] Gərək o hər necə desə, onun sözündən çıxmayasan və heç vahimə və ehtiyat etmiyəsən ki, ancaq onun tədbiri ilə sən Hacı Qafurun dövlətinə malik ola bilərsən. Yoxsa sənin bu irsə heç haqqın yoxdur. Arvad özü də və qardaşı Ağa Abbas da razı oldular. İndi bu saatda gələcəklər sənin yanına ki, hər nə desək, ona əməl etsinlər.

Ağa Mərdan. Çox yaxşı, Ağa Səlmanı da o tərəfə vəkil etdirə bildinmi?

Ağa Kərim. Bəli, bu saatda Ağa Səlman Səkinə xanımın yanındadır. Ordan qurtarıb bura gələcək.

Ağa Mərdan. Mərhəba, Ağa Kərim, vallah sənin dilində cadu əsəri var. Xub, hələ bir de görüm Hacı Qafurun arvadı göyçəkdirmi!

Ağa Kərim. Nə eyliyəcəksən?

Ağa Mərdan. Nə eyliyəcəyəm, gəlsə allam. Mənə gəlməzmi?

Ağa Kərim. Nə bilim, gələrmi? Sənin bir az vaxtın keçibdir. Arvad cahıldır.

Ağa Mərdan. Xeyr, Ağa Kərim, sən öləsən, mənim çəndən vaxtım keçməyibdir. Mən indi düz əlli bir yaşındayam.

Ağa Kərim. Belə bilirəm, yetmişdə də olarsan.

Ağa Mərdan. Xeyr, sənin canın üçün, bilirsənmi mən havaxt anadan olmuşam? Təbrizin böyük zəlzələsindən bir il sonra.

Ağa Kərim. Sənin ki arvadın var.

Ağa Mərdan. Mən ki arvadsızlıqdan istəmirəm onu alam. Deyirəm ki, Allah qoysa əgər bu dövləti o arvadın adına Hacı Qafurun bacısının əlindən çıxarsaq, dəxi arvad niyə özgəsinə getsin? Arvadı da mən allam, dövləti də mənim əlimdə olsun. Elə sənin səlahın da budur, özgəsindən sənə nə xeyir olacaq?

Ağa Kərim. Əlbəttə, bu surətdə göyçək oldu, ya olmadı, nə təfavütü, qoy olsun ifritə, gəlsə algilən. Amma yaman deyil, ağlım kəsmir ki, səni bəyənə.

Ağa Mərdan. Yəni mən necəyəm?

Ağa Kərim. Özün bilmirsən, sir-sifətin çəndan məqbul deyil.

Ağa Mərdan. A kişi, mən sənin gözündə necə görükürəm? Qoy bir aynaya baxım. (*Bədənnüma aynaya baxır*). Ağa Kərim, sən allah, mənim haramda sən eyib görürsən? Əgər dişlərimin tökülməyin deyirsən, nüzüldən tökülübdür, qocalıqdan deyil. Ovurdlarım bir az çuxura düşübdür, amma çəndan da məlum olmur, saqqal üstünü örtübdür.

Ağa Kərim. Di yaxşı, bəsdir, otur aşağı, indi arvad gələr.

Ağa Mərdan. Səbr elə, bir tirmə küləcəmi geyim, mahud cübbəmə bürünüm, saqqalımı darıyım. (*Başlayır dediklərini eləməyə*).

Ağa Kərim. A kişi, niyə lazımdır bu zadlar, otur aşağı.

Ağa Mərdan. Xeyr, çox lazımdır! Bizim arvadlarımız həmişə üzlərini kişilərdən gizlərlər. Amma özləri kişilərə baxmağa biixtiyardılar. Məni Hacı Qafurun arvadı yaraşıqlı görsə, əlbəttə, artıcaq sayar. Sözümün artıcaq təsiri olar. Bəlkə xoşuna da gəlim.

Ağa Mərdan libasını geyib, saqqalını darayıb oturur. Bu halda qapı açılır. Hacı Qafurun arvadı Zeynəb və qardaşı Ağa Abbas içəri girirlər.

Ağa Abbas. Səlam-əleyküm!

Ağa Mərdan. Əleyküm-səlam, xoş gəldiniz, səfa gətirdiniz! Buyurun, əyləşin.

Hacı Qafurun arvadı üzün bürümüş və qardaşı otururlar.

Ağa Mərdan. Ağa Abbas, mən səninlə danışım, Zeynəb xanım da qulaq assın, yeri gələndə cavab versin. Hacı Qafur ölən indi altı aydır. Söz gərək bizim aramızda aşkar ola. Hamı bilir ki, Zeynəb xanım Hacı Qafurun daimi mənkuhəsi deyil, onun dövlətindən irs hesabında hərgiz hissəsi yoxdur. Amma mən bu keyfiyyəti bilib Ağa Kərimi sizin yanınıza göndərdim və məlum elədim ki, əgər siz mənim sözümdən çıxmasanız və mənim tədbirimə əməl eləsəniz, mən belə elərəm ki, bu dövlət Zeynəb xanıma çatar. Çünki Hacı Qafurun bacısının bir köməyi və əlindən iş gələn əqrəbası yoxdur. Ancaq o qızın bir cavan namizədi var, o da mürafiə işində mənə hərif ola bilməz və siz də mənim rəyimə razı olub hakimi-şər yanına adam gön-

dərib bildiribsiniz ki, Hacı Qafur tapşırdığı pulu onun bacısına verməsin ki, onunla iddianız var. Hakimi-şər pulu saxlayıb, sizə və Hacı Qafurun bacısına bildirib ki, vəkil tutub, mürafiəyə əyləşib, davanızı teyy edəsiniz. İndi mən özüm sizin vəkilinizəm. Amma Zeynəb xanım gərək mənim hər sözümə, hər tədbirimə əməl etsin ki, bu iş əncam tapa.

Ağa Abbas. Əlbəttə, onsuz ki, olmaz. Buyurun görək Zeynəb xanıma təklifin nədir?

Ağa Mərdan. Əvvələn, Zeynəb xanım gərək bu saatda bir para məxaric üçün beş yüz tümən mənə pul verə ki, axırda da hesaba daxil elərik. Özü Ağa Kərimə bildiribdir ki, Hacı Qafurun öləndən sonra sandıqda min tümən var idi və bacısı da bilmirdi, onu götürübdür.

Zeynəb xanım. Müzayiqə yoxdur, başqa təkliflərini bildir.

Ağa Mərdan. ikinci təklif budur ki, gərək Hacı Qafurun dövlətinin yarısına qane olasan, yəni o dövlətdən ki, altmış min tüməndir, otuz min tümən sənin olsun və qalan yarısı otuz min tümən mənim və Ağa Kərimin və başqa yoldaş və köməkçimizin olsun.

Zeynəb xanım. Vay aman, nə çox istirsən, Ağa Mərdan!

Ağa Mərdan. Hərgiz çox deyil, xanım! Bu irsə sənin heç haqqın yoxdur. Bu otuz min tümən də mən ancaq sənə bağışlayıram.

Zeynəb xanım. Necə haqqım yoxdur? Mən illər ilə zəhmət çəkib Hacı Qafurun evində oturmuşam. Tamam pul sandıqlarının haçarı mənim əlimdə olurdu. Hacı Qafurun sağlığında onun bacısının beş abbası ixtiyarı çatmazdı, amma mən hər nə qədər istəsəydim xərc edərdim. İndi necə oldu ki, mən gərək qıraqda qalam, pulları bu dilaram çəngi götürə, gedə bir qızıl-qırmızı oğlana, yeyə, içə, kef edə?

Ağa Mərdan. Mürafiədə bu sözlərə qulaq asmazlar.

Zeynəb xanım. Necə qulaq asmazlar? Mürafiə edənin məgər insafı yoxdur? On ildən artıq bu dövlət mənim əlimdə idi. İndi gərək mən ondan binəsib olam?

Ağa Mərdan. Bəli, indi gərək ondan binəsib olasan. Sözümə qulaq as, yarısına qane ol! Yoxsa o dövlətin bir fülusuna da haqqın yoxdur. Ağa Abbas mətləbi başa düşər ki, mən dediyim söz haqdır.

Ağa Abbas. Yaxşı, razıyıq. Başqa təklifin nədir?

Ağa Mərdan. Üçümcü təklifim budur ki, Zeynəb xanım gərək məclisi-mürafiədə hazır olub otura və hakimi-şər hüzurunda iqrar edə ki, Hacı Qafurdan bir yeddi aylıq bir oğlu var.

Zeynəb xanım. Vay, dədəm vay! Ağa Mərdan, bu çox çətin təklifdir. Mən yalandan necə deyim ki, mənim yeddi aylıq oğlum var?

Ağa Mərdan. Heç çətin deyil. Hacı Qafurun sağlığında sən hamilə idin. Öləndən bir ay irəli bir oğlan doğubsən; indi yeddi aylıqdır. Bunu deməyə nə var ?

Zeynəb xanım. Ağa Mərdan, mən səni özümə ata bilirəm. Sənin heç sözündən çıxmağı bacarmanam. Amma bu təklif çox müşküldür. Mən uşaq doğmamışam. Deməzlərmi bəs uşağın hanı?

Ağa Mərdan. Bu xüsusda qəm çəkmə! Uşaq hazırdır və sən hamilə idin, onu doğubsan. Uşağı sənin və Hacı Qafurun qucağında görənlər də var. Sən bu cəhətdən ehtiyat eləmə. Sən ancaq iqrar edərsən, özgələri təsdiq edər.

Zeynəb xanım. Allahı sevirsən, Ağa Mərdan, bir ayrı təklif elə! Mən necə bu yalanı iqrar edim? Vallah, mənim üzümdən gəlməz ki, bu sözü deyəm.

Ağa Mərdan. Qəribə söz danışırsan! Heç bilmirəm niyə üzündən gəlmir bu sözü deyəsən? Heç bilmirəm nədən utanırsan? Xub, aləm bilir ki, doğmaq arvad tayfasının peşəsidir. Utanmaq nədir? Balıq istəyən gərək canın soyuq sudan qorumaya. Gərək bu iqrarı edəsən, başqa çarə yoxdur.

Zeynəb xanım. Bu iqrardan qərəzin nədir, Ağa Mərdan?

Ağa Mərdan. Qərəzim odur ki, Hacı Qafurun dövləti sənə yetişsin. Bu mətləbin əncamına bundan başqa əlac tapılmaz, ondan ötrü ki, sən onun varisi ola bilməzsən. Amma sənin oğlun onun şəri varisidir. Oğlan vücudunu sübuta yetirəndən sonra, tamam dövlət ona yetişər. O vaxt da mən çox asanlıqla özümü ona qəyyum edərəm. Sonra ki, bir beş-altı ay keçər, söhbət sallıq ki, sənin uşağın vəfat etdi. O sürətdə tamam dövlət şərən sənə müntəqil olar. Yarısını sən götürərsən və yarısını mən.

Zeynəb xanım. A başına dönüm, belə yalan işi yetirmək olarmı?

Ağa Mərdan. Yeritmək olmazdı, əgər Hacı Qafurun bacısının köməyi olsaydı. İndi onun kimsənəsi yoxdur ki, bizim qabağımızda söz danışa. Əgər Ağa Həsən tacirə getsəydi, genə bu iş çətin idi. İndi Ağa Həsən də və onun güclü əqrabası da o qıza düşmən olublar. Hamısı istir ki, bu dövlət ona çatmasın. Qız qalıb yalqız, ancaq bir cavan namizədilə ki, əlindən heç bir iş gəlməz.

Zeynəb xanım. Bəs o dediyin uşaq hardadır?

Ağa Mərdan. Bu saatda görərsən. Ağa Kərim, uşağı o biri otaqda dayədən al gətir.

Ağa Kərim gedir.

Zeynəb xanım. Uşağı dayə əmizir?

Ağa Mərdan. Xeyr, anası əmizir. Amma sənin dayəndir dəxi.

Ağa Kərim uşaq əlində qayıdır. Ağa Mərdan uşağı alır, verir Zeynəb xanıma.

Ağa Mərdan. Al, budur sənin oğlun! Görürsənmi, gözü, qaşı lap Hacı Qafurun gözü, qaşıdır.

Zeynəb xanım. Vallah deyəsən ki, elə oxşuyur; amma qorxuram mürafiyə vaxtında dilim tutula, deyə bilməyəm.

Ağa Mərdan. Zeynab xanım, səbəbi odur ki, özün inanmırsan ki, bunu sən doğubsan. Əvvələn,özün gərək inanasan ki, bu sənin oğlundur. Yoxsa, əlbəttə, mürafiyə məclisində karıxarsan, dilin tutular. Vahimə eləmə, söz ver ki, belə iqrar edəsən.

Zeynəb xanım. Bəli, söz verirəm, əgər bacarsam.

Ağa Mərdan. İnşallah bacararsan. Bəs o yaxşıdır ki, baldızın tamam dövləti aparıb bir bığı burma oğlana yedirə?

Zeynəb xanım. Doğru deyirsən. Səkinə xanımın vəkili yalanımı çıxarmıya.

Ağa Mərdan. Xa-xa-xa!.. Gör kimdən qoxur! Ehtiyat eləmə! O, heç bir kəlmə də sənin xilafına söz danışmayacaq. Durun gedin, vəkalətnaməni yazdırın, hazır edin. Sabah gərək mürafiyə başlanıb tamam ola. Mənim də indi başqa işlərim var, yanıma adamlar gələcək və Ağa Kərimi də aparın, onunla beş yüz tümən pul göndərin.

Ağa Abbas. Pulları gətirmişik, Ağa Kərim bildirmişdi.

Ağa Mərdan. Di qoyun, gedin.

Ağa Abbas pulları kisədə Ağa Mərdanın qabağına qoyur. Bacısı ilə ayağa durub getmək istəyir. Bu halda şahzadənin fərraşı Nəsir daxil olur.

Nəsir fərraş. Səlam-əleyküm, Ağa Mərdan! Şahzadə buyurdu ki, bu axşam bir mənim hüzuruma gəlsin ki, bir vacib işim var, ona rücu edəcəyəm.

Ağa Mərdan. Ərz elə ki, baş üstə!

Fərraş gedir, sonra hakimi-şərin nökəri Əsəd daxil olur.

Ə s ə d (*nökəri-hakimi-şər*). Salam-əleyküm, Ağa Mərdan! Ağa buyurur ki, bu gecə Hacı Səminin evində bizim ilə qonaqlığa gedəcəkdirmi? Vacibi iş var. Gərək onunla orada danışam.

A ğ a  M ə r d a n . Ərz elə ki, gedəcəyəm.

Ağa Abbas bacısı ilə gedir, Ağa Kərim.

A ğ a  K ə r i m . Bu şahzadə fərraşı və hakimi-şər nökəri haradan tapıldılar?

A ğ a  M ə r d a n . Mən bilirdim ki, arvad mənim təklifimdən vahimə edəcək. Buların hərəsinə iki sahib-qiran verib, piş əz vaxt hazır eləmişdim ki, gəlib arvadın yanında bu sifarişləri mənə etsinlər. Arvad bilsin ki, mən şahzadə və hakimi-şər yanında müqərrəbəm. Bir az ürəkli olsun, yoxsa mürafiyə vaxtında qorxuram iqrara qadir olmaya, rüsvay olaq.

A ğ a  K ə r i m . Vallah, yaxşı fikirdir. Amma xeyr, biz mürafiə vaxtında mülahizə elərik, əgər müyəssər ola, arvadın iqrarını şahidlərdən sonraya sallıq, o vaxt vahimə eləməz.

A ğ a  M ə r d a n . Di dur get Hacı Rəcəbəliyə de ki, şahidləri gətirsin, gəlsin. Beş yüz tümən onun özünə vədə elə. Əlli tümən nəğd, qalanı nisyə. Şahidlərin hər birisinə de otuz tümən, on beşi nəğd, on beşi nisyə ki, iş tamam olandan sonra verilər. Hacı Rəcəbəli əldə olmasa bu işi aşırmaq olmaz. Yoxsa işin üstünü açar; çox şeytandır. Ondan iş gizlətmək mümkün deyil.

A ğ a  K ə r i m . Çox yaxşı, gedim. (*Ayağa durur*).

A ğ a  M ə r d a n . Ey, sən allah, bir söz deyirəm: Hacı Qafurun arvadını görəndə öz yanından bir tövr ilə işarə elə ki, danışıq arasında mənə ata xitab etməsin; sən öləsən, ürəyinə ayrı fikir gəlməsin! Elə xoşuma gəlməz ki, arvad tayifəsi mənə xoşaməd üçün ata ləqəbi verə. Nə lazım olubdur? Adımı desin.

A ğ a  K ə r i m . Yaxşı, yaxşı, bilirəm mətləbin nədir! Xatircəm ol, dəxi sənə ata deməz.

Gedir, sonra Ağa Salman daxil olur.

A ğ a  S ə l m a n . Salam-əleyk!

A ğ a  M ə r d a n . Əleykəssəlam, necə oldu?

A ğ a  S ə l m a n . Vəkil oldum. İndi fikrin nədir?

A ğ a  M ə r d a n . İndi fikrim budur ki, şahidlər hazır edib, mürafiəyə iqdam edək. De görüm, sənə nə vədə elədilər?

Ağa Səlman. Mən dedilər ki, beş yüz tümən sənə həqqülnəfəs verrik, çünki bizim şahidlərimiz hazırdır və iş vazehdir. Mən də razı oldum.

Ağa Mərdan. Çox yaxşı elədin. İndi görürsən ki, haqq tərəfindən çəndan xeyir yoxdur. Amma Hacı Qafurun arvadı otuz min tüməndən keçir. Bu otuz min tümən sənə, mənə və Ağa Kərimə yetişəcəkdir. Şahidlərin adlarını, yerlərini öyrəndinmi?

Ağa Səlman. Öyrənmişəm. Dörd nəfər sərbazdır; Bədəl, Qəhrəman, Qəffar və Cabbar. Vərci küçəsində olurlar.

Ağa Mərdan. Gərək mən oları bura gətirdib tovlayam ki, xilaf şəhadət etsinlər. Sən gərək gedib olara tapşırasan ki, sədaqət ilə öz şəhadətlərini eləsinlər. Çün sərbaz taifəsi biçizlikdən bir növ firqeyi-suala[6] daxildir. Olar haman saat soruşacaqlar ki, ağa, sonra bizə nə şəfəqqət edəcəksən? Onda sən de ki, uşaqlarım, belə işlərdə müzd istəmək yaxşı deyil. Allah rizasına gərək şəhadət edəsiniz. Qiyamət günü sizə əcri-xeyir yetişər.

Ağa Səlman. Çox yaxşı!

Ağa Mərdan. Heç bilirsənmi sərbazların adəti nə qərar üzrədir?

Ağa Səlman. Bilirəm. Olar deyəcəklər ki, biz Hacı Qafurun evinə yetişdik. İki saat vəfatından irəli. Bizə dedi ki, mən ölürəm, mənim dünyada bir kimsəm yoxdur, məgər bir bacım. Mən öləndən sonra məni dəfn edin.

Ağa Mərdan. Çox yaxşı, gərək sərbazlar bu sözü dəyişib deyələr ki, bir aylıq oğlu var idi. İndi dur get!

Ağa Səlman durub gedir.

Ağa Mərdan (*yalqız*). İnşallah iş yaxşı gəlir. İndi Ağa Kərim, şahidləri gətirən vaxtdır.

Qapı açılır. Ağa Kərim, Hacı Rəcəbəli, daruğə və yanında dörd nəfər adam daxil olurlar.

Hacı Rəcəbəli. Səlam-əleyk!

Ağa Mərdan. Əleykəssəlam, Hacı, tapdınızmı?

Hacı Rəcəbəli. Tapdınızmı?! Guya itirmişdik tapaq? Qəribə sual edirsən, Ağa Mərdan. Bəs məlum ki, məni hələ dürüst tanımırsan.

Ağa Mərdan (*Ağa Kərimə kənarda*). Ağa Kərim, sən dur get, Ağa Səlman ilə görüş. O nişan verən sərbazları mənim yanıma gətir.

(*Sonra Hacı Rəcəbəliyə mütəvəcceh olub*). Hacı, mənə nişan ver, görüm ki, bular kimdirlər?

Hacı Rəcəbəli. Bu Hepo qumarbazdır ki, dünən Ərdəbildən gəlibdir. Bu qəzvinli Şeydadır ki, gündüz sərraflıq elər, gecə əyyarlıq. Bu da Qurbanəli həmədanlıdır ki, gecə hər iş əlindən gələr, amma gündüzlər bazarda corab satar. Bu da marağalı Hənifədir ki, gündüz qoltuqfüruşluq edər, gecələr mənim yanımda olur.

Ağa Mərdan. Əlhəmdüllah, hamısı yaxşı adamlar imiş, amma Heponun sənəti bir az töhmətlidir. Olar ki, ona gümani-bəd gedə.

Hacı Rəcəbəli. Qorxma, Hepo bir nadürüstdür ki, hər sifətə və hər dona girə bilər. İstirsən bir-iki saatdan sonra bir mütəşəxxis tacir sifətinə girib yanına gəlsin ki, sən özün də onun haqqında müştəbeh olasan. Məgər bilmirsən ki, bu kimin nütfəsindən əmələ gəlib? Bu, dabanıkəsik Heydərqulunun oğludur ki, gündüz Əhərdə görünüb, gecə iki günlük yol piyada gəlib. Təbrizdə mərhum qaim-məqamın evindən bir cəvahir mücrüsünü aparıb, genə elə o gecə Əhərə qayıdıb; Sübh çağı karvansarada dalanında yatmış imiş. Aləm tamam heyran qalmışdı onun bu əməlinə. Məhz onun bu hünərinə görə iş açılandan sonra onu öldürməyib ancaq dabanlarını kəsdilər.

Ağa Mərdan. A, dabnıkəsik Heydərqulunun oğlu imiş! Çox yaxşı, amma adını dəyişərik. Bular məsaili-şəriyyətlərinə arifdirlərmi?

Hacı Rəcəbəli. Xatircəm ol! Tamam əhli-savaddırlar. Sən öləsən, hamısı şeytana papuş tikərlər. Nə günə qalıblar, dördü də hər gün məsciddə camaat namazı qılır.

Ağa Mərdan. Çox yaxşı, indi bilirlərmi ki, gərək nə günə şəhadət etsinlər.

Hacı Rəcəbəli. Xeyr, gərək onu sən özün təlim edəsən.

Ağa Mərdan. Bəli, gərək desinlər ki, Hacı Qafurun vəfatından bir həftə irəli biz dördümüz də axşam çağı əhli-qübur ziyarətinə gedirdik. Hacı Qafurun qapısından ötəndə gördük durubdur, qucağında bir qundaq. Salam verib soruşduq ki, Hacı, bu uşaq kimindir? Dedi ki, mənimdir, üç həftədir ki, təvəllüd tapıbdır. Bundan başqa dəxi övladım yoxdur.

Hacı Rəcəbəli (*şahidlərə üzün tutub*). Ay uşaqlar, eşitdinizmi?

Həpo. Bəli, eşitdik!

Ağa Mərdan. Bu tövr deyə biləcəksinizmi?

Hənifə. Əlbəttə, nə çətin sözdür ki, demək müşkül ola!

A ğ a  M ə r d a n. Çox razıyam, oğullarım, Allah sizdən razı olsun!

Ş e y d a. Ağa Mərdan, belə işdən Allah məgər razı olar?

A ğ a  M ə r d a n. Niyə razı olmur, əzizim! Əgər əsl işdən xəbərdar olasan, deyərsən ki, razı olar. Biçarə Hacı Qafurun arvadı on il ev və dövlət sahibi olubdur. İndi rəvadırmı evdən, dövlətdən məhrum olsun və bu dövləti bir qızmış qız götürüb bir cövməri əhli-zələmə oğlana yedirsin? Bu səbəbə ki, onu qucacaqdır? Əhli-zələmə bizim üləmamızın qövlünə görə dərgahi-ilahidən mərduddurlar.

Ş e y d a. Bəli, doğru deyirsən.

H a c ı  R ə c ə b ə l i. Ağa Mərdan uşaqların icrətini məlum elə.

A ğ a  M ə r d a n. Məgər Ağa Kərim eyləməyibdir? Hər birisinə otuz tümən və sənə də məlumdur nə yetişəcəkdir.

H a c ı  R ə c ə b ə l i. Ağa Mərdan, uşaqların icarəsinin yarısı gərək bişəki, yetişə.

A ğ a  M ə r d a n. Əlbəttə, siz gedin; iki saatdan sonra Ağa Kərim sizə əlli tümən və uşaqların da icrətlərinin yarısını qulluğunuza gətirər.

H a c ı  R ə c ə b ə l i. Çox yaxşı, xudahafiz.

Hamısı gedirlər. Sonra qapı açılır, dörd nəfər sərbaz içəri girir Ağa Kərim ilə.

S ə r b a z l a r. Səlam-əleyküm!

A ğ a  M ə r d a n. Əleykümənssəlam. Buyurun, oğlanlarım, əyləşin! Siz xoş gəlibsiniz. Sizə zəhmət verdim, bağışlayasınız!

S ə r b a z l a r d a n  b i r i s i. Xeyr ağa, sənin kimi hörmətli kimsənələrin qulluğuna gəlmək bizə çox fəxrdir.

A ğ a  M ə r d a n. Mərhəba, oğlum! Ədəbli adam dünyada həmişə əziz olar. Çaşt yeyibsinizmi?

S ə r b a z l a r. Xeyr, bura gəldik, hələ məcalımız olmadı.

A ğ a  M ə r d a n. Ağa Kərim, bizim nökərlərdən birisini göndər, bazardan çilovpəzdən dörd nəfər üçün dörd dümərdi boşqabda, yanınca qəndabı çilov gətirsin.

S ə r b a z. Nə üçün, ağa, zəhmət çəkirsiniz?

A ğ a  M ə r d a n. Zəhmət niyə olur, əzizim. İndi çaşt vaxtıdır. Rəvadırmı mənim evimdən ac gedəsiniz?

S ə r b a z. Ağa, bizə qulluğunuz nədir?

A ğ a  M ə r d a n. Oğlum, bir çəndan qulluğum yoxdur. Ancaq bircə kəlmə söz sizdən soruşacağam.

S ə r b a z. Buyur, ağa, ikisini soruş!

A ğ a  M ə r d a n. Mərhum Hacı Qafuru sizmi dəfn etdiniz?

S ə r b a z. Bəli, ağa.

A ğ a  M ə r d a n – Mərhəba, oğlanlarım, sizin cavanmərdliyinizə! Sizin vücudunuz qənimətdir. Nəinki islamın köməyisiz, bəlkə dar gündə xalqın vecinə də ancaq siz gəlirsiz. Vəba düşəndə bir mütənəffis Təbrizdə qalmamışdı, amma siz öz canınızdan keçib şəhəri buraxmadınız. Cənab-əqidəsi-ilahi sizə böyük əcr versin! Xub, oğlanlarım, Hacı Qafuru sağ gördünüzmü?

S ə r b a z. Bəli, gördük, ağa!

A ğ a  M ə r d a n. O vaxtda onun yanında qundaqda onun bir aylıq tifil oğlunu gördünüzmü?

S ə r b a z. Xeyr, ağa, görmədik.

A ğ a  M ə r d a n. Olur ki o vaxtda anasının qucağında imiş.

S ə r b a z. Xeyr, ağa, Hacı Qafurdan biz soruşduq ki, oğuldan, uşaqdan nəyin var? Dedi ki, bir bacımdan başqa bir kimsəm yoxdur.

A ğ a  M ə r d a n. Bəli, olur ki, oğul bir aylıq tifil olduğu üçün onu hesaba gətirməyibdir. Amma uşaq o vaxtda anasının qucağında imiş. Sizdən başqa özgələri uşağı onun qucağında görüblər. Mən elə bildim ki, bəlkə siz də görmüş olasınız. Eybi yoxdur, indi bu xüsusda necə şəhadət edəcəksiniz? Çünki vərəsə arasında dava bərmeyit vaqe olubdur.

S ə r b a z. Biz bildiyimiz kimi şəhadət edəcəyik. Bu xüsusda Hacı Qafurun bacısının vəkili də bizdən soruşdu, bu qərar ilə cavab verdik.

A ğ a  M ə r d a n. Bəli, indi məlum oldu ki, siz niyə belə danışırsınız; çünki o haramzadanın, o bidinin ağzı sizə dəyibdir. Onun üçün siz uşağın varlığına münkir olursunuz. Yəqin ki, bu xüsusda sizin hər birinizə iyirmi tümən vədə edib yarısını də pişəki veribdir.

S ə r b a z. Xeyr, ağa, o bizə bir həbbə də vədə eləməyibdir. Hətta biz ondan bir cüzi xarclıq istədik, dedi ki, şahid gərək biqərəz ola, əcrinizi allahdan istiyin.

A ğ a  M ə r d a n. Ax, məlun, gör nə mərtəbədə qayım və xəsis adamdır! Özündən başqa istəmir ki, bir kimsəyə bir həbbə xeyir yetişsin. Yaxşı, altmış min tümənin davasında nahaq işə şəhadət etdirir. Sizin kimi cavanmərd uşaqların hər birinə bir iyirmi ya otuz tümən cib xarcılığı verməklə can çəkir. Vallah, beləcə məlun olmaz. Allah bəlasın versin. İşi nahaq, özü qayım və xəsis!

S ə r b a z. Necə işi nahaqdır, ağa?

A ğ a  M ə r d a n. Belə nahaqdır ki, aşkara Hacı Qafurun yeddi aylıq oğlunu istir dansın, batırsın və atasından qalan dövləti istir onun bacısına yedirsin. Lakin bu işi Allah götürməz. Uşaq bu saatda hali-həyatdadır. Bunu necə danmaq olar? Mən uşağın vəkiliyəm. Otuz tümən nəzr eləmişəm ki, hər kəs bu tiflin barəsində şəhadət etsə, onun qabağına sanıyam. Sizə çox gümanım gəlirdi. Belə bilirdim ki, uşağı görübsünüz, pulları da sayıb hazır qoymuşdum. Amma çifayda, siz deyirsiniz uşaq yadınıza gəlmir; amma olur ki, görsəniz yadınıza düşər. Ağa Kərim, evdən o tifli anası Hacı Qafurun arvadından al, bir bura gətir. (*Ağa Kərim gedir, cəld o biri otaqdan yeddi aylıq qundağı gətirir*). Uşaqlarım, bir dürüst fikrinizə gətirin, olmaz ki, siz bu uşağı görməmiş olasınız! Allaha mürvətdir ki, bu yetimin atasının pulunu özgəsi yesin, bu yetim həsrət ilə qapılarda qalsın? Amma olur ki, siz tələsikdə buna mültəfit olmamış olasınız, çünki o vaxt bir belə vaxt idi ki, adam öz başını da unudurdu. Ağa Kərim, bu uşağın nəzirini taxçadan al, bura gətir. (*Ağa Kərim tez taxçadan dörd kağıza bükülmüş pulları gətirir. Ağa Mərdanın qabağına qoyur*). Mənim əzizlərim, Allah-taalanın əcrindən başqa ki, bişəki sizə yetişəcək idi, bu yetim bu kağızların hər birisinin içində sizə otuz tümən nəzr edibdir. Bu, o məlun Ağa Səlman kimi deyil ki, həmi nahaq işə təklif edə və həmi xissətdən hes bir zad vermiyə.

Sərbazlardan birisi yoldaşlarından birisinə üzün çevirib.

B ə d ə l. Qəhrəman, mənim belə yadıma gəlir ki, biz Hacı Qafurun yanında olduğumuz saatda bir uşaq səsi gəldi.

Q ə h r ə m a n. İndi mənim də fikrimə düşür ki, bucaqda bir arvad oturmuşdu, qucağında bir qundaq var idi.

Q ə f f a r (*sərbazlardan üçüncüsü*). A kişi, deyəsən mənim də xatirimə gəlir ki, Hacı Qafur dedi ki, o mənim arvadımdır, o uşaq da mənimdir. Bir aydır anadan olubdur.

N ə z ə r (*sərbazlardan dördüncüsü*). A kişi, necə bu iş bizim yadımızdan çıxıbdır. Doğrudan, o vaxt adam öz başını da unudarmış. Ay uşaqlar, Hacı Qafur bizə demədimi ki, mənim evimdən, öz arvadımdan və bu tifil uşağımdan muğayat olun? Şəhər xalqı yığılanadək oğru və əyri bulara əziyyət verməsin?

Ə v v ə l i n c i  s ə r b a z  B ə d ə l  v ə  o  b i r i l ə r i  b i r  y e r d ə. Bəli, arvadını və oğul-uşağını doğrudan bizə tapşırdı.

Ağa Mərdan. Allah sizdən razı olsun, oğlanlarım! Mənim də gümanım bu idi ki, bu iş sizin laməhala xatirinizdə olacaqdır. Alın bu yetimin nəzirini özünüzə xarclıq edin! İnşallah mürafiə tamam olandan sonra genə sizin hər birinizə on tümən yetişəcəkdir! Doğruluq heç vaxt da itməz. Oğullarım! Belə ki, mənə söylədiniz, məhkəmeyi-mürafiəyə dəxi bu qərar ilə şəhadət edin. Pulları götürün.

Sərbazlardan birisi. Ağa, axır biz Ağa Səlmana söz vermişik ki, onun tərəfinə şəhadət edək. İndi ona deyəkmi ki, biz ona şəhadət ola bilmənik?

Ağa Mərdan. Xeyr, heç ona demək lazım deyil! O elə bilsin ki, siz ona şahidsiniz. Sizi aparsın məhkəməyə, orada necə ki, indi söylədiniz, bu qərar ilə şəhadət edin. Ağa Səlmanın sizdə bir haqqı yox, bir tələbi yox. Desə ki, niyə belə şəhadət edirsiniz, deyin ki, biz belə bilirik. Götürün pulları! Çilov gəlibdir gedin o biri otağa, çaştınızı yeyin, gedin. Amma sizdən bircə təvəqqəm var; gərək mən sizi bura çağırdığımı bir kimsənə bilməyə. Bu sirri saxlamaq üçün məhz rizaənlillah mən sizin hər birinizə özümdən bir Buxara börkü vədə edirəm.

Sərbazlar. Ağa, bu xüsusda xatircəm ol!

Pulları götürürlər.

Ağa Mərdan. Ağa Kərim, uşaqları o biri otağa apar, çilov yesinlər, yola sal, getsinlər!

Ağa Kərim sərbazları götürüb o biri otağa aparır.

Ağa Mərdan (*yalqız*). Hələ buratan yaxşı gəlir. İndi durum gedim, məhkəmədə olan haşiyənişinləri püxtə və amadə edim ki, sabah mürafiə vaxtında bəqədri-lüzum quyruq bulasınlar. (*Durub gedir*).

*Pərdə salınır*

## ÜÇÜMCÜ MƏCLİS

Üçümcü məclis vaqe olur məhkəmeyi-mürafiədə. Sədrdə əyləşibdir hakimi-şər, onun sağ tərəfində Ağa Rəhim və Ağa Cabbar, sol tərəfində Ağa Bəşir və Ağa Səttar ki, daima məhkəmeyi-mürafiədə haşiyənişindirlər və başqa səmtdə oturubdur Ağa Mərdan – Hacı Qafurun arvadının vəkili.

Ağa Bəşir (*hakimi-şərə rücu edib*). Ağa, maşallah sizin zehninizə və fərasətinizə! Bilirsinizmi ki, dünən şikayətə gələn arvadın əməli nə imiş? O özü ərinin cibindən üç tümən çıxarıb sonra ərini döyüb, yalandan üzünü qanadıb, başının tükün yolub, ərindən şikayətə gəlmiş imiş.

Hakimi-şər. Mən demədimmi ki, bu zəifə mənim nəzərimə böhtançı gəlir? Bunun şikayətini dürüst təhqiq etmək gərək?

Ağa Bəşir. Axır mən də ərz edirəm ki, maşallah sizin fərasətinizə! Vallah, sizin nəzəriniz kimyadır. Əhli-məclisdən heç kim o zəifənin haqqında gümani-bəd aparmadı. Amma siz bir dəfə nəzər salmaqla buyurdunuz ki, mən o zəifənin əməlində şübhəliyəm. Vaqiən, elə belə imiş.

Hakimi-şər. Mükərrər, mən belə işlərdə müvafiqi-vaqe hökm etmişəm.

Ağa Bəşir. Doğru demişlər ki, "ərbabüddüvəli mülhəmünə",[7] bu növ bəsirət əgər ilham deyil, bəs nədir?

Ağa Rəhim. Ağa Bəşir nə çox təəccüb edirsən? Cənabi-əqdəsi-ilahinin ki, bir bəndəsinə lütfi-xassı ola, onu fəzilətdə bərgüzidə və səramədi-əhli-zəmanə edər. Ağaya, cənabi-əqdəsi-ilahinin lütfi-xassı var iş bilməkdə. Sən adın ilham qoy, mən deyirəm: bu Allahın lütfi-xassıdır.

Ağa Cabbar. Bəli, ixtiyarın var, hər birisini demək caizdir. Belədirmi, Ağa Mərdan?

Ağa Mərdan. Əlbəttə, əlbəttə!

Ağa Rəhim. Ağa Mərdan, Hacı Qafurun uşağı necədir?

Ağa Mərdan. Allaha şükür, indi hər adamı tanıyır, çağıranda gəlir.

Ağa Cabbar. Gərək indi onun yeddi ayı tamam olmuş ola?

Ağa Mərdan. Bəli.

Hakimi-şər. Necə, Hacı Qafurdan uşaq qalıbdır? Bəs mən eşitmişəm ki, onun heç övladı qalmayıbdır?

A ğ a  B ə ş i r. Xeyr, ağa, sizə yalan ərz edibdirlər. Bir balaca tifil qalıbdır, ay parçası kimi! Dünən biz namazdan qayıdanda qapı ağzında Ağa Mərdanın qucağında gördük; guya ki, Hacı Qafur ilə bir almadır ikiyə bölünübdür.

A ğ a  S ə t t a r. Ağa, Hacı Qafurun gözü, qaşı ki sizin xatirinizdədir.

H a k i m i - ş ə r. Bəli, Hacı Qafur ki, çoxdan ölmüyübdür.

A ğ a  S ə t t a r. Bu uşağın da göz-qaşını müayinə edəsən, Hacı Qafurun göz-qaşıdır.

H a k i m i - ş ə r. Mən belə bilmirdim. Xub, Ağa Mərdan, çünki Hacı Qafurdan oğlan qalıbdır, dəxi nə murafiə lazımdır? Aşkardır ki, Hacı Qafurun malı gərək ona yetişə, başqa əqrəbasına bu surətdə yol yoxdur.

A ğ a  M ə r d a n (*qayət fürutənliklə*). Ağa, keyfiyyəti əgər mən qulluğunuza ərz eləsəm, qərəz görünər. Ağa Bəşir ərz eləsin ki, bu necə işdir.

A ğ a  B ə ş i r. Ağa, keyfiyyəti mən qulluğunuza ərz edim. Hacı Qafurun bir bacısı qalıb Səkinə xanım adlı və əhli-zələmədən bir cahıl oğlan sevibdir. Əziz bəy adlı ki, ondan ötrü biixtiyardır. İstir ona getsin. Oğlan yaxır durmur ki, malsız, pulsuz səni mən nə eyləyəcəyəm. İndi qız çalışır ki, bəlkə Hacı Qafurun malına varis ola, bu səbəbə oğlan onu ala. Bibisi istədi ki, onu Ağa həsən tacirə verə ki, mütəşəxxis və dövlətli adamdır, getmədi. İndi özünə vəkil tutub və şahid hazır edib ki, guya Hacı Qafurdan övlad qalmayıbdır və gərək ondan qalan altmış min tümən mənə yetişə. Arvad taifəsi naqisül-əql belə xəyal edir ki, bu hiylə və tədbir ilə Hacı Qafurun dövlətinə sahib ola bilər. Amma xeyr, bica fikrdir, nahaq yerə özünü zəhmətə salır.

H a k i m i - ş ə r. Xub, bu iş çox çəlpəşik və uzun çəkəsi iş deyil. İki saatın içində bu işi qət eləmək olar. Hər iki tərəfdən iddiaları xüsusunda şahid və isbat lazımdır.

A ğ a  M ə r d a n. Bəli, ağa, bu saatda şahidlər hazır olar.

A ğ a  S ə t t a r (*Hakimi-Şərə*). Ağa, dünən ki qulluğunuza iki yetim uşaq gətirdilər ki, bisahibdirlər, buyurdunuz ki, bir dindar allah bəndəsi taparıq, buları tapşırrıq. Mən belə səlah görürəm ki, onları Ağa Mərdana tapşırasınız. Öz övladı kimi mütəvəcceh olar; çünki həmişə həsənata talib adamdır.

H a k i m i - ş ə r. Çox yaxşı, Ağa Mərdan qəbul edirsinizmi?

A ğ a  M ə r d a n. Baş ilə, can ilə, ağa! Övladım kimi mütəvəcceh olaram!

H a k i m i - ş ə r . Pərvərdigari-aləm sənə əcri-xeyir versin!

Bu halda qapı açılır, içəri girir Ağa Səlman, yanında dörd nəfər sərbaz və Əziz bəy və olardan sonra daxil olur Ağa Abbas, Hacı Qafur arvadı Zeynəb xanım və dörd nəfər şahid. Zeynəb xanım bir tərəfdə çadirşəbə bürünüb oturur. Ağa Səlman, Əziz bəy, Ağa Abbas da bir tərəfdə dururlar.

H a k i m i - ş ə r . Ağa Səlman, deyirlər Hacı Qafurun övladı qalıbdır. Sənin bu sözün xilafına isbatın varmı?

A ğ a S ə l m a n . Ağa, mənim, şahidlərim var ki, Hacı Qafur öləndə iqrar edib ki, mənim bacım Səkinə xanımdan başqa bir varisim yoxdur,

H a k i m i - ş ə r . Şahidlər ədayi-şəhadət etsinlər.

A ğ a S ə l m a n (*sərbazlara mütəvəcceh olub*). Şəhadətinizi edin!

S ə r b a z i - ə v v ə l . Ağa, mən yoldaşlarım ilə Hacı Qafur öləndən bir gün irəli onu yoluxmağa gəldik və soruşduq ki, oğlundan uşaqdan nəyin var? Dedi ki, bir bacım Səkinə xanımdan başqa bir kəsim dünyada yoxdur.

H a k i m i - ş ə r . De ki, əşhədü-billah belə eşitdim!

S ə r b a z . Əşhədü-billah belə eşitdim.

Ağa Mərdanın rəngi qaçır və təəccüb edir. Habelə Ağa Səlmanın.

H a k i m i - ş ə r (*o biri sərbazlara mütəvəcceh olur*). Siz necə eşitdiniz bir-bir deyin!

İ k i n c i s ə r b a z . Əşhədü-billah, mən də belə eşitdim.

Ü ç ü n c ü s ə r b a z . Əşhədü-billah, mən də belə eşitdim.

D ö r d ü m c ü s ə r b a z . Əşhədü-billah, mən də belə eşitdim.

A ğ a M ə r d a n (*kəmali-diltəngliklə*). Bəs o vaxta onun arvadının qucağında balaca uşaq görmədiniz?

Ə v v ə l i m c i s ə r b a z . Xeyr, balaca uşaq özgə yerdə görmüşük. İstirsən onu da deyək.

A ğ a M ə r d a n . Yaxşı sakit olun (*hakimi-şərə mütəvəcceh olub*). Ağa, mənim şahidlərim var ki, bu sərbazlar deyən gündə Hacı Qafurun qucağında bir aylıq oğlunu görüblər və soruşublar ki, bu kimdir? Deyibdir ki, mənim oğlumdur. Şahidlər budur, hazırda durublar. (*İşarə edir öz şahidlərinə*). Hər birisi sahibi-savad, mötəbər və dindar adamdır.

A ğ a S ə t t a r (*təvəccehi-tamam ilə*). Ağa Mərdan, zahirən bu cavan Hacı Şərifin oğludur?

Ağa Mərdan. Bəli.

Ağa Səttar. Bəli, elə kişidən şəksiz saleh övlad qalacaqdır. Hacı Şərif çox saleh kimsənə idi.

Hakimi-şər (*şahidlərə üzün tutub*). Bildiyinizi deyin!

Əvvəlimci şahid Həpo. Bildiyimizi deyək ?

Hakimi-şər. Bəli.

Həpo. Ağa, dünən Ağa Mərdan məni yoldaşlarım ilə evinə çağırıb hər birimizə on beş tümən pul verdi ki, bu gün gəlib sizin hüzurunuzda deyək ki, vəba vaxtı biz Hacı Qafurun qucağında bir aylıq oğlunu görmüşük. Qumarbaz baba idim. Aldım, apardım; çünki nahaq işdən ötrü verilmişdi, bərəkəti də olmadı. Bu gecə on beş tümənin hamısını bir yerdən uduzdum. Bir yaman hərifə rast gəlmişdim ki, Leylac[8] onun əlinə su tökməyə yaramaz idi. Bundan başqa mən bir zad bilmirəm Ağa, nə Hacı Qafuru görmüşəm və nə onu tanıram.

Ağa Mərdanın lap boğazı quruyur.

Hakimi-şər (*o biri şahidlərə üz tutub*). Siz nə deyirsiniz?

O biri şahidlər (*bir yerdə*). Bəli, biz də elə bunu deyirik, necə ki, yoldaşımız təqrir edir.

Hakimi-şər (*haşiyənişinlərə*). Siz məni inandırdınız ki, Ağa Mərdan dindar adamdır. Bu dəlalət edir sizin nadürüstlüyünüzə.

Ağa Bəşir. Xeyr, ağa, dəlalət edir bizim saf və sadiqliyimizə ki, ona inanıb təqriratına görə onu dindar hesab edirdik.

Ağa Rəhim (*yoldaşı Ağa Səttara ahəstə*). Yalançının evinə od düşsün! Nadürüst Ağa Bəşir gör nə səbəb tapdı üzrxahlığa! Ağa da güman edəcək ki, biz vaqiən saf və sadiq imişik.

Bu halda şahzadənin fərraşbaşısı içəri daxil olur.

Fərraşbaşı (*hakimi-şərə*). Ağa, şahzadə soruşur ki, Hacı Qafurun bacısının varisliyi sizin yanınızda sabit oldumu?

Hakimi-şər. Bəli, sabitdir. Amma şahzadə bilirmi nə günə bu sübut hasil oldu?

Fərraşbaşı. Bəli, Hacı Rəcəbəli, Ağa Mərdan və Ağa Səlmanın niyyətini duyub şahzadəyə bildirmişdi və şahzadə onların əməllərinin bütlanına lazımeyi-tədbir görsətdi. İndi bu iki nəfərin təqsiri sübuta yetişibdir və mənə fərmayiş olunubdur ki, onları bu saatda şahzadə hüzuruna aparam.

H a k i m i - ş ə r . Ağa Səlman da bu işdə hiylə edirmiş?

F ə r r a ş b a ş ı . Bəli, batində o da Ağa Mərdanın şəriki imiş.

Ağa Mərdanı və Ağa Səlmanı götürüb gedir.

H a k i m i - ş ə r . Əziz bəy, Hacı Qafurun bacısının adamı indi sənsən. Onu xəbərdar elə ki, iki saatdan sonra Hacı Qafurdan qalan məbləği mən özüm gətirib neçə nəfər şahidi-mötəbərin hüzürunda ona təslim edərəm.

Ə z i z b ə y . Bəli, baş üstə, ağa, mürəxxəs olum. (*Məclisdən çıxır*).

A ğ a B ə ş i r . Bah, balan ölsün kişi! Belə də yalan odurdu ki, bu qayırmışdı? Pərvərdigara, dünyada necə bidin adamlar yaradıbsan! Kişi yalandan elə istirmiş Hacı Qafura oğul sabit edə. A kişi, belə də cürət olarmı? Ağa Cabbar, sən mən axmağa de ki, bu mərtəbədə saf və sadiqlik olarmı ki, elə hər zada inanırsan?

A ğ a C a b b a r (*üzün kənara tutub*). Yalançının evi yıxılsın! Sən saf və sadiqsən! (*Qaim sövt ilə*). A kişi, durun gedək, ağaya çox zəhmət oldu. Dəxi çox danışmaq nə fayda verər?

Əvvəl hakimi-şər mütəfəkkir ayağa durub gedir. Sonra hamı ayağa durub gedirlər. Məclis tamam olur.

*Pərdə salınır*

**Tamam olur**

# Povest

# ALDANMIŞ KƏVAKİB

## (HEKAYƏTİ-YUSİF ŞAH)

Səfəviyyənin Əvaili-səltənətində[1] Qəzvin paytəxt idi. Hadisati-mütənəbbiənin vüquundan sonra Məhəmməd şah Səfəvi[2] səltənəti öz oğlu Şah Abbasi-əvvələ[3] təslim etdi. Şah Abbasın cülusundan altı il keçib, yeddimci il başlanmışdı ki, aşağıda zikr olunan qəziyyə vaqe oldu.

Baharın əvvəli idi; novruzdan üç gün keçmişdi; Şah Abbas günortadan üç saat keçmiş qəsrdə öz məhbubəsi Səlma xatun ilə oturub söhbətə məşğul idi ki, xacəbaşı xacə Mübarək içəri girib, kürnuş edib ərz elədi ki:

– Münəccimbaşı – Mirzə Sədrəddin qibleyi-aləmin ziyarətinə müşərrəf olmaq istəyir, bir vacibi işdən ötrü.

Şah Səlma xatuna işarə etdi ki, hərəmxanaya getsin və xacəyə buyurdu ki:

– Mirzə Sədrəddini çağır gəlsin!

Münəccimbaşı şahın hüzuruna daxil olub kürnuşdan sonra əl-əl üstə qabaqda durub, dua və səna etdi.

Şah soruşdu ki:

– Mirzə nə var?

Münəccimbaşı ərz elədi ki:

– Qibleyi-aləm sağ olsun, bu övqat kəvakibin seyrindən belə məlum olur ki, novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə iqtiranı vaqe olacaq və bu qirani nəhseynin təsiri budur ki, məşri-zəmində və bittərcih mülki-İranda sahibi-səltənətin vücuduna sədəmei-üzma yetişəcəkdir. Buna binaən mən ki, asitaneyi-səniyyənin müxlis və can-sipar bəndəsiyəm, özümə vacib bildim ki, bu keyfiyyəti piş-əzhadisə qibleyi-aləmə məruz edim.

Şah bu vaxt çox cavan idi. Ömründən ancaq iyirmi iki il keçmişdi.[4] Məlumdur ki, bu sinndə həyat necə şirin və əzizdir. Xüsusən ki, dərəceyi-ülyada və təxti-səltənətin üstündə! Bu səbəbə münəccimbaşının xəbəri şahi-cavanı qayətdə dəhşəti-üzmaya saldı. Haman saat rəngi qaçıb, guya ki, bihuş oldu. Bir dəqiqədən sonra başın qaldırıb Mirzə Sədrəddinə buyurdu ki:

– Xub, mürəxxəssən, get!

Münəccimbaşı kürnuş edib qayıtdı. Şah yalqız qəsrdə yarım saat fikrə piçidə olub, sonra xacə Mübarəki avaz etdi. Xacə hüzura daxil olduqda buyurdu ki:

– Fərraş göndər, bu saatda vəzir Mirzə Möhsünü və sərdar Zaman xanı və müstövfi Mirzə Yəhyanı və mollabaşı Axund Səmədi mənim hüzuruma çağırsın!

Xacə çıxıb bir az vaxtdan sonra ehraz olunan əşxas gəldilər və lazimeyi-təzim əmələ gətirib müntəziri-fərmayiş oldular. Şah buyurdu ki:

– Sizi bir əmrdən ötrü məsləhətə çağırmışam, gərək haman xüsusda bir tədbir göstərəsiniz. Çünki bu məclisi-xasdır, ona binaən mənim tərəfimdən icazət olunur ki, oturasınız.

Əşxas fərmayişi əmələ gətirdilər. Şah münəccimbaşının xəbərini ilqa etdikdən sonra buyurdu ki:

– Aya sizin rəyinizə görə mən nə qismi tədbir ilə bu hadisəni öz vücudumdan dəf edə bilərəm?

Həzərat cümləsi heyran qaldılar. Bir dəqiqə sükutdan sonra vəzir Mirzə Möhsün başladı danışmağa:

– Bu bəndeyi-kəminənin ixlası dövləti-əliyyəyə nisbət bədihiyyatdandır. Əlbəttə, qibleyi-aləmin xatirindədir ki, pədəri-büzurgüvarlarının əyyami-səltənətində bir para naqisüləql kimsənələrin vəzarətə mübaşirəti olmaq səbəbilə xəzineyi-amirə nə mərtəbədə nüquddan xali olmuşdu[5]. Bu keyfiyyətə hali olduqda mən tədbirinə iqdam etdim və qərar qoydum ki, çakərani-dərgahdan hər kimsə ki, bir şüğlə və ya bir vilayətin hökümətinə mənsub olsa, fəraxuri-halına görə bir məbləğ berəsmi-peşkəş xəzinəyə təslim etsin və əlavə hər zaman ki, qibleyi-aləm bir əmirin kaşanəsini təşrifi-qüdumu ilə mübarək etsə, sahibi-kaşana əqmişeyi-nəfisə payəndaz və bir miqdar pul peşkəş eləsin. Bu növ tədbirin vasitəsilə indi ki, qibleyi-aləmin cülusunun yeddimci ilidir, xəzineyi-amirə əlhəmdü lillahi-vəlminnə, nüqudivafirədən malamaldır. Ümuri-vəzarətin pişrəftində bəndeyi-kəminə tərəfindən bitəcrübəlik qeyri-mütəsəvvirdir, amma kəvakibin müğabilində tədbir göstərməyə əlhəq acizəm.

Bundan sonra sərdar Zaman xan şüru elədi:

– Bu çakəri-xalis, saqqalımın tükünü dövləti-əliyənin xədəmatında ixlas və hünər ilə ağartmışam. Məsələn, on il bundan əqdəm ki, taifeyi-Osmaniyyə Bəkir paşa Dəmirçioğlunun sərəskərliyi ilə yetmiş

min nəfərə qərib xaki-İranə hücum gətirməyə müsəmməm olmuşdular: qibleyi-aləmin pedəri-büzurgüvarı İran qoşununun sərdarlığını mənə vagüzar etdi. Əgərçi bizim qoşunumuz da hesab və ədəddə taifeyi-Osmaniyyədən kəm deyildi, nəhayət, mənim heyfim gəldi ki, firqeyi-naciyyənin qoşunun küruhi-zallənin müqabilində tələfə verdirim. Ona binaən əmr etdim ki, Osmaniyyə sərhəddindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin ziraətini xarab etsinlər və çarpalarını qovub gətirsinlər. Körpüləri dağıtsınlar və yolları pozsunlar. Vəqta ki, Bəkir paşa sərhəddimizə daxil oldu, əgərçi müqabilində bizim qoşundan bir nəfər görmədi, amma yollar bir mərtəbədə xərab olunmuşdur ki, əsla özü ilə topxana gətirməyə qadir olmuyub, ancaq atlı və piyadəsilə ənvai-zəhmətdə Təbrizə varid oldu və hər tərəfə dəstə göndərib zaxirə təhsilinə iqdam etdi. Əlinə bir həbbə və bir öküz və qoyun düşmədi. Naçar üç gündən sonra üftan və xizan ac və əfsürdə Təbrizdən kusi-rehlət döyüb qaçdı.

Bu tədbir ilə mülki-İran taifeyi-biganənin hücumundan məhfuz qaldı. Yolları pozmaq və körpüləri yıxmaq bir mərtəbədə tədbiri-müfid göründü ki, dövləti əliyyə Bəkir paşa qaçandan sonra dəxi belə səlah gördü ki, onları həmişə bu qərarda baqi qoysun, dübarə taifeyi-biganənin hücum gətirmək ehtiyatı ilə. Bu təriq ilə dövləti-əliyyənin qoşunundan bir nəfərinin dəxi burnu qanamayıb, əsakiri-mənsurənin cümləsi həmsayə düşmənlərin vəhşəti üçün salim qaldı.

Belə işlər xüsusunda asitaneyi-əliyyənin qoca iti tədbir göstərməkdən aciz deyil! Amma kəvakib ilə müxalifət etməkdə əqlim hər bir əlacdan qasir görünür...

Şahın vəhşəti qayətdə ziyadələnməyə başladı. Sonra müstövfi Mirzə Yəhya təkəllümə gəldi:

– Bu bəndeyi-həqir vəzirin əqrəbi və dəst-pərvərdəsi olduğum səbəbə və onun vücudu vasitəsilə bu mənsəbə yetişdiyimə görə, ixlas və sədaqət göstərməkdə bilkülliyyə onun niyyəti-həsənəsinə və qaydasına peyrəvilik etmişəm. Müşəxxəsdir ki, qoşunun və əvasiti-sahib-mənsəbanın məvacibi qibleyi-aləmin fərmanı mucibincə və mənim imzam ilə vilayətlərin mədaxilindən həvalət olunur. Çünki xəzinəyi-amirədə nüquddan nöqsan görsənmişdi, necə ki, vəzir zikr elədi, ona binaən mən bu cəhətdən qayətdə diləfsürdə idim. Əgərçi mən fəramini-məvacibi imza edib vilayətlərə həvalə etmişəm ki, məvaciblərin qəti ilə dövləti-əliyyə xalqın nəzərində bietibar görünməsin; amma

məxfi hər bir vilayət hakiminə piş əz-vəqt məktub göndərmişəm ki, mənim tərəfimdən cüdaganə nəviştə olmamış məhz fərman mucibilə məvacib icra etməkdən etiraz etsinlər. Həmin tədbir səbəbilə xəzineyi-amirənin mədaxili çox təzayüd behəm edibdir və qoşun xalqı və sahibmənsəblər əgərçi bivüsuli-məvacib qalıblar, amma sülh və asayiş zamanı olmaq səbəbilə və İranın kəmali ucuzluğuna görə, məvacibə ziyadə möhtac olmayıblar.

Belə işlər xüsusunda mənim zehni-dəqiqim-yədi-beyza göstərir; lakin kəvakibin təsirini rədd etmək üçün, doğrusu, heç bir çarəyə əqlim çatmır...

Növbət yetişdi mollabaşıya; təqrir elədi;

– Cənab əqdəsi-ilahi qibleyi-aləmin vücudi-mübarəkini əimmeyi-əthar hörmətinə cəmin-afati səmavidən və ərzindən məhfuz etsin! Bu daiyi-dəvami-dövləti-qahirənin ixlas və sədaqəti, silsileyi-cəlileyi-Səfəviyyəyə nisbət tövsifdən xaricdir.

Qibleyi-aləmin pedəri-büzürgüvarları zamanında mənsəbi-mollabaşılığa sərəfraz olduğumda nisfi-İran, hətta payitəxtin yarısı dəxi sünni məzhəb idi. Əvvələn, məvaizi-həsənə və saniyən, təxvifati-kəsirə səbəbilə tamam sünni məzhəbləri rahi-rasti-məzhəbi-isna əşəriyyəyə hidayət etmişəm.

İndi Allahın kərəmindən səfheyi-İranda beş-altı nəfərdən ziyadə sünni tapılmaz. Bu xüsusda İran xalqından dəxi kəmali-rizaməndliyim var ki, bəmücərrədi-təklif qədimi ata və babalarının məzhəblərindən əl çəkib hidayətə rağib oldular.

Hətta mən istədim ki, cühudlara və ermənilərə dəxi əl qatıb oları da şiə məzhəbinə döndərim, amma bir para xeyrəndiş kimsənələr məsləhət görmədilər ki, lüzumi yoxdur. Çünki hər torpaqda cühuddan və ermənidən bir az var, bizim torpağımızda dəxi bir az olmaqları məsləhətdir.

Əlavə, müşəxxəsdir ki, əimmeyi-əthارın-əhadisi-sərihəsi mucibincə islam mülkündə təxtə və taca malik olan kimsənə zati-şərif və vacibüttaət məhsub olunmaz. Zira ki, bu dərəceyi-aliyə imama və ya onun naibi müctəhidi-ələmə mütəəlləqdir. Ona binaən mən cəmi xütəbaya hökm yazdım ki, tamam vilayətlərin mənabirində xalqa elam etsinlər ki, haman əhadisin silsileyi-Səfəviyəyə şümulu yoxdur. Zira ki, xanədani-nübüvvətdən və dudimani-imamətdən zühur ediblər və vazehdir ki, əimmə haman əhadisi qeyrilərinin haqqında buyurmuşlar, nə öz övladlarının.

Bu övqat ki, qibleyi-aləmin vücudu təsiri-kəvakibdən məhəlli-xətərdədir, mənim ürəyim qüssədən, tabadakı balıq kimi büryan olur və qasir əqlimə belə yetişir ki, o məlun münəccimbaşının özü bu işin çarəsini bizdən artıq bilir. O, qibleyi-aləmə xəyanət edibdir ki, kəvakibin təsirini bildirib, dəf inin əlacını izhar etməyibdir, əlbəttə, bir xəbis fikrə görə necə ola bilər ki, zəhri göstərə, nadzəhri göstərməkdən özünü kənara çəkə?

Peyğəmbər sələvatüllahi-əleyh buyurubdur ki: "küllü münəccimin kəzzab!"* Bu hədsi mən onların və əhvalına isnad edirəm, nə elmlərinə. Çünki o məlunların əxbarı əksər övqat nəticə bağışlayır, amma özləri yalançı və bədzatdırlar!

Qibleyi-aləm onun özünü çağırsın, bu hadisənin dəfi üçün onun özündən əlac istəsin. Əgər üzr gətirsə, boynunu vurdursun.

Mollabaşının münəccimbaşı ilə ədavəti-sabiqəsi var idi. Bu keyfiyyət onun üçün çox yaxşı vəsilə göründü ki, onun və sair münəccimlərin guri-pedərini yandırsın.

Əlhəq, münəccimbaşı dəxi görünür ki, çox əhməq imiş. Nə lazım olmuşdu ki, belə vəhşətli xəbəri şaha verib bu qalmaqala səbəb ola və özün dəxi həlakətə sala?..

Münəccimbaşıya əvaxirdə bu bəhsi varid edirdilər, cavab verirdi ki:

– Mən qorxdum ki, əgər bu xəbəri şaha əqdəm yetirməsəm, özgə münəccimlər onu yetirərlər; mən şahın nəzərində xəri-nadan qələminə gedərəm, mənsəbdən məzul ollam.

Behər surət, şahın münəccimbaşıdan haman namübarək xəbərə görə zəhləsi getmişdi. Mollabaşının təhriki olmamış da bu halda kəmali-qeyz ona üz verib, xacə Mübarəki qaim sövt ilə səda etdi. Xacə hazır olduqda, buyurdu ki:

– Bu saat fərraş göndər, münəccimbaşını mənim hüzuruma gətirsin!

Xacə qayıdıb, bir saatdan sonra münəccimbaşı hazır oldu. Şah qəzəblənmiş aslan kimi dizi üstə çöküb xitab etdi:

– Pedərsüxtə, kəvakibin afətindən məni qorxudarsan və əlacını gizlərsən?! Cəllad!

Türfətül-eyndə cəlladi-mühib belində xəncər, əlində tənab içəri girdi. Biçarə münəccimbaşının ərvahı uçub başladı yarpaq kimi titrəməyə. Şah cəllada buyurdu ki:

– Apar bu səgin bu saatda boynunu vur!

---

* Münəccimlərin hamısı yalançıdır.

Sərdar Zaman xan əgərçi əhli-şəmşir idi, amma çox rəqiqülqəlb adam idi, münəccimbaşının halına tərəhhüm edib ayağa durdu, ərz eldəi ki:

– Təsaddüqün olum, bu sakin boynu vurulandan sonra hadisənin dəfi üçün kimdən əlac soruşacağıq? Bu bəndeyi-zəlil, istida edirəm ki, mənim saqqalımın ağ tükləri hörmətinə onun qətlindən güzəşt edib, hadisənin əlacı xüsusunda ondan tədbir soruşasınız. Əgər müvafiqi-xahiş cavab verməsə, o vaxt müqəssir və müstövcibül-qətldir.

Şah cəllada buyurdu ki:

– Onu qoy get!

Sonra münəccimbaşıya rücu edib dedi ki:

– Məlun, bu saatda hadisənin dəfinə əlac göstər!

Biçarə münəccimbaşı yaman halda idi. Hadisənin dəfinə heç bir əlac bilməyirdi. Amma ölüm qorxusundan izharına iqdam edə bilmədi; ərz elədi ki:

– Təsəddüqün olum, hadisənin əlacı mümkündür. Mənə bir saat möhlət verin, gedim "Zici-Uluğ bəy"ə mülahizə edim, qayıdım ərz eləyim.

"Zici-uluğ bəy"də hərgiz bu növ hadisələrin dəfi üçün bir şey mərqum deyil, amma münəccimbaşı istədi ki, bu bəhanə ilə özünü ustadı mövlana Cəmaləddinin yanına salsın və ondan məşvərət soruşsun; çünki onu nücum elmində özündən artıq təcrübəli bilirdi.

Şah rüxsət verdi. Münəccimbaşı çıxmamış xacə Mübarək içəri girib ərz elədi ki:

– Mövlana Cəmaləddin hüzuri-mübarəkə müşərrəf olmaq istəyir.

Şah buyurdu:

– Çağır gəlsin!

Münəccimbaşıya dedi ki:

– Bir az hüzurda qall!

Mövlana otağa daxil olub şaha lazimeyi-sitayiş əmələ gətirdi. Şahın işarəsilə oturub ərz elədi ki:

– Qibleyi-aləm sağ olsun, əgərçi bu bəndə pirlik səbəbilə dərxanədən kənar olub guşəgirlik ixtiyar etmişəm, lakin bu övqat, yəni novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə iqtiran etmələrindən qibleyi-aləmin zati-mübarəkinə ehtimali-sədəmeyi-üzma olduğu üçün vacibatdan bildim ki, hüzuri-pürnura şərəfyab olub, piş-əz-vəqt hadisəni elam edib, dəfinə tədbir göstərim. Bu xatirə ki, məbada bu keyfiyyət cavan münəccimlərin bəsirətindən məxfi qala!

Şah nəhayətdə xoşhal olub buyurdu ki:

– Mövlana, biz elə o xüsusda göftgu edirdik. Hadisə məlumdur. Tədbirini izhar edin.

Mövlana ərz elədi ki:

– Qibleyi-aləm bu əyyami-nühusətdə, yəni novruzdan on beş gün keçənədək gərək özünü səltənətdən xəl edə və təxtü-tacı təslim eyliyə bir mücrim və vacibülqətl kimsənəyə və özü xəlqin nəzərindən napədid ola. O surətdə kəvakibin təsiri haman mücrimin başında çatlayacaq; çünki o vaxt İran padşahı odur.

Elə ki, hadisə vaqe olur və o mücrim ki, sahibi-təxtü tacdır, həlakətə yetişir, o zaman qibleyi-aləm ixtifadan çıxıb genə təxtü-taca malik olur və kəmali-iqbal və afiyətdə səltənət edər.

Amma gərək xəlqdən bir kimsənə bu tədbiri bilmiyə və zənn etmiyə ki, qibleyi-aləm ariyətən təxtü-tacdan əl çəkir: ta ki, haman mücrimi ki, təxtə çıxacaqdır, müstəqillən padşah bilələr və gərək hərəmxanə xatunlarının da təlağı verilib kəbin kağızları yırtılva. Sonra olara təklif oluna ki, Abbas Məhəmməd oğluna ki, dəxi padişah deyil və bir fərddir, əfradinasdan dübarə mənkuhə olub fəqr və qənaətə razı olurlarmı? Hər birisi ki, razı olsa, ona dübarə Abbas Məhəmməd oğluna nikah oxuna və kəbin kağızı yazıla və hər biri ki, razı olmasa, haman saat buraxıla...

Münəccimbaşı məhləkədən qurtardı. Şahın bəşərəsindən bilkülliyyə qorxu əsəri rəf oldu. Rəngi ağarımş ikən qırmızılığa təbdil tapdı.

Əfradi-məclisdən mövlananın əql və kəmalına afərin sədası səqfə bülənd oldu. Şah bəşaşət ilə mollabaşıya mütəvəcceh olub sual etdi ki:

– Əhkami-şərə mutabiq bir qayətdə mücrim və vacibülqətl kimsənə nəzərdə varmı ki, səltənəti və təxtü-tacı ona vagüzar edək?

Mollabaşı cavab verdi ki:

– Pərvərdigari-aləm qibleyi-aləmə ömri-təbii kəramət etsin. Bu şəhri-Qəzvində bir nəfər nabəkar peyda olubdur ki, cəmi-ruyi-zəmində ondan mücrimtər və qətlə müstəhəq bir kimsənə tapılmaz; adına Yusif Sərrac deyirlər. Məlum deyil ki, harada tərbiyət tapıbdır. Ancaq bu övqat şəhri-Qəzvində sakin olduğu üçün əcamir və övbaşdan özünə mürid cəm edib, həmişə üləmayi-giramın və xüddami-şəriəti-qərranın zərbinə və zəmminə zəbangüşadır.

Bu məlun həmişə öz müridlərinə sərahətən zikr edir ki, guya üləmayi-giram əvamə firib verirlər. Məsələn, onun əqidəsilə, guya

ictihad lazım deyil və xüms və imam malı vermək xilafdır və guya üləma fövt olan müctəhidin rəyində qalmağı o cəhətdən əvama caiz görmürlər ki, özlərinin bazarı rəvac olsun. Və bundan əlavə, dövləti-əliyyəyə dəxi bəhslər varid edir, deyir ki, kətxudadan tutmuş padşahadək küll ərbabi-mənasib əhli-zələmə və qüttaüttəriqdirlər, mülk və millətə hərgiz bulardan bir mənfəət aid deyil, həmişə öz həvai-nəfsləri ilə biçarə xalqı cərimə və müaxizə və müaqəb edirlər, öz rəftarlarında heç bir qanun və qaydaya mütəməssik deyillər, bu gunə rəftar ancaq əhli-zülmün və qüttaüttəriqlərin əməlidir. Və dəxi zikr edirlər ki, məzhəbi-tənasüxə qaildir.

Bu daiyi-dəvami-dövləti-qahirə belə səlah görürəm ki, qibleyi-aləm səltənəti və təxtü-tacı bu məluna təslim etsin ki, kəvakibin təsirindən öz cəzasına yetişib dərəki-əsfələ vasil olsun.

Əfradi-məclis küllən bu rəyi təsdiq edib qaim sövt ilə dedilər ki:

– Yusif Sərrac pedərsüxtə bilkülliyə qətlə səvar və bəlayi-asimaniyə müstəhəqdir.

Şah xoşhal olub buyurdu ki:

– Razıyam onun həlakına! Sabah bu tədbir tamam və kamal mücra olunacaqdır.

Əfradi-məclisi mürəxxəs etdi. Məclis dağıldı.

Olur ki, xanəndələr bu güzarişin vüquunda şübhə edib onu kizbə həml edələr; bu surətdə mən olardan təvəqqə edirəm ki, "Tarixi-Aləm-Ara"da Şah Abbasın cülusunun yeddinci ilində sadir olan vəqayiə mülahizə etsinlər.

İndi bizə lazımdır ki, Yusif Sərracı tanıdaq ki, kimdir?

Şəxsi-məzkur Qəzvinin qəryələrindən Kərbəlayı Səlim adlı bir dehqanın oğlu idi. Çünki Kərbəlayı, Səlim bir mömin və müttəqi adam idi, istədi ki, oğlu molla olub üləma silkinə daxil olsun. Ona binaən onu uşaq ikən gətirib şəhri-Qəzvində məktəbə qoydu. Bir neçə ildən sonra Yusif Sərrac ki, həddi-büluğa yetişib, asari-rüşd özündə mülahizə elədi, təhsili-elm üçün İsfahana getdi. Oradan dəxi bir neçə ildən sonra Kərbəlaya rəvanə olub, böyük alimlərin məclisində təkmili-ülumə şüru etdi. Müddəti-mədid orada məks edib tamam ülumi-islamiyyəyə vaqif oldu. Çünki üləmanın əksəri-ümurda təqəllübünü müşahidə edirdi, ona binaən bu sinfə nifrət bəhəm edib, istəmədi ki, özünü oların zümrəsinə daxil etsin.

Kərbəladan qayıdıb varid oldu Həmədana; orda usta Xəlilin yanında qırx yaşında ikən sərraclıq sənətini bir il müddətində öyrənib Qəzvinə müraciət etdi. Zira ki, bu şəhər paytaxt olduğu üçün onun sənətinin rəvacı burada artıq görünürdü.

Qəzvinə varid olandan sonra təəhhül ixtiyar edib dükan açdı, öz kəsbi ilə özünü və əyalını saxlamağa məşğul oldu.

Çünki bir mərdi-səlimünnəfs və nikukar idi, həmişə üləmanın və ərbabi-mənasibin hərəkəti-naşayistəsi onun xatirinə toxunub, oların zəmmindən və zərbindən dilini saxlamağa qadir ola bilmirdi. Əgərçi bu növ cangüdazlıq ona sadiq və xeyrəndiş dostlar bəhəm etdi, nəhayət, axırda bədbəxtliyinə bais oldu.

Sabahı gün şahın buyruğu ilə günortaya iki saat qalmış tamam əyan və əşraf və ərkani-dövlət və üləma və sadat və cümlə ərbabi-mənasib, kətxudadan tutmuş vüzəraya dək dərbari-şahidə hazır olub, hər kəs öz yerində durub kəmali-sükut və biistehzarlıq ilə şahın hüzuruna müntəzir idilər. Bu halda şah başında tac və əlində cəvahir nişan toppuz, qolunda cəvahir bazubəndlər, belində kəmər və şəmşiri-mürəssə zahir olub dərbar otağında ki, bir arşın yerdən rüfətli və xalqa baxan tərəfi bilmərrə açıq və bihaildi, təxtə çıxıb oturdu və üzün hüzzari-dərbara tutub xitab elədi:

– Camaət, imdi yeddinci sənədir ki, mən cənabi-əqdəsi-ilahinin məşiyyəti ilə sizə padişaham və bəqədri-imkan sizin hər birinizə nəvaziş və mərhəmət göstərmişəm və sizdən dəxi çox razı və xoşnudam; çünki Səfəviyyə ocağına olan iradət səbəbi ilə həmişə mənə ixsal və sədaqət göstəribsiniz.

İndi bir para səbəblərə görə ki, kəşfini mən sizə lazım görmürəm, mən məcburam ki, səltənətdən əl çəkib təxtü-tacı bir kimsənəyə vagüzar edim ki, bu rütbəyə məndən əlhəq və şayistədir. Haman şəxsi mollabaşı və sərdar Zaman xan və vəzir və müstövfi və mövlana Cəmaləddin və münəccimbaşı sizə göstərcəklər. Gərək küllən gedib kəmali-şükuh və təntənə ilə onu gətirib, bu təxtin üstündə oturdub, müstəqillən özünüzə padişah biləsiniz. Vay o kimsənin halına ki, mənim fərmayişimdən təxəllüf edib, o şəxsin itaətində qüsur göstərə!

Şah bu sözləri tamam edib, tacı başından götürüb təxtin üstünə qoydu və tamam libasi-faxirini soyunub, şəmşir və kəmərini açıb, bir mündəris libas əyninə geydi və xalqa mütəvvəcceh olub dedi ki:

– İndi mən əfradi-nasdən bir mərdi-fəqirəm: Abbas Məhəmməd oğlu. Dəxi məni axtarmayın ki, görə bilməzsiniz! Xudahafiz! – deyib, təxtdən düşüb hərəmxanaya rəvanqə oldu.

Hüzzari-məclis heyran qaldılar. Bilmədilər ki, bu keyfiyyəti nəyə həml etsinlər...

Hərəmxanədə cümlə hərəmlər şahın fərmayişi ilə bir otağa hazır olub qüdumuna müntəzir idilər. Şah mündəris libasda haman otağa daxil oldu. Xubani-hərəm onu bu heyətdə görəndə az qaldılar qəhqəhə etsinlər, amma şahın mühib baxışı və qaşqabağı olara bu hərəkətdən mane oldu. Şah haman saat xacə Mübarəkə buyurdu ki:

– Molla Rəsulu özünün iki yoldaşı ilə hüzura gətir!

Mollalar dişqarıda piş-əz-vəqt hazır olmuşdular. Hüzura daxil olduqda şah oturmağı işarə etdi. Sonra üzün hərəmlərə tutub xitab elədi;

– Mənim əziz həmfiraşlarım! Mən kəmali-əfsus ilə məcburam ki, bir yaman xəbər sizə elam edim. Sizə məlum olsun ki, indi mən dəxi İranın padişahı deyiləm, dəxi mənim imarətim və dövlətim yoxdur ki, sizi zinət və zivərdə və alişan otaqlarda saxlıyam. Mən əfradi-nasdan bir fəqir və biçiz kimsənəyəm. Ona binaən labüddəm ki, sizin təlağınızı verib cümlənizi azad edim ki, hər kəsə meyliniz olsa, onu ixtiyar edəsiniz.

Sonra üzün Molla Rəsula tutub buyurdu ki:

– Buların siğeyi-təlaqlarını cari eylə!

Molla Rəsul hamısının təlağını yanındakı ədleyn hüzurunda oxudu.

Xubani-hərəm gördülər ki, bir qəribə iş üz verdi, çox xövfə və iztiraba düşdülər, heç keyfiyyətdən hali olmadıqları üçün bilmədilər ki, bu necə qəziyyədir. Cümləsi heyran qaldı...

Təlaq tamam olduqda şahın buyruğu ilə oların kəbin kağızlarını xacə Mübarək yırtdı. Şah dübarə xubani-hərəmə mütəvəcceh olub dedi ki:

– Əgər sizdən hər biriniz fəqrə və qənaətə razı olub, məni, yəni Abbas Məhəmməd oğlunu ərliyə qəbul edirsə, təzədən bu ibarət ilə ona siğeyi-nikah oxutdurram.

Hərəmlərin küllisi təzədən razı oldular ki, şaha mənkuhə olsunlar; çünki şah çox cavan və göyçək oğlan idi və bir də hərəmlər bu əmri zarafat kimi bir şey qiyas edirdilər və hərgiz əqillərinə çatmırdı ki, Şah Abbas qəflətən bir Abbas Məhəmməd oğlu ola. Amma oların cümlə-

sindən iki nəfər dilbəri-xubru ki, xilafi-rizaları ilə şahın hərəmxanəsinə düşmüşdülər, qayət şərm ilə və ahəstə səslə ərz etdilər ki:

– Biz padişaha mənkuhə olmuşduq və öz bəxtimizdən və dərəcəmizdən çox xoşnud idik; bu bəxtəvərlikdən mərhum olduq, Abbas Məhəmməd oğluna ərə getməyi qəbul etmirik.

Haman saat bu iki nəfər mürəxxəs olundu.Oların birisi gürcü qızı idi ki, Gürcüstan valisi şaha peşkəş göndərmişdi; haman günün sabahısı öz əmisi oğlu ilə tamam cəvahiratın və məlbusatın götürüb, ziyadə pul ilə vətəninə müraciət etdi.

Gürcüstanda onun nəqlinə bavər etməyib belə fərz edirdilər ki, guya o qaçıbdır və istəyirdilər ki, onu geri qaytarsınlar. Amma bilmirəm ki, nə əmr vaqe oldu ki, onu unutdular və bu qız bir cavan gürcüyə ərə gedib axır ömrünədək Gürcüstanda qaldı.

O birisi dilbər Qəzvin əhlindən bir tacirin qızı və bir cavan və xoşru oğlana namzəd idi. Xubru olmaq üçün qəflətən şahın dəllallarının çuğulçuluğu ilə atasından mütalibə olunub şahın hərəmxanəsinə daxil olmuşdu; zikr olunan keyfiyyəti öz arzusuna yetişməyə vəsilə bilib atası evinə qayıtdı və namizədinə vasil oldu.

Sair hərəmlərin nikahı mücəddədən Abbas Məhəmməd oğluna oxunub xacə Mübarəkə əmr olundu ki, cümləsini haman saat Qəzvinin altıncı küçəsinin başında müəyyən olunan bir evə piyadə götürüb yetirsin, özü dərbari-şahiyə qayıtsın. Sonra Abbas Məhəmməd oğlu hərəmxanədən çıxıb uzaqlaşdı, napədid oldu.

Yusif Sərracın dükanı şah məscidinin meydanının məşriq səmtində vaqe idi. Günortadan iki saat keçmişdi. Yusif Sərrac fərizeyi-zöhrü əda edib, oturub, əlində bir cilovu tikib tamam edirdi, çünki müştəri tapşırmışdı ki, gərək o gün hazır ola. Yanında dostlarından iki nəfər dəxi var idi ki, onun söhbətinə qulaq asırdılar. Yusif Sərrac bahalıqdan şikayət edirdi ki, biçarə fəqir kəslər haman il çox iztiraba düşmüşdülər; çünki keçən il nəhayətdə quraqlıq olmaq səbəbilə və Qəzvinin ətrafında suyun qilləti cəhətilə əksəri-məhsulat yanıb əmələ gəlməmişdi. Bu keyfiyyət bahalığa bais olmuşdu. Yusif Sərrac deyirdi:

– Təəccüb edirəm bu dövlətdən ki, Qəzvinə su çıxarmaq üçün həzar günə istitaət qüdrəti var, amma belə qəflətdədir ki, əsla bu əmrə mültəfit olmayıb öz rəayasının halına və paytəxtinin rövnəqinə təvəccöh etmir.

Bu halda meydanın məğrib səmtindən bulud kimi toz qalxdı. Yusif Sərrac iynəsi əlində başın yuxarı qovzadı, gördü ki, bir əsas peyda oldu və əsla xəyalından keçirmədi ki bu əsas və tədarük onun üçündür.

Qabaqda on iki şatır qıvraq geyinmiş, çəharguşə börk başlarında, onların dalısınca on iki ələmdar əlvan ələmlər əllərində, sonra dəsteyi-pişxidmətan ki, birisinin başında bir məcməi var idi. Dəstəyi-fərraş, əllərində ağac, onların əqəbində miraxur yedəyində birturkmən atı; cəvahir nişan yəhər və əzbab üstündə, mürəssə rəxt başında, mirvarid sinəbənd döşündə, zümrüd qotaz boynunda.

Bunlardan sonra mollabaşı və sərdar Zaman xan, vəzir və müstövfü və mövlana Cəmaləddin və münəccimbaşı, üləmayi-giram və sadati-üzam və sair əyan və əşraf və ərbabi-mənasib və bir dəstə piyada və bir dəstə atlı kəmali-şükuh və aram ilə gəlirdilər.

Elə ki Yusif Sərracın dükanına bərabər oldular, hamısı dayandı. Mollabaşı və sərdar irəli durub, Yusif Sərraca kürnuş etdilər. Yusif Sərrac ayağa durub təvazö elədi, amma qayət təəccübdə. Sonra Mollabaşı təkəllümə gəlib dedi:

– Qəzanın təqdirindən, usta Yusif, bu gün sən bizim padişahımızsan. İranın səltənət təxti bu halda Şah Abbasın vücudundan xalidir. Bizləri sərəfraz və xoşbəxt eləyin, dərbari-şahiyə təşriffərma olun ki, cülusi-hümayun vaqe olsun.

Yusif Sərrac kəmali-təhəyyürə düşüb heç bilmədi ki, bu nə vaqiədir. Onun qabağında tamam ərkani-dövlət durmuşdular. Bu sözləri ona Mollabaşı deyirdi ki, İranda bir mətin kimsənə hesab olunurdu. Amma keyfiyyət bir mərtəbədə qərib idi ki, Yusif Sərrac onu doğru olmağına, bavücudi ki, gözü ilə görürdü, hərgiz etibar edə bilmirdi. Aqibət məqami-cəvaba gəlib dedi:

– Mənim məxdumum Mollabaşı, mən cənabınızı İranda mətin adamlardan hesab edirəm, bilmirəm ki, aya dəli olubsunuz, ya bəng atıbsınız ki, bu qəbil sözləri mənim üzümə deyirsiniz. Mən bir fəqir sərrac babayam. Mən hara, təxtü-tac hara?

Vallah, mən anlaya bilmirəm ki, sizin bu hərəkətinizi nəyə həml edəm... Mat və heyran qalmışam. Təvəqqei-çakəranə edirəm ki, mənə sataşmayasınız!

Sərdar Zaman xan sözə şüru elədi:

– Usta Yusif, sən bu saatda qibleyi-aləmsən və biz cümləmiz sənin qulun və səgi-asitanən varıq! Sənə çakəranə bizdən təvəqqə etmək münasib deyil, sən xüsrovanə fərmayiş etməyə şayistəsən! Biz nə dəli olmuşuq və nə bəng atmışıq, cümləmiz əqli-səlim və şüurukamildə varıq, amma hərzəti-barinin təqdirinə təbdil yoxdur. Bu gün külli-İran mülkündə sənin səltənətin müsəlləmdir.

Mollabaşının qovluna görə, dərbari-şəhiyə təşrif-fərma olun ki, cülusu-humayun vaqe olsun.

Sonra üzün dörd nəfər hazırda olan pişxidmətlərə tutub dedi ki:

– Xələti-şahanəni gətirin, qibleyi-aləmi geyindirin!

Pişxidmətlər əllərində məcməi ilə ki, içində xələti-şahanə qoyulmuşdu, dükana ayaq basdılar, məcməini yerə qoyub şüru etdilər Yusif Sərracın köhnə paltarını soyundurmağa və xələti-şahanəni ona geydirməyə.

Müxalifət bir yana çatmazdı. Yusif Sərrac məqami-təslimdə durdu ki, üqəla öz xahişlərini əmələ gətirsinlər. Elə ki, libas geyinmək tamam oldu, miraxur mürəssə rəxtli atı qabağa çəkdi. Yusif Sərracı mindirdilər ata, əsas qərari-sabiq üzrə dərbari-şahiyə rəvanə oldu. Fərraşların küçələrdə “Berəvid! Berəvid!” səsi hər dəqiqə ərşə dayandı. Tamam əhli-Qəzvin zükurən və ünasən, səğirən və kəbirən pəncərələrə və damlar üstünə çıxıb nəzzarəyə məşğul oldular və keyfiyyətdən müxbir olmadıqları üçün cümləsi heyrətdə qaldı.

Dərbari-şahinin qapısnda fərraşlar Yusif Sərracı atdan düşürdülər. Mollabaşı və sərdar Zaman xan qolundan yapışıb kəmali-təzim ilə imarətin otağına daxil etdilər və səltənət təxtinin üstündə oturtdular. Ərkani-dövlət, üləma və sadat, əyan və əşraf və ərbabi-mənasib otağın qabağında səf çəkib əl-əl üstə durdular. Mollabaşı dua oxuyub taci-səltənəti qoydu Yusif Sərracın başına, şəmşir və kəməri-mürəssəini bağladı belinə, cəvahir bazubəndləri asdı qollarından, mükəlləl toppuzu verdi əlinə, genə bir dua oxuyub, üzün xəlqə tutub dedi:

– Mübarəkbad edin!

Mübarəkbad sədası xalqdan asimanə bülənd oldu və bargahın imarətlərindən əksi təkrar tapdı. Kərrənayi-şadiyanə başlandı çalınmağa. Bu halda sərayi-şahidən göyə bir fişəng buraxdılar. Bu əlamətə görə, şəhərdən xaric qələ toplarından yüz on tir şənlik topu atdılar.

Əgərçi Sədi və Hafizdən sonra İranda şeir qayətdə tənəzzülə düşüb şüəranın əşarı küllən biməzmun və məhz puç ləffazlıq olmuşdu, amma genə əlhəmdü-lillah o halda bir neçə nəfər sahibi-cövhər şair peyda oldu ki, bədahətən cülusi-hümayun üçün qəsaidi-qərra inşa edib, Yusif şahın təxtə çıxmağını tərif və özünü hikmətdə – Süleymana, səxavətdə – Hatəmə, şücaətdə – Rüstəmə, qüdrətdə – qəza və qədərə təşbeh eləyib nəzərdən keçirdilər və tarixi-cülusunu nüktəsəncani-Qəzvin belə tapdılar:

“Şahi-xuban nəbud Yusifi-ma,
Leyk u şahi-mülki-İran şod”.*

Elə ki, bu əmal tamam oldu, Mollabaşı xalqa elan etdi ki:

– Mürəxxəssiniz!

Hamı dərbari-şahidən çıxdı, ancaq Yusif şah qaldı təxtin üstündə, qabağında xacə Mübarək, başqa bir neçə xacə ilə və Əzim bəy pişxidmətbaşı və bir neçə pişxidmət və otaqdan dişrə fərraşlar.

Yusif şah təhəyyür aləmində fikrə piçidə oldu. Bir neçə dəqiqədən sonra xacə Mübarəkə üzün tutub soruşdu:

– Siz kimsiniz?

Xacə Mübarək cavab verdi ki:

– Bəs sizin çakərani-müxlisiniz; xacəgani-hərəmik, mən buların böyüyü və bular da mənim zirdəstlərimdirlər.

Sonra pişxidmətlərə üzün çevirib soruşdu ki:

– Siz kimsiniz?

Əzim bəy pişxidmətbaşı cavab verdi ki:

– Biz sizin kəminə nökərləriniz, pişxidmətlərik, mən buların rəisiyəm, bular da mənə tabedirlər.

Yusif şah soruşdu ki:

– Bəs o dişqarıda görükənlər kimdir?

Əzim bəy cavab verdi ki:

– Olar da firqeyi-fərraşdır ki, həmişə xidmət üçün kəmərbəstədirlər.

Yusif şah buyurdu ki:

– Siz dəxi çölə çıxın. Xacə Mübarək, sənin zirdəstlərin də çölə çıxsınlar, sən qal!

Elə ki, hamısı qayib oldu, Yuçif şah xacə Mübarəki yanına çağırıb dedi ki:

– Sənin bəşərəndən mən görürəm ki, sən gərək yaxşı adam olasan. Sən allah, mənə söylə görüm ki, bu qəziyyəyə səbəb nədir? Çünki sən həmişə Şah Abbasın əndərununda olubsan, mümkün deyil ki, bu qəziyyə sənə məlum olmasın.

Xacə Mübarək vaqiən çox saf və sadiq adam idi. Fikir etdi ki, qibleyi-aləmin sualında həqiqəti gizlətmək cayiz deyil. Çünki həmişə şah Abbas oturan otağın qapısının dalında dururdu ki, çağırılan saat

---

* Bizim Yusif gözəllərin şahı deyildi,
Amma İran mülkünün şahı oldu.

xidmət üçün hazır olsun, ona binaən, keçən gündə vaqe olan güzarişi və ərkani-məşvərətin göftgusunu tamam eşitmişdi, əhvalatdan xəbərdar idi. Qəziyyəni ibtidadan intihayədək Yusif şaha nəql etdi.

Yusif şah soruşdu ki:

– Bəs Şah Abbas haradadır?

Xacə Mübarək cavab verdi ki:

– Bir gəda libası ilə müləbbas olub napədid oldu. Məlum deyil ki, hardadır.

Yusif şah aqil adam idi. Kəvakibdən onun hərgiz qorxusu yox idi. Ancaq bu növ qeyri-mütəarəf təriq ilə tərəqqi etmək onun ürəyinə bir vəhşət və qorxu salırdı. Nəhayət, bir belə camaatin vücudu ilə səltənətdən özünü kənar tutmağa əsla çarə görmədi. Naçar ümuri-səltənətin icrasına iqdam etdi. İbtida fərraşbaşı Əsəd bəyi ehzar elədi: buyurdu ki:

– Bu saatda on iki fərraş özünlə götürərsən, gedərsən Mollabaşı Axund Səmədi və sərdar Zaman xanı və vəzir Mirzə Möhsünü və müstövfi Mirzə Yəhyanı və münəccimbaşı Sədrəddin və mövlana Cəmaləddini tutarsan, apararsan salarsan Ərkdə olan zindana, qayıdarsan gələrsən, əncami-fərmayişi mənə ərz elərsən!

Əsəd bəy baş vurub rəvanə oldu. Sonra Yusif şah pişxidmətbaşı Əzim bəyi ehzar edib buyurdu ki:

– Tapşır, mənə şam hazır etsinlər ki, bu gün bir zad yeməmişəm.

Pişxidmətbaşı ərz elədi ki:

– Tapşırmışam, aşpazlar şam üçün hazır etməyə məşğuldurlar.

Şah buyurdu ki:

– Bəs sən və xacə Mübarək gəlin otaqları və hərəmxanəni mənə bir-bir göstərin və məlum edin ki, mənim istirahət otağım hansıdır.

Pişxidmətbaşı və xacə Mübarək düşdülər qabağa, bir-bir əndərun otaqlarını göstərməyə şüru etdilər.

Əvvəlinci otaqda əlvan fərşlər döşənib, qəribə gül və giyah ilə və quş şəkilləri ilə divarfı və səqfi münəqqəş olmuşdu.

İkinci otaq da habelə fərşlə döşənmişdi və divarlarında Səfəviyyə nəslindən vəfat edən padşahların və namdar şahzadələrin təsviri çəkilmişdi. Üçüncü otağın divarlarında İranın sair silsilədən olan padşahlarının timsalı nəqş olunmuşdu. Dördüncü otağın divarlarında Şahnamədə yazılan İranın qədim pəhləvanlarının və Mazəndəran divlərinin surəti yazılmışdı ki, bir-birlərilə cəng edirdilər. Divlər buynuzlu və quyruqlu çəkilmişdi. Beşinci otağın divarlarında Şah İsmayıl Səfəvi ilə sairlərin mabeynində vaqe olan cənglərin surəti rəqəm olunmuşdu.

Hərəmxanə otaqlarının cümləsinin divarlarında qız, oğlan şəkli yazılmışdı ki, oğlanlar qızlara gül dəstəsi təarüf edirdilər və qızlar oğlanlara piyalə verirdilər və hər otaqda rəxti-xab hazır idi.

Yusif şah hərəmxanə otaqlarının birisini özünün istirahəti üçün müqərrər edib xacə Mübarəkdən soruşdu ki:

– Hərəmlərin ziynət otağı hansıdır?

Xacə Mübarək ərz elədi ki:

– O başdakı otaqdır. Amma ağzı qıfıllıdır. Açarı sandıqdar Ağa Həsəndədir.

Şahın buyruğu ilə pişxidmətbaşı haman saat sandıqları hazır etdi. Ziynət otağının qapısnı açdılar, şaha göstərdilər: bu bir böyük otaq idi: içində hər tərəfdən sandıqlar düzülmüş. Sadıqların qapağını götürdülər, qəribə-qəribə ziynət və zivərləri şaha göstərdilər; o cümlədən giranbaha kişmir, şalları, lətif ünas libasları, pakizə ipək parçalar, cəvahiratdan qayrılmış güllər və guşvarələr və üzüklər və mümtaz mivariddən boyunbağılar idi.

Yusif şahın üç qızı var idi: böyüyü on dörd yaşında, ortancısı on iki yaşında, kiçiyi səkkiz yaşında və iki oğlu var idi: altı yaşında və dörd yaşında Qızlarının hər birinə bir gül və bir güt guşvarə və bir üzük və bir boyunbağı və bir dəst libas və bir rizayi şal və övrətinə bir dəst libas və bir rizayi şal ayırdı, xacə Mübarəkə təslim etdi, buyurdu ki:

– Bunları apararsan Qəzvinin ikinci küçəsində mənim qədimi evimdə övrətimə yetirərsən. Deyərsən ki, mənim cəhətimdən əndişə etməsin, sabah oğlanlarımı hüzura göndərsin.

Xacə Mübarək şeyləri iki nəfər fərraşa götürdüb getdi.

Bu vaxt gün qürub etdi. Pişxidmətbaşının təklifi ilə şah qayıtdı əvvəlinci otağa. Qızıl şamdanlar yanmışdı. Süfrə döşənmişdi. Şah əvvəl vüzu edib şam və xüftən namazını əda etdi, sonra süfrə üstündə oturdu. Pişxidmətlər rəngarəng təamlar hazır etdilər. Şah yedi, doydu, süfrə yığıldı. Abtaba-ləgən gəldi, şah əlini yudu. Qəhvə gətirdilər, içdi. Qəlyan verdilər, çəkdi.

Bu halda fərraşbaşı Əsəd bəy daxil olub fərmayişi bitirdiyini ərz etdi. Şah buyurdu ki:

– Çox yaxşı, mürəxxəssən!

Sonra xacə Mübarək qayıdıb şeyləri yetirməyini ərz elədi və dedi ki:

– Şahın övrəti və qızları göndərilən töhfələrdən qayətdə vəcd etdilər. Nəinki onun cəhətindən əndişə etmirlər, bəlkə bu qəziyeyi-qeyri-mütərəqqibədən çox sevinirlər və şadlıqdan tullanıb-düşürlər.

Şah övrət-uşağı tərəfindən xatircəm oldu.

Xacə Mübarəkdən və pişxidmətbaşıdan bir para əhvalat soruşdu. Gecədən dörd saat keçdi. Ayağa durub xabgahına gəldi; rəxti-xabını saldılar.

Pişxidmətbaşıya buyurdu ki:

– Qaravul müvəkkillərinə tapşır: qərari-sabiq üzrə hər yerdə qaravul qoysunlar.

Sonra rəxti-xabına girib yatdı. Pişxidmətbaşı və xacə Mübarək çıxdılar. Hər birisi öz məqamına getdi.

Sabahı gün Yusif şah salam otağına təşrif gətirib Molla Rəməzanı və Qurban bəyi və Mirzə Cəlili və Mirzə Zəkini ki, onun dostlarından idilər və şahın olara hər xüsusda vüsuqu var idi, ehzar elədi, mənsəbi-mollabaşılığı verdi Molla Rəməzana, sərdarlığı həvalə elədi Qurban bəyə, xanlıq ləqəbilə vəzarəti tapşırdı Mirzə Cəlilə, müstövfiliyi Mirzə Zəkiyə, münəccimbaşılıq mənsəbini bilmərrə mətruk etdi ki, dövlətə və millətə zərərdən başqa bir faydası yox idi. Buyurdu tamam vilayət hakimlərinə elamnamə və hökmi-müəkkəd göndərilsin ki, bu gündən sonra hərgiz cürət etməsinlər ki, biduni-təcvizi-şəri-şərif bir müsəlmanı mövridi-müaxizəyə gətirsinlər və bacarmasınlar ki, məhz həvayi-nəfsləri ilə bir kəsi cərimə edələr və ya qətlə gətirələr və ya burun-qulağın kəsələr, gözün çızardalar və hökmdən əlavə hər vilayətə mötəmid baxıcılar təyin oldu ki, gedib vilayətlərin əhvalından və xalqın həvaicindən xəbərdar olub, gəlib ərz etsinlər.

Yusif şah bu baxıcıları hüzura istəyib dedi ki:

– Hakimi vilayətlərə mənim tərəfimdən elam edərsiniz ki, Allahdan qorxsunlar nahaq iş tutmasınlar, xalqı talayıb dağıtmasınlar, rüşvət almasınlar; yəqin bilsinlər ki, bu növ hərəkət axırda onların özlərinin bədbəxtliyinə və həlakətinə bais olur.

Olar mükərrər müşahidə ediblər ki, bu növ rəftar ilə dövlət cəm edən kəslər axırda baş veriblər və ya kəmali-bədbəxtliyə və zillətə və məskənətə düşüblər. İranda bu növ ilə cəm olunan dövlətin hərgiz heç bir xanədanda davamı olmayıbdır. Hanı damqanlı Cəfər xanın kürurları? Hanı Səlim xan Qaragözlünün dövləti? Hanı şirazlı Mirzə Nağının əmlakı? Padişahani-İran həmişə vəqta ki, bir sahibi-mənsəbi mülahizə edirlər ki, pul cəm edib sərvətə çatıbdır, haman saat bir bəhanə ilə onu məqami-müaxizəyə gətirirlər, hər nə vardır əlindən alırlar, özün həlak edirlər və ya zillətə və məskənətə salırlar.

Bu əmrdə hakimi-vilayətlər şəbihdirlər zəlilərə ki, qan sorub şişdikdə, sahibi oları sıxar, tamam sorduqları Qanı qusarlar. Kimisi bu cəhətdən ölür və kimisi zəif və lağər olur. Fəəmma əgər hakimlər niknəfəs olub və öz həlal rizqlərinə qane olalar, həmişə öz dərəcələrində baqi və xalq nəzərində müəzzəz və səlatin niyyətində mükərrəm olacaqlar və günbəgün rütbələri izdiyad behəm edəcək.

Bu sözləri təlqin edəndən sonra şah baxıcıları buraxdı. Sonra buyurdu xirac məbləği mötədil miqdaradək təxfif tapsın və əmr etdi ki, hər yerdə yollar təmir olunsun və lazım məqamlarda və mənzillərdə, körpülər və karvansaralar tikilsin və hər vilayətdə şəfaxanələr qayrılsın və mədrəsələr açılsın və susuz yerlərə su çıxarılsın, dullara və yetimlərə və şillərə və korlara ianət və himayət göstərilsin və vilayətlərdə hər bisərüpa özbaşına özünü üləma silkinə daxil etməsin, bu xüsusda mollabaşıdan icazət istəsinlər və sinfi-üləma hər yerdə xalqın ehtiyacına kifayət edən miqdardan ziyadə olmasın və külli-üləmaya güzəran kifafınca xəzineyi-amirədən vəzifə qərərdad etdi ki, səltənətə möhtac olub ərbabi-mənasibi xidməti-şahidə əhli-zələmə xitab etməsinlər və əmri-mürafiəni ki, səltənətin ümdə ləvazimatındadır, üləmanın əlindən alıb ərbabi-mənasibin süləhasına vagüzar elədi ki, millət mürafiə cəhətindən özlərini üləmaya möhtac görüb ancaq oları mərcə bilməsinlər və səltənətdən uzaq düşməsinlər və buyurdu ki: vücuhi-bərr hər yerdə süləhadan dörd nəfərə müntəqil olub vilayatın füqərasına dəftər üzü ilə sərf olunsun və hesabı divana göstərilsin; ta ki, füqəranın bəzi vücuhi-bərrdən bəhrəyab olub, bəzisi məhrum qalmasın və əmr etdi ki, xüms və imam malı verilməsin ta övladi-rəsul-əleyhüssəlam zilləti-sualdan azad olub sair xalq kimi öz kəsbləri ilə vəchi-məişət təhsil etsinlər.

Bu xüsusda mötəbər üləma Yusif şaha kütubi-fiqhdən fitvalar çıxardıb göstərdilər. Və vilayətlərə elamnamələr göndərdi ki, bundan sonra bir kimsənə cürət etməsin ki, şaha və ümənayi-dövlətə və çakərani-dərgaha peşkəş versin və payəndaz salsın və heç kəs peşkəş vasitəsilə hökumət tapmağı təmənna etməsin, ancaq öz ixlasını və hüsnixidmətini bu mətləbin təhsilinə vəsilə bilsin və maliyyati-divan hər vilayətdə əmin şəxslərə təslim olunub xəzinə ismilə hər yerdə dursun və məsarifi-səltənət dəftəri üzilə təyin tapıb lazım olan övqatda hər yerin xəzinəsinə həvalə olunsun və rəaya bilkülliyyə həvaləcatiməsarifədən asudəhal qalsınlar. Və dəxi mədaxili-səltənətin izdiyadi

üçün qərar qoydu ki, tacirlər və bəyzadələr və xanzadələr və şahzadələr, hətta üləma və sadat və sair sinfi xalq mədaxili-əmlakdan şəhərlərdə ondan bir, dehatda iyirmidən bir xəzinəyə versinlər və qoşun xalqının və əhli-xidmətin məvacibi əsla lavüsul qalmasın ki, səltənətin nəqsidir; bəlkə həmişə vilayət xəzinələrindən bilatəxir mücra olunsun. Və bey və şəra olunan əmlakın qiymətindən dəxi xəzinənin nəfi üçün tümənə beş şahı vəz olunsun və qaideyi-beyü-şəra tərk olunsun ki, tənxah sahibləri bu qaydanın vücudu ilə rəhn alıb borc verməyə mail olmadıqları üçün ərbabi-həvaici müztər edirlər ki, mülk və mallarını ədna qiymətə beyi-şəra etsinlər, bu ümid ilə ki, vədə başında ərbabi-həvaic mülk və mallarının istirdadından aciz olacaqlar.

Çün Yusif şah bilirdi ki, miraxur yay fəsli padşahlıq atları yaylağa aparıb bəsləmək bəhanəsi ilə ətraf xalqına çox əziyyət və cəfalar yetirirdi və onları çapırdı, talayırdı və əmiri-topxanə topçuların cümləsinə xəzinədən məvacib götürüb heç birisinə bir həbbə vermirdi və xəzinədar padşahlıq pulun içinə çox qəlb pul qatıb xalqa dağıdırdı və Qəzvin bəylər-bəyisi xalqdan hədsiz rüşvət alırdı və daruğə dövlətlilərə füqəranın müqabilində üz görürdü, kətxudalar Qəzvinin küçələrini natəmiz saxlayırdılar, cümləsini məzul edib, yerlərinə özünə məruf olan şayistə adamlar təyin buyurdu.

Mollabaşı Axund Səməd Ərkin zindanında zindanbandan eşitdi ki, onun mənsəbini həmçeşmi Molla Rəməzana veriblər, qüssəsindən ficətən həlak oldu.

Yusif şah dəxi əmr etdi ki, Qəzvinin küçələri genəlsin və içində hər yerdə zahir olan quyular örtülsün ki, gəlib-gedənlər olara düşməkdən məhfuz olsunlar və xalqın ərzinə qulaq asmağa və dadına yetişməyə qayda və qərar qoydu və buyurdu ki: Qəzvinin füqərasına bahalıq cəhətilə padşahlıq ambarından buğda verilsin və sahibi-vüquf adamlardan və mahir kənkanlardan bir məclisi-məşvərət bərpa olub Qəzvinə su çıxarmaq üçün göftgu olunsun və tədbir və dəsturüləməl təhrir olunub nəzərə yetişsin.

Bu vaxtda Qolland taifəsindən bir parası fars xəlicinin qürbündə bir məhəldə sükna etmişdilər. Bu günlərdə oradan bir elçi əmələsi ilə Qəzvinə varid oldu ki, İran dövləti ilə mabeynlərdə ticarət üçün şürut bağlasınlar. Elçinin əmələsi ilə Yusif şahın hüzuruna yetirdilər.

Onun nəvazişatından və əql və fərasətindən və ğaideyi-cahandarlığından elçi və əmələsi vəcd etdilər. Bilkülliyyə məramlarına nail

olub tühəf və hədaya ilə mürəxxəs oldular və kəmali-rizaməndlikdə muavidət elədilər.

Yusif şahın cülusundan bir həftə keçdi. Hər gün onun həsənatından və ədalətindən növ-növ əlamətlər xalqa zahir olurdu. İran üçün əyyami-firuzluq, əyyamisəadət və iqbal üz verdi. Lakin çifayda, bəni-növi-bəşər heç vaxt yaxşı günə dözməz. Bizim babamız Adəmə və anamız Həvvaya cənnətdə nə əksik idi ki, genə Allahın əmrini sındırdılar və cənnətdən qovuldular? İnsan belədir!

Əhli-Qəzvin hər gün qələ qapılarından adam şaqqalarını asılmış görmədilər və şah meydanında cəlladların adam şaqqalamaqlarını və dardan asmaqlarını və göz çıxarmaqlarını müşahidə etmədilər. Bu keyfiyyət olara xeyli qərib göründü. Əvvəl dedilər ki:

"Görünür bu təzə padşah çox rəhmli və helmli adamdır!"

Sonra onun rəhminə və helminə bəhslər varid etdilər. Bunu süst-rəyliyə və zəifülmizaclığa həml qıldılar. Bundan əlavə dəxi Yusif şahda hezar gunə özgə eyblər tapdılar. Müxtəsəri-kəlam bir belə ziyadə rəhmli padşahın təhti-əmrində zindəganlıq etmək nəhayət dərəcədə məlal-əfza göründü.

Ümənayi-məzul xalqın bu növ niyyətini istinbat etdilər və onu qənimət bilməyə fürsəti fövt etmədilər.

Hər birisinin başına şuriş və tuğyan xəyalı düşdü və tezliklə Qəzvində şurişi-əzim bərpa oldu. Şurişin əvvəlimci səbəbi məzul miraxur idi ki, küçədə köhnə xəzinədara rast gəlib, ona yoldaş olub soruşdu:

– Sən allah, Mirzə Həbib, de görüm xalq bizim təzə padşahımızın haqqında nə danışır?

Mirzə Həbib cavab verdi ki:

– Xalqın təzə padşahdan zəhləsi gedir. Onu süstrəy və bikarə bilirlər.

Miraxur:

– Vallah, Mirzə Həbib, xalq bizdən əqillidir. Doğru deyirlər. Sən allah, bu neçə əhməqlik idi ki, biz elədik? Bir sərraci-birütbəni gətirib özümüzə padşah qayırdıq, başımıza bəla açdıq. Qulluğumuzun və ixlasımızın əvəzində mənsəbimizi də əlimizdən aldı. İndi vilayət içində bir itcə abrumuz yoxdur. Vallah, belə rüsvaylıq olmaz ki, biz tutduq...

Xəzinədar:

– Məgər biz onu padşah elədik! Şah Abbas belə buyurdu; çarəmiz nə idi?

Miraxur:

– Xub, Şah Abbas o vaxt padşah idi. Hökmü bizə rəvan idi. İndi ki, Şah Abbas yoxdur aya bizə nə manedir ki, bu məlun və bidini ki, deyirlər tənasüxi məzhəbdir, təxtdən aşağı salaq, tələf edək, sonra Səfəviyyə nəslindən bir şahzadəni təxtə oturdaq ki, bari nəcabətinə görə təxtü-taca səzavar olsun?!

Xəzinədar:

– Çox yaxşı danışırsan! Bu xüsusda bilkülliyyə mən səninlə müvafiqəm. Amma biz iki adamın əlindən nə gələr? Gedək əmiri-topxanənin yanına, onun rəyini dəxi hasil edək. Axı, o da bizim kimi məzullardandır.

Hər ikisi getdilər əmiri-topxanənin otağına. Əmiri-topxanə onların gəlməyindən çox xoşhal oldu. Qayət şövq ilə sözlərinə qulaq asdı. Bilkülliyyə olar ilə şuriş xüsusunda müttəfiq olub dedi ki:

– Bu iş süvarilərin sərkərdəsi Bağır xanın rizası olmamış sürət tapmaz.

Əmiri-topxanə:

– Bağır xan mənim ilə çox yeganə dostdur. Mən boynuma çəkirəm ki, onu bu əmrdə özümüzə yoldaş edəm. Ona deyəcəyəm ki, bu bidin Yusif şahın əyyami-səltənində laməhalə bizim başımıza gələn qəziyyə onun da başına gələcək. Vaxt ikən əlacını eləmək gərək. Yəqinimdir ki, bu söz Bağır xana əsər edəcək, çünki dünən səlami-ammdə şah ona qəzəbnak olub sərzəniş edibdir ki, çaxır içib, məst olub, namaz qılmağa, məscidə daxil olubdur.

Əgər Bağır xan bu əmrə razı olsa, piyadələrin sərkərdəsi Fərəc xan dəxi razı olacaq. Çünki Fərəc xan Bağır xanın əmisi oğlu və damadıdır. Heç bir əmrdə onun rəyinə müxalifət etməz. Amma siz durun, gedin Qəzvinin köhnə bəylərbəyisinin yanına. Onu dəxi razı edin, boynuna qoyun ki, məzul daruğə və kəndxudalarla bu xüsusda göftgu etməyi və onların rəyini ələ almağı təəhhüd etsin.

Müfəttinlər bir-birlərindən ayrıldılar. Hər birisi getdi iş görməyə.

Mətləb çox tez hasil oldu.

Üç-dörd günün müddətində hamı müntəxəb olunan kəslər göründü və hamısı şurişə meyl və amadəlik göstərdilər. Müfəttinlər qərar qoydular ki:

– Şənbə günü sübhdən padşahlıq sarayını əhatə etsinlər və içəri daxil olub Yusif şahı təxtdən yerə salıb həlak eləsinlər. Sonra özlərinə Səfəviyyə nəslindən bir təzə padşah tiksinlər.

Müqərrar olunan günün sübh çağında ki, hələ padşahlıq sarayının qapıları açılmamışdı, külli süvari və piyadə tamam müsəlləh onun ətrafını bürüdülər...

Yusif şah keyfiyyətdən xəbərdar olub buyurdu ki:

– Sarayın qapılarını açmasınlar. Bu günə namünasib hərəkatı Yusif şah mollabaşiyi-sabiq Axund Səmədin, sərdar Zaman xanın və vəzir Mirzə Möhsünün və müstövfi Mirzə Yəhyanın və münəccimbaşının və mövlana Cəmaləddinin tərəfindən ki, əşxasi-sahib qüdrət və aşkara onun bədxahları idilər, mənzur edirdi. Ona binaən cülusunun ibtidasında ehtiyat yolundan lazım bilib onları həbsə saldırdı. Amma məhləkə özgə tərəfdən açıldı.

Bu halda Yusif şahın dəxi həvaxahları xəbərdar olub müsəlləh və kəsrət və izdiham ilə sərayi-şahiyə anən-fəanən üz qoymağa başladılar. Müfəttinlər ilə müqabil durub nəsihət və mövizəyə şüru etdilər ki, bu hərəkəti tərk etsinlər; fayda-pəzir olmadı; iş islah və müdaradan keçdi; başladılar bir-birləri ilə atışmağa və cəng etməyə. Qiyamət bərpa oldu. Hər iki tərəfdən baş və candan keçməyə müzayiqə etmədilər. İş atışmaqdan ötüb şəmşir və xəncər ilə bir-birlərinə həmlə etməyə çatdı. Qan su yerinə axdı.

Üç saat yarım kəmali-şiddətlə cəng tul tapdı. Hər iki tərəfdə altı min nəfərə qərib həlak və zəxmdar oldu. Aqibət asari-zəf və inkisar Yusif şahın həvahaxları tərəfindən müşahidə olundu; çünki həqnaşinas xalq peydərpey şəhərdən çıxıb, müfəttinlərin dəstəsinə qoşulub kəsrət və qüvvələrinə bais oldular. Ona binaən Yusif şahın həvaxahları şikəst tapıb hər kəs bir növ ilə başın mərəkədən qıraq çəkdi, canın qurtardı.

Müfəttinlər hücum edib sarayi-şahinin qapıların sındırdılar, içəri daxil olub Yusif şahı axtardılar, tapmadılar. Yusif şah itkin oldu. Kimi söylədi ki, cəng zamanında öz həvaxahlarının dəstəsinə qoşulub özünün hüzurilə onları cəngə dəlir edirdi, əsnayi-cəngdə məqtul oldu; kimi dedi ki, gizlənib, aralıqdan çıxıb, gözdən İtkin düşdü.

Xülasə, məqtulların arasında onun nəşi görünmədi. Fəəmma bir başqa yerdə dəxi bu gündən sonra onu nişan verən olmadı. Müfəttinlər sərayi-şahini qarət etdilər. Oradan çıxıb cühud və erməni küçələrinə aşdılar: hamısının evini dağıdıb tarac etdilər, ənva-ənva biəndazəlik və şərarət əmələ gətirdilər.

Gün batdı. Hər kəs öz evinə və mənzilinə qayıtdı. Şuriş və qovqa sakit oldu.

Sabahı gün rüəsayi-şuriş tezdən Ərkə rəvanə oldular. Sərdar zaman xanı və vəzir Mirzə Möhsünü və müstövfi Mirzə Yəhyanı və mövlana Cəmaləddini və münəccimbaşını həbsdən çıxardıb, güzarişi nəql edib soruşdular:

– İndi Səfəviyyə nəslindən hansı şahzadəni təxtü-taca səzavar görürlər?

Mövlana Cəmaləddin dedi ki:

– Siz allah, deyin görüm bu gün ayın neçəsidir?

Miraxur cavab verdi ki:

– Bu gün novruzdan on altı gün keçibdir.

Mövlana bəşaşət zahir edib dedi ki:

– Dəxi qəm çəkməyin, şuriş dünən vaqe olubdur. Məlumdur ki, afət keçibdir və Səfəviyyə şahzadələrinin heç birisi səltənətə şayistə deyil: tamam kəməndiş və kordurlar. Bir parasını Şah İsmayıl sani kor edibdir, bir parasın Şah Abbas özü:[6] olar məsrəfdən çıxıbdır, bir zada yaramazlar. Bizim padşahımız genə Şah Abbasdır!

Miraxur dedi ki:

– Biz onun padşahlığına çox şadıq. Onun dövründə bizim hamımıza çox xoş keçirdi. Çifayda, nə eliyək ki, o təxtü-tacdan əl çəkib gözdən itibdir. İndi bilmirik ki, haradadır.

Mövlana güldü, dedi ki:

– Onun taxtü-tacdan əl çəkməyinin səbəbi var idi. İndi o səbəb rəf olubdur. Biz bilirik ki, o, harada gizlənibdir. Gedək gətirək, imarətinə yetirək!

Hamsı ayağa durub gəldilər Şah Abbas gizlənən evə. Onu oradan çıxardıb yetirdilər sərayi-şahiyə, təxtü-tacına əvvəlki kimi malik oldu. Hər iş qərari sabiq üzrə sürət tapdı, guya ki, heç bir hadisə vaqe olmamışdı.

Bu kəvakibin həmaqətinə mən təəccüb edirəm ki, necə bilmədilər iranilər oları aldadırlar? Yusif Sərrac hərgiz İranın şahı deyil idi. İranilər onu hiylə üzündən padşahi-məsnu eləmişdilər. Belə sadəlik olurmu ki, kəvakib özlərini iranilərə aldadıb biçarə və bitəqsir Yusif Sərracı bədbəxt etdilər? Şah Abbası kənar qoyub qırx il sərasər onun səffaqlığına və cəbbarlığına bietina nazir oldular?

Şah Abbas cəbbarlığının ədna əlaməti bu idi ki, bir oğlunu öldürdü, ikincisinin dəxi gözünü çıxartdı. Dəxi oğlu yox idi nəvəsi ona varis oldu. Amma kəvakibi və qınamaq [yeri] yoxdur. Şah Abbasın xudi-şəxsinə nisbətən kəvakibin bir ədavəti yox idi. Olara lazım idi ki, novruzdan on beş gün keçmiş İran səltənətinin təxtindən bir şəxsi aşağı salıb bədbəxt etsinlər. Bu vaxt da İran səltənətinin təxtində oturmuşdu Yusif Sərrac. Ona binaən kəvakib onu aşağı salıb bədbəxt etdilər. Kəvakibin hərgis xəyalından xütur etməzdi ki, iranilər oları aldadacaqlar, padşahi-həqiqinin əvəzinə padşahi-məsnuu oların sədəməsinin altına salacaqlar...

Vallah, qəribə əhməqdirlər bu ingilis tayfası ki, belə xətərli millət ilə az qalmışdır cəng başlayalar.[7]

# Şeirlər

## ZƏMANƏDƏN ŞİKAYƏT

Fəsad ilə dolu göylər edərkən tərsinə dövran,
Tükənməz qəmdən olmuşdu könül-dərdli, ürək-nalan.
Şərabım – qanlı göz yaşı, gözün peymanəsi – badəm,
Yerim bir külxən olmuşdu, ənisim ah ilə əfqan.
Kimə mən üns ilə baxdım, məni təshifi yandırdı.
Kimə qəlbimdə yer verdim, məni qovdu kənarından.
Kimə mən yar dedim dərhal mənə o döndü nar oldu.
Vəfa umdumsa hər kəsdən cəfa etdi mənə hər an.
Hər hansı qapını döydüm, məni rədd etdilər dərhal,
Haranı mənzil etdimsə, o mənzil oldu bir zindan.
Ümidlə baxdığım dostlar mənə xor baxdılar, əfsus!..
Təsəlli axtaran qəlbim buna heç tapmadı imkan.
Kimə mən dost dedim, gördüm dönüb öz düşmənim oldu.
Kimə mən ram oldumsa, dönüb mar oldu biiman.
Həyatdan bunca bezdim ki, gəlib təngə dedim: "ay kaş,
Bu dörd ünsür əzəl gündən olaydı xak ilə yeksan".
Ki birdən daxili bir səs dedi: "səhv etmə, ay aqil,
Saqın sən, qafil olma, qaç, uzaş bu qəm yuvasından.
Məgər bilmirmisən hər kim gedərsə Tiflisə şəksiz
Olar hər bir fülusu zər, palazı ətləsi-əlvan.
Xüsusilə vəfadarlıq, təvazö, ehtiram, həm də
Yaman gündə dada çatmaq oranın şəninə şayan.
Yaşar orda bilikli bir fəzilət sahibi alim,
Ki, aləm içrə yoxdur heç onun mislində bir insan[1]
Hamı ondan qalar razı, hamı didarına mayil,
Alar hər kəs kömək ondan, fəqirlər dərdinə dərman,
Qədər əmrində bir quldur, fələklər hökmünə tabe.
Qəza həqdən gətirmişdir ona qaziliyə fərman.
O hər bir sirrə arifdir, sözün yaqutinə sərraf.
Biliklərlə dolan qəlbi cahan nur saçır xəndan.
Görüşdə Rumidən[2] artıq, məqamı Şəmsdən[3] yüksək,
Bilikdə, fənni-hikmətdə böyükdür İbn Sinadan.[4]
Onunla Tiflisin xalqı gözəllikdə olub məşhur,
Necə gülşəndə gül qədri olar bülbüllə cavidan.
Deyəndə incə sözlər, ya fəsahət göstərən dəmdə,

Qoyar Səhbanı[5] xiclətdə, edər Xaqanini[6] heyran.
Bütün qazilər ondan bil, alarlar təfsirin dərsin,
Ona Qaziyyi-Beyzavi[7] olar şagird-əlif, beyxan".
Səbuhinin dili aciz onu vəsf etmək istərkən,
Gərəkdir üzbəüz durmaq, sora yazmaq ona dastan,
Mənə hatif dedi: "ruhum, yaraşmaz ki, bu idrakla,
O cür dildarə çatmaqçın sənə mane ola hicran.
Bilik dünyasına hakim, vəfada misli yoxdur heç,
Onun idrakı çox yüksək, onun tərifi bipayan".

## A.S.PUŞKİNİN ÖLÜMÜNƏ ŞƏRQ POEMASI

Gecə etdim uyqumu kənar,
Sordum:
    "Ey sir çeşməsi-ürəyim, nə var?
Nədən ötməz bağçanın şeyda bülbülü,
Nədən qılmaz nitqinin tutisi göftar?
Şeir yolun, söz yolun yoxsa kəsilmiş.
Hanı xəyal qasidin, o yüngül çapar?
Yaz gəlmiş; hər tərəfdə çəmən qızları,
Bəzənib, camalını etmiş aşikar.
Çevrilmiş çayır, çəmən bənöfşəliyə
Bağda odlu qönçələr açmış budaqlar.
Çöl gəlini bəzənmiş; dağlar onunçün
Ətək-ətək çiçəkdən cəvahir saçar.
Başını tac qoyub da şükufələrdən,
Oturmuş ağacların şahı pürvüqar.
Süsən, zanbaq içirlər jalə şərabdan.
Lalə qədəhlərində təkrar...təkrar...
Göy çəməni yasəmən öylə donatmış,
Nərgizin süzgün gözü baxsa qamaşar.
Dimdiyində töhfəsi-gül yarpağından
– Xoş gəldin, deyə bülbül ötər bəxtiyar.
Bəstəkəmər buludlar sular gülşəni.
Ətirli dan yelləri olmuş bir əttar.
Yumşaq səslərlə quşlar deyir səbzəyə;

– Götür torpaq pərdəni üzündən, ey yar!
Həpsinin əli dolu, həpsi sevdalı,
Bu bazarda nə dürlü məta desən var.
Kimi gözəlliyilə cilvə göstərib,
Kimi fəğanla eylər eşqini izhar.
Keçirməkdə vaxtını şənliklə həpsi,
Həpsi qəmdən, qüssədən eyləmiş fərar.
Bu şadlıqdan, ey könül, nəsibsiz qalıb,
Sənsən ancaq olmayan uyqudan bidar.
Ürəyində həvəs yox, başında sevda,
Dolaşırsan şöhrətdən, xəyaldan kənar.
Söylə, sən haman könül deyilmisən ki,
Dür sözlərçin fikirlər bəhrinə cumar.
Məna gözəllərindən ötrü yapardın,
İnci düzümlərindən zinəti-rüsxar?
Bəs məlamət nədir, bu məlal nədir,
Nədir varlığa qarşı bunca iğbirar?..
Könlüm dedi:
“Ey mənim təklik yoldaşım,
Var, get, bir də toxunma hissimə zinhar!..
Çəmən qızları kimi, mən bilməmişdim
Yaz yelinin dalınca payız yeli var.
Söz atını qovub da, qılınc dilimlə
Adından hər tərəfdə çəkəcəyəm car.
Bizim axırımız da bəllidir bu gün
Bu vəfasız dövrana yoxdur etibar.
Ağılsızdır o quş ki, tordan çıxarkən,
Danəyçin olur yenə tora giriftar.
Bu nə şandır ki, bilməm güclü sədası
Səma boşluqlarında şiddətlə gurlar.
Başqa xəyal etmə ki, bəllidir, fələk
Əhliylə daim eylər tərsinə rəftar.
Ey dünyadan xəbərsiz, eşitmədinmi
Söz ordusu başçısı Puşkindən əxbar?
O Puşkin ki, nüktəyə başlayan zaman
Hər bucaqdan qopardı coşğun alqışlar?
O Puşkin ki, kağız da qaralanırdı,

Qələmi etsin deyə, üstündən güzar?
Xəyalı, tavus kibi, bərli-bəzəkli,
Sözdən qərib naxışalr eylərdi izhar?
Həzm evini süsləyən Lomonovdu.[1]
Orda Puşkin xəyalı oldu bərqərar.
Derjavin[2] tutmuşdusa sözün mülkünü,
Yerində Puşkin oldu nəzmilə muxtar.
Camə bilik meyini tökdü Kapamzin[3]
Puşkinə qismət oldu o cami-gülnar.
Çar kibi, Çindən tutub Tatara qədər
Dolaşırdı şöhrəti diyarbədiyar.
Şimalın göylərində – Şərq hilalı tək –
Barmağı bir işarə eylərdi ixtar.
Bu dildə, bu zəkada bir oğul hələ
Görməmiş "yeddi" ata, "dörd" ana zinhar.
Təəccüblə dinlə ki, böylə valideyn
Sərt davranıb, etmədi bu sərtlikdən ar.
Onu əcəl oxuna nişan qoyub da,
Varlığını eylədi ölüm tarimar.
Zülm, qara buludlardan dolu yağdırıb,
Tökdü ömür barını etdi xakisar.
Söndürdü əcəl yeli çıraq ruhunu.
Susqun gecələr kimi, cismi oldu tar.
El bağında, əlində sitəm külüngü
Cavan belini qırdı zalim ruzigar.
İncili mənaların məxzəni bir baş
Olmuş ilan məskəni, bir xarabazar.
Cisminin yuvasından uçdu can quşu,
Böyük, kiçik qəmindən çəkdi ahu-zar.
Bülbül, təbinə həmdəm – qönçə könlündən
Xəbər verməz torpaqdan baş çıxarsa xar.
Rus torpağı yas tutub, fəğan qılır ki.
– Ey qatillər əlilə ölən namidar.
Qurtulmadın zamanın qanlı şərindən,
Tilsimin də olmadı səən həvadar.
Sən ki, çıxdın dostların əlindən, buraq,
Üstündə haqq rəhməti olsun sayədar.

Torpağına saçmağa iki gül ətri,
Qopar Baxçasaraydan bir incə rüzgar,
Tutulub bu xəbərdən ağ saçlı Qafqaz
Səbuhinin şerilə yasını saxlar.

## TƏCNİS

Əsiriyəm bir dilbərin ki, əgər
Xəncərlə şan-şan o yara məni,[1]
Visalından bullam həyati-tazə
Yəqin bil, öldürməz o yara məni.[2]

Əmən məmən neylər cənnətin narın?
Düzəxə bənzətməm firqətin narın,[3]
Rişteyi-can olmuş telindən narın[4]
Dilər eldən: yetir o yara məni.[5]

Dərdə kimin vardır mən tək davamı.[6]
Eşqin məriziyəm, sən ver dəvamı.[7]
Hər aşiqin candır eşqində vamı,[8]
Göstərməsin malı o yara məni.[9]

Rəqiblərdən gəlləm sənə divanə,[10]
Göstərmə rüxsarın sən bu divanə.[11]
Yolunda bil hər aqilü divanə.[12]
Salsa çətin dağı o yara məni.[13]

Ciyərdəndir gözümdən tökdüyüm hər dəm,[14]
Atəşi-suzandır çəkdiyim hər dəm,[15]
Can quşunu avaz edəndə hər dəm,[16]
Oxur zülfündəyəm, o yara məni.[17]

## TƏCNİSİ-DİGƏR

Çıxıb gül fəslində seyrə nigarım,
Sənalar eylərəm baharü yayə.[1]
Doyunca gör qəddin, gözüm, bu qəmlə
Ömr çatmaz bir dəxi ilə və ayə.[2]

Dedim: dilbər, məndən gəzmə dəxi dur,[3]
Yolunda payəndaz baş ilə can dur.[4]
Dedi: çün oxşatdın, məndən uzaq dur,[5]
Qəmzəmi peykanə, qaşımı yayə.[6]

Söylə, səba, yarə, əsib o yana,[7]
Olurmu bir əhvalıma o yana,[8]
Səhər ki, xabından sərxoş oyana,[10]
Bənöfşə tək üzdə telini yayə.[11]

Əcəl saqisindən allam peymanə.[12]
Vəfa gər etməsən əhdü peymanə,[13]
Məsturə tələtin cahan peymanə,[14]
Nə nisbəti onun xurşidə, yayə.[15]

Sək rəqibin, ya rəb, başına qarə.[16]
Baxmasın bir də o sinəsi qarə.[17]
Mənə ki, rəhm etməz o bağrı qarə,[18]
Oxusan yüz ona hədisü ayə.[19]

## MƏDHİYYƏ

*Kapitan İqranoviç haqqında*

Şahi-şahan imperator, xosrovi-keyvan sərir,
Padişahani-cahan olmuş onunçun dəstgir.
Ədlilə tutmuş cahanı pərtövi-xurşid tək,
Hər kəminə çakəri əflakə qoymuşdur sərir.
Qubbeyi-xərgahı doqquz çərxi-minadən keçib,
Dadi-məzlumu sütun qalmış ədaləti cərir.
Xosrovi-səyyarə baş açmış üfüqdən hər səhər.
Asitani-ərş simasında qullar tək həqir.
Çadiri-nili çəkib başına çərxi-laciverd,
Türreyi-şəbrəngə vurmuş şanə bu bədri-munir.
Bir kənizi-mətbəxi qılmış özün ixlas ilə.
Eyləyib cismi-lətifin barıgahında həsir.

Yeddi göylər cəbhəsin mina qılıb əncüm belə.
Boynuna zəncir salmış kəhkəşandan çərxi-pir.
Buqeyi-hər xakə təyin eyləmiş bir sərfəraz.
Hər biri İskəndəri-sani cahanda binəzir.
Sərhədi-İrana qoymuş kapitan İqranoviç.
Çeşmi-gərdun görməmiş devranda bir beylə əmir.
Rəşki-firdovsi-bərin qılmış Muğanı sərbəsər,
Şahsevən yeksər olubdur xaki-payında əsir.
Etməyib dünya qulağına kəlamı tək kəlam,
Görməyib çeşmi-fələk bir beylə hüşyarü bəsir.
Hər kimin qəlbində bir sirri-nihan olmuş ola.
İsiyi-Məryəm kimi əsrarə olmuşdur xəbir.
Düşməni-bədxu əyər kəndusuna qarşı dura,
Rubəh-asa titrər əzası görüb guya ki, şir.
Əncüm-əflakı mühit etmiş cünudi-rus tək.
Yer üzün təxsir qılmış ədl ilə Petri-Kər,
Navəki-dilduzu şiri-çərxdən pərran keçib,
Eylə kim asan keçər kərbasdan qərran tir.
Mehri xavər bədri-ənvər çərxi-ətləs, sübhü-şam.
Xani-mətbəxxanəsicün dəhr edib iki, fətir.
Zakoni-İsanı ehya eyləmişdir necə kim,
Eyləyibdir zində ənvatı Məsihullahi-pir.
Tövsəni-təbim genə "İqranoviçin mədhini,
Xingi-gərdun tək səriusseyr dər-vəqti-məsir.
Xidmətində baş açıbdır bir mütərcim sübhü şam,
Eylə kim gün qarşısında baş açıb bədri-munir.
Adına Mirzə İbadullah deyər əhli-cahan
Qaməti xoş xətti dilkeş, yox onunçün bir nəzir.
Madəri-gərdun onun tək doğmayıbdır bir cavan.
Səfheyi-dövranda yad etməz onun tək dəhr pir,
Xətti kağız üstə müşki-Çin təkdir dilfirib,
Dudeyi-kilki-lətifi guiya vardır əbir.
Mir Fəttah Mir Nizam oğlu sənə məddahdır,
Bir kərəm qıl, qoyma qalsın dəhr ara xarü həqir.
Zəhməti məhzi-rizayi-həqq üçündür, şah üçün,
Eyləməz bir yol təmənna hiç kəsdən bu əmir.

Həm mütərcim, həm özü vəqf eyləyib canın şəhə,
Gecə-gündüz yatmayıb heç birisi bir ləhzə sir.
Çox kəsə cibi-mübarəkdən verir altunü zər,
Çoxların fəryadına yetmiş bu qapdan, ey bəsir!

## MİRZƏ FƏTƏLİNİN ŞANLI VƏLİƏHD ƏLAHƏZRƏTİN TƏRİFİNƏ YAZDIĞI QƏSİDƏ

Ey Gürcüstan torpağı, fəxr et ki, şahlar şahının oğlu,
Dəniz və quru üzərində sürətlə və asan səyahət etmişdir.
Üzərinə qədəm qoyub sənə yenidən həyat verdi,
Hindistan ölkəsi bu gün sənin şöhrətinin həsrətini çəkir.
O, indi şimaldan parlayıb zühur etdisə də,
Sən, ona dünyanı bəsləyən parlaq günəş de!
Şadlığa hazırlaş, hər cür qəmdən azad ol
Ki, bu padşah nə Abbasdır, nə də Teymur Kurakandır.
Misilsiz həzrətin iltifatından xoşbəxt olan
Atasının vəliəhdi, padşahlar taxtının bəzəyidir.
Onun iki adaşlarından bütün dünyanı təslim edən birincisi
Dünyada yunan xalqının çırağını işıqlandırdı.
Onun parlamasının cəlalını artırdı, ona izzət yolu göstərdi,
Nə qədər əqilli bir hakim, necə bir başçılar başçısı.
Onun başqa adaşı olan mübarək qədəmli, yaxşı əməlli xaqan,
Yevropa padşahlarını Napoleondan qurtardı.
Öz məmləkətinə əmniyyət, öz işinə bəzək verdi.
Onun adı Ənuşirəvanın adı kimi dünya durduqca yaşadı.
Ona da o birisi kimi dünyanın adlı-sanlısı olmaq layiqdir,
Çünki, Nikolayın Fileqosa qədər sonsuz fərq var,
Bu da onun kimi şahlara minnət qoymağa layiqdir.
Çünki, bu onun sarayından onun taxtına varisdir.
Onun cəlalı üçün bu kifayətdir ki, taleinin humayı
Parlaq ayın və günəşin üzərində həmişəlik dövr edir.
Ey Gürcüstan torpağı, indi səni bu mübarək üzlü,
Dünyanın allahının əmri ilə bu gür şərəfləndirmişdir.
Bu allah kölgəsinin kölgəsi altında mütləq qüdrət sahibinin
lütfü ilə

Çoxlu asayiş və şöhrətlər görəcəksən.
Onun dövründə özün üçün bolluq illəri görəcəksən.
Onun zamanında illər uzunu xoşbaxt olacaqsan.
Sənin könül açan fəzan İrəm bağı olacaqdır.
Rum və İran ölkələri həmişə sənin həsrətini çəkəcəklər,
Gələcək haqqındakı bu falın həqiqiliyini öz gözümlə görürəm.
Bunlar dövlətin rüknü olan Voronsovun barəsində sübut edilmişdir.
Onun feyz və ehsan buludundan su içdiyi zamanda,
Səxavət çiskini ilə parladığın kimi parlayacaqsan.
Sənin cavanların mübarək gününü xatırlarkən,
Təşəkkürlə öz can nəqdlərini xidmətində sərf edərlər.
Şota Rustaveli və Bisryan xalqının oğulları,
Ona gürcü şeirlərində tərif oxuyarlar,
Onun dövlətinin həmişə qalmasının arzusu ilə
Nəsimi kimi öz sözlərindən onun sarayına töhfələr yetirərlər.

## ZAKİRƏ MƏKTUB

Qasım bəy, eşitdim yaxın olubsan
Xan qızına, axır nədir bu rəftar?
Edibsən xubları yüz yol imtahan,
Eylərsən onlara yenə etibar?

Yeyib otağında şamü nəharın,
Kəsdiribsən yasdığının kənarın,
Eşidirsən şirin-şirin göftarın,
Kişi, sənin, vallah, əcəb işin var!

Dediyin qafiyə ona xoş gəlib,
Qaçan bəxtin indi sənə tuş gəlib,
Sövdalı başına təzə huş gəlib,
Təəccüb eylərəm büsyar, büsyar!

Səni pərivəşlər salıb bu halə,
Döndəriblər əlif qəddini dalə;

Çəkərdin onlardan həmişə nalə,
Nədir yenə dildə əzbər olub yarlı?!

Xan qızı məhvəşdir, bir el, aləm,
Məhvəşlər atəşdir, bizik əqli kəm;
Yüz il xidmət edə oda bir adəm,
Yenə düşən dəmdə ona, bil, yanar.

Xudadan isrətəm versin müradın,
Yamanlığa hərgiz çəkmərəm adın.
Yolunda zəhmətin, rənci-ziyadın,
Mən çəkdim, o etdi məni şərmsar.

Özgə cəfalarım dursun kənarə,
Nə lazım hər birin salmaq şümarə,
Xeyr işinə onun mən o diyarə,
Şadü xürrəm getdim, qayıtdım bəs xar.

O qafiyən mənə çox etdi əsər,
Qalmadı könlümdə ondan bir kədər.
Növcavandır, təkdir, iyzədi-davər,
Eyləsin ömründən onu kamgar.

Rəvadırmı çəkə biəsurdü bixab...
Bəstəri-möhnətdə bu qədər əzab?!
Duayi-xeyrinə eyliyin şitab,
Siz də mənim kimi hər leylü nahar.

Belə pəriruyun, heç səni tarı,
Rəvadırmı qəmdən sola üzarı?
Həm xələfdən xal ola kənarı?
Olsun ona mövlam yavərü qəmxar?

Mənim də var gərçi bir az günahım,
Sən get hüzuruna ol üzrxahım,
Söylə ki, ey şahım, ey qibləgahım,
İncimə, gər etdim şikayət izhar!

## ZAKİRƏ MƏKTUB

Ey Qasım bəy, əcəb dövranə çatdıq,
Mərdə indi olmaz başü can gərək!
Qoç igidlər döyüş günü meydanda,
Düşməninə qanlar ağladan gərək!

Yapalaq osmanlı,[1] bəri bax, kişi,
İstəyir yerisin şahbaz yerişi!
Sınar pərü balı, pozular işi,
Qulluğumuz rusə nümayan gərək.

Osmanlıya yoldaş olubdur firəng,[2]
Bir də özün sanan dəryada nəhəng.[3]
"Edə billik, – derlər, – urus ilə cəng"
Belə işə urus şadiman gərək!

Kiçik Napolyon[4] da görəcək, bilun,
O günü ki, gördü böyük Napolyon![5]
İngilisə əgər biz verməsək un,
Onun əhvalına ağlayan gərək!

Söz müxtəsər, dünən yetişdi xəbər;
İmperator yəni edib müqərrər,
Dunay çayın keçib bir bölük əsgər,
Ötə-aşa kuhi-Balakan gərək!

Bunda şübhə edən gərək ola gic,
Aşmadımı əqdəm o dağı Dibiç?[6]
Almadımı Ərzrumu Paskeviç?[7]
Fəthi-rusə artıq nə bürhan gərək?

İndi Qarabağın igidlərinə,
Kimdir şücaətdə ola qərinə?
Yetişəcək hər biri düşmən sərinə,
De ki, baydaq yıxıb, top alan gərək.

Köhlən at üstündə, qılınc belində,
Meydana üz qoyub tüfəng əlində,
Gah sağına xəsmin, gahi solunda,
Çıxarda naleyi-əlaman gərək!

Doğmamış Qafqazda analar qorxar
Bizə döyüş gərək, nə biçin-başaq?
Yenə Peterburqa sizlərdən baydaq,
Bu il də istərik aparan gərək!

## TƏRİFNAMƏ

Ey Keyqubad taxtında əyləşən!
Şahlığın onda həmişəlik olsun.
Mənim bu əməyimə tərəf nəzər sal,
Ki, bu mənim sərmayə və xəzinəmdir.
Zəmanə şahının astanasına layiq
Əgərçi töhfəm çox kiçikdir,
Ondan başqa töhfəm yoxdur.
Ancaq sədaqətdə heç kəsdən əskik deyiləm.
Dünyanın, hadisələri olan bu namədə,
Bir şahı sədaqətlə həmişəlik bəyəndim,
Ki, İran ondan bəzək tapdı,
Bütün işlər intizam və tərtib tapdı.
Elə ki, fərmanvericilik taxtına əyləşdi,
Öz qəhredici qüvvəsi ilə məmləkətdə fitnə
qapısını bağladı.
Zirəkliklə gələcəyin fikrini etdi.
Ədalət və səxavətlə öz adını diriltdi.
Taxta əyləşdiyi vaxtdan, rus padşahı ilə
Dostluq rəsmlərini saxlamışdır.
Ey şah, bil ki, mənim bu kitabım
Sənin gözəl işlərini dünyaya nişan verər.
Baxışlarını İranın ətrafına tikərək,
O ölkənin xəbərlərini yığaraq,
Uca səs ilə dünyaya oxuyar.

Nasirəddin çox hörmətli şahdır.
Xoşbəxt və mələk sifətli padşahdır.
Xasiyyəti ilə tac və taxtı yüksəldən
Tədbiri ilə hər işə ki, başlayır,
Aydın iradəsini nəzərdə tutur.
Ey padşah, sənin məmləkətinin xəbərləri,
Sənin işlərini aşkar edir.
Həmişə səni tərif edən kitabım
Bu yaxşı işdə ondan yardım aldı.
Şaha layiq saysız inciləri.
Bir üzücü kimi o dənizdən çıxarır,
Hər vaxt onları adamlara bağışlayır.
Qafqaz ucqarından polyak yurduna qədər,
Dünyanı başdan-başa sənin dövründə,
Sənin adının şöhrəti ilə doldurur.
Bütün bəşər tayfaları bilsinlər ki,
Ey ədalətli, sənin bu gözəl dövründə,
İran sənin sayəndə nə qədər rahatdır,
Ey tac sahibi, bu məsnəvi ilə sənə tərif yazdım.
Əgər ki, etibarca
Onun qiyməti haqqında lovğalanmağa dəyməz.
Ancaq onu səmimi sədaqətimin əlaməti hesab et!
Ruslardan bir kiçik şairəm,
Həzrətinizə sədaqət bəsləyirəm.
Ümidim vardır ki, bu neçə beyt
Ki, qaranlıq xatirimdə nəqş bağladı.
Şahın mərhəmət günəşinin işığından
Ay günəşdən işıqlandığı kimi, işıqlanacaqdır.
Səxavətinlə məni də başı uca et!
Şadlıq qapısını üzümə aç!
Fikri aydın bilicilər nə gözəl demişdir:
“Şahların kölgəsi könüldən qəmi aparar!”

## MÜXƏMMƏS

Zivər nə səzadır sənə ey dilbəri-ziba!
Binəqs yaratmış səni ol xalqi-yekta!
Deş bağrını dürdanələrin, boynuna asma!
Et vəsməyə sən qaşü qabaq, ey qədi mina!
Yum gözünü həm sürmədən, ey gözləri şəhla!

Kirşan, sənəma, ayineyi-ruyun edər tar
Qoy həsrəti-vəchində ərisin onu zinhar.
Gər qazə dəxi meyli-rüxun eyləsə izhar,
Tök qanını öz dəstin ilə, ey büti-əyyar!
Axır nəçidir vəslini o edə təmənna?!

Hüsnün sözü hər firqəyədir türfə fəsanə,
Salmış bu zaman mehri-rüxun şölə cəhanə.
Döndərdi sənin rəşki-ləbin badəni qanə,
Düşsün tora, ya rəb, girə gər zülfünə şanə,
Onun nə rəvadır düşə başına bu sövda?!

Əngüştərinin gözünə barmaq ola hər dəm,
Gər meyl qıla kim ola dəstində mükərrəm,
Əlbəttə edərsən kəmərin qamətini xəm,
Bundan sora ta edə miyanın həvəsin kəm,
Lütfü nəzərin kəsmə vəfadardan əmma!

Tiflis müsəxxər sənə, ey düxtəri-tərsa!
Aşiqlərinə məbəd olub deyrü kəlisa!
Məndən sənə vəsf istədi şıxlı Əli Ağa,
Dedim: səni vəsf etməyə manəndi-Məsiha
Ruhülqüdüs imdadı gərək nitqi-Məsiha.

## CƏFƏRQULU XANA

Səlam olsun məndən sərkar xana,
Mollalardan bir az edim şikayət.
Münkirdirlər əhadisə, qurana,
Çifaidə gecdir hələ qiyamət!

Yetmişəm bulardan qələd[1] cana,
Heç birisi yoxdur gələ imana.
Görməmişəm belə əsrü zamana,
Bular sarı nahəqq etdik siyahət!

İstəmənik derlər xətti-cədidi,[2]
Əbəs yerə döymə soyuq hədidi,
Üştüri-binoxta hərgiz büdidi?
Bizlərdə nöqtəsiz olmaz kitabət!

Qəzəb etsin tanrı belə millətə!
Rəva deyil bular girə cənnətə,
Nə vacibə qail, nə də sünnətə,
Görməsinlər peyğəmbərdən şəfaət!..

Biri söylər: "Nədir bu nuni-səğir?
Lazım deyil bizə nə zəbər, nə zir!
Yazacağıq elə begiri Bəkir!
Sən ha çığır-bağır elə məlamət!"

Bir neçəsi üzdə müsəddiq olur,
Qaib olur məndən, münafiq olur.
Mirzə Əli ancaq ki, sadiq olur,
Yerdə qalan cümlə tapır zəlalət!

Bilmirəm ki, nədir bu işə çarə!
Gəlimmi mən Qarabağa dübarə?
Olmasa gər xandan cüzi işarə,
Əlifbey sarıdan olmanam rahət!

## CƏFƏRQULU XANA

Hacı qulu səndən, ey taci-sərim,
Ziyadə-ziyadə xürrəm olubdur!
Söz veribdir sizə Qruzenştern,[1]
Poçotniklik işi möhkəm olubdur.

Dünən güzar etmiş idi bu yana,
Çox söhbət eylədi Süleyman xana,
Guya bu müjdədən olub divana,
Papaq və saqqalı püfnəm olubdur.

Həmişə sizlərdən eylərdi qeybət,
Deyərdi, verməzsiz qədrinə qiymət.
Hanı onda indi əvvəlki halət?
Bir əcaib məddah adəm olubdur!

Bundan əqdəm on put qədri həlviyat,
Mir Pəncəyə sizdən olubdur sövqat.
Döşüyəndə Hacı qutuya qat-qat,
Nisfindən artıcaq, bil, kəm olubdur!

Dedi: “Gərçi etdim onda bu işi,
İndi dəyişmişəm belə rəvişi.
Mən olmuşam xana ixlaslı kişi,
Köhnə niyyətlərim bərhəm olubdur”.

Pənah xan nəslindən dəxi bir adəm,
Tövbə etdi, aldatmayam dəmadəm.
Haciyi-möhtərəm, ey qibləgahəm,
Guya İbrahimi-Ədhəm olubdur!

Bundan belə olsun sizə bəşarət,
Hacı olub indi əhli-kəramət.
Gərək ola ona hər yerdə hörmət,
Cənabi-dövlətdən əkrəm olubdur!

Qruzenşternə sizdən bir namə,
Gərəkdir yazıla, yetə əncamə.
Yəqindir yetirir işin itmamə,
Zəxminə vədəsi mərhəm olubdur!

## CƏFƏRQULU XANA MƏKTUB

Səbəb nədir kim, yazdığım kağıza,
Heç cavab yetişməz bizim diyara?
Lütfi-xan kəm olub yəqin ki, məndən,
Əyləşib könlümə bir belə qara.

Oturub eylərəm fikir hər zaman:
Nə üçün bir kağız yazmaz mənə xan?
Yəqin ki, bizlərdən olmuş bədgüman,
Kəsildi yol, belə bağlandı ara.

Lazım olmuş mənə kim, yazım əhval,
Nə gunə keçinir keyfiyyəti-hal.
Əvvəl ki, qar tutub dağı salbəsal
Taqətdən düşübdür həm malü qara.

Başımıza gəldi dağda gör nə iş:
Gecə-gündüz yağır peydərpey yağış.
Bilmək olmaz yazdır, ya payız, ya qış,
Nahaq qaldıq bu il həsrət bahara.

Anlayıbsınız ki, bu xalqın pis işi,
Qoymayacaq gəlsin çəyirtkə quşi,
Öyrətdiniz molla oxusun daşı,
Tufan salsın şəhrə, çölə, dağlara.

İkinci təqərrür olunan xidmət,
İnşallah düzəlir, gər olsa fürsət.
Qalaya gələndə eylərik söhbət,
Etdiyim əməllər olur aşkara...

Sındırdın balın və pərin Cəmalın,
Çıxartdın əlindən yerin Cəmalın.
Bir işə salıbsan sərin Cəmalın,
Əlinizdən məgər ölə, qurtara!..

Bu yerdən ötəri, bir para əhval,
Xidmətinə yazıb etmişəm irsal,
Cavabını tez yazdırıb yola sal,
Bu iş də düzəlsin var ikən çara.

## ÇEŞMƏ KİTABƏSİ

Bir əcəb çeşmə Əlaiddin rəvan etmiş idi,
Məscidi-Batum civarində nəziri-səlsəbil.
Yandı üstündə onun pəh-pəh əcayib sayəban,
Hüsni-əxlaqilə məmduhu kərəmdə biədil
Yəni Zünnureyn həm namı olur Şövqi ləqəb,
Şimdi Lazistanadır qaimməqami-bibədil,
Səlsəbil Osmani, Şövqiyə inayət eyləyə,
Cənnətül-məvadə fərda həzrəti-rəbbi-cəlil.
İstəsən ol sayəban tarixi məlumun ola,
Misrəi-rabidəki üç kəlmədən al ey aqil!
Yazdı bu tarixi türfə şerini Fəthi-Əli
Müntəzirkən vapora Batumdadır ayəndə yil.

## SƏİDƏ XİTAB

Səida, nuri-çeşmim, bir nəsihət daxı məndən al!
Ülumə sərfi-səy et, bulhəvəslik yoluna varma!
Oxu türkü ərəb, fürsü firəng dillərini öyrən,
Tələb et hüsni-inşanı və hüsni-xətti axtarma!
Müqəffavü müsəccə yazmağı bilmərrə tərk eylə,
Kəlamın vazeh olsun, mətləbi təkrar ilə yazma!
Təkəllümdə və vəz ilə sölərsən mətləbi sadə,
Şu vəzi hini-təhrirində daxı yaddan aparma!

## FUAD PAŞANIN MƏDHİNDƏ

Hər tərəfdən əhli-islamə bu gün təbşirdir.
Kim Suleyman şahə Asəfvəş vəzirü mirdir.
Şükr lillah ali-Osman dövlətində bu zaman,
Zinət əfzayi-sədarət sədri-pur-tədbirdir.
Şöhrətin tutmuş cahanı, əqldə, həm elmdə,
Zikr xeyrin, Asəfa, məzkuri-bürna, pirdir.
Çünki bilmiş xosrovi-zimərhəmət bu əsrdə,
Məmləkət hifzində rəyin behtər əz-şəmşirdir,
İntixab etmiş səni bu rütbeyi-üzmayə ol,
Müsliminə bu səadət həqqdən təqdirdir.
Mən dəxi ümmidvaram bu səadətdən olam,
Bəhrəyab, əmma muradım xaric əz-təqrirdir.
Qeyrəti-İslamdan məmlu könül birlə bu dəm,
Üz çevirdim dərgəhüzə, zuddur ya dirdir.
Siz bilirsiniz dəftər içrə ərzimi şərh etmişəm.
Sədri-dövran əmri övsafında zu təsirdir.
Qıl himayət sən dəxi Fəthi-Əliyə necə kim,
Fatihi-Xeybər sənə hamiyyü dəstgirdir.

## YENİ ƏLİFBA HAQQINDA MƏNZUMƏ

Bu daimi olmayan dünyada mənim ömrüm,
Həsrət və qüssə ilə başa çatdı.
Vətən sevgisi üzündən,
Çox tədbirlərə əl atdım.
Ancaq səyim bir nəticə vermədi,
Bu əsrdə bir könül sahibi görmədim.
Türklərin və İran torpağını böyükləri
Hamısı Çin xalqı kimi yatmışdılar.
Cavanlığım getdi, qüvvəm puç oldu,
Zövqlü və ehtiraslı bir cavan görmədim.
Dəniz yolu ilə Ruma səfər etdim,
Yeni əlifbanı o ölkədə
Bütün dövlət başçılarına göstərdim.[1]

Xəyalım çiy deyildi, çox pişkin idi.
Birər-birər mənə "Yüz sağ ol!"dedilər.
Dünya gözümdə behişt bağına döndü,
Mənə böyük cəlal düzəltdilər,
Şaha layiq peşkəşlərlə əzizlədilər.
Dünya muradımca idi, fələk mehribandı.
O dəqiqədə səadət mənimlə həmnəfəsdi.
Birdən bir sarı üzlü kişicik
Mənim arzu piyalama zəhər damızdırdı.
Onun vəzirlərin yanına yolu vardı,
Məni dinin və dövlətin düşməni kimi qələmə verdi.[2]
O natəmiz kişi, bu ittiham ilə,
Məni hər kəsin yanında xatırlayırdı.
O, türkləri dəhşətə saldı,
Dövlət şurası başçılarını qorxutdu.
"Onillik zəhmətim onun sayəsində heç oldu,
Yerdən sızıltımı göy eşitdi.
Pak Allah mənim köməyimə çatsın,
Qiyamətdə ondan mənim qisasımı alsın".
Eşitdim ki, onun atası uşaqlıqda,
Qəzvində üzü tüksüzlərdən biri imiş.
O ay üzlü bir çox illər uzunu,
Hamamlarda kisə çəkən olubmuş,
Azadə şahənşahın dövründə[3]
Heyif ki, bir... vəzir olmuşdur,
Ey İran cəmaəti, layiq deyil ki,
Məfulun birisi belə fəal olsun!
Çarəsiz Rum torpağından qayıtdım,
Orda qalmaq mənim üçün uğursuz idi,
Bu nəticəsiz gedib gəlmək haqqında,
Oradan Tehrana xəbər göndərdim.
Elmlər vəzirinin adına yoldan,
Ürəksevən bir məktub yazdım,
Yeni əlifbanı ona nişan verdim,
Onun üçün behiştə yeni qapı açdım.
Bilmirəm onun himmətimi alçaq idi,
Ya o, gecə-gündüz sərxoş idi,

Bu vəzir mənə cavab vermədi,
Məqsədim üçün əl tutmadı.
Başqa bir vəzir də dodaqlarını tərpətmişdi.
Bu məsələ haqqında öz fikrini demişdi
Ki, biz İran xalqı kiçikdən böyüyə qədər,
Atəşpərəstdən, xristiandan, farsdan türkə qədər,
Hamımız zirək və mərifət sahibləriyik.
Zəka üzündən həmişə fikirdəyik.
Yazının çətinliyindən qorxumuz yoxdur,
Çala-çuxurdan çıxmaq üçün, korlara yol göstərən lazımdır.
Heç kəsdən yeni yazı qəbul etmərik.
Bizim öz yazımız və öz fikrimiz kifayətdir.
Sonra bu fikri ilə güvənmişdi,
Əlinin içi ilə saqqalını tumarlamışdı.
O məclisdə sıra ilə oturanların hamısı
Ona demişdi: “Sağ ol, ey fikir deyən!
Doğru sözünə min afərin olsun,
Hikmətdə sənə heç kəs bərabər ola bilməz,
Qəlbin işıqlıdır, sözün sağlamdır,
Onu rədd etmək üçün Ərəstu belə cavab tapmaz”.
Təəssüf ki, gözəl xasiyyətli şahənşahın
Vəzirlərin axmaqlığından xəbəri yoxdur,
Heyif ki, fərasətli və huşlu şahənşah
Heyvərələrin işindən sakit oturur.
Heyif ki, ədalətli hökm verən
Bu əlifbanı başdan-başa görmədi,
Heyif ki, onun parlaq dövründə
Abırlı bir vəzir görmədik.
Hamısı töməkar, hünərsiz, ağılsızdırlar,
Kim onların adını yaxşılıqla çəkər?
Hərçənd onun dövrünün başlanğıcında Şərqdə
İldırım kimi bir vəzir parladı,[4]
Ancaq o, ruslar ölkəsində vəzirlik edən
Boris[5] kimi bir vəzir idi.
Bütün işləri şahın qarışacağı olmadan gördüyü üçün,
Ömrü Boris kimi zay oldu.

Bu rəmzi bu padşah anlarsa
Onun ömrü günəş və ay kimi olsun.
Ki, dövlət millətin pərəstarı olmalıdır.
Millət dövlətin pərəstarı olmamalıdır.
Ey Keyqubadın[6] taxtında əyləşən,
Onun üzərində şahlığın daimi olsun!
Eşitdinmi ki, rus ölkəsində,
Himmətlə, qeyrətlə, namusla
Aleksandr[7] rus millətinə nə yaxşılıq etdi
Ad çıxarmaqda dünyada kişi oldu.
Eşitdinmi, ki, Palmertson[8]
Britaniyalılar üçün nələr etdi?
Sən Vilhelmi,[9]
O ağıllı, elm sahibi kralı eşitdinmi?
Zəhmət və çalışmaqdan bir an belə rahatlanmır,
Ona görə də dövründə mülkü behişt kimidir.
Sən Bismarkı[10] eşitdinmi
Ki, başını göylərə yüksəltdi.
Onun fikrindən nə cür tədbirlər baş verdi?
Vətəni uğrunda müharibə etdi.
Eşitdinmi ki, inişil, Haribaldi[11]
Öz ay üzlü arvadı ilə
Nə kimi cəsarətli müharibələr etdi,
Vətənini yadlardan təmizlədi.
Hər yerdə ki, o döyüşlə məşğul idi.
Arvadı arxasında ona kömək idi.
Sən Linkolnu,[12]
Canını millətə necə qurban etdiyini eşitdinmi?
Tyeri[13] eşidibsənmi ki, indi
Onun ömründən səksən il keçir.
Vətəni üçün həmişə kədərlidir,
O, pul və rahatlıq qayğısında deyildir.
Ey padşah, vəzirlərin nə etmişlər?
Onların işinə özün şahid ol!
Vəzirlərin nöqsansız bir iş görməmişlər,
Onlar gah qarınlarının dərdindədirlər, gah
kisələrinin.

Elə isə onlar bir arpaya dəyməzlər.
Ey şahlar şahı, onları qapından qov!
Elmli, düşüncəli vəzirlər axtar,
Nəcabəti burax, bacarıq axtar
Ki, məmləkətə yenə bəzəklə
İstədiyin qədər bəzənsin.
Yeni əlifbanı işə salsınlar.
Xoşbaxtlıq ağacını meyvələndirsinlər.

(ƏZİZ DOSTUM RUHULQÜDSƏ XİTAB)

Çox şikayət etdim, söz uzandı,
Vaz keçdim, bir daha səni görməyəcəyəm.
Bu işi, bu zəhməti və əziyyəti başa çatdırmağı
Gələcək nəslə tapşırdım.

## HƏCVİ-ƏBDÜRRƏSUL XAN

Dünən İranın paytaxtından
Araq düşkünü, pərişan bir qoca gəldi;
Nəcabətdə əllaf nəvəsi olub,
Həbənnəqə kimi axmağın biri idi.
Dedi: "Firəngistana dövlət məmuruyam."
Allaha and olsun, bu xəbərdən yanıb töküldüm!
Əliağa,[1] mənə bir içim su ver
Ki, yanğım dəf olsun!
Ay üzlü gürcü qızını
O axmaq öpmək istədi,
O saat araqdan onu qusmaq tutdu.
Gücü çatdıqca ağzından
O qızın üstünə...
Təsadüfən yağlı mərək yemişdi.
Qız tez ayağa qalxaraq dedi:
"Sənə yüz dəfə Allahın lənəti gəlsin."
Tiflisdən o ayaqyalın,

Müxtəsərcə deyim ki, çılpaq getdi.
Dedi: “Mən soyuqdan qorxmuram!
Mən nə bürüncək alacağam, nə də xəz dərisi.”
Ey Əliağa, nə səvab olar ki,
Ona bir arxalıq göndərəsən!
Qafiyə dar gəldi, yoxsa mən
Onu çox layiqincə çullardım.

## MOLLA ƏLİ

Molla Əli, sənə olsun mübarək.
Şairliyin “qul uhiyə təbarək”*
“Ya əyyühəl müzəmmilü müdsir”**
Qənim olsun sənə bəndeyi-kafir.
Sənsən bu gün kəffarətül kafirun,
Unudubsan “və iləyhi türcəun***
İşpiyonluq binasını qoyubsan,
Şeytani-məridə əcəb uyubsan.
Məndən xudavəndə qeybət edirsən,
Özün guya sabah Həccə gedirsən.
Paşa qətlin, balam, şəhri-Nəcəfdə,
Mənmi dandım, yoxsa sən, keçən həftə?
Şamaxıda neftin küpdən daşmağın
Seyid Hüseyn ayağından başmağın
Çıxardıban ayaq yalın bir dəstə
Mürid ilə gedib haman küp üstə,
Öz sarığın neftə bulaşdırmağın,
Mənmi dandım, yoxsa sən, ey süxənçin?
Sən deyildin məgər karvansarada
Çirağbanə mane olub orada
Xalqa deyən: bica sərf etməyin pul,
Bu işlərdən olmaz xeyirli bir yol?

* Biz vəhy elədik, deyilən mübarək olsun.
** Ey örtülmüş və susan.
*** Axırda ona qayıdacaqsınız.

Neçün olmaz, balam, getdin meraca
Peyğəmbər eylədi fərz hüccaca.
Onun ərşdən dar durur yolu,
Çirağbandan neçün olmur bir pulu?
Sənin fikrin budur ki, xəlqi-tarı,
Yol tapsınlar ancaq üz həccə sarı.
Xeyr ilə nəhsi qoy məqamə, balam,
Sən get, bir də Ağa Rəsul, vəssalam!

* * *

Yenə insü cin arasında bu nə qarışıqlıqdır?!
Sanki, mərsiyəxanın yemindən bir-iki batman əskikdir.
Onun pul üçün etdiyi fəryad, bizim dünyada,
Sur çalınmadan göyün ən yüksək qatına çatmışdır.
Eyvay, pul istəiyr. Ona görə də indi
Dünyanın hər yerində şuluqluqdur.
Onun təməkarlığından tək biz fəğan etmirik.
Bütün mələklərin başı qəm dizindədir.
Bir tərəfdən qıtlıq və aclıq,
Bir tərəfdən molla həyəcan salmışdır, – iş hər
yerdə pozğundur.
Hər ölkədə, xüsusən, bəla ilə dolu İranda,
Bu dilənçi adətli tayfanın əlindən yasdır.
O dünyada bir dəfə qiyamət olar.
Bu tayfanın üzündən bizə hər məhərrəm ayı qiyamətdir

* * *

Onların təqlidi, elmi bərbad etdi.
Ax, bu təqlidə iki yüz lənət olsun!
Cəhaləti ictihad bizim qapımza gətirdi,
Ey ağıllı, ictihaddan qaç!
Dünyanın bütün bu qorxusu və qovğası,
Bütün iranlıların ixtilafları,
Həm təqliddəndir, həm ictihaddan.
Sinəmizi çak edib, hər ikisindən dad çəkirik.
Təqlid etmək bizə eyb olsun,
Xüsusi ilə eşşək təbiətli (hud)un təqlidi.

* * *

Mən ad və şöhrət axtararaq
Behiştin hurisindən vaz keçdim.
Nə üçün hər gün "vəzəvvicni"[*] oxuyursan?
Çətin ki, huridən kam alasan.
Mən könlümü çərən-pərənə bağlamadım;
Namaz və orucun əziyyətindən zəhləm gedir.
Mərifət aləminə qədəm qoy!
Bu sənin üçün huriyə çatmaqdan yaxşıdır.
O, ağıllıların ruhunun ləzzətidir.
Bu, cahillərin nəfsinin ləzzətidir.

## ŞAHMAT OYUNU HAQQINDA

Biri şah, biri vəzir və ikisi fildir,
İki at və iki qala şaha kəfildir.
İrəlidə gedən piyada ikinci səfdədir,
Altı və iki (yəni səkkiz xanə) ədədin hər biri
şaha dəlildir.
Altmış dörd xanəlik şahmat oyunu məclisi,
Cümləsi ağ və qara rəngdədir.
Şah bir xanədən artıq sıçraya bilməz,
İrəliyə və geriyə qilü qalsız hərəkət edər.
Vəzirin hərəkəti həm düz və həm də çəp olur.
Onun meydanı geniş və uzundur.
Fillərin hərəkəti daima çəp olar.
Qalalar isə onların əksinə hərəkət edərlər.
At iki xanədən artıq irəliləyə bilməz,
Həmişə düz gedib yan tərəfə dönər – onun
hərəkəti belədir.
Müxalifi qarşısında görüncə
Bunların hər biri ona əzrayıl olar.
Piyada tək addımla düz hərəkət edər,
Öz hərifi ilə yanaşı olduqda mütləq vurular.
Əgər düşmənin sahəsini keçərsə
Cəlallı vəzir olar.

[*] Məni evləndir.

Əgər şah köməksiz və tək qalarsa
Düşmən ona hücuma keçər.
O artıq əsirdir, sən şahı mat say,
Çünki onun ölüm günüdür!

## VANDA

Müsəlmanlar! Orda-burda az danışın yalanı,
Gəlin həqqi unutmayın, insaf eyləyin bir az!
Deyirsiniz – çoxdan keçmiş xariqələr zamanı
Peyğəmbərlən sonra bir də möcüzələr yaranmaz –
Bu sözlərə kim ananar, bir əfsanədir bunlar,
Öz fikrimi isbat üçün mənim dəlillələrim var:
Yetmiş altıncı illərdə Polşadan gələn kimi
Tiflisə bir günəş doğdu, bu möcüzə deyilmi?

Cavab versin burdan axan, dünya görmüş dəli Kür,
Bugünə tək kim Tiflisdə iki günəş görmüşdür?
Adı Vanda, özü mələk, yanaqları nar kimi,
Onaltıncı baharında yetişdi bahar kimi.

Qızın mehriban atası bir mötəbər kişidir,
Onun əziz xatirini hamı sevir, istəyir.
Göyün odlu günəşinə çox baxanlar kor olur
Lakin, bu yer günəşindən zəif gözlər nur alır.

Vaxt olur ki, günün üzü buludlarla örtülür,
Ancaq, mənim günəşimin üzü açıqdır, gülür.
Kopernik də söyləmişdi günəş daim sabitdir,
Lakin, Vanda dövr eyləyir, könüllərə can verir.

Hansı cənnət mələyində belə kamal, camal var,
Hansı cənnət hurisində bu gözəllik tapılar?
Mələklərə tay etmərəm bu füsunkar dilbəri,
Listi çala bilərmi heç behiştin huriləri?

Mələklər heç bilirlərmi ayrı-ayrı dilləri?
Görün necə dil bilir bu yer üzünün ülkəri.
Heç mələklər oxumuşmu müxtəlif kitabları?
Görün necə oxumuşdur Polşanın füsunkarı.

Köləliyi ləğv etdilər vuruşaraq gürcülər.
Bu qılınclar, bu qırğınlar, heyf vermədi səmər –
Vanda Kürün kənarında maral kimi gəzərkən
Bir baxışla gürcüləri əsir etdi yenidən.

Səbuhi ki, əyilməzdi şahların qabağında.
Gözəlliyə əsir oldu bu ixtiyar çağında...
Vandaya can sağlığıdır şairin təmənnası
Qoy onunla fəxr eləsin xoşbəxt ata-anası.

## HEKAYƏTİ-SEYYİD ƏLƏM SƏLYANİ

Səlyanda var idi bir Seyyid Ələm,
Ələmdən olmuşdu mərdi-möhtərəm.
Yəni məhərrəmdə ələm gəzdirib,
Hər adamın üstə onu süzdürüb,
Deyirdi: "Var nəzrin sənin, ey adəm!
Sənə sarı gəlməz bisəbəb ələm".
Kimdir ki, olmasın ömründə nəzri?
Heç kimin olmazdı ona bir üzri;
Çıxardıb cibindən bir manat hər kəs,
Deyirdi Seyyidə "Al, get, səsin kəs!"
Xalqa, nəzir vermək guya bac idi,
Lakin Seyyid genə elə ac idi.
Yalan ilə qəni olmaz bir kimsə,
Tatar ola, firəng ola, ya nemsə.
Borc edərdi Seyyid hər il sərasər,
Borcuna olurdu axırda münkər.
Bir əttara məqruz idi on tümən,
Vədə başı inkar eylədi birdən.
Əttar onu çəkdi qazı yanına,
Neyləsin, salmışdı atəş canına.
Dedi: "Qazi, insaf elə, dad elə,
Peyğəmbəri, imamları yad elə!
Bu Seyyidə mən yaxşılıq eylədim,
Bildim ki, doğrudur "limən əhsəntüm",*

* Gözəllərdəndir.

On tümən pulumu eyləyir inkar,
Üzündə nə şərmi, nə həyası var”.
Qazi dedi: “Seyyid, nədir cavabın?
Belə deyür kişi: qıfıllı babın!”
Seyyid dedi: “Ey qaziyi-mötəmən,
Heç görübsən məni tərafedə sən?”
Adil imiş qazi, xeyli baməzə,
İstədi Seyyidin bir burnun əzə.
Dedi: “Çox görmüşəm, sual nə hacət?
Cavab istər səndən kişi bu saət”.
Seyyid dedi: “Haçan? Bu necə sözdür?”
Qazi dedi: “Gecə deyil, gündüzdür!”
Mehrini sən boşadığın xanıma,
Vermirdin, gəlmədinmi yanıma,
Tərafe etməyə, ağayi-əkrəm?
Söz müxtəsər: “Olmadınmı sən mülzəm?”
Seyyid dedi: “Yaxşı kəsdin sözümü,
Bundan başqa heç görübsən üzümü?”
Qazi dedi: “Çox görmüşəm, ay ağa!
Niyə unudubsan, deyilsən çağa!
Bir də Mirzə Rəhim səni, ey məxdum,
Gətirmişdi şərə, üzünü gördüm,
Bağ nəqlində; uzun olmasın kəlam,
Bağ yetişdi ona sən oldun nakam”.
Seyyid dedi: “Yaxşı, dəxi başqa yol,
Heç görübsən?” Qazi dedi: “Sakit ol!
Bir də qamış davasında keçən il,
Gəmiçilər ilə edib qalü-qil,
Gəlmiş idin şərə, utanmaz kişi!
Mola Əkbər dəxi bilir bu işi”.
Seyyid dedi: “Dəxi bəsdir, ey qazi!
Çox gəlmişəm şərə zəmani-mazi,
Demişəmmi aya hərgiz bir yalan
Mən ömrümdə? İndi bu mən, bu Quran!”
Qazi dedi: “Seyyid, etmə hərarət!
Çəkərsən sözündən özün xəcalət.
Nə lazımdır bu iddiayə qəsəm?
Yalanına sənin şahiddir aləm.

Yalan deyən adəm deyər ahəstə,
Ya örtülü, ya da gizlin, ya pəstə.
Ələm ilə sən deyirsən yalanı,
Belə yalan deməz kürdi-kolanı!
Deyərsən aşikar xalqa, ey zalim,
Bilin ələm olur hər qeybə alim.
Yalan deyil məgər, bu söz nainsaf?
Bəsdir dəxi vurma sədaqətdən laf!"
Seyyid qəmgin başın aşağı saldı,
Aciz olub lap quruyub mat qaldı.
Rəhm eylədi qazi onun halına,
Müddəiyə dedi: "Xüms malına,
Hesab elə tələbini eysandır,
Bağışla Seyyidə, çox natəvandır".
Əttar qəbul etdi qazinin sözün,
Haman saat yumdu pulundan gözün.
Seyyid Ələm oldu çox şadü-xürrəm,
Xüsusən ki, tez yetişdi mühərrəm.
Yox idi ona heç başqa bir peşə,
Düşdü yalançılıq təzədən işə.
Seyyid olan adəm yalançı olur,
Yalançı yox, bəlkə dilənçi olur.
Çünki, bipeşədir cəmii sadat,
Edərlər iddia kəşfi-kəramat.
Biri deyər: "Mən sahibi-nəfəsəm,
Duası müstəcab olan bir kəsəm"
Biri deyər: "Ocağıma hər naçaq,
Gəlsə, tapar səfa, olur sappasaq".
Yalan ilə daim keçər günləri,
Zillətdədir onlar hicrətdən bəri.
Çəngiz dedi: "Əqdəm beş-altı yüz il,
Məhəmməd eləyib övladın zəlil".
Seyyid olma, canım, olma müftəxor!
Xalqın gözündə ol şirin, olma şor!
Tap bir mürşid, salma nəzər kövneynə,
Tərəqqi eylə, çat qabi-qövseynə!
Sən unqasən, cismin qəfəsdir,

Qəfəs içrə artıq qalmağın bəsdir.
Sən özünü bilmə bir cürmi-əsqər,
Gizlənqibdir səndə Aləmi-əkbər.
Anla, nədir "fəna", bax bir balayə,
Seyr et üruc eylə ərşi-əlayə.
Görəcəksən onda firavan dərya,
Biləcəksən kimdir Fironü Musa.
Bir qətrədir o dəryadan hər biri,
Havaya cəzb olmuş, boş qalmış yeri.
Seyr eyləyib bulud içrə bir zaman,
Övd edəcək genə o dəryaya, qan!
Cümlə Firon, Musa, Əli ya Ömər,
Bir qətrədir o dəryadan müxtəsər.
Müşəxxəsdir Ömər qətrə halında
Müəyyəndir Əli öz məqalında.
Təəyyünün rəfin eyləsən isbat,
Hər ikisi onda olacaq bir zat.

* * *

Ey zahidi-bizövq o məscid ki, sənin var,
Olsaydı mənim, mən onu meyxanə edərdim.

Minbər yerinə bir neçə peymanə düzərdim,
Mehrab içini mütrübə kaşanə edərdim.

Vaiz yerinə tar nəvazədə qoyardım,
Taət yerinə cilvəyi-məstanə edərdim,

Rəqs eylərdim məscid ara səcdə yerinə,
Eşq atəşinə özümü pərvanə edərdim.

Hər şamü səhər badəyi-gülgün içərdim,
Nərdi əvəzi-səbhəyi-səddanə edərdim.

Yüz nəğmə ilə ğülğülə əflakə, salardım,
Min tənə o dəm qarei-Quranə edərdim.

Yüz sən kimi cahilləri zahid belə yerdə,
Bir sağəri-səhba ilə fərzanə edərdim.

## İZAHLAR

M.F.Axundzadənin oxuculara təqdim olunan yeni üçcildlik "Əsərləri"nin birinci cildinə ədibin bədii əsərləri – altı komediyası, "Aldanmış kəvakib" povesti və şeirləri daxil olunmuşdur.

M.F.Axundzadənin komediyaları ilk dəfə rus dilində çap edilmişdir. Onlar 1851-1856-cı illərdə müəllifin öz tərcüməsində "Кавказ" qəzeti səhifələrində dərc olunmuşdur. 1853-cü ildə isə onun beş komediyası rus dilində, Tiflisdə Qafqaz canişinliyinin mətbəəsində "Комедии Мирзы Феть-Али Ахундова" sərlövhəsi altında bir toplu halında nəşr edilmişdir. Həmin pyeslər 1855-ci ildə yazılmış "Mürafiə vəkilləri" komediyası, 1857-ci ildə qələmə alınmış "Aldanmış kəvakib" povesti və "Fehristi-kitab" adlı giriş məqaləsi ilə birlikdə bilavasitə müəllifin öz təşəbbüsü və rəhbərliyi altında, 1859-cu ildə Tiflisdə Qafqaz canişinliyinin mətbəəsində, "Təmsilatı-kapitan Mirzə Fətəli Axundzadə" başlığı altında, Azərbaycan dilində nəşr olunmuşdur. Ədibin sağlığında şeirlərindən yalnız ikisi nəşr üzü görmüşdür. Onun dahi rus şairi A.S.Puşkinin xatirəsinə hərs olunmuş "A.S.Puşkinin ölümünə Şərq poeması" nın rusca sətri tərcüməsi, 1837-ci ildə "Московский наблюдатель" jurnalının XI kitabında, 1853-1854-cü illər rus-türk müharibəsinə həsr olunmuş "Zakirə məktub" şeri isə 1854-cü ildə, "Кавказ" qəzetinin 29-cu nömrəsində dərc olunmuşdur. Bundan əlavə, görkəmli Azərbaycan tənqidçisi və ədəbiyyatşünası F.Köçərli, M.F.Axundzadənin anadan olmasının 100 illiyi münasibətilə, nəşr etdirdiyi "M.F.Axundzadə" tənqidi-bioqrafik oçerkində, onun Q.Zakirə yazdığı bir neçə mənzum məktubunu və farsca qələmə aldığı "Yeni əlifba haqqında mənzumə" şerini vermişdir.

Sovet hakimiyyəti illərində M.F.Axundzadənin komediyaları ilk dəfə 1926-cı ildə, hər biri ayrıca bir kitabça halında çap olunmuşdur. Böyük realist yazıçı və mütəfəkkirin anadan olmasının 125 illik yubileyi münasibətilə, 1938-ci ildə Azərbaycan alimlərinin bir qrupu onun əsərləri külliyatını üç cilddə nəşr etdirmişdilər. M.F.Axundzadə əsərlərinin üçcildlik külliyatı təkmilləşdirilmiş şəkildə ikinci dəfə 1949-1955-ci illərdə (1949-cu ildə birinci cild, 1951-ci ildə ikinci cild, 1955-ci ildə üçüncü cild), üçüncü dəfə isə, 1958-1962-ci illərdə (birinci cild 1958, ikinci cild 1961, üçüncü cild 1962-ci ildə) təkrar nəşr olunmuşdur. Hər üç nəşrin birinci cildinə ədibin komediyaları, "Aldanmış kəvakib" povesti və şeirləri salınmışdır (Tərtibçilər – F.Qasımzadə və H.Araslı).

M.F.Axundzadənin anadan olmasının 175 illiyi münasibətilə, nəşr olunan çoxcildlik əsərlərinin birinci cildi onun üçcildlik əsərələrinin son

nəşri (birinci cild, 1958) əsasında hazırlanmışdır. Lakin tərtibçi yazıçının komediyalarının və "Aldanmış kəvakib" povestinin mətnini "Təmsilat"la diqqətlə tutuşdurmuş, aşkar etdiyi səhvləri, təhrifləri təshih etmiş və əsərlərə geniş şərh yazmışdır.

## "HEKAYƏTİ-MOLLA İBRAHİMXƏLİL KİMYAGƏR"
## (səh.31-44)

Mirzə Fətəlinin ilk pyesi "Hekayəti-molla İbrahimxəlil kimyagər" komediyasıdır. Azərbaycan dramaturgiyasının tarixi də məhz bu komediya ilə başlayır. M.F.Axundzadənin komediyalarının bizə gəlib çatmış əlyazma nüsxələrində və "Təmsilat"da bu pyesin, eləcə də "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyasının yazılma tarixi hicri 1267-ci il göstərilmişdir. Bu il miladi tarixlə 1850-1851-ci illərə uyğun gəlir. Buna görə Axundzadə araşdırıcılarının bir qismi, həmin komediyaların yaranma tarixini 1850-ci il, başqa qrupu isə, 1851-ci il hesab etmişlər. Lakin əlimizdə olan bəzi faktlar hər iki komediyanın yazılma tarixini dürüst müəyyənləşdirməyə və fikir ixtilafına son qoymağa imkan verir.

Məlumdur ki, M.F.Axundzadə ilk dəfə "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyasının rusca tərcüməsini, "Кавказ" qəzetinin 1851-ci il, 23, 27 fevral və 2 mart tarixli nömrələrində dərc etdirib. Komediyanın 1851-ci ilin əvvəllərində çap olunması aydın göstərir ki, müəllif onu, şəksiz, 1850-ci ildə yazmış, həmin ilin sonunda, yaxud 1851-ci ilin yanvarında ruscaya çevirib, "Кавказ" qəzetinə təqdim edibdir. Mirzə Fətəlinin həm 1853-cü ildə rusca nəşr olunmuş komediyalar məcmuəsinin, həm də "Təmsilat"ın "Hekayəti-molla İbrahimxəlil kimyagər"lə başlanması isə, belə bir qəti qənaətə gəlməyə imkan verir ki, o, "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasından əvvəl, məhz 1850-ci ildə qələmə alınmışdır.

"Hekayəti-molla İbrahimxəlil kimyagər" komediyası ilk dəfə müəllifin tərcüməsində rus dilində, 1851-ci ildə "Кавказ" qəzetinin 12,15 iyun tarixli nömrələrində (№44, 45) dərc olunmuşdur.

Mirzə Fətəli "Hekayəti-molla İbrahimxəlil kimyagər" komediyasının süjetinin XIX əsrin 30-cu illərində, öz doğma vətəni Şəki (Nuxa – N.M.) şəhərində həqiqətən baş vermiş real bir hadisədən götürmüşdür. Əsərin baş qəhrəmanı Molla İbrahimxəlil kimyagər də XIX əsrin birinci yarısında Şəkidə yaşamış, real bir şəxsiyyətdir. Bu barədə ilk məlumat maarifçi

dramaturq Rəşid bəy Əfəndiyevin (1863-1943) ədib haqqında xatirələrində verilmişdir.

Çar hökuməti Zaqafqaziyanın Rusiyaya ilhaqını başa çatdırdıqdan və İran, həmçinin Türkiyə ilə aparılan müharibələrdə qələbə çaldıqdan sonra, yeni istila etdiyi torpaqlardan, bir xammal mənbəi kimi istifadə etmək üçün, müəyyən hazırlıq işləri görməyə başlamışdı. Bu məqsədlə, o, bir qrup mütəxəssisi – mühəndis, iqtisadçı, etnoqraf və jurnalistləri buraya ezamiyyətə yollamışdı. Çar məmurlarını ən çox Zaqafqaziyanın faydalı qazıntıları maraqlandırırdı. Rəşid bəy Əfəndiyevin verdiyi məlumata görə, bu zaman "Nuxa" qəzasında Molla İbrahimxəlil adlı bir aferist zərgər, kimya xülyasına qapılaraq yalnız avam xalqı deyil, çar hökumətinin yerli işçilərini də aldatmağa müvəffəq olmuşdu.

Molla İbrahimxəlil bir qədər gümüşü qumlu torpağa qatıb, sərdar dəftərxanasına gətirir. Bir ərizə ilə sərdara müraciət edərək, Xaçmaz dağlarında gümüş mədəni tapdığını bildirib, həmin mədəni işlətməyə icazə istəyir və hökümətdən maddi yardım tələb edir. Sərdar, Molla İbrahimxəlilin gətirdyi qarışıq torpağı müayinə üçün Peterburqa göndərir. Müayinə nəticəsində torpağın içərisində əlli faiz gümüş olduğu aydınlaşdığından, haman mədəni işlətmək üçün hökumət Molla İbrahimxəlilə icazə və dörd min manat da para verir. Molla İbrahimxəlil icazə aldıqdan sonra gedib, bir müddət Xaçmaz dağlarında çadır qurub oturur. Hər tərəfdən pullu tacirlər bunun yanına gəlirlər. Molla İbrahimxəlil isə yanına saçlı-naçaqlı bir dərviş alıb, iksir ilə torpağı gümüşə döndərmək haqqında mövhumatlar yayıb, xalqın başını qarışdırırdı. Beləliklə, az bir zaman içərisində, Molla İbrahimxəlil çox para yığdı. (Rəşid bəy Əfəndiyev. Mirzə Fətəli haqqında bildiklərim və eşitdiklərim. – "İnqilab və mədəniyyət" jurnalı, 1928, №3).

Görkəmli ədib və dramaturq Ə.Haqverdiyev də "M.F.Axundzadənin həyat və yaradıcılığı" adlı məqaləsində, bu faktın dürüst olmasını təsdiq etmişdi: "Mən deməliyəm ki, Axundzadənin komediyalarındakı tiplər uydurulmamışdır, bilavasitə həyatdan götürülmüşdür. Komediyalarda verilən şəxslər həqiqətən həyatda yaşamışlar. Hacı Qaranın nəvələri indi də Ağdam qəzasının Ağcabədi kəndində yaşayırlar. Molla İbrahimxəlil kimyagərin nəvəsi ilə mən Tiflisdə tanış olmuşam. O, orada həvəskar artist idi" (Bax: Azərbaysan Dövlət Universitetinin əxbarı", 1928-ci il, III cild, səh. 12).

Son zamanlarda əldə edilmiş materiallar R.Əfəndiyevin və Ə.Haqverdiyevin mülahizələrinin düzgün olduğunu aydın sübut edir.

Gürcüstan Dövlət arxivində saxlanılan bir sənəddə Molla İbrahimxəlil haqqında müfəssəl məlumat mövcuddur. Bu sənəddən aydın olur ki, xaçmazlı İbrahimxəlil 1831-ci ildə Tiflisə gəlib, Xaçmaz dağlarında gümüş

mədəni tapması haqqında Qafqazın baş hakiminin dəftərxanasına yazılı məlumat və tərkibində gümüş olan bir qədər torpaq təqdim edir. "Həmin torpaq İbrahimxəlilin iştirakı ilə tədqiq olunur. Kimyəvi analiz göstərir ki, bu torpaqda çox az miqdarda gümüş vardır və mədən istismar üçün əlverişli deyildir" (ГИА Грузинской Республики, фонд 2, M.I, д. 2633, 1831-1832).

1850-ci ildə "Кавказ" qəzetində dərc edilmiş bir məqalədə də Molla İbrahimxəlilin real bir şəxsiyyət olması faktına rast gəlirik. Qafqazda faydalı qazıntıların öyrənilməsi sahəsində aparılan kəşfiyyat işlərinin nəticələrinə həsr olunmuş bu məqalədə belə bir məlumat verilir ki, Qafqazın faydalı qazıntılarının tədqiqi sahəsində, rus mütəxəssisləri qızğın kəşfiyyat işləri apardıqları zaman, yerli əhali içərisindən bir neçə şəxs (məqalədə həmin adamların adı çəkilir – tərtibçi) Qafqazın baş hakiminin dəftərxanasına müraciət edərək, mis və gümüş mədənləri tapdıqlarını bildirmişdilər. Həmin adamlardan biri də İbrahimxəlil adlı bir nəfər olmuşdur. Qəzetdə onun barəsində bu sətirlər yazılmışdır: "Gəldək və Daşazılı kəndləri keçmiş Şamaxı əyalətində, indiki Şəki qəzasındadır (Həmin kəndlər indi Oğuz rayonuna daxildir-tərtibçi). Bu qəzanın Armyanit kəndinin sakini İbrahimxəlil Abdulla Rəhim oğlu 1831-ci ildə Gürcüstanın ali baş komandanlığına xəbər verir ki, o, adları çəkilən kəndlərin yaxınlığındakı dağlarda gümüş mədəni tapmışdır. Bu barədə dağ ekspedisiyasına məlumat verilmiş, lakin işdən görünür ki, həmin mədənin tədqiqi sahəsində ekspedisiya o zaman heç bir tədbir görməmişdir; mədənin sonralar da bir kəs tərəfindən tətqiq olunması barədə, burada heç bir məlumat yoxdur (Bu barədə bax: "Кавказ", 1850, №39, 41, 42, 43).

Təbiidir ki, M.F.Axundzadə bu real hadisəni olduğu kimi, heç bir dəyişiklik etmədən əsərinə köçürməmişdir. O, bu hadisə üzərində yaradıcı iş aparmış, həyat həqiqətini böyük ustalıqla bədii sənət həqiqətinə çevirməyə nail olmuş və onun əsasında Azərbaycan həyatının geniş real mənzərəsini əks etdirən, dərin ictimai məzmuna malik olan satirik bir komediya yaratmışdır.

[1] *Kəldək* – Oğuz rayonunun kəndlərindən biridir.

[2] *Samux* – Oğuz rayonunun kəndlərindən biridir.

[3] Bu il, miladi tarixlə 1832-ci ilə düşür. M.F.Axundzadə şəxsən özü 1853-cü ildə rus dilində nəşr olunmuş komediyalar məcmuəsində verdiyi qeyddə, bu tarixi may 1832-ci il göstərmişdir.

[4] *Xaçmaz* – Oğuz rayonunun kəndlərindən biridir.

[5] Müsəlmanların müqəddəs kitabı Quran nəzərdə tutulur.

[6] *Qarun* – Bənn-İsraildə var-dövləti ilə məşhur olmuş bir şəxs. Şərq ədəbiyyatında o, böyük dövlət, sərvət sahibi, simvolu kimi işlənmişdir.

[7] *Şeyx Sədi* (*1184-1291*) – klassik fars ədəbiyyatının görkəmli nümayəndəsidir.

[8] "Təmsilat"da M.F.Axundzadə özü Sədinin şerini aşağıdakı kimi tərcümə etmişdir.

Bahar günüdür, qalx, tamaşaya gedək.
Dünyaya etibar yoxdur: kim bilir, bir də bahar gələcəkmi?
Qalx, bahar küləyinin hərəkətini, quşun
Mövzun nəğməsini, laləzarın xoş qoxusunu qənimət bil.
Yaşıl ağacların yarpaqları ağıllı şəxsin nəzərində
Allahın varlığına birər dəftər səhifəsidir.

[9] *Övrad* – əzbərdən duanı, Quran ayələrini təkrar-təkrar oxumaq.

[10] "Çullu həkim" real bir şəxsiyyət olub. Mirzə Fətəli "Təmsilat"ı fars dilinə tərcümə edən cənubi azərbaycanlı Mirzə Məmməd Cəfərə 1871-ci il martın 25-də göndərdiyi məktubda onun haqqında aşağıdakı məlumatı vermişdir: "həkim çullu"... "biyabani" (çöllü) demək deyildir. Çul türk dilində atın belinə salınana deyirlər. Rəvayətə görə, 90 il bundan əvvəl dərviştəbiətli həkim səyahət məqsədilə İrandan Nuxaya (indiki Şəkiyə) gəlmiş və bir müddət bu şəhərdə qalmışdı. Onun təbabətdə və bir sıra qəribə elmlərdə, guya, tam məharəti varmış. Onun adı bu şəhərdə və onun ətrafında məşhurdur. Həmişə çula büründüyünə görə "Çullu həkim" adı ilə şöhrət tapmışdır. Yəni çul və ya kəpənək geyinən həkim. Nuxa camaatı hələ bu günə qədər həmin həkimi kimya sirlərini bilən bir adam kimi zənn edirlər" (M.F.Axundzadə. Əsərləri, Bakı, 1962, III cild, s. 245).

## "HEKAYƏTİ-MÜSYÖ JORDAN HƏKİMİ-NƏBATAT VƏ DƏRVİŞ MƏSTƏLİ ŞAH CADUKÜNİ-MƏŞHUR"

(səh.45-68)

"Hekayəti-müsyö Jordan, həkimi-nəbatat və dərviş Məstəli şah, cadukuni-məşhur" komediyasının əlyazma nüsxələrində və "Təmsilat"da onun yazılma tarixi hicri 1267-ci il göstərilmişdir. Qeyd etdiyimiz kimi, bu il miladi tarixilə 1850-1851-ci illərə müvafiq gəlir. Lakin komediyanın rusca tərcüməsinin "Кавказ" qəzetinin 1851-ci il, 23, 27 fevral və 2 mart tarixli nömrələrində dərc olunmasına əsasən demək olar ki, o, 1850-ci ildə yazılmışdır.

"Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah" komediyası M.F.Axundzadənin səhnədə oynanılmış ilk dram əsəridir. O, 1852-ci ilin əvvəllərində Peterburqda ev teatrlarından birində həvəskar

artistlər tərəfindən tamaşaya qoyulmuşdur. Tamaşa çox uğurla keçmişdir. Komediyanın tamaşaya hazırlanması və müvəffəqqiyyətlə keçməsi barədə "Библиотека для чтения" jurnalında, M.F.Axundzadənin pyeslərinə həsr edilmiş məqalələrdə dürüst məlumat mövcuddur (Bax: "Библиотека для чтения", 1851, cild №10, bölmə VI, noyabr, səh.15-21; Yenə orada, 1852, cild 112, bölmə VI, aprel, səh. 214-239).

[1] Müsyö Jordan real tarixi şəxsiyyətdir. Aleksis Jordan (1814-1879) həqiqətən görkəmli fransız nəbatat alimi olmuşdur.

M.F.Axundzadə real prototip əsasında Qərbi Avropa alimlərinin bədii obrazını yaratmışdır.

[2] Min iki yüz altmış üçüncü il miladi tarixlə 1847-1848-ci illərə düşür. 1853-cü ildə rus dilində nəşr olunmuş komediyalar məcmuəsində M.F.Axundzadə özü bu tarixi 1848-ci il kimi göstərmişdir. Bu həqiqətə daha uyğundur, çünki əsərdə Məstəli şahın guya Parisi dağıtması əhvalatı 1848-ci il, fevral inqilabı günlərində baş verir.

[3] *Karl Linney* (*1707-1778*) – məşhur İsveç təbiətşünası və naturalistidir.

[4] *Jozef Pitton de Turnefor* (*1656-1708*) – görkəmli fransız nəbatat alimi və səyyahıdır. O, Paris Elmlər Akademiyasının üzvü olmuşdur.

[5] *Bertram Djon* – XVIII əsrdə yaşamış görkəmli Amerika nəbatat alimlərindən biridir.

[6] *Georq Qlliford* – İngiltərənin Hollandiyada səfiri olmuşdur. O.Linneyi öz himayəsi altına almışdı.

[7] M.F.Axundzadə burada Aleksis Jordanın nəbatat elmi sahəsində fəaliyyətinin dürüst, obyektiv qiymətini vermişdir. Həqiqətən, keçən əsrin ortalarında A.Jordan əsərlərində adlarını çəkdiyi bu təbiətşünas alimlərlə mübahisə aparmış və bitkilərin növü haqqında yeni nəzəriyyə irəli sürmüşdür. Onun bu nəzəriyyəsi Fransada deyil, bütün Avropa ölkələrində bir müddət geniş yayılmışdı. "Jordanizm" adı altında məşhur olan bu nəzəriyyə, sonralar materialist təbiətşünaslar tərəfindən idealist bir baxış kimi, ciddi tənqid olunubdur.

M.F.Axundzadə tərəfindən fransız nəbatat aliminin elmi fəaliyyətinin dəqiq qiymətləndirilməsi göstərir ki, o, bu illərdə böyük səylə təbiətşünaslıq elmlərini öyrənirmiş.

[8] *Mərrix* – Mars planeti. Qırmızı qan rəngində görünən Mərrix (Mars)qədim mifologiyada "müharibə ilahəsi" mənasında işlədilmişdir. M.F.Axundzadə rus dilində nəşr olunmuş pyesləri məcmuəsində (1853) Mərrix ulduzu sözünə belə bir qeyd verib: "Şərq ölkələrində bu ulduz əlində siyirmə qılınc tutmuş adam şəklində təsəvvür olunur. Cadugərlər ondan öz bəd əməllərini həyata keçirmək üçün istifadə edirlər".

[9] Tərcüməsi: "Nə etmək istəyirsiniz?"

[10] Tərcüməsi: "Parij şəhərinin heykəlini qurmaq istəyirəm ki, divlərə və ifritələrə hökm edim, bu qadının gözü qabağında bu heykəli alt-üst edincə Parij şəhərini də göz qırpınca alt-üst etsinlər".

[11] Tərcüməsi: "Nə səbəbə?"

[12] Tərcüməsi: "Yüz dənə təzə bacaqlı səbəbinə ki, indi bu xanımdan bu işdən ötrü alacağam".

[13] Tərcüməsi: "Yaxşı, bu xanımın Fransa paytaxtı və xalqı ilə nə düşmənçiliyi var?".

[14] Tərcüməsi: "Bu hekayət çox uzundur, indi danışmaq yeri deyil, taxta-paraları xurcundan çıxart!"

[15] Tərcüməsi: "Bu saat, amma ağlıma sığmır ki, bu çətin iş düzələ, bilmirəm, zarafat edirsən ya yox. Göz qırpınca Parij xarab ola, nə deməkdir?"

[16] Tərcüməsi: "A kişi, necə yəni, nə?! Əlan bu böyük xanım bu iş üçün mənə yüz dənə təzə bacaqlı verəcəkdir və on gün də cadunun əsər etməsi üçün vaxt var. Bir adam da bu sirri bilmir və bilməyəcək də. Bacaqlıları alandan sonra əl-ayaq açmışam – on günə qədər özümü Arazın o tayına sala bilərəmmi? Məni orada kim tapacaqdır? Məndən sonra hər nə olursa-olsun. On günə Parij xarab olsa, danışıqsız bacaqlılar həzmi-rabedən keçəcəkdir. Sən nə bilirsən, bəlkə o vaxtadək bəzi səbəblərdən Parij xarab ola. Məgər belə qəribə işlər dünyada az törəmişdir?".

[17] Tərcüməsi: "Bu axırıncı fəqərəni qətiyyən ağlım qəbul etmir, xam xəyaldır".

[18] Tərcüməsi: "Yaxşı keçmiş fəqərəni ağlın qəbul edirdimi? O da xam xəyal deyildimi?".

[19] Tərcüməsi: "Bəli, onda nə şübhə var!"

[20] Tərcüməsi: "Yaxşı hissələrimi faydasız suallarla qarışdırma! Atların yanına get, gözlə! Mən də bir saat sonra işimi qurtarıb gələrəm, minib qayıdarıq".

[21] Tərcüməsi: "Bu qadın tayfası nə yazıq və sadəlövhdürlər, düşünüb daşınmadan inanırlar ki, mən Qarabağda oturub Pariji bir anda alt-üst edəcəyəm və ya mənim Mərrixim Arazın o biri tərəfində Müsyö Jordanın boynunu vura bilər".

[22] *Hacı Mirzə Ağası* – XIX əsrin 30-40-cı illərində, Məhəmməd şahın hakimiyyəti dövründə (1834-1848) İranda sədrəzəm, baş nazir olmuşdur. O, İran tarixində mürtəce rol oynayan müstəbid, məhdud düşüncəli, acgöz, fanatik bir dövlət nümayəndəsi kimi tanınmışdır. Məhəmməd şah vəfat edən (1848) kimi vəzifədən kənar edilmiş və Abbasabad şəhərinə qaçmışdır.

[23] Tərcüməsi: "Biz bu Əli şahın qullarıyıq,
Bütün sirrlərinə bələdik.
Nə maaş, nə cirə, nə yem istəyirik,
Allaha yaxın olmaq üçün nökərik".

[24] XIX əsrin 30-40-cı illərində İranla Herat xanlığı, eləcə də Herat şəhəri üstündə İranla Əfqanıstan və İranla İngiltərə arasında konflikt baş vermiş, müharibə getmiş və İngiltərənin müdaxiləsi sayəsində bu müharibələr İran üçün uğursuz olmuşdur. M.F.Axundzadə də dərvişin dili ilə buna işarə etmişdir. Yeri gəlmişkən qeyd edirik ki, ədib "Aldanmış kəvakib" povestinin sonunda da bu məsələyə toxunmuşdur (Bu barədə "Aldanmış kəvakib" povesti haqqında şərhlərdə bəhs olunacaqdır – *tərtibçi*).

[25] *Rüstəm* – İranın qədim tarixi-əfsanəvi qəhrəmanı. Klassik İran ədəbiyyatının görkəmli nümayəndəsi Firdovsi öz məşhur "Şahnamə" poemasında onun qəhrəmanlığını tərənnüm etmişdir.

[26] *Şihabi-saqib* – axan ulduz, meteorit. M.F.Axundzadənin özü komediyasını rus dilində dərc etdirərkən bu sözə belə bir şərh vermişdir. "Müsəlman xalqları uçan ulduzları "Şihabi-saqib" adlandırırlar. Onların əqidəsinə görə, o, yerə düşən zaman Allah iradəsinə qarşı çıxan şeytan və cinləri məhv edir" (Bax: "Кавказ" qəzeti, 1851, №17).

[27] *Əqrəb bürcü* – keçmiş astronomiya elminə görə, günəş dairəsi on iki hissəyə, bürcə – ulduzlar toplusuna bölünür. Əqrəb bürcü bunlardan səkkizincisidir. Şərq astroloqlarının fikrinə görə, bu bürc hansı yerə yaxın olarsa, mütləq orada fəlakət baş verər. M.F.Axundzadə dərvişin bu sözləri ilə Fransada tez-tez inqilab baş verməsinə işarə etmişdir.

[28] Bu parça dərvişlər və cadugərlər tərəfindən oxunur, mənasını təyin etmək mümkün olmadı.

[29] *Tülyeri* – Fransa kralının sarayı, burada dövlət mənasında işlənmişdir.

[30] Tərcüməsi: "Ey Parijin xatirəsi! İlahi, ilahi!".

[31] Tərcüməsi: "Ey Parijin xatirəsi!" "Ey Tülyerin xatirəsi!"

[32] Tərcüməsi: "Bu faciədir, ilahi, ilahi!"

[33] *Lui Filipp* (1779-1850) – Fransa kralı, 1848-ci il inqilabı zamanı hakimiyyətdən salınmışdır.

[34] Tərcüməsi: "İlahi, ilahi!"

[35] Tərcüməsi: "Ey Parijin xatirəsi!" "Tülyeri! İlahi bu faciədir!"

[36] Tərcüməsi: "Tülyeri! İlahi, ilahi!"

[37] M.F.Axundzadə Xanpərinin dili ilə Fransa inqilabının başqa ölkələrə təsiri məsələsinə işarə etmişdir.

## “HEKAYƏTİ-XIRSİ-QULDURBASAN”

(səh.69-97)

“Hekayəti-xırsi-quldurbasan” komediyası M.F.Axundzadənin dördüncü dram əsəri hesab edilib, onun sovet dövründə nəşr olunmuş üççildlik əsərlərinin birinci cildinə, eləcə də həm Azərbaycan, həm də rus dilində nəşr olunmuş “Seçilmiş bədii əsərləri”nə “Vəziri-xani-Lənkəran”dan sonra salınmışdır. Lakin müəllif özü komediyalarının, həm 1853-cü il rusca nəşrində, həm də “Təmsilat”da onu “Müsyö Jordan və dərviş Məstəli şah”dan sonra və “Sərgüzəşti-vəziri-xani-Lənkəran”dan əvvəl vermişdir. Son illərin araşdırmaları nəticəsində bu dolaşıqlığı doğuran səbəb dəqiq aydınlaşdırılmışdır.

M.F.Axundzadə “Təmsilat”da “Hekayəti-xırsi-quldurbasan” komediyasının yazılma tarixini, hicri 1268-ci il göstərmişdir. Pyesin Azərbaycan EA Respublika Əlyazmalar Fondunda olan əlyazmalarında isə bu tarix daha da dürüstləşdirilmiş, onun hicri 1268, miladi tarixlə isə, 1852-ci ilin 17 yanvarında tamamlandığı göstərilmişdir. Tərtibçilər də bu tarixi əsas götürüb, onu hər üç nəşrin birinci cildində, 1851-ci ildə yazılmış “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyasından sonra vermişlər. Lakin “Hekayəti-xırsi-quldurbasan” komediyasının rus dilində tərcüməsi hələ 1851-ci ildə, “Кавказ” qəzetinin 3 oktyarbr, 2, 9, 27 və 30 noyabr (№83, 84, 86, 90, 91) nömrələrində dərc olunub. Bu aşkar göstərir ki, M.F.Axundzadə komediyanı 1851-ci ilin birinci yarısnda yazmış və onu rus dilinə çevirərək, “Кавказ” qəzetində dərc etdirmişdir. Məhz buna görə də o, bu pyesini həm dram əsərlərinin rusca nəşrinə, həm də “Təmsilat”a “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyasından əvvəl daxil etmişdir. Bu nəzərə alınaraq yeni nəşrdə də “Hekayəti-xırsi-quldurbasan” komediyası, M.F.Axundzadənin üçüncü dram əsəri kimi verilmişdir.

Tərtibçi eyni zamanda “Xırsi-quldurbasan” komediyası ilə bağlı olan ikinci bir mühüm məsələni də oxuculara çatdırmağı vacib saymışdır.

“Xırsi-quldurbasan” komediyasının “Кавказ” qəzetində dərc olunmuş nüsxəsini, onun həm 1853-cü il rusca nəşrinə, həm də “Təmsilat”a salınmış nüsxələri ilə müqayisə etdikdə aşkar edilmişdir ki, onlar arasında çox ciddi fərqlər vardır. Əslində “Кавказ”da çap olunan nüsxə əsərin ilk, birinci variantıdır. Onun nə rus dilində, nə də Azərbaycan dilində əlyazması hələlik tapılmamışdır. Kitab nəşrlərinə salınmış nüsxələr isə, komediyanın ikinci variantıdır. Həmin variantın rusca nəşrinin (1853) əvvəlində belə bir qeyd verilmişdir ki, komediya səhnə üçün qraf V.A.Sollo-

qub tərəfindən işlənilmişdir. Rus liberal ədiblərindən olan Solloqub bu illərdə Tiflis rus teatrının direktoru vəzifəsini ifa edirdi.

"Hekayəti-xırsi-quldurbasan" komediyasının hər iki variantının birinci və ikinci pərdələri əsasən bir-birinə tam uyğun gəlir. Qalan üç pərdə arasında isə kəskin fərqlər mövcuddur. Bu fərqlərin Axundzadənin dram yaradıcılığını öyrənmək üçün, böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq komediyanın ilk variantının 3-cü, 4-cü və 5-ci pərdələrinin tərcüməsi yeni nəşrdə tam verilir. Tərcüməci Nadir Məmmədovdur.

## "XIRSİ-QULDURBASAN"

*Mirzə Fətəli Axundzadənin təmsili*

### III

Məclis iki gün sonra, yenə Namazın evində baş verir. Gecənin yarısıdır. Südlü plov ocağın üstündədir. Zalxa əri ilə oturubdur.

Z a l x a . Namaz, Tarverdini qızışdırıb quldurluğa yola saldıq. Qorxuram ki, onu öldürələr, biz də bəlayə düşək.

N a m a z . Ay zalım qızı! Niyə əvvəlcədən ürəyinə qorxu düşmədi? İndi iş-işdən keçib, qorxmağa başlamısan?

Z a l x a . İnəyə tamahlandım, ağlıma gələni söylədim, cavan oğlanı aldadıb quldurluğa yolladım. İndi elə bil yuxudan ayılmışam.

N a m a z . Hərzə-hərzə danışma! Dur get, Bayramı bura çağır, əgər bu gecə Tarvedi qayıtmasa, görək nə edirik (*Zalxa gedir. Namaz yalqız öz-özünə deyir*). Əcəb işə düşdük! Uşaqlar təcrübəsizdirlər, ola bilsin ki, tutulsunlar və desinlər ki, onları quldurluğa mən sövq etmişəm. Onda kürd atı bir yana qalsın, öz mal-qaram da əlimdən çıxar. Atalar doğru deyiblər: çox istəyən azdan da olur.

Bayram və Zalxa daxil olurlar.

B a y r a m . Namaz, kim azdan da olar?

N a m a z . Mən.

B a y r a m . Niyə axı?

N a m a z . Bax belə. Kürd atından ötəri Tarverdini, Vəlini və Orucu qızışdırıb quldurluğa yolladım. Əgər ələ keçsələr, şəksiz, məni də işə salacaqlar, məni tutacaqlar, mal-qaram da əlimdən çıxacaq.

B a y r a m . Boş şeydən ötəri fikir eləmə. Sənin üzünə şahid dursalar da, hər şeyi boynundan atarsan. Sübut, dəlil olmadan səni necə həbs edə bilərlər? Qorxma!

N a m a z . Hə, düz deyirsən.

B a y r a m . Bir də, haradan bilirsən, bəlkə də mal-dövlətlə qayıtdılar.

N a m a z . Ağlım kəsmir, üçünün də əlindən bir şey gəlməz; əgər tutulmasalar, əliboş qayıdacaqlar.

B a y r a m . Fərqi yoxdur, hər iki halda biz məqsədimizə çatacayıq!

Birdən it hürüşməsinin, at kişnəməsinin səsi eşidilir.

N a m a z . Zalxa, çıx bax gör, gələnlər uşaqlardırmı?

Z a l x a (*Evdən çıxır və tez qayıdır*). Namaz! Gəlirlər, gəlirlər.

N a m a z . Bayram, tez yükün dalında gizlən.

Bayram yükün dalında gizlənir, Vəli və Oruc daxil olurlar. Onlar yaranlanmış Tarverdini də özləri ilə gətirirlər.

N a m a z . Bu nə deməkdir? Yoxsa Tarverdi yaralanıbdır?

V ə l i . Özün görürsən də.

N a m a z . Zalxa, tez get, Molla Şabanı bura çağır. O, yara sağaltmağı bacarır. Qoy gəlib Tarverdinin yarasına baxsın. Əmim oğlu Nəcəfi də bura çağır. (*Zalxa gedir*).

N a m a z . Vəli, Oruc, danışın görək başınıza nə iş gəlib?

V ə l i . Qoy, Tarverdi özü danışsın.

N a m a z . Tarverdi, danış görüm, səni kim yaralayıb? Başına nə iş gəlib?

T a r v e r d i . Yorulmuşam, qoy bir balaca nəfəsimi alım.

N a m a z . Güllə ilə yaralanmışsan, ya qılıncla.

T a r v e r d i . Nə güllə ilə, nə də qılıncla!

N a m a z . Bəs nə ilə?

T a r v e r d i . Əhvalat lap qəribədir. Allah göstərməsin ki, bir Allah bəndəsinin başına belə bir iş gəlsin! Əgər danışsam, təəccübdən mat qalacaqsınız!

N a m a z . Allahı sevirsən, tez danış görək başına nə iş gəlib?

Molla Şaban, Namaz və Zalxa daxil olurlar.

M o l l a Ş a b a n . Salam-əleyküm. Nə var Namaz, Tarverdiyə nə olub?

N a m a z . Sizdən nə üçün gizləyək. Cavanlıqda adamı şeytan tez yoldan çıxardır. Tarverdi, Vəli və Oruc məndən xəbərsiz – əlbəttə, əgər mən bilsəydim, heç vəchlə onları qoymazdım – bu həftə çaharşənbə günü

arana quldurluğa getmişdilər, indi, Allaha şükür, malsız-pulsuz qayıdıblar, ancaq deyəsən Tarverdi nə iləsə yaralanıb, başına çox qəribə bir əhvalat gəlib, hələ mənə danışmayıbdır.

Molla Şaban. Ay Tarverdi, sən imam qəbrini ziyarət etmiş bir Məşədi oğlusan, heç sənə belə işlər tutmaq yaraşarmı? Yaxşı, danış görək, başına nə iş gəlib, sonra sənin başına mən ağıl qoyaram.

Tarverdi. Çaharşənbə günü biz Tavuz dərəsində poşt yolunun üstünə getmişdik, kolluqda qaranlıq düşənə qədər gözlədik. Poşt yoluna çıxanda yenicə keçmiş araba təkərinin izinə rast gəldik. Birdən Tiflis tərəfdən gələn arabanın səsi eşidildi, o saat çaxmağı hazırladıq, araba bizə yaxınlaşanda tüfənglərimizin tətiyini çəkdik və arabanın üstündən güllə atdıq. Çox qəribədir, atın birinə güllə dəydi, araba dayandı, bir adam ondan düşüb qaçdı, arabaçı da kolluqda gözdən itdi. Oruc atları tutdu, mən Vəli ilə tez əldə qılınc arabaya hücum çəkdik, onun üstünə çıxdıq, qaranlıqda gözümüzə iri bir sandıq sataşdı. Biz onu yerə saldıq. Mən Vəliyə dedim ki, sən arabadakı şeyləri yığ, özüm də qılıncla sandığın qapağını sındırmağa başladım. Bir neçə zərbədən sonra sandığın qapağı bir tərəfə düşdü, o dəqiqə-ay allah, indi də yadıma düşəndə tüklərim biz-biz olur! – O dəqiqə böyük bir ayı mənim yaxamdan yapışdı, tutdu və yerə yıxdı. Sonra bilmirəm, başıma nə iş gəldi, qoy dalını Vəli danışsın.

Zalxa, Namaz, Nəcəf (*bir ağızdan*). Böyük Allah, qadir Allah! Bu nə sirrdir? Vəli, danış görək.

Vəli. Axırı belə oldu. Tarverdi sandığın qapağını sındıranda, mən təzədən arabaya çıxdım, yenə bir sandığa toxundum. Əlimi atdım ki, sandığı yerə tullayım, əlim birdən elə bil dəmir məngənəyə keçdi; ay aman, barmaqlarımı nə isə elə bərk dişlədi ki, ağrıdan az qaldı ürəyim getsin! Arabada elə bir hay-küy qalxdı ki, az qaldı qorxudan dəli olam. Sonra bir təhər əlimi xilas edib, arabadan düşdüm və dalıma baxmadan, qaçmağa başladım. Bir az qaçdıqdan sonra bir təhər özümü ələ aldım və qulaq asmağa başladım, görək Tarverdiyə nə olub: nə səs var, nə səmir. Özümü toxdadıb, onun yanına qayıtdım. Nə görsəm yaxşıdır? O, ölü kimi tir-tap yerə sərilmişdir, nəfəsi gəlmir. Fit çalıb Orucu çağırdım, Tarverdini yerdən qaldırıb, atın üstünə oturtdum, sonra dərə ilə geri qayıtdım. Artıq məni nə araba, nə də mal-dövlət maraqlandırırdı. Səhərə yaxın yaralı Tarverdi qan-tər içində ayıldı. Gündüz köhnə qalanın üstündə bir az yorğunluğumuzu aldıq, axşam atlanıb bütün gecəni yol gəldik, nəhayət bura gəlib çıxdıq. Bizim başımıza gələn əhvalat budur.

Namaz. Nəcəf, bu əhvalatdan nə başa düşdün?

N ə c ə f. Qoy molla desin görək bu nə sirrdir? Mən bir şey başa düşə bilmədim. Nə üçün ayı arabada sandığın içində olsun. Özü də bir ayı yox. Yəqin ki, hər sandıqda bir ayı varmış. Yox, bunu da demək çətindir: əgər yolçu tacir imişsə, onda bəs onun malı yalqız ayılardan ibarət imiş? Bu harda görünübdür? Qoy molla desin, görək bu nə sirrdir?

M o l l a  Ş a b a n (*təkəbbürlə*). Ay səfehlər, nə vaxta qədər nadan olub qalacaqsınız? Nə vaxta qədər belə əhvalatlar sizə bir sirr olaraq qalacaqdır. Bunu ağıllı bir uşaq da başa düşə bilər. Məgər, siz bu diyarın keçmiş sakinləri ola-ola bilmirsinz ki, Əli Sultanın vaxtından, Tavus dərəsində şəyatinlər yurd-yuva salmışlar. Əgər çaharşənbə günü bir müsəlmanın ayağı ora düşsə – bu gün onların yığınağı olur – onda onlar adamla zarafatlaşmağı daha çox sevir və başına bir qəziyyə açmadan buraxmırlar. Tarverdi və onun yoldaşlarının başına da belə bir iş gəlibdir; onlar çaharşənbə günü Tavuz dərəsinə getmiş, araba, meymun şəklinə düşmüş şəyatin yığınağına rast gəlmişlər. Şəyatinlər də onların başına bu oyunu açmışlar. İndi gərək Tarverdiyə dua yazam, yoxsa onun başına hava gələ bilər.

N a m a z . A molla, şəyatinlər bir dəqiqənin içində o qədər ayını haradan tapdılar ki, bizim uşaqlara görüküblər?

M o l l a  Ş a b a n . Ha, ha, ha! Bax, bisavad olmaq belə şeydir... Nə əcəb bu vaxta qədər bir dəfə də olsa eşitməmişsiniz ki, şəyatinlər mələklər kimi hər şəklə: adam, meymun, tülkü, hətta donuz və it şəklinə düşə bilərlər, ancaq mələklər donuz və itə çevrilə bilməzlər.

N a m a z . Şəksiz-şübhəsiz, belədir, ancaq mən qorxuram ki, divanbəyi bu əhvalatı eşitsin, uşaqların ayı şəklinə düşmüş şəyatinlərə rast gəlməsinə inanmasın və boş yerdən gəlib sorğu-sual aparsın, Tarverdi barədə iş açsın.

M o l l a  Ş a b a n . Nə danışırsan? Məgər şəyatinlər gedib şikayət edəcəklər ki, Tarverdi onlara hücum çəkib?

N a m a z . Şəyatinlər yox, ancaq ola bilsin ki, bir adam Tarverdinin başına gələn qəzanı ona danışsın, o da bu boş danışıqdan bir iş çıxartsın. Məgər siz bilmirsiniz ki, divanbəyilər bizi göz bəbəyi kimi qoruyurlar.

M o l l a  Ş a b a n . Qoy gəlsin, mən əhvalatı necə varsa danışaram. O da sakit olub qayıdar. Bir də zənn etmirəm ki, o, bu məsələdən xəbərdar olsun. Bəli, yolda sizə bir adam rast gəldimi?

V ə l i . Qayıdan baş biz üç əmirliyə rast gəldik. Onlar sual etdilər ki, hardan gəlirik və nə üçün Tarverdi qan-tər içindədir? Oruc dedi ki, sizin nəyinizə gərək. Əgər soruşsalar ki, dəvə gördünüz, deyin ki, qığını da görmədik.

M o l l a  Ş a b a n . Gərək bu cür cavab verməyəydiniz. Yaxşı, ziyan yoxdur, qoy divanbəyi eşidib gəlsin, mən həqiqəti danışıb onu sakit edərəm.

N a m a z . Divanbəyi sizin söhbətinizə, doğru sözünüzə inanacaqmı?

M o l l a  Ş a b a n . Allahın köməyi ilə mən onu inandıraram, əgər o, o qədər sadəlövh deyil, belə şeylərdən baş çıxardır.

N a m a z . O, ağılsız adam deyil, ancaq deyirlər ki, bir az kardır.

M o l l a  Ş a b a n . Karlıq həqiqəti başa düşməyə mane olmaz.

Birdən Laçın Koxa daxil olur.

K o x a . Salam-məleyk, ağalar! Divanbəyi dilmancla və kazaklarla bu saat obaya gəldilər. Bütün kişiləri yanına çağırır. Mən dedim ki, kənddə cavanlardan başqa üç-dörd kişi var, qalanları arana taxıl sulamağa getmişlər. O, əmr etdi ki, kənddə olan bütün kişilər onun yanına gəlsinlər. Gəlin ora, mən Məşədi Qurbana da demişəm. Tarverdiyə nə olub, naxoşlamayıb ki?

M o l l a  Ş a b a n . Yox, naxoş deyil, ancaq şəyatinlər Tavus dərəsində onun başına oyun açmışlar.

K o x a . Yaxşı, gedin.

M o l l a  Ş a b a n . Ay, ay! Mən vaxtında Tarverdiyə dua yaza bilmədim, onun başına bəla gələcək. Vəli, Oruc, hələlik aparın onu anasının yanına, qoy yatsın. Koxa, gedək.

Tarverdinin qoluna girib anasının yanına aparırlır. Sonra Molla Şaban, Nəcəf və Koxa çıxırlar. Bundan sonra Bayram yükün dalından çıxır. Onun rəngi ağarmışdır, gözləri parıldayır.

B a y r a m . Namaz! Bu nə qəribə sirrdir?

N a m a z . Bir şey başa düşmədim. İndi danışmaq vaxtı deyil, mən də gedirəm (*gedir*).

B a y r a m . Şeytanlar da mənim məhəbbətimə kömək edirlər.

## IV

Məclis yüzbaşı Laçın koxanın evində vaqe olur. Divanbəyi Redkiy kürsüdə əyləşmişdir; onun yanında dilmanc Kamalov, küncdə kazak Matvey dayanmışlar. Kəndlilər daxil olub baş əyirlər.

D i v a n b ə y i (*Koxaya*). Koxa, sən rus dilini bilirsən. De görüm bu adamlar kimdir?

K o x a (*əli ilə bir-bir göstərərək ucadan*). Bu Molla Şabandır, obanın ruhanisidir. Bu Namazdır, bu Nəcəfdir, bu da Məşədi Qurbandır ki, bir dövlətli, hörmətli kişidir.

D i v a n b ə y i . Çoz lazımdır mənə onun dövləti! Siz əvvəlki divanbəyilərə öz adamlarınızı bu cür təqdim etməyə öyrənmişsiniz. Mən onlardan deyiləm. Bu adəti mən sizə tərgidərəm... Hansı şeytan bunu sizə öyrətmişdir.

K o x a . Vallah, mən kasıb adamam, heç bir şeytan-zad tanımıram.

D i v a n b ə y i . Əgər bir az öz adamlarınızı bu cür təqdim etsən, mən səni şeytanın yanına göndərrəm.

K o x a . Əmr sizindir.

D i v a n b ə y i (*dilmanca*). Bunları tərtib ilə hər kəsin mərtəbəsinə görə cərgəyə düz. Hansının mərtəbəsi artıqdır?

D i l m a n c . Ağa gərək bular hamısı elə bir mərtəbədədirlər.

D i v a n b ə y i . Xub, hansı ağıllı hesab olunur?

D i l m a n c . Belə bilirəm ki, hamısı elə bir ağılda olmuş olalar.

D i v a n b ə y i . Pərvərdigara! Axır birisi, əlbəttə, o birilərinə görə söz qanan, danışan olacaqdır ki, ona mütəvəcceh olub söz soruşam. Hamısı ilə ki, birdən danışmaq olmaz!

D i l m a n c . O surətdə gərək Molla o birilərindən söz qanan, danışan olsun; çünki rusicə də bir az bilir.

D i v a n b ə y i . Xub, mollanı başda qoy. (*Dilmanc əmri yerinə yetirir*) Molla, sözün axırınadək mənə diqqətlə qulaq as, sonra cavab ver.

M o l l a Ş a b a n . Baş üstə!

D i v a n b ə y i . Məmləkəti-xaricə əhlindən cənab Fok hafizi-canəvaran müxtəlif şəhərləri səyahət edirmiş. O, keçən mart ayının 16-da Tiflisə gəlir, üç ay burada yaşadıqdan sonra üç alman arabası tutur, öz heyvanlarını bu arabalara doldurur və Yelizavetopol yolu ilə Şamaxıya yollanır. Gecə ikən Tavus ilə Həsənsu stansiyaları arasındakı dərədə arabalardan biri beş verst geri qalır. Bu zaman üç quldur arabaya atəş açırlar. Quldurların atdıqları tüfənglərin gülləsindən araba atının biri ölüb, arabaçı Frans ağır surətdə ayağından yaralanıb, otuz il sahibinə xidmət edən bir qoca meymun həlak olub. Araba dayanır, arabaçı isə kolluğa qaçır. Arabaçının söylədiyinə görə, quldurlar əldə qılınc furqonun üstünə cumublar. Onların əlinə əvvəlcə içində Yengi Dünya ayısı olan sandıq düşüb; quldurlar sandığı yerə atır, qılıncla onun qapağını sındırırlar. Hirslənmiş ayı qəfildən quldurların birinin üstünə atılır. Bilmirəm, bu iş necə qurtarıb. Lakin quldurlar qaçıblar. Daşın üstündə qan izi qalıbdır. Ayı kolluğa tərəf yollanıbdır. Fok hadisədən xəbər tutur və stansiyada qalaraq o gecə bu məsələni mənə xəbər verir. Mən o saat adamları müxtəlif yerlərə göndərmiş, ayını tapdırmışam. İndi sərih xəbərlərə görə, məlum olur ki, bu iş

ittifaq düşən gündə üç atlını, yaraqlı-əsbablı Əli-Mərdanlı obasından aşağı gedəndə görüblər. Bişək, onlar sizin uşaqlardandır. Gərək quldurları bu saatda mənə verəsiniz. Yoxsa, sizin hamınızı bədbəxt elərəm.

Molla Şaban (*bərkdən*). Ağa, sən bir ağıllı adamsan ki, bu yekə mahalı sənə tapşırıblar.

Divanbəyi (*onun sözünü kəsərək*). Mənim ağlımla sənin nə işin var? Suala cavab ver!

Molla Şaban. Düşmənlər sənin qulluğuna xilaf ərz ediblər. Sən gərək heç vaxt belə quru nağıllara inanmayasan!

Divanbəyi. Necə quru nağıl? Mənim mahalımın ortasında aşkara quldurluq quru nağıldır?

Molla Şaban. Ağa, həqiqəti məndən soruş, doğruluq ilə ərz edim.

Divanbəyi. De, mən də elə onu istəyirəm.

Molla Şaban. Bizim obanın uşaqlarından bir neçəsi çaharşənbə günü arana taxıl sulamağa getmişdilər. Tavus dərəsində şəyatin yığınağına rast gəliblər. Şəyatinlər arabada gedirmişlər; Bular axmaqlıq edib, araba sarı tüfəng atıblar ki, cinlər qorxub qaçsınlar. Gərək idi bismillah deyəydilər; cinlərin acığı tutub, çün hər şəklə dönə bilirlər, ayı şəklinə dönüb, buların üstünə tökülüb dişləyiblər. İndi bizim düşmənlərimiz bunu bir nağıl qayırıb, cinlərin böyügünə Poq adını qoyub səni başdan çıxardırlar.

Divanbəyi (*acıqla*). A kişi sən nə qozqurursan?

Molla Şaban (*üzünü dilmanca tutub*). Anlamıram, ağa nə buyurur?

Dilmanc. Divanbəyi buyurur ki, sizdə qoz-fındıq çox olurmu?

Molla Şaban (*Namaza*). Anlamıram, ağa nə buyurur?

Namaz. Yəqin divanbəyi qoz-fındığı çox sevir.

Nəcəf. A, a! Bu işarədir... Necə yəni başa düşmürsünüz; məgər bunsuz iş keçər?

Məşədi Qurban. Molla, de ki, biz divanbəyiyə qulluq etməyə hazırıq.

Molla Şaban. A başına dönüm, divanbəyiyə ərz elə ki, elə bu dərənin adına Fındıqlı dərəsi deyirlər. Qozun, fındığın mədənidir. Allah qoysa, qoz çırpılanda, fındıq dəriləndə çuval-çuval qulluğuna gətirrik. Divanbəyinin layiqincə yolun görmək bizim başımız üstə.

Dilmanc (*divanbəyə rusicə*). Ağa, molla ərz edir ki, qoz, fındıq vaxtı çuval-çuval qulluğunuza gətirəcəklər və layiqincə yolunuza baxacaqlar.

Divanbəyi (*acıqla Molla Şabana*). Kişi, nə pərpuçat danışırsan?! Qoz, fındığı mən nə eləyəcəyəm? Mənim yolumun baxılmasına ehtiyacım yoxdur, quldurları verin!

M o l l a   Ş a b a n . Necə quldur?

D i v a n b ə y i . Necə, necə quldur? Bir saatdır səninlə danışıram, genə soruşursan necə quldur?

M o l l a   Ş a b a n . Axı mən də ərz elədim ki, uşaqlar heç kimin üstünə tökülməyiblər, ancaq şəyatin yığnağına rast gəliblər.

D i v a n b ə y i . Sən məhz cəfəngiyat danışırsan!

M o l l a   Ş a b a n . Ağa, siz dünya görübsünüz, heç ayının, meymunun, qurdun, çaqqalın arabaya minib şəhərdən-şəhərə səyahət etdiyini eşidibsinizmi?

D i v a n b ə y i . Məgər mən dedim ki, ayılar, meymunlar arabaya minmişdilər.

M o l l a   Ş a b a n . Bəs nə dediniz?

D i v a n b ə y i . Mən dedim ki, onların hafizi səyahət edirdi.

M o l l a   Ş a b a n . Faytonda?

D i v a n b ə y i . Yox, arabada.

M o l l a   Ş a b a n . Yalqız?

D i v a n b ə y i . Xeyr, öz canəvərlərilə.

M o l l a   Ş a b a n . Məgər o canəvərlər padşahıdır?

D i v a n b ə y i . Sənə lazım deyil, hər sualı eləmək, ağlına zor vermək!

M o l l a   Ş a b a n . Mən ağlıma zor vermirəm, amma ayı və meymun arabaya minib səyahətə çıxmaz! Şəyatin imişlər, bu şəkildə görükiiblər. Siz ağıllı bir adamsınız, gərək bizim uşaqların təqsirsiz olmalarına şübhə eləməyəsiniz. Olar şəyatin yığnağına düşüblər.

D i v a n b ə y i . Xub, o şəyatin yığnağına rast gələn uşaqları mənə göstərin.

M o l l a   Ş a b a n . Olar sizin nəyinizə gərəkdir?

D i v a n b ə y i . Olar mənə lazımdır!

M o l l a   Ş a b a n . Düşmənlərin sözü ilə bizi böhtana salma!

D i v a n b ə y i . Hansı düşmənlərin?

M o l l a   Ş a b a n . Dörd çövrəmizdəki əmirlilər bizim düşmənlərimizdir.

D i v a n b ə y i  (*tərcüməçiyə*). Kamalov, sən Allah, buna başa sal ki, aşağı düşən atlıların xəbərini mənə əmirlilər verməyiblər, malağanlar söyləyiblər.

D i l m a n c  (*azərbaycanca*). Molla! Siz nahaq yerə əmirlilərdən şübhələnirsiniz. Quldurlar haqda xəbəri malağanlar söyləyiblər. Quldurları verin, yoxsa divanbəyi, vallah, sizin hamınızı bədbəxt edəcəkdir.

M o l l a   Ş a b a n . Malağanlar bizə qonşu olandan rahatlıq bizi tərk edibdir. Olar bizə hamıdan çox düşməndirlər. Həmişə bizim ilə onların

arasında yer üstə, torpaq üstə cəngü-cədəl olacaq. İndi məlum olur ki, belə ustalıq ilə söz qayırmaq, şeytanlıq eləmək onların işi imiş. Müsəlman başında belə şeytan fikri olmaz.

Dilmanc (*divanbəyiyə rusicə*). Molla ərz edir ki, malağanlar onların qatı düşmənləridir və onlar arasında həmişə cəngü-cədəl olacaq.

Divanbəyi. Cəhənnəmə, qoy vuruşsunlar! Hələ indi quldurları versinlər! Kamalov, deyəsən, doğrudan bular mən dediyim sözlərə inanmırlar, boş nağıl hesab edirlər?

Dilmanc. Vallah, ağa, bir tük qədər də inanmırlar.

Divanbəyi (*üzün kazaka tutub*). Matvey, get, iki kazaka de ki, o ayını çəkə-çəkə bura gətirsinlər. (*Kazak gedir*).

Divanbəyi (*dilmanca*). Kamalov, de ki, mən indi isbat edərəm ki, nağıl söyləmirəm.

Dilmanc (*azərbaycanca*). Divanbəyi bu saat isbat edəcəkdir ki, o, həqiqəti söyləyir, nağıl demir.

Molla Şaban. Qoy əbəs yerə zəhmət çəkməsin, yox zadın nəyin isbat edəcəkdir.

Dilmanc (*divanbəyiyə*). Molla yenə inanmır. (*Bu halda kazaklar böyük bir ayını evə gətirirlər*)

Divanbəyi (*dilmanca*). De ki, budur dəlil ki, mən boş söyləmirdim.

Dilmanc (*ayıya işarə edib, tatarca*). Divanbəyi buyurur ki, budur şahid ki, mən boş nağıl söyləmirdim.

Molla Şaban. Xub, bu şahid ədayi-şəhadət eləsin görək.

Dilmanc (*divanbəyiyə*). Ağa, ərz edir ki, ayı ədayi-şəhadət eləsin görək.

Divanbəyi (*tündləşib*). Məgər ayı ədayi-şəhadət edə bilir? Fu, Kamalov, sən axmaq da bunu mənə deyirsən! Məgər özün cavab verə bilmirsən? Matvey, sən türki dilini bilirsənmi?

Kazak (*qaim sövt ilə*). Hərgiz, bilmirəm, ağa!

Divanbəyi. Kazaklardan bilən varmı?

Kazak. Hərgiz, bilən yoxdur. Yeddi yüz əlli ikimci nomerin fövcündən kazak Sotnikov türkicə öyrənmək istir.

Divanbəyi. A canım, ayı necə ədayi-şəhadət edə bilər?

Molla Şaban. Biz ki, demirik, ağa! Siz özünüz ayını bizim ilə üzləşdirməyə gətirdiniz. Şəmsəddinin meşələrində ayı çox; hər kəs birini tuta bilər. Bundan lazım gəlməz ki, ayılar arabaya minib ölkələri gəzsinlər.

Divanbəyi. Açıq de, indi quldurları nişan verməyəcəksiniz?

Molla Şaban. Quldur var ki nişan verək?

D i v a n b ə y i . Quldurların izi açılıbdır, mən onları tutmağa çarə taparam. Amma sizin üçün çox yaman keçəcək.

M o l l a  Ş a b a n . Əlhökmü lillah, təqdirdi-qəzadan qaçmaq olmaz!

D i v a n b ə y i . Di, gedin. Artıq mən sizinlə söhbət etmək iqtidarında deyiləm.

Molla Şaban, onun ardınca Namaz baş əyirlər. Sonra Nəcəf də baş əymək istəyir və bu zaman təsadüfən Məşədi Qurbanı itələyir. O, geri çəkilən zaman yerdə uzanmış ayıya toxunur və yerə yıxılır. Ayı anqırmağa başlayır. Məşədi Qurban cəld qalxır və divanbəyiyə baş əyərək evdən çıxır.

D i v a n b ə y i . Qəribə xalqdır! Olarla necə rəftar etmək lazımdır ki, sənə sonra sağ ol desinlər. (*Kəndlilər gedir, yalnız koxa qalır*).

D i v a n b ə y i  (*koxaya*). Ey Koxa, sən quldurları tanıyırsanmı?

K o x a . Bizdə quldur yoxdur.

D i v a n b ə y i . Bəs, o şəyatin yığnağına rast gələn uşaqları tanıyırsanmı?

K o x a . Olardan birini tanıyıram.

D i v a n b ə y i . Kimdir o?

K o x a . Bu yıxılan kişinin oğludur. Adı Tarverdidir.

D i v a n b ə y i . İndi onu tutmaq olarmı?

K o x a . Hardan tapacaqsınız? Bizim uşaqlar tamam qaçıb meşədə gizləniblər.

D i v a n b ə y i . Əgər təqsirli deyillər, niyə qaçıb gizləniblər?

K o x a . Bu düzdür, ancaq arvadlar tamam alaçığın dalısından qulaq asırdılar. Əlbəttə, onlar xəbər veriblər ki, divanbəyi şəyatin yığnağına rast gələnləri tutmaq istir.

D i v a n b ə y i . Yaxşı, sən də get. (*Koxa gedir*).

D i v a n b ə y i . Kamalov! Biz indi evə qayıtmalı olacağıq. Axşam çoxlu kazak götürüb, qəfldən bura gələrik və yıxılan kəndlinin evini mühasirəyə alıb qulduru tutarıq. Yəqin ki, o gecə evdə yatacaqdır.

D i l m a n c . Düz buyurursunuz, ağa!

D i v a n b ə y i . Onun evinin harada olduğunu öyrən.

D i l m a n c . Mən onun evini tanıyıram, kəndin lap axırındadır.

D i v a n b ə y i . Bu kağızı (*cibindən çıxardır*) yasavul Musaya ver ki, tez Zəyəmə gedib qəza həkimi Trezvinə çatdırsın. Bu şərtlə ki, o, həkimlə birlikdə bu obaya qayıtsın.

D i l m a n c . Bir saata göndərrəm, yasavul Musa yarım saatlıq bir iş dalınca getmişdir.

D i v a n b ə y i . Yaxşı, indi gedək. Matvey, kazaklara de ki, atları gətirsinlər.

## V

Məclis vaqe olur Məşədi Qurbanın evində. Gecənin yarısıdır. Məşədi Qurban, onun arvadı Sənəm, qardaşı Həmzə və oğlu Tarverdi yorğan-döşəkdə yatırlar. Birdən Tarverdi vəhşi bir səslə qışqıraraq yerindən qalxır.

Tarverdi. Ayı! Şeytan! Əcinnə!

Məşədi Qurban (*yuxudan ayılaraq*). Arvad, işığı yandır. (*Tarverdini tutaraq*) Tarverdi! Oğlum, sənə nə olubdur?

Tarverdi cavab vermir və qaçmaq istəyir. Sənəm işığı yandırır. Onlar Tarverdinin üzündə dəhşətli bir dəyişiklik görürlər: onun gözləri qanla dolmuşdur. O, heç kimi tanımır; Məşədi Qurban və Sənəm onu bu halda görüb dəhşətə gəlirlər.

Məşədi Qurban (*qardaşına*). Həmzə! Tez, Molla Şabanın dalınca get.

Sənəm (*üzünü cırmaqlayaraq*). Oğlum! Sənə nə olubdur? Oğlum! Sənə nə olubdur? Vay!!! Başıma kül olsun, oğlumu cin vurubdur.

Məşədi Qurban. Oğlum, Allaha dua et.

Tarverdi (*güclə qaçmaq isətyir*). Ayı! Şeytan! Ayı! Şeytan!

Məşədi Qurban (*ağlaya-ağlaya onu saxlayır*). Vay, oğlum! Mənim evim viran oldu, ocağım söndü... Vay, vay!

Səsə Sona və onun qızı Pərzad gəlirlər. Onlar da bu dəhşətli səhnəni görərək ağlamağa başlayırlar.

Sənəm. Sona! Oğlum əlimdən getdi. Başıma kül olsun. Tavuz dərəsini görüm viran olsun!

Molla Şaban, Koxa, Namaz və onun arvadı Zalxa evə daxil olurlar.

Molla Şaban. Tarverdiyə yaxınlaşaraq dua oxuyub, üç dəfə onun üzünə üfürür və onu Tarverdi deyə çağırır. Tarverdi cavab vermir. O, heç kimə məhəl qoymur və qaçmaq istəyir. Atası onu saxlayır.

Molla Şaban. Divanbəyinin görüm evi yıxılsın. Gəlib boş işdən ötrü sorğu-suala başladı və qoymadı ki, vaxtında Tarverdiyə dua yazam. Mən dediyim kimi, indi o, dəli olub.

Sənəm. Vay, Tarverdi, oğlum! Vay, vay! Özümü öldürəcəyəm, dəli olub dağlara düşəcəyəm. Aman! Aman!!! (*Hamı, o cümlədən Pərzad ağlayır*).

Zalxa (*sakit səslə ərinə*). O, niyə ağlayır?

Namaz (*o da sakit səslə*). Kəs səsini!

Qəfildən itlər hürüşür, evin dalından səs qalxır. Divanbəyi kazaklara bərkdən əmr verir.

Divanbəyi. Altı kazak əldə qılınc evi dövrəyə alsın. Hər kim evə girməyə cəhd etsə və ya evdən çıxmaq istəsə, onu həbs edin. Altı kazak da mənimlə evə daxil olsun! Kamalov, dalımca gəl.

Onlar əldə qılınc evə daxil olurlar.

Divanbəyi. Yerinizdən tərpənməyin.

Heç kim ona fikir vermir. Hamı ağlayır və ahu-zar edir. Qadınlar özlərini döyürlər. Tarverdi yenə qaçmaq istəyir və əvvəlki kimi ayı, şeytan, əcinnə deyə qışqırır. Divanbəyi təəccübdən mat qalır. Bir dəqiqədən sonra o, Molla Şabanı səsləyir. Molla Şaban yaxınlaşıb baş əyir.

Divanbəyi. Bu nə deməkdir? Nə olubdur?

Molla Şaban. Bu cavan Tavuz dərəsində şəyatinlərə rast gəlib, qorxudan dəli olubdur.

Divanbəyi. Artıq bəsdir, ay məlun, nağıl danışdın! Şeytan nədir..., ruhlar nədir. Niyə axı o, dəli olsun?!

Molla Şaban. Mənə inanmırsınızsa, onda özünüz baxın.

Divanbəyi Tarverdiyə yaxınlaşır və onun qəribə baxışını görüb təəccüblənir.

Kazak (*bayırdan*). Ağa, qəza həkimini içəri buraxımmı?

Divanbəyi. Kamalov, onu tez bura çağır. (*Kamalov çıxır və həkimlə birlikdə geri qayıdır*).

Həkim. İvan İvanoviçə salamlar olsun! Mən sizin kağızınızı alan kimi tələsik buraya gəldim. Bu evin yanında kazaklara rast gəldim. Onlar dedilər ki, siz buradasınız. Lakin icazəniz olmadan məni heç vəclə otağa buraxmadılar. Bu nə deməkdir?

Divanbəyi. Cənab doktor, sizin gəlişiniz lap yerinə düşübdür. Siz allah, hər şeydən əvvəl, bu cavana baxın, görək ona nə olubdur?

Həkim Tarverdiyə yaxınlaşıb diqqətlə ona baxır, sonra onun nəbzini yoxlayıb divanbəyiyə deyir.

Həkim. Onun bərk qızdırması vardır, baxışı da yaxşı deyil. Deyəsən, qorxudan onun beyni sarsılmışdır... Bunlardan soruşun, görək o, nədən qorxubdur?

Divanbəyi. Sorğu-suala nə ehtiyac var. Bu filosof (*mollanı göstərir*) onu inandırıbdır ki, o, Tavuz dərəsində şəyatin yığnağı ilə rastlaşıbdır. O da belə güman edibdir ki, əcinnələrə rast gəlibdir. İndi qorxudan dəli olub.

Həkim. Demək, o, həqiqətən dəli olub.

D i v a n b ə y i . Siz buna qəti əminsinizmi?

H ə k i m . Bəli.

D i v a n b ə y i . Onda bu haqda gərək mənə arayış verəsiniz.

H ə k i m . Baş üstə.

D i v a n b ə y i (*dilmanca*). Kamalov! Bu dəli mənim nəyimə gərəkdir. Yaxşı olar ki, bu işlər haqqında naçalnikə ətraflı məlumat göndərim və onun yoldaşlarını tutmaq üçün tədbir görüm.

D i l m a n c . Düz buyurursunuz, ağa!

D i v a n b ə y i (*mollaya*). Mən indi bu cavanı həbs etmirəm, ancaq naçalnikə yazacağam ki, onun dəli olmasına bais sənsən.

M o l l a Ş a b a n . Mən də səndən şikayət yazacağam ki, boş yerə gəlib burda sorğu-sual apardınız və mənə vaxtında ona dua yazmağa mane oldunuz. Ona görə o, dəli olubdur.

D i v a n b ə y i . Qəribədir! Onu öz əqidəsindən döndərmək mümkün deyil... Həkim, gedək...

Bu zaman Tarverdi qəfildən atasının əlindən çıxır və qapıya tərəf qaçır. Divanbəyi qeyri-ixtiyari olaraq dayanır. Namazdan başqa bütün kişilər Tarverdini tutmaq üçün onun dalınca qaçırlar. Bu zaman Zalxa öz ərinə deyir.

Z a l x a . Namaz, Bayram öz istəklisinə çatacaqdır.

N a m a z . Sənə də inək qismət olacaq. (*Qapı dalından səs*) Sən də, Namaz, kürd atını alacaqsan.

Birdən çöldən səs gəlir və kazaklar Bayramı darta-darta içəri gətirirlər.

K a z a k l a r . Ağa, bu adam çöldən qulaq asırdı, biz də tutub onu içəri gətirdik.

D i v a n b ə y i . Kamalov, soruş görək, o, nə istəyir.

D i l m a n c . Ey, de görüm, niyə qulaq asırdın?

B a y r a m (*özünü itirmiş*). Mən?.. Mən bura gəlmişdim... Mən ona görə gəlmişdim ki... Mən Namazı və onun arvadı Zalxanı çağırmaq istəyirdim.

D i l m a n c (*Namazı və Zalxanı göstərərək*). O, bu kişini və onun arvadını çağırmaq istəyirdi.

D i v a n b ə y i . Nə üçün?

D i l m a n c . Nə işdən ötrü onlar sənə lazım idi?

B a y r a m . Nə işdən ötrü... (*cavab tapmır*).

D i v a n b ə y i . Nə isə, çox şübhəlidir. Koxa! (*Koxa yaxınlaşır*). O adam kimdir?

K o x a . Bizim kəndlidir.

D i v a n b ə y i . O, necə adamdır? Oğurluqla məşğul olurmu? (*Koxa susur*). Düzünü de, yoxsa səni qulluqdan qovaram.

K o x a . Bir qədər əli təmiz deyil.

D i v a n b ə y i . Deməli, məşhur oğru və quldurdur... Onun adı nədir?

K o x a . Bayram.

D i v a n b ə y i . A! Bu ad mənə çox tanış gəlir. Onun haqqında mənə şikayət yazmışlar... Onun kürd atı varmı?

K o x a . Var.

D i v a n b ə y i . Kəhər at, alnında da ağ xalı.

K o x a . Bəli.

D i v a n b ə y i (*bərkdən*). O özüdür! (*Kazaklara üz tutaraq*) Uşaqlar, onun qollarını bərk-bərk bağlayın (*kazaklar dərhal onun əmrini yerinə yetirirlər*). Kamalov, elan et ki, bu yaramaz Axalsik qəzasında bir kəndi yandırıb, orda çaxnaşma salmış və fürsətdən istifadə edib bir bəyin atını oğurlamışdır. Bir həftədir ki, mən onu tutmaq üçün əmr almışam. Başqalarına ibrət üçün beş gündən sonra o, mütləq dar ağacından asılacaqdır.

D i l m a n c . Ey, qulaq asın! Bu adam böyük nadürüstdür. O, Axalsikdə bir kəndi yandırıb bir bəyin kürd atını oğurlayıbdır. Beş gündən sonra o, sizin gözünüz qabağında dar ağacından asılacaqdır.

Bu dəhşətli xəbərdən sonra Zalxa səssiz-səmirsiz otaqdan çıxır. Pərzad qəşş edir, adamlar ona yaxınlaşırlar. Onun anası Sona yerdə oturur və ağlayaraq özünü döyməyə başlayır. Tarverdini saxlayan Məşədi Qurbandan savayı bütün kişilər Pərzada yaxınlaşır, onun yanında əlləşir və üzünə su səpirlər. Molla Şaban dua oxuyur.

D i v a n b ə y i . Molla Şaban, ona nə olmuşdur?

M o l l a  Ş a b a n . Bu qızın ürəyi gedibdir.

D i v a n b ə y i . Niyə?

M o l l a  Ş a b a n . Divanə olmuş adaxlısına ürəyi bərk yandığı üçün.

D i v a n b ə y i . Doğrudanmı, buna görə?

M o l l a  Ş a b a n . Əlbəttə, buna görə. Mən şəxsən onları adaxlamışam. Qız dəlicəsinə onu sevir.

D i v a n b ə y i . Bəs niyə onun ürəyi indi getdi! Bu vaxta qədər ki, hər bir təğyir hiss edilmirdi? Lakin burada nə desən ola bilər! Həkim, bu gözəl qıza kömək etmək istəməzsinizmi?

H ə k i m . Bunlar bizə inanmırlar. Bunların işinə qarışmağa dəyməz.

D i v a n b ə y i . Onda gedək. Yoxsa biz də bu qəribə əhvalatlardan dəli ola bilərik.

Birdən başdan-ayağa qədər silahlanmış dörd adam otağa daxil olur. Bunlar Bayramın qardaşlarıdır. Onlar cəsarət və hədə ilə divanbəyidən tələb edirlər ki, Bayramı azad etsin. Divanbəyi əlində tapança onlara yaxınlaşır və kazaklara əmr edir.

D i v a n b ə y i . Uşaqlar! İrəli! Vurun yaramazları!

Kazaklar Bayramın qardaşlarının üzərinə hücum çəkirlər. Onlar hay-küylə qaçırlar.

D i v a n b ə y i (*Bayramın yanında dayanmış kazaklara*). Uşaqlar, onu və Namazı özünüzlə götürün. Koxa, sabah Namazın arvadı Zalxanı da mənim yanıma gətir. Yəqin ki, o, buradan sakitcə çıxıb Bayramın qardaşlarına xəbər vermişdir. Sabah mən onlarla hesablaşaram! Həkim, gedək!

T a m a m o l d u .

"Hekayəti-xırsi-quldurbasan" komediyası (ikinci variant) M.F.Axundzadənin Tiflis rus teatrında tamaşaya qoyulmuş ilk komediyasıdır. O, 1852-1853-cü ilin teatr mövsümündə oynanılmışdır. "Кавказ" qəzetində dərc olunmuş teatr resenziyalarında qeyd edilmişdir ki, tamaşa böyük uğurla keçmişdir.

[1] *Tat* – fars dili qrupuna mənsub olan xalqlardandır. Tatlar əsas etibarı ilə ticarət və sənətkarlıqla məşğul olurdular. Burada tat əsl mənasında deyil, məcazi mənada, təhqir kimi işlədilir.

[2] Təcik sözü də burada, tayfa, xalq mənasında deyil, qorxaq, aciz, bacarıqsız adam mənasında işlədilir.

[3] *Kuçer* – arabaçı, araba sürən. M.F.Axundzadə komediyalarında işlənilmiş ilk rus sözlərindəndir.

[4] Keçən əsrin 40-50-ci illərində, ayrı-ayrı ləzgi dəstələri tez-tez Azərbaycanın rayonlarına hücum edib, şəhərləri, kəndləri talayırdılar. M.F.Axundzadə divanbəyinin dili ilə buna işarə etmişdir.

[5] *Hafizi-canəvaran* – heyvanları mühafizə edən.

## "SƏRGÜZƏŞTİ-VƏZİRİ-XANİ-LƏNKƏRAN"

(səh.98-120)

Komediya hicri 1267-ci ildə yazılmışdır. Bu miladi tarixilə 1850-1851-ci illərə düşür. Lakin müəllifin onu "Hekayəti-xırsi-quldurbasan"dan sonra rusca nəşr edilmiş komediyalar məcmuəsinə (1853) və "Təmsilat"a salması göstərir ki, əsər 1851-ci ildə yazılmışdır.

Komediyanın ilk adı “Sərgüzəşti-vəziri-xani-Sərab”dır. Bu sərlövhə altında o, 1853-cü ildə “Кавказ” qəzetində (№7, 9), həmin ildə rusca çıxmış komediyalar məcmuəsində və “Təmsilat”da dərc olunmuşdur. Komediyanın bizə gəlib çatmış əlyazma nüsxələrində də bu başlıq işlənmişdir.

M.F.Axundzadənin 1874-cü ildə fars dilində nəşr olunmuş komediyalar məcmuəsində isə, əsər ilk dəfə “Hekayəti-vəziri-xani-Lənkəran” adı ilə çapdan çıxmışdır. Buna əsaslanaraq bir sıra Qərbi Avropa şərqşünasları belə hesab etmişdilər ki, əsərin adını M.F.Axundzadənin komediyalarını fars dilinə tərcümə edən, cənubi azərbaycanlı Mirzə Məmmədcəfər Qaracadağı dəyişdirmişdir. Bu mülahizə uzun zaman Azərbaycan axundovşünaslığında da hökm sürmüşdür. Lakin son illərdə aydınlaşmışdır ki, Mirzə Məmmədcəfər Qaracadağı bilavasitə müəllifin məsləhəti ilə Sərab sözünü Lənkəranla dəyişdirmişdir. Buna səbəb o olmuşdur ki, komediyada əhvalat dəniz sahili şəhərlərindən birində vaqe olur və tamamlanır, Sərab isə dənizdən uzaq bir qəsəbədir. M.F.Axundzadə özü sonralar bu uyğunsuzluğu hiss edərək əsərinin adını dəyişdirməyi vacib saymışdır. Bu haqda məlumata onun İranlı dostu, maarifçi ziyalı Mirzə Yusif xana göndərdiyi, 1870-ci il, 17 dekabr tarixli, məktubunda təsadüf edirik. Bu məktubda ədib öz dostuna dönə-dönə tapşırırdı. “Əziz mütərcimə deyiniz ki, “Sərab xanının hekayəti”ni hər yerdə “Lənkəran xanının hekayəti” ilə əvəz etsin... Sərab səhvdir Lənkəran yazılmalıdır. Çünki Sərab yanında dəniz yoxdur” (Bax: Axundzadə M.F. Əsərləri. – Bakı, 1962, III c., s.220). Mirzə Yusif xan da M.F.Axundzadənin xahişini tərcüməçiyə çatdırmış və o da müəllifin arzusunu yerinə yetirərək komediyanın adını dəyişdirmişdir. Bundan sonra komediya M.F.Axundzadənin bütün nəşr olunmuş kitablarında “Sərgüzəşti-vəziri-xani-Lənkəran” adı altında dərc olunmuşdur.

“Hekayəti-vəziri-xani-Lənkəran” komediyası da 1852-1853-cü illərin teatr mövsümündə Tiflis rus teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. O, Azərbaycan səhnəsində də oynanılmış ilk dram əsəridir. Komediya Həsən bəy Zərdabinin rəhbərliyi və Nəcəf bəy Vəzirovun fəal iştirakı ilə, 1873-cü ilin 10 (22) martında (“Кавказ “qəzeti,1873, 25 mart), böyük təntənə ilə tamaşaya qoyulmuşdur. Azərbaycan teatrının tarixi də məhz bu tamaşa ilə başlayır. M.F.Axundzadə “Кавказ” qəzetində verilmiş müxbir məktubundan bu barədə xəbər tutmuş və H.Zərdabiyə göndərdiyi məktubda öz sevincini belə ifadə etmişdir: “Mən qocalmışam və yaxın vaxtlarda ölümümü gözləyirdim. Lakin bu xəbər mənim ömrümü on il artırdı”.

[1] Komediyada hadisələr 1800-1801-ci illərdə, Şimali Azərbaycan Rusiyaya birləşdirilməmişdən əvvəl, ölkədə kiçik feodal dövlətləri – xanlıqlar mövcud olduğu illərdə cərəyan edir.

[2] *Rəşt* – İranın şimalında, Xəzər dənizi yaxınlığında yerləşən iri şəhərlərdən biridir.

[3] Şeir görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifindir (1717-1797).

[4] "Əssinə bissinni, vəl eynə bil-eyni, vəlcüruhə qisas" islam dininin cəza qanunlarından biridir. Azərbaycan dilinə tərcüməsi: "Diş əvəznə diş, göz əvəzinə göz, yara əvəzinə yara".

[5] *Xülafayi-əzimüşşən* – yüksək, böyük rütbəli xəlifələr. Məhəmməddən sonra ərəb xəlifələri olan Əbubəkr, Ömər, Osman və Əli nəzərdə tutulur.

[6] *Sultan Mahmud Qəznəvi* – İranda IX-X əsrlərdə hökmranlıq etmiş Qəznəvilər sülaləsinin hökmdarı.

[7] *Cəzairçi* – piyada ordu əsgəri M.F.Axundzadə özü komediyalarının 1853-cü il rusca nəşrində bu sözə belə şərh vermişdir: "Xanların piyada ordusu belə adlanırdı".

## "SƏRGÜZƏŞTİ-MƏRDİ-XƏSİS" (HACI QARA)

(səh.121-157)

"Sərgüzəşti-mərdi-xəsis" M.F.Axundzadənin dram yaradıcılığının şah əsəri, Azərbaycan dramaturgiyasının gözəl nümunələrindən biridir. Müasirlərinin yazmalarına görə, M.F.Axundzadə bu komediyanı özünün ən yaxşı dram əsəri saymışdır. Komediya ədəbiyyatımızda onun baş komik qəhrəmanı Hacı Qaranın adı ilə məşhurdur.

"Hacı Qara" komediyası hicri 1269-cu ildə, miladi tarixlə 1852-ci ildə yazılmışdır. O, ilk dəfə müəllifin tərcüməsində 1853-cü ildə "Кавказ" qəzetinin 15, 18, 25, 29, aprel və 2 may tarixli nömrələrində (№28, 29, 30, 31, 32) dərc olunmuşdur.

"Hacı Qara" M.F.Axundzadənin Azərbaycan səhnəsində tamaşaya qoyulmuş ikinci dram əsəridir. Bu komediyada bilavasitə H.Zərdabinin rəhbərliyi altında və N.Vəzirovun fəal iştirakı ilə, 1873-cü ilin aprel ayının 17-də (son vaxtlara qədər bu tarix səhv olaraq iyun ayı hesab edilirdi – tərtibçi) müvəffəqiyyətlə oynanılmış və tamaşaçıların rəğbətini qazanmışdır ("Кавказ" qəzeti, 1873, 25 aprel, №13).

"Hacı Qara" komediyasının mövzusu real həyat hadisələrindən alınmışdır. M.F.Axundzadə 1852-ci ildə İrandan qaçaq mal keçirən kontrabandaçılara qarşı mübarizə aparmaq üçün, sərhəd rayonlarına göndərilmiş

podpolkovnik Meyerin tərcüməçisi olmuş və bu zaman qaçaq mal keçirən dəstələrin sərgüzəştlərini bilavasitə müşahidə etmişdi. Çox güman ki, o öz beşinci komediyasının süjetinin əsasına, bilavasitə şahidi olduğu hadisələrdən birini qoymuşdur.

[1] *"Nə qızılbaş döyüşü var, nə osmanlı döyüşü var"* – XIX əsrin birinci çərəyində Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi dövründə, Rusiya ilə İran və Rusiya ilə Türkiyə arasında gedən müharibələr nəzərdə tutulur. Məlumdur ki, bu müharibələrdə könüllü Azərbaycan süvari alayları da fəal iştirak etmişdir.

[2] Bu illərdə Şeyx Şamilin başçılığı altında Dağıstan xalqları ilə Rusiya arasında gedən müharibələr nəzərdə tutulur.

[3] Dahi İran şairi Firdovsinin "Şahnamə" epopeyasının əfsanəvi qəhrəmanı Rüstəm nəzərdə tutulur.

[4] M.F.Axundzadə Heydər bəyin bu sözlərilə dövrünün mühüm bir iqtisadi-siyasi hadisəsini əks etdirmişdir.

XIX əsrin ortalarında Rusiyanın mərkəzi şəhərlərində manufaktura sənayesi geniş inkişaf tapmışdı. Lakin rus toxuculuq sənayesinin malları, keyfiyyət baxımından inkişaf etmiş Qərbi Avropa ölkələrinin mallarından aşağı səviyyədə istehsal olunur, xarici rəqabət tələblərinə cavab vermir, nəinki Rusiyanın daxili bazarlarında, hətta yeni tutulmuş ucqar rayonlarda belə çətinliklə satılırdı. Belə bir iqtisadi çətinliyə düşən çar hökuməti öz milli burjuaziyasının mənafeini müdafiə edərək, xaricdən manufaktura mallarını gətirməyi olduqca məhdudlaşdırmışdı. Bu tədbir yerli tacirlərə böyük ziyan vurmuş, onların arasında ciddi narazılıq doğurmuşdu. Bu çətinlikdən xilas olmaq üçün, yerli tacirlər qanunsuz hərəkətlərə əl atır, qaçaq, kontrabandçı dəstələrlə əlaqə saxlayıb, İrandan Fransız manufaktura malları gətirdir və gizli surətdə satırdılar. Çar hökuməti də öz növbəsində İrandan gizli xarici mal keçirən qaçaq, kontrabandçı dəstələrə qarşı ciddi mübarizə aparırdı. M.F.Axundzadə öz komediyasında bəylərin və Hacı Qaranın dili ilə bir neçə yerdə bu məsələyə toxunmuşdur.

[5] Şuşa şəhəri nəzərdə tutulur.

[6] Müsəlmanların müqəddəs şəhəri Məkkə nəzərdə tutulur.

[7] İran nəzərdə tutulur.

[8] Azərbaycan EA Əlyazmaları İnstitutunda M.F.Axundzadənin şəxsi arxivində hifz olunan əlyazmalarından məlum olur ki, o, "Hacı Qara" komediyasının beşinci pərdəsinin remarkasını genişləndirmiş və onu əsərinə əlavə etmək niyyətində olmuşdur. Rus dilində Mirzə Fətəlinin öz xətti ilə yazılan və bir neçə dəfə üzü çıxarılan əlyazmalarında "Hacı Qara" komediyasının beşinci məclisi belə başlanır:

Beşinci məclis

Bu məclis tatar (Azərbaycan – *red.*) toyu ilə başlayır. Heydər bəy toy paltarında xalça üzərində oturmuşdur. Onun yanında sağdişi və soldişi, ətrafında isə qohumlar və dostlar əyləşmişlər.

Aşıq saz və ya zurna çalır. O biri züy tutur, üçüncüsü oxuyur. Bir dəqiqədən sonra səhnə arxasında zurna səsi və "ay şabaş, ay şabaş" – deyə çığırtılar eşidilir. Bu, gəlinin yaxınlaşmasına işarədir. Nəhayət, ətrafını çoxlu cavan oğlan və qız bürümüş gəlin görünür. Onun da sağ və solunda yengələr vardır. Adamlar Heydər Bəyi durğuzurlar. O, gəlinin qarşısında üç dəfə baş əyir. Arasıkəsilməz zurna səsi altında hamı səhnəni dövr edir. Rəqs başlanır. Oğlanlar və qızlar rəqs edirlər. Sonra gəlini onun üçün ayrılmış otağa aparırlar. Rəqs qurtarır. Qonaqdar toy məclisini tərk edirlər. Heydər bəy gəlin otağına keçir.

## "MÜRAFİƏ VƏKİLLƏRİNİN HEKAYƏTİ"

(səh.158-186)

M.F.Axundzadə "Təmsilat"da "Mürafiə vəkillərinin hekayəti" komediyasının yazılma ilini hicri tarixlə 1272-ci il, miladi tarixlə 1855-ci il kimi göstərmişdir. Əsər ilk dəfə müəllifin tərcüməsində 1856-cı ildə, "Кавказ" qəzetinin 23, 24, 25 noyabr və 6 dekabr tarixli nömrələrində (№93, 94, 95, 96) "Восточные адвокаты" başlığı altında dərc olunmuşdur.

M.F.Axundzadənin əvvəlki komediyalarından fərqli olaraq "Mürafiə vəkilləri"ndə hadisələr Cənubi Azərbaycanda, Təbriz şəhərində cərəyan edir. Ümumiyyətlə, bu komediyadan etibarən M.F.Axundzadə əksər əsərlərinin mövzusunu İran həyatından almışdır. Bunun əsas səbəbi müəllifin öz yaxasını çar senzorunun təqiblərindən qurtarmaq məqsədi olmuşdur. Qafqaz canişinliyində məsul vəzifədə çalışan M.F.Axundzadə, məhkəmələrin və məhkəmə məmurlarının eyiblərini açıq və kəskin tənqid edə bilməzdi. Odur ki, sonuncu dram əsərində o, hadisələri Təbrizə keçirməyə məcbur olmuşdu. Lakin əsərdə müəllif dolayı yolla yerli məhkəmələrin qanunsuzluğunu, özbaşınalığını və rüşvətxorluğunu da kəskin satira atəşinə tuturdu.

[1] *Mütə* – müvəqqəti kəbin. Şəriət qanunlarına görə, vərəsəlik hüquqlarına yalnız kişinin qanuni, kəbin kəsilmiş arvadı malik olur. Siqə, mütə yolu ilə alınmış arvadlar isə vərəsəlik hüquqlarından məhrum edilirlər.

[2] *Hibənamə* – vəkalətnamə.

[3] *Əhli-zələmə* – müsəlman şiə ruhaniləri dövlət məmurlarını əhli-zələmə adlandırır, onlara mənfi münasibət bəsləyirdilər. Onlara görə, dövlət şiə peyğəmbərlərinin həqiqi varisləri sayılan ruhanilərə mənsub olmalıdır. M.F.Axundzadə də Zübeydənin dili ilə İran dövlət məmurlarının zülm, istibdad əhli kimi tənqid edirdi.

[4] *Atamın tiyul kəndlərini* – vaxtilə şah tərəfindən atama verilmiş kəndlər.

[5] *Əflatuni-əsr* – əsrin Əflatunu. Əflatun – Platon eramızdan əvvəl, üçüncü əsrdə yaşamış qədim yunan filosofudur. Onun poetika, etika, siyasət, tarix və sair elmlərə aid əsərləri vardır.

[6] M.F.Axundzadə öz mənfi qəhrəmanının dilində işlətdiyi "firqeyi-sual" sözləri ilə İran əsgərlərinin kasıb vəziyyətdə yaşamalarına, dilənçi kimi əl açıb yerli əhalidən kömək istəmələrinə və onların əhalinin dilənçi dəstəsinə mənsub olmalarına işarə etmişdir. Əsərinin rusca tərcüməsində o, "firqeyi-sual" sözünü dilənçilər (нищие) kimi tərcümə edibdir.

[7] *"Ərbabüddüvəli mülhəmünə"* – qeyri adi, ilahi, Allah tərəfindən tək-tək adamlara bəxş edilən istedada, ilhama malik olan ali dövlət hakimi, məmuru. Ağa Bəşir bu sözlərlə məhkəmə hakimi qarşısında yaltaqlanır, onu ələ almağa çalışır. M.F.Axundzadə bu dialoqu daxili bir kinayə ilə Ağa Bəşirin dilində işlətmiş və bununla məhkəmə sədrinin səfeh, başıboş, sadəlövh bir hakim olduğuna bir işarə etmişdi.

[8] *Leylac* – Yaxın Şərqdə əfsanəvi şahmat, nərd oyunçusu, mahir qumarbaz simvolu.

## "ALDANMIŞ KƏVAKİB" POVESTİ
(səh.189-212)

M.F.Axundzadə "Aldanmış kəvakib" povestini 1857-ci ildə yazmışdır. Əsər ilk dəfə "Təmsilat"da dərc olunmuşdur. Ədib "Кавказ" qəzetində çap etdirmək məqsədilə, onu 1857-ci ilin iyun ayında rus dilinə tərcümə etmiş (bu barədə "Aldanmış kəvakib"in Azərbaycan EA Əlyazmalar İnstitutunda hifz olunan rusca tərcüməsinin əlyazmasında müəllifin xüsusi qeydi vardır), lakin məqsədinə yalnız 1864-cü ildə nail olmuşdur ("Кавказ" qəzeti, 1864-cü il, №25, 27, 30 və 31).

"Aldanmış kəvakib"in mövzusu, əsas süjeti Şah Abbasın katibi və tarixçisi İskəndər bəy Münşinin "Tarixe-Aləm-araye-Abbasi" əsərindən götürülmüşdür. Ədib özü əsərinin bir yerində bu haqda aydın məlumat vermişdir: "Olur ki, xanəndələr bu güzarişin vüquunda şübhə edib gizbə

həml edələr, bu surətdə mən olardan təvəqqe edirəm ki, "Tarixi-Aləm-ara"da Şah Abbasın culusunu yeddinci ilində sadir olan vəqaiəyə mülahizə etsinlər".

İskəndər bəy Münşinin tarixi əsərində "Aldanmış kəvakib"in əsas süjet xəttini xatırladan bu sətirlər yazılmışdır: "...Həmin il (1595-ci il nəzərdə tutulur – N.M.) münəccimlər xəbər verdilər ki, aşağı və yuxarı ulduzların hərəkəti və bir-biri ilə yaxınlaşması günəşə mənsub olan ali rütbəli bir şəxsin (şah nəzərdə tutulur – N.M.) məhvi və edamı ilə nəticələnəcəkdir. Həm də ehtimal edirdilər ki, bu hadisə İranda baş verə bilər. Münəccimlərin gəldiyi nəticəyə görə, padşahın tale ulduzu zəvalə uğramaq ərəfəsində idi. Bu yüksək elmdə zamanın qabaqcılı olub, nücum elmi hökmlərinə əsasən, nəticə çıxarmaqda öz müasirlərindən irəli gedən Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdi o uğursuzluğu bu tədbirlə aradan qaldırmaq qərarına gəldi ki, əlahəzrət bədbəxtlik gətirən iki ulduzun yaxınlaşması təsirinin ən güclü olduğu üç günün ərzində özünü padişalıqdan kənar edib, qətli vacib olan canilərdən birini padşahlığa təyin etsin. Belə ki, həmin üç günün ərzində qoşun və rəiyyət onun əmrlərinə tabe olub, padişahın hökmü kimi sözsüz icra etsinlər və üç gündən sonra o cani, ulduzların yaxınlaşmasının böyük darğasına və zaman hadisələri cəlladına tapşırılsın ki, qətlə yetirsin. Hamı bu tədbiri bəyəndi və qurə (puşk) dinsizlikdə öz yoldaşlarından daha iti gedən usta Tərkəşduz Yusifin adına düşdü. Buna görə də, qeyd olunan dinsizlər dəstəsinə mənsub olan həmin Yusifi, ordu qərargahına gətirdilər. Əlahəzrət özünü şahlıqdan çıxarıb, padşahlıq adını o əcəli çatmışa əta etdilər və şahlıq tacını onun başına qoyub, gözəl paltar geyindirdilər. Köç günü onu yəhər və cilovu qiymətli cəvahiratla bəzədilmiş Bərdə qatırına mindirib, padşahlıq bayraqlarını onun üstünə qaldırdılar. Bütün əmirlər, əyanlar, xidmətçilər qoşun ilə onun ətrafında xidmətə hazır vəziyyətdə duraraq, aparıb mənzilə çatdırır və şah divanxanasına gətirib yemək-içmək hazırlayırdılar. Gecə isə qalib qoşun və yüksək rütbəli qorçular (xüsusi qvardiya hissəsi – N.M.) keşik çəkirdilər...

Xülasə, üç gündən sonra onun həyatının birovuz paltarı soyundu və taxtı tabuta çevrildi. Qeyd olunan hadisədən sonra əlahəzrət yenidən səltənət taxtına əyləşdilər...*

* Bax: *Həsənov A.Q., Onullai S.M.* "Aldanmış kəvakib" əsərindəki surətlərin prototipləri haqqında. Azərbaycan Dövlət Universitetinin elmi əsərləri. Dil və ədəbiyyat, ser., 1968, №6, s.70

Lakin ədib tarixi əsərdə təsvir olunan bu hadisəni kortəbii, olduğu kimi, heç bir dəyişiklik aparmadan əsərində qələmə almamışdır. O, tarixi hadisəni yaradıcılıq süzgəcindən keçirmiş, genişləndirmiş, yeni hadisələrlə, epizodlarla zənginləşdirmiş, ona yeni bir məna vermiş, tam yeni bir istiqamətdə inkişaf etdirmişdir. Müəllifin əsas ustalığı onda olmuşdur ki, o, bu qeyri-adi, nağılvarı hadisənin əsasında dərin ictimai-siyasi məzmuna və yüksək bədii məziyyətlərə malik olan satirik bir povest yaratmışdır.

[1] İranda 1502-1722-ci illər arasında hökmranlıq edən Səfəviyyə sülaləsinin əsası, görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətai (1486-1524) tərəfindən qoyulmuşdur.

[2] Məhəmməd şah Səfəvi (?-1587), 1578-1587-ci illərdə İranda hökmranlıq etmişdir. Onun hakimiyyəti illərində İran ağır iqtisadi-siyasi böhrana uğramışdı. 1587-ci ildə o, şahlıqdan əl çəkib, hakimiyyəti Şah Abbasa təhvil vermişdi.

[3] I Şah Abbas (1557-1629), 1587-1629-cu illərdə İran hökmdarı olub.

[4] M.F.Axundzadə burada səhv edir. Şah Abbas hakimiyyət başınqa (1587) 30 yaşında gəlmişdir. Deməк, povestdə təsvir olunan əhvalat baş verəndə onun 36-37 yaşı olub.

[5] M.F.Axundzadə baş vəzir Mirzə Möhsünün dili ilə, Şah Abbasın atası Məhəmməd şahın hakimiyyəti illərində, İranın ağır iqtisadi-siyasi iflasa uğramasına işarə etmişdir.

[6] Şah Abbas həqiqətən oğlu Səfi Mirzəni ona qəsd etməkdə şübhələnib öldürmüş və iki oğlunun isə gözünü çıxartmışdı.

[7] XIX əsrin 40-50-ci illərində, İranla İngiltərə arasında Herat üstündə dəfələrlə ixtilaf üz vermiş, 1856-cı ildə isə müharibə başlanmışdı. İngilis qoşunları İranın Xarq və Buşar adalarını tutmuş və ölkənin daxilinə doğru irəliləməyə başlamışdı. İran istila olunmaq təhlükəsi altına düşmüşdü. Lakin, bir tərəfdən, Hindistanda İngiltərə müstəmləkəçilərinə qarşı azadlıq hərəkatının qüvvətlənməsi və ikinci tərəfdən isə, Fransa və Rusiyanın bu ixtilafa qarışması sayəsində, İngiltərə İranla 1857-ci ildə, mart ayının 4-də sülh müqaviləsi bağlamağa məcbur olmuşdu. Beləliklə, İran bir sıra güzəştlərə getsə və Heratdan əl çəksə də, tam istila edilmək təhlükəsindən xilas olmuşdu. "Aldanmış kəvakib" povestinin son cümləsində Mirzə Fətəli buna işarə etmişdi.

## ZƏMANƏDƏN ŞİKAYƏT

(səh.215-216 )

M.F.Axundzadənin bizə gəlib çatmış ilk şeridir. Əsər fars dilində yazılmışdır. O, uzun müddət ədəbi ictimaiyyətə məlum olmamışdır. Şeri ilk dəfə Mirzə Fətəlinin şəxsi arxivindən aşkar edən və fars dilindən Azərbaycan dilinə çevirib nəşr etdirən ədəbiyyatşünas Məmmədağa Sultanov olmuşdur (Bax: Azərbaycan Elmlər Akademiyasının məruzələri, Bakı, 1954, cild X). Şerin əlyazmasında onun yazılma tarixi haqqında heç bir qeyd yoxdur. Lakin Məmmədağa Sultanov əsərin məzmununa əsaslanaraq belə bir fikir irəli sürmüşdür ki, o, Axundzadənin Şəkidən Tiflisə gəlməsi ərəfəsində, təxminən 1832-1833-cü illərdə qələmə alınmışdır. Bu mülahizə sonralar Axundzadə irsinin araşdırıcıları tərəfindən yekdilliklə qəbul olunmuşdur.

[1] Ədəbiyyatşünaslarımız belə bir mülahizə söyləyirlər ki, Axundzadənin öz əsərində tərif etdiyi ziyalı, bu illər Tiflisdə rəsmi dövlət idarəsində xidmət edən, görkəmli Azərbaycan şairi və alimi Abbasqulu ağa Bakıxanovdur (1794-1847).

[2] *Rumi Cəlaləddin* (*1207-1263*) – Klassik Şərq ədəbiyyatı və fəlsəfəsinin görkəmli nümayəndələrindəndir.

[3] *Şəms Təbrizi* – Şəmsəddin Məhəmməd ibn-Əli ibn-Məlik – XIII əsrdə yaşamış, Şərq fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biridir. O, C. Ruminin mürşidi olmuş və əsərlərində sufi görüşləri təbliğ etmişdir.

[4] *İbn-Sina-Əbu-Əli-Sina* (*980-1083*) – məşhur Şərq alimi və şairi. İbn-Sina riyaziyyat, geometriya, astranomiya, məntiq, tibb, fəlsəfə elmləri sahəsində qiymətli əsərlər yazmış, nəinki Şərq ölkələrində, hətta bütün dünyada geniş şöhrət tapmışdır.

[5] *Söhbani-Vail* – Abbasilər sülaləsindən olan Harunərrəşidin dövründə yaşamış məşhur ərəb alimidir. O, nəsr sahəsində şöhrət qazanmışdır. Klassik Şərq ədəbiyyatının görkəmli nümayəndələri şeir sahəsində özlərini islam dini və dövlətinin banisi Məhəmməd peyğəmbərin dövründə geniş şöhrət tapmış şair Həsən ibn Sabitə, nəsr sahəsində isə Söhbani-Vailə bənzətmişlər.

[6] *Xaqani Şirvani* (*1126-1191*) – Azərbaycan və ümumən klassik Şərq ədəbiyyatının görkəmli nümayəndəsi.

[7] *Qaziyi-Beyzəvi* – XIX əsrdə yaşamış, görkəmli Şərq alimi və tarixçisi.

## A.S.PUŞKİNİN ÖLÜMÜNƏ ŞƏRQ POEMASI
(səh.216-219)

M.F.Axundzadənin bizə gəlib çatmış, ikinci poetik əsəridir. Poema dahi rus şairi A.S.Puşkinin (1799-1837) ölümü münasibətilə, baharın ilk dövründə, təxminən fevralın sonu və martın əvvəllərində yazılmışdır. Fars dilində, klassik Şərq şerinin ənənələri üslubunda yazılmış bu poemanı, M.F.Axundzadə dərhal özü nəsrlə rus dilinə sətri tərcümə etmiş və bu tərcüməni həmin illərdə onunla eyni idarədə xidmət edən dostu, rus şairi İ.S.Klementyevə təqdim etmişdi. Klementyev poemanı oxuyub vəcdə gəlmiş və onun sətri tərcüməsi üzərində, çox güman ki, müəyyən təshih işləri aparıb, çap olunmaq üçün kiçik məktubla "Московский наблюдатель" jurnalına göndərmişdi. "Puşkinin ölümünə Şərq poeması" tezliklə jurnalın 1837-ci il XI nömrəsində (mart) çap olunmuşdur. Redaksiya poemaya əlavə etdiyi kiçik giriş məqaləsində Axundzadənin poemasına yüksək qiymət vermişdir: "Cənab Klementyevin hisslərinə şərik çıxaraq və İran şairinin (İ.S.Klementyevin ardınca jurnal M.F.Axundzadəni səhvən İran şairi adlandırmışdı – *tərtibçi*) əli ilə Puşkinin qəbri üstünə bəxş edilmiş gözəl gülü bizə göndərməsinə görə ürəkdən təbrik edərək, səmimi qəlbdən gözəl istedad sahibinə müvəffəqiyyətlər arzulayırıq. Əsərdən biz aydın görürük ki, o, rus təhsilinə qızğın rəğbət hissi bəsləyir".

Həmin ilin may ayında Mirzə Fətəlinin yaxın dostu, Qafqazda sürgündə olan dekabrist yazıçı A.A.Bestujev-Marlinski "Puşkinin ölümünə Şərq poeması"nın sətri tərcüməsi ilə tanış olmuş və onun üzərində bir sıra təshih işləri aparmışdır. Poemanın sətri tərcüməsinin eyni variantını, uzun illər M.F.Axundzadəylə yaxından əməkdaşlıq və dostluq etmiş görkəmli şərqşünas alim Adolf Berje 1874-cü ildə dərc olunmaq üçün "Русская старина" jurnalına göndərmişdi. Tərcümə həmin ildə jurnalın 9-cu nömrəsində (sentyabr) dərc edilmişdir.

"Puşkinin ölümünə Şərq poeması"nın farsca orijinalı inqilaba qədər ədəbi ictimaiyyətə məlum olmamışdır. Onun əlyazmasını 1936-cı ildə görkəmli ədəbiyyatşünas Əziz Şərif meydana çıxarmış və bu haqda "Ədəbiyyat" qəzetində (1936, №33) məlumat vermişdir. Əsər istedadlı şairlərmizdən əvvəl, M.Müşfiq, sonra isə Böyükağa Qasımzadə, Cəfər Xəndan və M.Soltan tərəfindən ana dilimizə tərcümə edilmişdir. Burada M.Müşfiqin tərcüməsi verilir.

[1] *Lomonosov M.Y.* (*1711-1765*) – məşhur rus şairi və alimi.

[2] *Derjavin Q.R.* (*1743-1816*) – rus ədəbiyyatının görkəmli nümayəndələrindən biri.

[3] *Karamzin N.M.* (*1766 – 1826*) – görkəmli rus yazıçısı və tarixçisi, rus ədəbiyyatında sentimentalizmin banilərindən biri.

## TƏCNİS
(*"Əsiriyəm bir dilbərin ki, əgər"*)
(səh.219)

Təcnis hicri 1257-ci, miladi tarixlə 1841-ci ildə yazılmışdır. Bu şeir Axundzadənin Azərbaycan dilində bizə gəlib çatmış ilk bədii əsərlərindəndir. Axundzadə özü şeirdəki cinaslara fars dilində şərhlər vermişdir. Burada şərhlərin Azərbaycan dilində tərcüməsi verilir.

[1] Yaralar.
[2] O yara.
[3] Od, atəş.
[4] Nazik.
[5] Davam gətirmək.
[6] O yara (sevgiliyə).
[7] Dərman, dava.
[8] Borcu.
[9] Sürü.
[10] Şikayət.
[11] O divlərə.
[12] Dəli.
[13] O yar məni dağa salsa.
[14] Qan.
[15] Nəfəs.
[16] An.
[17] Zülfünü yol, axtar məni.

## TƏCNİSİ-DİGƏR
(*"Çıxıb gül fəslində seyrə nigarım"*)
(səh.219-220)

Təcnisin əlyazmasının sonunda onun yazılma tarixini, Axundzadə hicri 1257-cü il göstərmişdir ki, miladi tarixlə 1841-ci ilə düşür. Bu təcnisdə də işlədilən cinaslara müəllif özü fars dilində şərhlər yazmışdır ki, onların azərbaycanca tərcüməsi belədir:

[1] Yay fəsli.
[2] İl və ay.
[3] Uzaq.
[4] Candır.
[5] Get, uzaq dayan.
[6] Yaya (kamana).
[7] O tərəfə.
[8] Yana (yanmaq).
[9] Bu kəlmə əvvəl "sübhdən" yazılıb, sonra düzəldilmişdir.
[10] Oyana (oyanmaq).
[11] Dağıda, yaya.
[12] Piyalə.
[13] Əhd.
[14] Dünyanı gəzən deyildir.
[15] Günəşə və ya aya.
[16] Başına qaramaq.
[17] Qar kimi ağ sinə.
[18] Ürəyi qara.
[19] Hədis və ayə.

## MƏDHİYYƏ

(səh.220-222)

Mədhiyyədən aydın məlum olur ki, Mirzə Fətəli 50-ci illərin əvvəllərində, Mir Fəttah Mir Kazım oğlunun xahişi ilə yazmışdır. Şeir İran sərhəddində kontrabandçılara, qaçaqlara və sərhədi qanunsuz keçən başqa ünsürlərə qarşı mübarizə aparan, rus sərhədi qoşunlarının rəisi kapitan İqranoviçə həsr olunmuşdur. Şerə əsasən belə güman etmək olar ki, Mir Fəttah Mir Kazım oğlu kapitan İqranoviçin yanında ya tərcüməçi, ya da köməkçi sifəti ilə qulluq etmişdir. Mədhiyyənin əlyazması Azərbaycan EA Əlyazmalar İnstitutunda, Mirzə Fətəlinin şəxsi arxivindədir.

## QƏSİDƏ

(səh.222-223)

XIX əsrin 50-ci illərinin əvvəlində Rusiya çarlığının vəliəhdi, çar I Nikolayın oğlu II Aleksandr Qafqaza gəlmişdir. Çox güman ki, Qafqazın canişini knyaz Mixail Semyonoviç Voronsovun xüsusi tapşırığı ilə, M.F.Axundzadə vəliəhdin Qafqaza gəlməsi münasibətilə fars dilində bu qəsidəni yazmışdır. Qəsidənin əlyazması Azərbaycan EA Əlyazmalar İnstitutunda, M.F.Axundzadənin arxivində hifz olunur. Burada şerin sətri tərcüməsi verilir.

## ZAKİRƏ MƏKTUB

(*"Qasım bəy, eşitdim yaxın olubsan"*)

(səh.223-224)

M.F.Axundzadə bu şeri tərtib etdiyi Q.Zakirin "Divan"ının (Bu "Divan" Azərbaycan EA Əlyazmalar İnstitutunda, M.F.Axundzadənin şəxsi arxivində hifz olunur) 319-320-ci səhifələrinə köçürmüşdür. Şerin əvvəlində, onun yazılma tarixi haqqında müəllif belə bir qeyd vermişdir. "İbtidai mühərrəmülhəramda sənəyi 1271 (miladi 1854) Mirzə Fətəli tərəfindən, Qasım bəyə, Mehdiqulu xan Qarabağlının qızı Xurşud Banu Bəyim haqqında yazılan qafiyədir".

ZAKİRƏ MƏKTUB
("*Ey Qasım bəy, əcəb dövrana çatdıq*")
(səh.225-226)

M.F.Axundzadə 1853-54-cü illər, rus-türk müharibəsi münasibətilə Q.Zakirə mənzum məktub yazaraq, onu rusca sətri tərcüməsi ilə birlikdə "Кавказ" qəzetinin 1854-cü il, 29-cü nömrəsində dərc etdirmişdir. Onu da xatırladırıq ki, Q.Zakir də öz növbəsində Mirzə Fətəlinin ünvanına bu mövzuda mənzum məktub yazıb göndərmişdir. Həmin şeir də sətri tərcüməsi ilə birlikdə "Кавказ" qəzetində dərc olunmuşdur.

[1] Türkiyə dövləti nəzərdə tutulur.

[2] Fransa nəzərdə tutulur.

[3] İngiltərə nəzərdə tutulur.

[4] *Kiçik Napoleon* – Napoleon III (Lui Napoleon Bonapart 1808-1873) nəzərdə tutulur. O, Napoleon Bonapartın qardaşı oğludur. 1852-1870-ci illər arasında Fransanın imperatoru olmuşdur. Hakimiyyəti illərində əmisinin siyasi xəttini davam etdirmişdir. O, fransız iri burjuaziyasının və katolik kilsəsinin mənafeyini müdafiə edərək, 1848-ci il inqilabından sonra respublika tərəfdarlarına divan tutmuş, fəhlə hərəkatına qarşı fəal mübarizə aparmışdır. Lui Napoleon hakimiyyəti illərində aramsız istilaçı müharibələr etmişdir. 1870-ci il fransız inqilabı nəticəsində taxtdan salınan Lui Napoleon İngiltərəyə mühacirət etmişdir.

[5] *Böyük Napoleon* – I Napoleon Bonapart (1769-1820) 1789-1794-cü il Böyük Fransa burjua inqilabı məğlubiyyətə uğradıqdan sonra hakimiyyəti ələ keçirmiş və Fransanın imperatoru olmuşdur. XIX əsrin əvvəllərində bir sıra Avropa ölkələrini istila edən I Napoleon, 1812-ci ildə Rusiyaya hücum etmiş və Moskvanı almağa nail olsa da, sonra ağır məğlubiyyətə uğramış, 1814-cü ildə isə hakimiyyətdən salınmışdır. M.F.Axundzadə də şerində Napoleonun Rusiyadakı məğlubiyyətinə işarə edir.

[6] *Dibiç Zabalkanski, İvan İvanoviç* (*1785-1831*) – XIX əsrin 20-ci illərində Rusiyanın tanınmış generallarından biri olmuşdur. 1828-1829-cu illər rus-türk müharibəsində iyirmi minlik qoşunla Balkan ölkələrini keçib, Adrianopol şəhərini tutmuşdu.

[7] *Paskeviç, İvan Fyodoroviç* (*1782-1856*) – XIX əsrin 20-ci illərində rus ordusunun general-feldmarşalı olmuşdur. O, 1806-1812-ci illər rus-türk müharibəsində iştirak etmiş, 1826-cı ildə Qafqazın Baş idarəsinin rəisi təyin olunmuş və 1826-1828-ci illər Rus-İran müharibələrində Qafqaz rus ordusunun Qafqazdakı Əlahiddə korpusunun rəisi olmuşdur. 1828-1829-cu illər rus-türk müharibəsində onun başçılığı ilə rus ordusu Kars, Axalkələk, Axalsık və Ərzurum şəhərlərini fəth etmişdir.

## TƏRİFNAMƏ

(səh.226-227)

Şerin Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda, M.F.Axundzadənin arxivində bir neçə əlyazma nüsxəsi vardır. Bu nüsxələrin birində, Mirzə Fətəli şerin sərlövhəsində, belə bir qeyd veribdir: "1271-ci ildə Verderevski adlı bir dostumun tərəfindən əlahəzrət İran şahənşahına". Şerin başqa bir əlyazma nüsxəsinin əvvəlində isə o, şerin yazılması münasibətilə belə bir müfəssəl şərh yazmışdır: "Verderevski bir nəfər rus şairi ki, Tiflisdə "Кавказ" qəzetinin katibi və mənimlə dost idi. 1271-ci ildə İran məmləkətinin tərifləri haqqında yazılmış qəzetlərdəki materiallardan bir kitabça tərtib edib, hədiyyə olaraq İran şahənşahına göndərdi. Məndən xahiş etdi ki, onun haman kitabça münasibətilə, o əlahəzrətin tərifində dediyi misraları fars dilində şerə çəkəm, buna görə onun xahişini qəbul edib, bu beytləri yazdım və kitabçanın içində Tehrana göndərdim."

M.F.Axundzadənin bu qeydlərindən aydın görünür ki, bu şeri keçən əsrin əllinci illərində Tiflisdə yaşayan və "Кавказ" qəzetində əməkdaşlıq edən rus şairi Verderevski hicri 1271-ci (miladi 1855-ci) ildə, rus dilində yazmış, M.F.Axundzadə isə, onu fars dilinə tərcümə etmişdir. Şerin bir yerində də bu barədə aydın işarə mövcuddur:

Ey tac sahibi, bu məsnəvi ilə sənə tərif yazdım.
Onun qiyməti haqqında lovğalanmağa dəyməz.
Ancaq onu səmimi sədaqətimin əlaməti hesab et!
Ruslardan bir kiçik şairəm,
Həsrətinizə sədaqət bəsləyirəm.

Burada şerin sətri tərcüməsi verilib.

## MÜXƏMMƏS

(*"Zivər nə səzadır sənə, ey dilbəri-ziba"*)

(səh.228)

Müxəmməs 1857-ci ildə qoşulmuşdur. O, Ağa Məsih Şirvaninin

Ey şövqi-ruxin gün kimi əşyayə mücəlla,
Üşşaqə təmaşayi-cəmalın fərəhəfza –

Beyti ilə başlanan müxəmməsinə nəzirədir. Burada yeri gəlmişkən xatırladaq ki, M.F.Axundzadə Ağa Məsih Şirvanini Vaqif, Zakir kimi yüksək istedadlı Azərbaycan şairlərindən biri saymışdır (Bax: M.F.Axundzadə. Əsərləri, II cild. – Bakı, 1961, s.203).

### CƏFƏRQULU XANA
### (*"Səlam olsun məndən sərkar xana"*)
### (səh.228-229)

Bu mənzum məktubu M.F.Axundzadə 1859-cu ildə Şuşada olarkən, Qarabağın adlı-sanlı əyanlarından və dövlət nümayəndələrindən biri olan Cəfərqulu xana yazmışdır. O, Qarabağ xanlığının əsasını qoymuş Pənah xanın nəvəsi, İbrahim xanın qardaşı oğludur. Böyük malikanəsi, dövləti, kəndləri olan Cəfərqulu xan Qarabağda çar xidmətində olmuş və ona general rütbəsi verilmişdir. Q.Zakir və B. Şakir bir sıra şeirlərində onu özbaşınalığı, qanunsuz, ədalətsiz hərəkətlərə yol verməsi üstündə kəskin satira atəşinə tutmuşdular. Cəfərqulu xan "Nəva", "Arif" təxəllüsləri ilə şeir yazmışdır.

Mirzə Fətəli xalq şeri üslubunda yazdığı bu mənzum məktubunu hazırda Azərbaycan EA Əlyazmalar İnstitutunda hifz olunan komediyaları toplusunun əlyazma nüsxələrinin birinin sonuna əlavə etmişdir. Burada o, şerin əvvəlində fars dilində belə bir qeyd vermişdir: "1859-cu ilin yanvarın əvvəlində Şuşa qalasında Mirzə Fətəlinin sərkar Cəfərqulu xana yazdığı şeir". Şerin sonunda isə Cəfərqulu xanın M.F.Axundzadəyə yazdığı mənzum məktubu verilmişdir.

[1] Şuşa şəhəri nəzərdə tutulur.

[2] Yeni əlifba nəzərdə tutulur. Şeirdən belə məlum ki, Axundzadə bir qrup Şuşa ruhanilərini tərtib etdiyi yeni əlifba ilə tanış edib, onlardan öz təşəbbüsünü həyata keçirmək üçün kömək istəmişdir. Lakin fanatik Şuşa ruhaniləri onun islahatını kəskin tənqidlə qarşılamışdılar.

### CƏFƏRQULU XANA
### (*"Hacı Qulu səndən, ey taci-sərim"*)
### (səh.229-230)

M.F.Axundzadə şəxsi kitabxanasında olan "Zakir" divanının 287-289-cu səhifələrindəki avtoqrafında Cəfərqulu xana göndərilmiş bu mənzum məktubun yazılma tarixini 1860-cı il kimi göstərmişdir. Şeir ilk

dəfə Axundzadənin yaxın dostu olan görkəmli rus şərqşünası Adolf Berjenin 1868-ci ildə Almaniyanın Leypsiq şəhərində nəşr etdirdiyi "Azərbaycan şairlərinin şeirləri məcmuəsi"ndə dərc olunmuşdur.

[1] *Qruzenştern A.F.* – Şerin yazıldığı illərdə Qafqaz canişinliyi baş idarəsinin rəisi olmuşdur.

## CƏFƏRQULU XANA MƏKTUB
(*"Səbəb nədir kim, yazdığım kağıza"*)
(səh.231-232)

Şerin əlyazmasında onun nə vaxt yazılması barədə qeyd verilməmişdir. Çox güman ki, Cəfərqulu xana göndərilmiş bu məktub da 50-ci illərin sonu və 60-cı illərin əvvəllərində yazılmışdır.

## ÇEŞMƏ KİTABƏSİ
(səh.232)

Bu şerin Azərbaycan EA Əlyazmalar İnstitutunda M.F.Axundzadənin arxivində bir neçə əlyazma nüsxələri vardır. Bu nüsxələrdən birinin əvvəlində müəllif bu sözləri yazmışdır: "1280-ci il məhərrəmdə, rus vaporunda Batum qaimməqamı Osman Şövqi Əfəndiyə". Bu qeyddən dürüst məlum olur ki, Mirzə Fətəli 1863-cü ildə tərtib etdiyi, yeni əlifba layihəsini Türkiyədə müzakirə etdirməyə gedərkən, Batuminin qaimməqamı (polkovnik, şəhərin rəisi) Şövqi Əfəndinin evində qonaq qalmış və bu şerini ona ithafən yazmışdır.

## SƏİDƏ XİTAB
(səh.232)

M.F.Axundzadə bu şerini də 1863-cü ildə Batumidə olarkən yazmışdır. Şeir Batumi şəhərinin rəisi Osman Şövqi Əfəndinin oğlu Müti bəyə nəsihətdən ibarətdir. Sonralar müəllif Müti bəy sözünü Səidlə əvəz etmiş və ona sonuncu beyti artırmışdır.

## FUAD PAŞANIN MƏDHİNDƏ
(səh.233)

M.F.Axundzadə yeni əlifba layihəsini müzakirə etdirmək məqsədilə, 1863-cü ildə İstambulda olarkən, bu şeri yazmışdır. O, şerini bu illərdə Türkiyənin baş naziri olan Fuad paşaya ithaf etmiş və onu tərif edərək, əlifba layihəsini həyata keçirmək üçün kömək istəmişdir.

## YENİ ƏLİFBA HAQQINDA

(səh.233-237)

Şeir fars dilində, klassik Şərq şeri üslubunda yazılmışdır. Onun əvvəlində Mirzə Fətəli özü belə bir qeyd vermişdir: "Mənzumeist ki, Kolenel Mirzə Fətəli Axundzadə moterceme-caneşine-Qafqaz də vəsfe-hale-xod qofteəst dər sənaye – 1284" (Tərcüməsi: "Qafqaz canişinin mütərcimi Kolonel Mirzə Fətəli Axundzadənin 1284-cü ildə öz vəsfi-halına dair dediyi mənzumədir"). Bu miladi tarixilə 1867-ci ilə düşür. Axundzadə əsərinin bir yerində yazır ki, o, on ildir yeni əlifba uğrunda fəal mübarizə aparır. Məlumdur ki, əlifba islahatı üzrə fəaliyyətə Axundzadə 1857-ci ildə başlamışdır. Bu, bir daha göstərir ki, şeir 1867-ci ildə yazılmışdır. Burada şerin sətri tərcüməsi verilir.

İran şahı Nasirəddin şaha müraciətlə yazılmış bu mənzum məktubunda M.F.Axundzadə əlifba islahatı ilə əlaqədar olaraq apardığı mübarizəsini və əzab-əziyyətlərini təsvir etmişdir. Görkəmli ədəbiyyatşünas Firidunbəy Köçərli, onun bu şerindən bəhs edərkən göstərmişdir ki, "Mirzə Fətəlinin bu mənzum şivənü naləsi, Firdovsi əleyhirrəhmənin Sultan Mahmud Qəznəvi haqqında yazdığı həcvə bənzəyir. Hər iki kəlamın mənbəi bidadlıq və ədalətsizlikdən nəşət edən nalələrdir. Axundzadə ustadi-kamil məqamında olan Firdovsiyi-şirinkəlama peyrəvilik etməkdə, artıq dərəcədə məharət büruz etmişdir. İranzəmin vəzirlərinə elə bir qara ləkə və həcv sikkəsi vurubdur ki, qiyamətədək baqi qalacaqdır, yumaq və qazımaq ilə getməyəcəkdir." (Bax: Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. – Bakı, 1978, I c., s.433-434).

[1] 1863-cü ildə M.F.Axundzadə Türkiyəyə gedib, yeni əliyba layihəsini İstambulda, Cəmiyyəti-Elmiyeyi-Osmaniyyədə müzakirə etdirir. Akademiya, eləcə də Türkiyənin bəzi ali dövlət nümayəndələri Axundzadənin əlifba islahatını sözdə bəyənir və onu Türkiyənin yüksək ordeni ilə təltif edirlər. Lakin əlifbanı həyata keçirmək üçün heç bir əməli iş görülmür və Mirzə Fətəli Türkiydən çox peşman qayıdır. Şeirdə buna işarə olunur.

[2] M.F.Axundzadə yeni əlifba layihəsini Türkiyədə müzakirə etdirdiyi vaxtda hamıdan çox ona İranın Türkiyədəki səfiri Mirzə Hüseyn xan mane olur. Mirzə Hüseyn xan əvvəllər İranın Tiflisdə konsulu vəzifəsində çalışmış və Mirzə Fətəli ilə yaxından dostluq etmişdi. M.F.Axundzadənin məktublarından öyrənirik ki, İstambulda olarkən o, əlli gün Hüseyn xanın qonağı olmuş, lakin İran səfirinin bəd əməllərinə görə onun evini

tərk etmiş və onunla əlaqəni kəsmişdi. "Yeni əlifba haqqında" şerinin yazıldığı ildə isə, Hüseyn xan İranda nazir vəzifəsini ifa edirdi. Axundzadə əsərində Hüseyn xanın bədxahlığını xatırlayır və onu iqtisadi-mədəni tərəqqi ideyalarından bixəbər olan bir dövlət nümayəndəsi kimi kəskin tənqid atəşinə tuturdu.

[3] Burada İranın hökmdarı Nasirəddin şah nəzərdə tutulur. O, İranın mürtəce, fanatik şahlarından biri olmuşdur. Nasirəddin şahın hakimiyyəti illərində İran dövlətinin idarəsi, İran xalqının taleyi nadan, xudbin, hər cür tərəqqi meyllərinə qatı düşmən munasibəti bəsləyən fanatik şəxslərə tapşırılmış, İranın mütərəqqi ziyalıları, dövlət xadimləri, maarifçi-demokratik və milli-azadlıq hərəkatının nümayəndələri amansız təqib olunmuşdur. 60-cı illərdə maarifçi hakim ideyalarına dərin inam bəsləyən Axundzadə, şerində Nasirəddin şaha müraciət edərək, onu axmaq vəzirləri, hakimləri qovub, onların yerini İran dövləti və xalqının tərəqqisi haqqında düşünən ağıllı, bacarıqlı, namuslu adamlara tapşırmağa və İranı dərin iqtisadi-siyasi böhrandan xilas etmək üçün, geniş islahatlar keçirməyə çağırırdı.

[4] M.F.Axundzadə burada mütərəqqi İran dövlət xadimi, 1848-1852-ci illərdə İranın baş vəziri olan Mirzə Tağı xan Əmir Nizamı (1805-1852) xatırlayırdı. O, İran dövlətini dərin böhrandan xilas etmək məqsədilə ölkənin iqtisadi-siyasi və mədəni həyatında bir sıra islahatlar keçirməyə başlamışdı. Lakin, bir tərəfdən, İranın mürtəce hakim dini-feodal qüvvələrinin, ikinci tərəfdən isə, xarici ölkələrin təzyiqi nəticəsində, Mirzə Tağı xan baş nazir vəzifəsindən uzaqlaşdırılır, sürgün edilir və nəhayət, öldürülür.

[5] *Boris Fyodoroviç Qodunov* (*1551-1605*) Rusiyanın görkəmli dövlət xadimlərindəndir. O, bacısının əri çar Fyodor İvanoviç dövründə on ildən artıq, faktiki olaraq Rusiya hökumətinin başçısı olmuşdur. Boris Qodunov çara tabe olmaq istəməyən feodal knyazlarına qarşı sərt, ağır mübarizə apararaq, Rusiyada qüvvətli mərkəzləşmiş bir dövlət yaratmaq sahəsində böyük iş görmüşdür. 1598-ci ildən Rusiyanın çarı olmuşdur. Axundzadə əsərində Boris Qodunovun Rusiyada mərkəzləşdirilmiş dövlət yaratmaq sahəsində apardığı mübarizəyə və çəkdiyi əzab-əziyyətlərə işarə edir, onun taleyi ilə Mirzə Tağının taleyi arasında bir yaxınlıq görürdü.

[6] *Keyqubad* – İranın əfsanəvi şahlarındandır.

[7] II Aleksandr 1855-1881-ci illərdə Rusiyanın imperatoru olmuşdur. Rusiyanın Krım müharibəsində birləşmiş türk, ingilis və fransız qoşunları tərəfindən məğlubiyyətə uğradığı bir dövrdə, hakimiyyətə gəlmişdi. Bu məğlubiyyət çar mütləqiyyət üsuli-idarəsinin çürüklüyünü, zəifliyini açıq nümayiş etdirir, ölkədə böyük narazılıq hissi doğurur. Müharibə nəticə-

sində, xüsusən kəndlilərin vəziyyəti çox ağırlaşır, imperiyanın hər bir yerində mütləqiyyət üsuli-idarəsinə, təhkimçiliyə qarşı kəndli üsyanları baş qaldırır. Rusiyada inqilabi situasiya yaranır. Çar II Aleksandr öz dünyagörüşü baxımından mütləqiyyət quruluşunun qızğın tərəfdarı olsa da o, kəndli üsyanlarının qarşısını almaq məqsədilə 1861-ci ilin 19 fevralında, ölkədə islahat keçirir və təhkimçilik hüquqlarını ləğv etdirir. Bu islahat nəticəsində mülkədarlar təhkimçi kəndlilərin torpaqlarının böyük hissəsini ələ keçirib, onların vəziyyətini daha da ağırlaşdırmışdılar. Kəndli islahatı Rusiyada kapitalizmin inkişafına ciddi təkan verdi.

Rus liberal tarixçiləri və publisistləri II Aleksandrın islahatlarını həddindən artıq tərifləmiş, şişitrmişdilər. M.F.Axundzadə də bu tarixçi və publisistlərin təsiri altında öz şerində II Aleksandrın islahatlarını təqdir edirdi.

[8] *Palmertson Henri Con Templ* (*1784-1865*) – İngiltərənin dövlət xadimlərindəndir. 1807-ci ildən ümumi palatanın üzvü seçilmişdir. Palmertson uzun müddət ərzində İngiltərədə xarici işlər naziri, daxili işlər naziri və baş naziri (1855-1858 və 1859-1865-ci illərdə) olmuşdur. İngilis burjua sinfinin mənafeyinin qızğın müdafiəçisi olan Palmertson, İngiltərədə burjua üsuli-idarəsinin möhkəmlənməsi, qatı müstəmləkəçilik siyasətinin geniş vüsət tapması və ingilis kapitalının xarici ölkələrə nüfuzunun qüvvətlənməsi sahəsində mühüm rol oynamışdır. Çox hiyləgər dövlət xadimi olan Palmertson, ingilis burjuaziyasının təcavüzkarlıq siyasətini liberal sözlərlə pərdələyirdi. K.Marks Palmertsonun ictimai-siyasi fəaliyyətinin əsl mahiyyətini açıb göstərmiş, onun hiyləgərliyini, ikiüzlülüyünü kəskin tənqid atəşinə tutmuşdur.

M.F.Axundzadə Palmertsonun ingilis burjua dövlətinin möhkəmlənməsi sahəsində rolundan bəhs edərkən, aludəçiliyə yol vermiş, onun siyasətinin həqiqi mahiyyətini düzgün təyin edə bilməmişdi.

[9] *I Vilhelm* (*1797-1888*) – 1861-1888-ci illərdə Prussiyanın kralı və 1871-1888-ci illərdə isə Almaniyanın imperatoru olmuşdur. Alman burjua tarixi ədəbiyyatı, onun Almaniyada mərkəzləşdirilmiş dövlət yaratmaq sahəsindəki rolunu olduqca şişirtmiş və onu "Böyük Vilhelm" adlandırmışlar. Faktiki olaraq isə I Vilhelmin dövründə Prussiyanı, sonra isə Alman imperiyasını Bismark idarə edirdi. M.F.Axundzadə şerində I Vilhelmin, eləcə də Bismarkın Almaniyada vahid mərkəzləşdirilmiş dövlət yaratmaq sahəsindəki fəaliyyətini təqdir edirdi.

[10] *Bismark, Otto fon Şyonhauzen* (*1815-1898*) – Prussiya və Almaniyanın görkəmli dövlət xadimlərindən, yunker-burjuaziya alman imperi-

yasının banilərindən biridir. F.Engels onu “Böyük praktiki ağla və qeyri-adi çevik xarakterə malik olan” bir dövlət xadimi kimi səciyyələndirmişdir. 60-cı illərdə Almaniyanın əvvəl nazir-prezidenti və sonra xarici işlər naziri olan Bismark, Almaniyada qüvvətli ordu təşkil etmiş və əsasən müxtəilif hiyləgər, çevik diplomatik tədbirlərlə vahid, mərkəzləşmiş alman dövləti yaradılması sahəsində böyük iş görmüşdür. V.İ.Lenin Bismarkın fəaliyyətinə qiymət verərkən göstərmişdi ki, “Almaniyanın birləşdirilməsi zəruri idi... Almaniyanı inqilabi yolla birləşdirmək mümkün olmadıqda, Bismark bunu əksinqilabi yolla yunker üsulu ilə etdi”.

M.F.Axundzadə də şerində, yuxarıda dediyimiz kimi, məhz Bismarkın, eləcə də Alman imperatoru I Vilhelmin Almaniyada qüvvətli vahid bir dövlət yaratmaq sahəsindəki rolunu təqdir edirdi.

[11] *Cüzeppe Haribaldi* (*1802-1882*) – İtaliyanın xalq qəhrəmanı. İtaliya inqilabi-demokratik və milli-azadlıq hərəkatının ən görkəmli nümayəndələrindən biri olmuşdur. Haribaldi uzun illər ərzində İtaliyanın xarici istila və zülmdən azad olması, parçalanmış dini-feodal İtaliya dövlətlərinin vahid bir dövlət ətrafında birləşdirilməsi uğrunda mübarizə aparmışdır. O, feodal-mütləqiyyət üsuli-idarəsi və dini katolik irtica əleyhinə çıxmış, zəhmətkeş xalq kütlələrinin mənafeyini müdafiə etmişdir.Hərbi səfərlər və döyüşlər zamanı Haribaldinin arvadı həmişə əri ilə olmuş, bilavasitə döyüşlərdə iştirak etmişdi. Axundzadə də əsərində Haribaldinin İtaliyanı yadelli istila və zülmdən xilas etmək və ölkədə qüvvətli mərkəzləşdirilmiş dövlət yaratmaq uğrunda apardığı mübarizəsini tərənnüm edirdi.

[12] *Avraam Linkoln* (*1809-1865*) – Amerikanın görkəmli dövlət xadimi, 1861-1865-ci illərdə ABŞ-ın prezidenti olmuşdur. O, 1854-cü ildə Amerikada respublikaçılar partiyasının yaradılmasında fəal rol oynamış, onun liderlərindən biri olmuş və bu partiyanın nümayəndəsi kimi 1860-cı ildə Amerikanın prezidenti seçilmişdir.

A.Linkoln Amerikada quldarlığa qarşı çıxmış, zəncilərin azad edilməsinin tərəfdarı olmuş, Amerika burjuaziyası və fermerlərinin mənafeyini qızğın müdafiə etmişdir. Prezident seçilən kimi Amerikanın qatı quldarlıq sistemi hökm sürən cənub ştatlarında üsyan baş vermiş, ölkənin şimal əyalətləri ilə cənub əyalətləri arasında vətəndaş müharibəsi başlanmışdı. Bir neçə il davam edən bu müharibədə burjua şimal əyalətləri qəti qələbə çalır və Amerikada quldarlıq sistemi ləğv edilir. 1865-ci ilin 9 aprelində Linkoln cənub plantatorlarının və Nyu-York bankirlərinin agenti tərəfindən ağır yaralanır. Prezidentin vəfatı Amerika xalqı tərəfindən böyük itki kimi qarşılanır. Linkoln Amerikanın tarixində mütərəqqi

rol oynamış dövlət xadimlərindəndir. M.F.Axundzadə də Linkolnun Amerika tarixində rolunu yüksək qiymətləndirir. Nasirəddin şahı ondan ibrət almağa çağırır.

[13] *Adolf Tyer* (*1797-1877*) – Fransanın dövlət xadimi və tarixçisidir. Napoleonun məğlubiyyətindən sonra o, Fransada bərpa edilmiş feodal-mütləqiyyət üsuli-idarəsinə qarşı müxalifətdə olan burjua partiyasına qoşulmuş, bu partiyanın qızğın təbliğatçısı və ideoloqlarından biri olmuşdur. 1830-cu ilin iyul ayında Fransada burjua inqilabı qələbə çaldıqdan və ölkədə burjua monarxiyası qurulduqdan sonra müxtəlif nazir vəzifələrində çalışan Tyer, respublikaçılara qarşı çıxmış və 1834-cü ildə Parisdə və Lionda baş qaldırmış respublika üsyanlarının yatırılmasında fəal iştirak etmişdir. 60-cı illərdə Tyer İkinci imperiya və imperator Lui Napoleona qarşı çıxmış və mötədil liberal burjua partiyasına qoşulmuşdur. İkinci imperiya yıxıldıqdan sonra isə, o, irticaçı burjua partiyasının başçısı olmuş və 1871-ci il Paris Kommunasının yıxılmasında, kommunarlara divan tutulmasında və ölkədə irticaçı burjua hakimiyyətinin bərpa olunmasında fəal iştirak etmişdir.

Feodal-mütləqiyyət üsuli-idarəsinə kəskin tənqidi münasibət bəsləyən M.F.Axundzadə öz şerində Tyerin Fransada feodal-mütləqiyyət üsuli-idarəsinin devrilməsi və burjua hakimiyyətinin qurulması sahəsindəki çoxillik qızğın fəaliyyətini təqdir edirdi.

## HƏCVİ-ƏBDÜRRƏSUL XAN
(səh.237-238)

Bu həcvi M.F.Axundzadə 1868-ci ildə İranın Tiflisdə konsulu olan Əli xana göndərdiyi məktubuna əlavə olaraq yazmışdı, Şerində o, İranın Fransada konsulu olan Əbdürrəsul xanın yolüstü Tiflisdə olarkən, günlərini eyş-işrətlə keçirməsini, xanın ali dövlət qulluğuna heç bir ləyaqəti olmamasını ifşa etmişdir. Mirzə Fətəli dostu və məsləkdaşı Mirzə Yusif xana 1869-cu ilin avqustunda yazdığı məktubunda şerin yazılması səbəbini belə izah etmişdir.

“Yazılası təzə bir əhvalat yox idi. Ancaq bunu bildirirəm ki, 2-3 ay bundan əvvəl, Tehrandan Tiflisə Əbdürrəsul xan adlı bir kişi gəlmişdi. O vaxtlar da mən əlifba haqqında Tehrana bəzi yazılar göndərmişdim. Buna görə də onun gəldiyini eşidən kimi görüşünə getdim. İran konsulu Əli xanın evində mənzil etmişdi. Hər tərəfdən söhbət düşdü. Nəhayət, söz mənim əlifba haqqında Tehrana yazıb göndərmiş olduğum məsələlərə

gəlib çatdı. Həmin şəxs çox israrla məndən xahiş etdi ki, həmin yazıların surətini sabahısı gecə gətirib, onun üçün oxuyam. Mən onun xahişini qəbul etdim və sabahısı axşam yazıları gətirdim və ona oxumağa başladım. Lakin həmin şəxs fövrən, qabağına bir şüşə araq qoyub, noğul-məzə də gətirtdirib, dalbadal araq içməklə məşğul oldu. Belə ki, bir-iki dəqiqə ərzində ağlı başından getdi. Mən qəlbən çox incidim, lakin incikliyimi üzə vurmadım və o qədər dözdüm ki, konsulun nökərlərindən biri otağa daxil olub dedi ki: "Əbdürrəsul xanı bir nəfər o biri otaqda çağırır".

Əbdürrəsul xan bu xəbəri eşidən kimi dərhal dik atılıb, getdi. Mən bildim ki, onun üçün fahişə gətirmişlər. Halbuki, konsulxana ədalət məhkəməsidir və bir növ müqəddəs yer sayılır. Ona görə də belə bir yerə hər gedib-gələn üçün fahişə gətirmək mənim fikrimcə, əcnəbi xalqlar gözündə çox çirkin əməllərdən sayılır.

Hər halda, mən yazıları oxumağı dayandırıb, əsəbi halda oturdum. Bir qədər sonra Əbdürrəsul xan pərişan və şaşqın halda qayıdıb dedi: "Filankəs, yazılarını oxu, qurtar!".

Mən dedim: "Mən yazılarımı ancaq elə bir adama oxuyaram ki, başında ağlı ola, qəlbində aramı. Sizin isə indi içdiyiniz arağın təsirindən nə başınızda ağıl var, nə də fahişənin gəlməsi münasibətilə qəlbinizdə aram".

Konsul Əli xan dedi: "Filankəs, haqlısınız! Yazıları oxumaq başqa bir asudəçilik vaxta qalsın. Əbdürrəsul xana icazə verin, aycamallı gürcü qızının yanına getsin!"

Mən dedim: "Buyursun!.."

Əbdürrəsul xan dərhal qalxıb, tərsa qızının yanına getdi. Bir neçə dəqiqədən sonra onların olduğu otaqdan qalmaqal səsi eşidildi. Məlum oldu ki, "şəni yüksək olan" xan qızın üstünə qusmuş və onun paltarını bulamışdır. Qız şikayətə başlamış və min cür böyük və nəlayiq sözlərlə onun yanından qaçmışdır. Xanın isə nə özündən xəbəri var, nə də qızdan. Sərxoş və ağlı itmiş halda ölü kimi otağın fərşinə düşüb qalmışdı. Elə ki, mən bu əhvalatı gözümlə gördüm və evə qayıtdım; həmin gecə bu beytləri Əbdürrəsul xanın vəsfində yazdım." (Bax: M.F.Axundzadə Əsərləri. – Bakı, 1962, III c., s.177-178).

Burada şerin farscadan sətri tərcüməsi verilir.

[1] Əliağa bu illərdə İranda yaşamış real bir şəxsiyyətdir. M.F.Axundzadə Mirzə Yusif xana yazdığı həmin məktubunda, onun haqqında belə bir məlumat vermişdi: "Xələc alayının komandiri sərhəng Mahmudağanın qardaşı Kirman alayının komandiri sərhəng Əliağa da Tehranda bu adamı türkcə həcvə qoymuşdur. Ona görə də, bəzi misralarda Əliağaya xitab

olunur. Onun həcvindəki bəzi misraların məzmunu münasibətilə bu misralar göstərilən şərh ilə Təbrizdə və Tehranda əldən-ələ gəzəcəkdir...” (III c., s.178)

## MOLLA ƏLİ

(səh.238-240)

Bu həcvin yazılma tarixi məlum deyildir. Çox güman ki, Molla Əli simasında ruhanilərin ikiüzlülüyünü, riyakarlığını tənqid atəşinə tutan bu şerini, Mirzə Fətəli keçən əsrin 60-cı illərinin sonunda yazmışdır.

“Yenə insü can arasında bu nə qarışıqlıqdır”.

(səh.239)

Fars dilində olan bu şerin yazılma tarixi haqqında əldə heç bir məlumat yoxdur. Şerin məzmunundan belə bir nəticəyə gəlmək olar ki, o da keçən əsrin 60-cı illərində yazılıb. Burada şerin sətri tərcüməsi verilir.

“Onların təqlidi elmi bərbad etdi”.

(səh.239)

Mirzə Fətəlinin bu şeri də fars dilində yazılmışdır. Onun yazılma tarixi dürüst məlum deyildir. Lakin şeri diqqətlə oxuduqda, aydın hiss olunur ki, o da keçən əsrin 60-cı illərinin sonunda qələmə alınıb. Burada şerin sətri tərcüməsi verilir.

“Mən ad və şöhrət axtararaq”.

(səh.240)

Fars dilində olan bu şerin dəqiq yazılma tarixi məlum deyil. Lakin onun məzmunundan belə güman etmək olar ki, 60-cı illərin sonunda yazılıb.

## ŞAHMAT OYUNU HAQQINDA

(səh.240-241)

Fars dilində yazdığı bu şerini M.F.Axundzadə öz kitabxanasında saxladığı “Qamusi-Firuzabadi” adlı kitabının əvvəlinə öz əli ilə köçürmüşdür. Çox güman ki, Mirzə Fətəli bu şeri 1864-cü ildə Qocur yaylağında yazıb.

## VANDA
(səh.241-242)

Şerin Azərbaycan EA Əlyazmalar İnstitutunda hifz olunan əlyazma nüsxəsində onun yazılma tarixi haqqında fars dilində belə bir qeyd verilmişdir: "Bu qəsidəni polkovnik Mirzə Fətəli Axundzadə, öz dostu general Berjenin zahişi ilə, 1876-cı ildə Vanda adlı polşalı bir qızın tərifinə həsr etmişdir". Fars dilində yazılmış bu şeirdə Tiflisə konsert verməyə gəlmiş gənc pianoçu polyak qızının gözəlliyi və sənətkarlığı tərənnüm olunmuşdur. Burada şerin Azərbaycan dilində tərcüməsi verilir. Tərcümə edəni Osman Sarıvəllidir.

## HEKAYƏTİ-SEYYİD ƏLƏM SƏLYANİ
(səh.242-245)

M.F.Axundzadə 1876-cı ilin yayında Qocur yaylağında olan bağında istirahət edərkən, dahi Şərq şairi Cəlaləddin Ruminin "Məsnəvi"sini oxumuş və özünün məşhur "Mollayi-Rumi və onun təsnifi babında" adlı tənqidi məqaləsini, eyni zamanda, onun təsiri altında bir neçə şeir yazmışdır. Ədib məqaləsini və şeirlərini həmin ilin iyul ayının 8-də kiçik bir məktubla Şeyxülislama göndərmişdi. Məktubda Axundzadə şeirlərin yazılma səbəbini bu cür izah etmişdi: "Mollayi-Rumini sizə müşahidətən məruf etmək üçün, mən dəxi üç məsəl türki dilində nəzmə gətirib, göndərdim; əmma onun kimi məğzi-mətləbi gizlədə bilmədim. Vaqiən Mollayi-Rumi məğzi-mətləbi gizləməkdə ustadi-kamil və hərifi-bimisldir.

Məsəllərin bəhri məsnəvi bəhrindən bir əlif əksikdir, çünki kamil məsnəvi bəhri türk dilinə mütəarif deyil..."

Oxuculara təqdim olunan "Hekayəti-Seyyid Ələm Səlyani" həmin üç şeirdən biridir.

## QƏZƏL
("*Ey zahidi-bizövq o məscid ki, sənin var...*")
(səh.245)

Görkəmli ədəbiyyatşünas Əjdər Ələsgərzadə 1938-ci ildə, Azərbaycan EA Əlyazmaları İnstitutunda M.F.Axundzadənin şəxsi arxivində tədqiqat işi aparınarkən, burada hifz olunan "Burhani-qate" lüğətinin cildlərinin iç üzündə onun öz dəsti-xətti ilə Azərbaycan dilində yazılmış iki

qəzəlinə təsadüf etmiş və onları həmin ildə “Революция и культура” jurnalında (1938, №6-7, səh.150) dərc etdirmişdir. Araşdırmalar sayəsində Əjdər Ələsgərzadə belə güman etmişdir ki, Mirzə Fətəlinin bu qəzəlləri böyük Azərbaycan şairi Seyid Əzim Şirvaninin:

Əl çatsa fəda canımı cananə edərdim,
Şəmi-rüxünə könlümü pərvanə edərdim.

Beyti ilə başlanan qəzəlinə nəzirədir.

Filoloji elmlər doktoru Sadıq Hüseynov Seyid Əzimə həsr olunmuş tədqiqat əsərində M.F.Axundzadə və S.Ə.Şirvani arasında əlaqələr məsələsindən bəhs edərək, bu qəzəllər üzərində müfəssəl dayanmış və belə bir fikir söyləmişdir ki, Mirzə Fətəlinin qəzəllərindən biri nəzirə yox, Seyid Əzimin təsiri altında yazılmış orijinal bir şeirdir (Bax: Sadıq Hüseynov. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu. – Bakı, 1977, s.110-111). Mirzə Fətəlinin qəzəlini Seyid Əzimin qəzəli ilə müqayisə etdikdə, aydın görünür ki, Sadıq Hüseynovun fikrini həqiqət kimi qəbul etmək olar.

M.F.Axundzadənin bu qəzəli onun külliyatında ilk dəfə nəşr olunur.

## MÜNDƏRİCAT

*Mirzə Fətəli Axundzadənin həyatı və bədii yaradıcılığı* . . . . . . . . . . .4

### Komediyalar

Hekayəti-molla İbrahimxəlil kimyagər . . . . . . . . . . . . . . . . . . . . . . . .31
Hekayəti-müsyö Jordan həkimi-nəbatat və
Dərviş Məstəli şah caduküni-məşhur . . . . . . . . . . . . . . . . . . . . .45
Hekayəti-xırsi-quldurbasan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .69
Sərgüzəşti-vəziri-xani-Lənkəran . . . . . . . . . . . . . . . . . . . . . . . . . .98
Sərgüzəşti-mərdi-xəsis (Hacı Qara) . . . . . . . . . . . . . . . . . . . . . . .121
Mürafiə vəkillərinin hekayəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .158

### Povest

Aldanmış kəvakib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .189

### Şeirlər

Zəmanədən şikayət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .215
A.S.Puşkinin ölümünə Şərq poeması . . . . . . . . . . . . . . . . . . . . . .216
Təcnis . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .219
Təcnisi-digər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .219
Mədhiyyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .220
Mirzə Fətəlinin şanlı vəliəhd əlahəzrətin
tərifinə yazdığı qasidə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .222
Zakirə məktub . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .223
Zakirə məktub . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .225
Tərifnamə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .226
Müxəmməs . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .228
Cəfərqulu xana . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .228
Cəfərqulu xana . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .229

Cəfərqulu xana məktub . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .231
Çeşmə kitabəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .232
Səidə xitab . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .232
Fuad paşanın mədhində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .233
Yeni əlifba haqqında mənzumə . . . . . . . . . . . . . . . . . . . . . . . .233
Həcvi-Əbdürrəsul xan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .237
Molla Əli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .238
Şahmat oyunu haqqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .240
Vanda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .241
Hekayəti-Seyyid Ələm Səlyani . . . . . . . . . . . . . . . . . . . . . . . .242
"Ey zahidi-bizövq o məscid ki, sənin var" . . . . . . . . . . . . . . . . . .245

*İzahlar* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .246

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Rəvan Mürsəlov* |
| Korrektor: | *Elmira Teymurova* |

Yığılmağa verilmişdir 30.09.2004. Çapa imzalanmışdır 29.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 18,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 64.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.